
İSGƏNDƏR SƏKLİKOV
Xalq
Pedaqoğikasından
bir damla

İSGƏNDƏR SƏKLİKOV

XALQ PEDAQOGİKASINDAN BİR DAMLA

BAKI — 2011

Elmi redaktor: Əjdər Ağayev
pedaqoji elmlər doktoru, professor, Əməkdar müəllim

Rəyçi: Məftun Ələsgərov,
biologiya elmləri üzrə fəlsəfə doktoru

İsgəndər Səklikovun bu kitabı Qədim Azərbaycan və Qədim Şərq üslubunda yazılmışdır. Müəllif qədim aforizm, zərbi-məsəl və rəvayətlərdən istifadə etməklə öyrədən və öyrənən arasında qarşılıqlı hörmət, qayğı və tələbkarlıq məsələlərinə toxunmuş, böyüməkdə olan gənc nəslin tərbiyəsi zamanı min illərin sınaqlarından çıxmış xalq pedaqogikası ənənələrindən istifadə olunmasının vacibliyini yada salmağa çalışmışdır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulsa, da ondan uşaqların və şagirdlərin tərbiyəsi ilə məşğul olan hər bir şəxs, o cümlədən, valideynlər, müəllimlər, ustalar, tərbiyəçilər, tələbələr, şagirdlər və başqaları da istifadə edə bilərlər.

İ.F.Səklikov "Xalq pedaqogikasından bir daamla" 256 səhifə.
"İamayıl" NPM. Bakı. 2010

ISBN 978 – 9952 – 8008 – 9 – 0

İ $\frac{4303000000}{125}$ 2010

ÖN SÖZ

İsgəndər Səklikovun "Xalq təbabətindən bir damla" kitabını maraqla oxudum. Kitabın sadə, oxunaqlı dildə, xalq yaradıcılığı üslubunda yazılışı mənə çox xoş gəldi. Nədənsə, qəlbimdə qəribə bir hiss baş qaldırdı: İsgəndər müəllim xalq təbabətinə aid yazdığı bu kitabında da öz pedaqoqluq ənənələrinə sadiq qalmışdır.

Elə bu arada *"ASSA produktion"* nəşriyyatı tərəfindən onun "Xalq pedaqogikasından bir damla" adlı kitabına ön söz yazmaq barədə təklif aldım. Müəllif bir cümlə ilə kitabı nənəsi Pəri xanım Məmmədqasım qızının əziz xatirəsinə ithaf etdiyini bildirir. Təsadüfi deyildir ki, kitabda olan fəsillərdən biri də "Nənə dilində ata dili dərsi" adlanır. Müəllif həmin mövzunu belə bir cümlə ilə tamamlayır: "Nədənsə, mənə elə gəlir ki, atalar sözlərini çox zaman nənələr yaradırlar".

Ümumiyyətlə, kitab bir-birindən maraqlı və orijinal, yığcam və əhatəli mövzulardan təşkil olunmuşdur. Hər bir mövzuda da öz növbəsində tarix boyu cəmiyyətin problemlərinə çevrilmiş məsələlərin həlli ön plana çəkilir. Bu zaman Azərbaycanın və Şərqin pedaqoji ənənələrinə istinad edilir. Hər bir mövzuda müəllim-şagird, ustad-şəyird, öyrədən-öyrənən münasibətləri leytmotiv kimi ana xətti təşkil edir. Həmin münasibətlərin diqqət mərkəzinə çəkilməsi və həlli yollarının tarix sınaqlarından çıxmış üsulları aforizmlərin, xalq deyimlərinin, zərb-məsəllərin rəvayətlərin, haşiyələrin fonunda təsvir edilir.

Müəllif qədim Azərbaycan, Şərq və Dünya müdriklərinin kəlamları ilə bəzəməklə kitaba hikmət libası bürüməyə nail olmuşdur. Çox zaman o özünün də hikmətli cümlələri ilə hər bir mövzuda keçmiş, bu gün və gələcək arasında incə körpülər yaratmağa çalışır və buna nail olur.

Kitab 33 mövzudan, “Ön söz”dən, “Giriş”dən və “Son söz”dən ibarətdir. Lakin İsgəndər Səklikov hər bir mövzunun ayrıca bitkin və yetkin əsər kimi təqdim edilməsinə müvəffəq olmuşdur. Belə ki, hər bir mövzu “Epiqraf ”, “Epiloq”, “Son” və ““Son”dan sonra” mərhələləri ilə təqdim edilir. Bu mərhələlərin hər biri də ümumi mövzu ilə həmahənglik təşkil etməklə yanaşı ayrıca əsər dəyərinə, çəkisinə və tutumuna malikdir.

Müəllif təvazökarlıqla kitabını “Xalq pedaqogikasından bir damla” adlandırsa da özünün mövzu genişliyi və məna tutumu ilə zəngin bir elmi əsər yaratmağa nail olmuşdur. Əsərdə insan cəmiyyətinin bütün təbəqələrinin maraqlarını təmin edəcək mövzular toplanmışdır. Bu xüsusiyyət isə onun uşaqlar, gənclər, qocalar, ümumiyyətlə, bütün yaşlarda olan oxucular tərəfindən maraqla qarşılanacağına ümidlər verir.

Kitabda mübahisə doğurmayan tarixi faktlar, ümumiyyətlə, faktlar qələmə alınmışdır. Bu isə bir sənədlər toplusu və əsər kimi kitabın dəyərini xeyli artırır. Müəllif ixtisasca təbiət (kimya-biologiya) müəllimi olsa da, öz əsərinə demək olar ki, bütün elmlərdən naxışlar və bəzəklər vurmuşdur. Zənnimizcə, bu xüsusiyyətlər əsərə müxtəlif ixtisas və peşə sahiblərinin diqqətini çəkməyə səbəb olacaqdır.

Müəllif uzun müddət pedaqoji işlə məşğul olduğu üçün qədim və müasir pedaqogikanın xarakterik xüsusiyyətlərini gözəl bilir. O, bu kitabında böyüməkdə olan gənc nəslin şəxsiyyətə (fərdə), ailəyə, xalqa, vətənə məhəbbət ruhunda tərbiyələnməsinə xidmət etməyə çalışır.

Kitabın məziyyətlərindən biri də onun incə eyhamlarla yazılmasında və sətiraltı mənalarla bəzədilməsindədir. Oxucuya elə gələ bilər ki, müəllifin söyləməyə başladığı bu rəvayəti çoxdan bilir. Lakin cümlədən-cümləyə keçdikcə məlum olur ki, müəllif bu rəvayəti və ya hekayəti başqa çalarlarda təqdim edir. Sonra məlum olur ki, müəllif əslində

danışdıqları fonunda, daha doğrusu, yaratdığı xəyali pərdə arxasında diqqətli oxucu üçün daha mühüm məsələləri ərmağan kimi saxlayır. Öz sirrini o, "Son söz"də belə ifadə edir: "Dediklərimi deməklə demədiklərimi də deməyə çalışdım və ya dediklərimi dedim ki, demədiklərimi də deyim..." (Yenə də bir təvazökarlıq!..)

Bizə elə gəlir ki, yuxarıda qeyd etdiyimiz bu xüsusiyyətlərinə görə İsgəndər Səklikovun "Xalq pedaqogikasından bir damla" kitabı da "Xalq təbabətindən bir damla" kitabı kimi oxucular tərəfindən sevilə-sevilə oxunacaq və onların dərin rəğbətini qazanacaqdır.

Zənnimizcə, öz təbirincə desək, "insanın zaman dənini məkan zəmisində becərib imkan dəyirmanında üyüdərək öz məqamına yetirən" müəllif özünün qarşıya qoyduğu məqsədinə nail olmuşdur.

Əlfəddin Abdullayev
Tibb elmləri namizədi, dosent

Tərbiyəmdə və dünyagörüşümün formalaşmasında əhəmiyyətli təsiri olmuş nənəm Pəri Məmmədqasım qızı İsmayılovanın əziz xatirəsinə ithaf edirəm

Müəllif.

GİRİŞ

Tarixin hər bir mərhələsində müasir insan, daha doğrusu əsl insan tərbiyəsi ən mühüm, vacib, hətta strateji əhəmiyyətli məsələ kimi daim gündəmdə olmuşdur.

Xalq pedaqogikası da məhz bu məqsədlə yaranmış öyrədən tərəfindən öyrənənin, tərbiyəçi tərəfindən tərbiyə olunanın varlığına hopmuşdur. Pedaqoq vəzifəsini isə ustadlar, aqillər, el müdrikləri, hətta adi adamlar həyata keçirmişdir.

Xalq pedaqogikasında zəngin metodika, elmilik, helmilik, bədiilik, humanistlik, həqiqət, ədalət bir vəhdətdə birləşmişdir.

Bu pedaqogika zaman, məkan, insan, imkan və məqam fövqündə duran və zamanı, məkanı, insanı, imkanıı, məqamı eyni müstəvidə təqdim edən pedaqogikadır.

Bu pedaqogikanın yaşı ilk insan yarandığı andan hesablanır. Bu pedaqogika təbiət və cəmiyyət qanunları əsasında qurulmuş, təkmilləşmiş və mükəmməlləşmişdir.

Xalq pedaqogikası hər bir insanın həyatında xalq təbabətindən də artıq əhəmiyyətə malik olmuşdur. Xalq təbabəti insanın yalnız fiziki sağlamlığının keşiyində durduğu halda, xalq pedaqogikası insanın hərtərəfli – fiziki, mənəvi, hətta ruhani sağlamlığını təmin edir.

Uzun illərdir ki, gənc nəslin təlimi, tərbiyəsi və təhsili ilə məşğul olduğum üçün bu paralelliyi, kəsişmələri, oxşarlıqları və fərqləri çox aydın hiss edirəm.

Təbiət fənlərinin tədrisi ilə məşğul olan bir pedaqoq kimi "Xalq təbabətindən bir damla" kitabından sonra "Xalq pedaqogikasından bir damla" adlı bir kitab nəşr etdirmək zərurəti hiss etdim. Son söz isə, əlbəttə, oxucunun olacaqdır.

Müəllif

NƏNƏ DİLİNDƏ ATA DİLİ DƏRSİ

...Ata malından nə fayda,
başda ağıl olmasa...

"KİTABİ DƏDƏ QORQUD"dan

Həyatının doxsan doqquzuncu ilində dünyasını dəyişən nənəm Pəri xanım keşməkeşli, lakin mənalı (oxu: ağayana...) ömür sürmüş adam idi. Hər şeyə ayıq gözlə baxar, hadisələrə düzgün və həqiqi qiymət verərdi. İnsanları tanımaqda səhvə yol verdiyini hiss etməmişəm. Bütün nəvələrinin, o cümlədən mənim tərbiyəmdə böyük rolu olmuşdur. Bizdə evin ağsaqqalına, ailə başçısına yüksək hörmət aşılayardı. Babama, atama və əmimə qarşı münasibətlərini analıq və qadınlıq rəmzi hesab etmək olar.

Heç bir təhsili olmasa da özü müstəqil olaraq hər üç əlifbamızla (ərəb, kiril, latın) yazılmış mətnləri ağır ahənglə oxumağı bacarardı. Onu tanıyanların sözə xəsislik etdiyimə irad tutmayacaqlarına ümid olmadığımı bilə-bilə nənəmin sinədəftərliyini ötəri xatırlayıb onun söylədiyi bir neçə rəvayəti yadımda qaldığı şəkildə Sizə də söyləməyi lazım bilirəm.

Söyləmə: ... Üç qadın, üç ana bulaqdan su gətirir. Onlar hərəsi öz oğulları haqqında söz açır, ağızdolusu tərifli sözlər deyirdilər. Üç oğlan isə yol üstündə oynayır. Bu zaman onlardan biri əyləncəsini yarımçıq qoyub anasına yaxınlaşır və onun yükünü əlindən alaraq özü götürür. Anaların mübahisəsi isə davam edir.

Onlar yoldan ötən bir müdrikdən soruşurlar: "Söylə, bu üç övladın hansı daha yaxşıdır?" Müdrik cavab verir: "Mən burada yalnız bir ağıllı övlad görürəm!.."

Haşiyə: ... Dağıstanın xalq şairi Abutalıb Qafurov saatını təmir etdirmək üçün saatsazın yanına gəlir.

Usta cavan bir oğlanın saatını təmir edirmiş. O, şairə oturmağı təklif edir. Abutalıb deyir:

- Yanında adam var, sonra gələrəm.

- Hanı o dediyin adam? – deyə saatsaz cavab verir.

- Bu cavan oğlan...

- Əgər o, adam olsaydı sizi görəndə ayağa qalxıb yerini ağsaqqala verərdi.

Onun saatının geri qalmağının xalq üçün fərqi yoxdur, Abutalıbın saatı isə gərək düz işləsin...

Nənəm bu hikmətli rəvayərləri hər zaman danışmazdı. Həyat öz axarı ilə davam edir, insan onun dolaylarında yol gedir. Dərə təpəni, təpə düzü, düz bataqlığı, bataqlıq dağı, dağ dərəni... əvəz edir. Mənzil isə görünmür.

Çox yorulub öküzlərim,
Yollar da qazıq-qazıqdır.
Ətəyimi cırır kollar,
Hava da yaman sazaqdır.

... Başım üstdə şimşək çaxır,
Yollarıma dolu yağır.
Cığır yoxuş, şələ ağır,
Mənzil də hələ uzaqdır...

Bu zaman bir ağbirçək (oxu: ağsaqqal) sözünə ehtiyac hiss olunur. Bax belə anlarda nənəm açardı söz-hikmət mücrüsünün qapağını. Oradan süyürərdi bir yerinə düşən rəvayət saxlancını.

Bu rəvayəti də övlad atasından var-dövlət umanda danışmışdı nənəm. Ola bilər ki, onun dilindən eşitdiyim kimi danışa bilmədim. Lakin mənanı saxlamağa çalışaram.

“... Ata, ömrünün sona çatdığını hiss etdiyi üçün oğullarını yanına çağırıb vəsiyyət edir. “Mən sizə xeyli var-dövlət və sərvət qoyub gedirəm. Onu aranızda qardaş malı kimi

bölərsiniz. Lakin ən böyük xəzinə bağdadır. Ağacların dibini belləsəniz tezliklə onu taparsınız. O, çox dərində deyil.

Ata dünyasını dəyişir. Qardaşlar sərvəti öz aralarında bölürlər. Sonra onlar bağdakı xəzinəni tapmaq fikrinə düşürlər. Birinci il bağı qazıq-qazıq edirlər. İkinci il hələ qış zamanı bağı səliqə ilə belləyirlər. Yenə də xəzinəni tapa bilmirlər. Ancaq bol məhsul əldə edirlər. Xeyli gəlir götürürlər. Üçüncü ildə yenə bağı qazırlar, yenə də bir şey tapmırlar.

Yorulub oturur və gileylənirlər. Bu zaman qonşu ağsaqqal onlara yaxınlaşır və nə hadisə baş verdiyini xəbər alır. Bir anlıq sükutdan sonra böyük qardaş əhvalatı nağıl edir. "Atamız nə üçün bizi aldatsın?" - deyə sözünə yekun vurur.

Ağsaqqal təsbehini çevirərək gülümsəyir və sözə başlayır: "Oğul, atanız müdrik adam idi. Mən onu yaxşı tanıyırdım. Səksən ilin qonşusuyduq. O, xəzinə dedikdə bağın məhsulunu nəzərdə tuturmuş. Artıq siz həmin xəzinəni əldə edibsiniz..."""

Kəlam: Yaxşı qonşu elə ömrün yarısı, yaxşı ağsaqqal atadan irəlidir.

Haşiyə: ... Müflis olmuş bir nəfər evini satmaq qərarına gəlir. Ev rahat və yaraşıqlı olduğu üçün müştəriləri də çox idi. Onlardan biri ilə sövdələşmə baş tutur. Ev sahibi qiyməti söyləyir: "On min manat evin, on min manat da qonşunun qiymətidir".

Müştəri isə razı qalmır və söyləyir ki, o, evi alır, qonşunun bura nə dəxli var?! Mübahisə uzanır, səs-küyə qonşu da gəlir. O deyir: "Qonşu, burada nə olub?"

Uzun sükutdan sonra ev sahibi müflis vəziyətə düşdüyü üçün mülkünü satdığını bildirir. Qonşu sakit halda gedir və bir azdan əlində pul bağlaması geri qayıdır.

"Al, qonşu, borcunu ödə. Biz neçə illərin qonşusuyuq, adam hər xırda şeydən ötrü ata mülkünü satmaz!.."

Ev sahibi üzünü müştəriyə tutaraq deyir: "Bildinmi, mən qonşuya da on min manat istəyəndə cəhv etməmişəm..."

Məni sözçülükdə ittiham edənlər bəlkə də haqlıdırlar. Kimsə bu hekayətləri eşitdiyini söyləyə bilər. Mənsə bunları eşitməyənlər üçün söyləyirəm. Ya da əziz həmsöhbətlərim, siz bu rəvayətləri tamam başqa çalarlarla vaxta uyğun şəkildə, haradasa, kimə isə söyləməklə bir xalq pedaqoqu vəzifəsini yerinə yetirmiş olarsınız. Əlbəttə, məsləhət tərbiyə məqsədi ilə veriləndə daha gözəl səslənir. Məsləhət təklikdə veriləndə xeirxahlıq, iki nəfərin yanında veriləndə məzəmmət, çox adamın yanında verildikdə təhqir təsiri bağışlayar. Tərbiyə verənin özü tərbiyəli olmalıdır. Məsləhət verənin özü öz məsləhətlərinə əməl etməlidir.

Haşiyə: Bir gün bir uşağı peyğəmbərin yanına gətirirlər və deyirlər: “Bu uşaq şirin şeylər yedikdə əziyyət çəkir, ona nə edək?” Peyğəmbər uşağı iki gündan sonra onun yanına gətirmələrini xahiş edir.

Uşağı iki gündən sonra onun yanına gətirirlər. Peyğəmbər uşağa deyir: “Bala, şirin şey sənin səhhətin üşün zərərlidir, heç zaman xurma yemə”. Deyirlər: “Ya peyğəmbər, sən bu sözü elə srağagün də deyə bilərdin...”

Peyğəmbər cavabında belə deyir: “Mən bu məsləhəti o zaman verə bilməzdim, çünki srağagün mən özüm də xurma yemişdim...”

Bir atalar sözündə deyilir: “Səndən məsləhət istəyənə məsləhət ver”.

Xalq pedaqoqu məsləhətlərini çox zaman oğluna ünvanlasa da əsas tərbiyə obyekti kimi cəmiyyətin daha geniş hissəsini nəzərdə tutardı.

Şərqin zəngin tərbiyə xəzinəsi hesab olunan “Qabusnamə” də məhz bu üslubda qələmə alınmışdır. Gənc dost sənə “Qabusnamə”ni bir daha oxumağı məsləhət görürük.

Qədim xalq pedaqogikası insanı müdrikliyə, xeyirxahlığa, mənəvi zənginliyə, nəhayət, saflığa səsləyir. Klassik təlim üsulları xalqın milli dəyərlərinə, psixologiyasına, onun qədim

elmi xəzinəsinə əsaslanmışdır. Adi görünən bir tərbiyəvi kəlam əsrlərin sınaqlarından çıxmış, işlədilmə yerindən, zamanından, kəlamı işlədənin nüfuzundan və nəhayət, tətbiq obyektindən (tərbiyə olunanın şəxsiyyətindən) asılı olaraq müxtəlif təsir gücünə malik olur.

Yenə də nənəmdən eşitdiyim bir rəvayətlə söhbətimizi davam etdirmək istərdik.

Rəvayət: ... Bir bulağın başında bir insan heykəli vardı. Heykəlin simasından müdriklik və cəngavərlik yağırdı. Onun postamenti üzərində bu sözlər yazılmışdı: "Kəllə sındıran, beyin yeyəsidir!"

Bulaqdan su içənlər heykəli dərin hörmətlə süzərək onu tarixin yadigarı kimi yad edirdilər. Hətta onun haqqında müxtəlif rəvayətlər də yaratmışdılar. Bu rəvayətlərdə o, kəllələr sındıran cəngavər və müdrik sərkərdə kimi təsvir olunardı.

Bir çoban neçə illər idi ki, sürüsünü həmin bulaqda sulayardı. Otuz ildi, o, həmin heykəli hər gün xəyalında üç-dörd dəfə danışdırardı. Bir gün onun ovqatı çox təlx idi. Cəngavər heykəli onu daha da əsəbiləşdirdi. "Zəmanənin kəllə sındıranı da mənəm, beyin yeyəsi də!" - deyərək çomağını heykəlin başına vurdu. Bu zaman möcüzə baş verdi. Kəllə qapağı açıldı, qızıl sikkələr yerə töküldü...

Yəqin, qədim heykəltəraş postament üzərindəki yazını daha dərrakəli yolçular üçün həkk edibmiş...

Oxucunu yormamaq ümidi ilə daha bir haşiyəyə çıxmağa cürət edirəm. Bunu sadəcə olaraq epizodik illüziya da adlandırmaq olar. Beləliklə...

Haşiyə: ... Zəngin yaşamış bir ailənin başçısı talenin hökmü ilə sürgünə göndərilir. Ailə üzvlərinin hərəsi bir tərəfə dağılır. Yurdda təkcə evin xanımı qalır. O isə xiffət edir, günbəgün solmağa başlayır... Ailə başçısı sürgündan qayıdanda artıq o,

həyatda yox idi. Keçmiş varlı şəxsiyət özünün müflis günlərini tənha (təkrar edirəm: tənha!..) yaşayırdı. Ev boş, bağ talan, ömür yarı, dostlar biganə, tale dönük...

Eyvanın sütunundan vaxtilə qonaqlıqlara geydiyi zərli, indi isə nimdaş, çirkli və tozlu pencək asılmışdır. Xəyal o başıyığnaqlı, xoşbəxt günlərə qayıdır. Gözlər yol çəkir. Saqqalda yaş gilələnir. Əl qeyri-ixtiyari döş cibinə uzanır. Dörd qatlanmış, saralmış, qatlarını nəm kəsmiş, ovxalanmaq dərəcəsinə çatmış bir kağız parçası əlinə dəyir. Ehiyatla açır. Vaxtında çox da qayğısına qalmadığı mərhum həyat yoldaşının xətti idi.

"Bilirəm uzaq yollar səni yorub, soyuq ölkələrin sazağı canındadı. Əgər üşüsən, pəyənin küncünə yığdığım təzəklərdən yandırarsan..."

Məktub burada bitir. Məhəbbət və rəğbət, giley və məzəmmət, hörmət və töhmət, sədaqət və itaət çalarları əlavə etməklə məktubu daha da təsirli hala sala bilərdik, lakin bunu etməyi lazım bilmədik.

O, ağır addımlarla tövləyə gedir (ömründə ilk dəfə!...). boş, alaqaranlıq, qapısı sınıq, zibilli tövlənin ucqar küncündə əllə yumrulanmış 20-30 dənə topabənzər təzək qalaqlanmışdı. Hər birinin üzərində həyat yoldaşının barmaqlarının izləri vardı. Təzəklərdən birini əlinə götürüb alnına sıxdı. Təzək sındı. İçərisindən bir neçə sarı metal pul yerə düşdü. O, dərhal digər yumruları da bir-bir sındırdı. Dizi üstə çökdü. Sanki keçmiş biganəliklərinə görə həyat yoldaşının qarşısında səcdə edirdi...

Bundan sonrakı həyatını daha mənalı qurmaq üçün, görünür, ona belə tərbiyə (ibrət) vermək lazım imiş.

Keçmiş zamanların kamillik və tərbiyə kitablarında atanın övladına ibrət dərsi verməsinə aid saysız-hesabsız atalar sözü, zərb məsəllər və rəvayətlər toplanmışdır. Bu misalları yaradarkən xalq pedaqoqu daha təsirli üsullardan istifadə

etməklə səhvə yol vermiş adamı tövbə etmək məcburiyyətində qoyur, hətta həyatını yenidən qurmağa sövq edir.

Daha bir tərbiyəvi illüstrasiya:

...Ömrünün sona çatdığını hiss edən ata öz oğlunu yanına çağırıb vəsiyyət edir. "Oğul, məndən sonra bu xasiyyətlə bütün var-dövlətimi havaya sovuracaqsan. Sənə vəsiyyətim budur ki, müflisləşdikdən sonra heç kəsə əl açmayasan. Gəlib evimizin tavanındakı orta dirəkdə olan həlqədən özünü asarsan. Qoy nəslimizin adına ləkə düşməsin".

...Artıq ata dünyadan köçmüş, onun sərvəti oğlu tərəfindən keflərə xərclənmişdir. Oğul səfil bir günə düşmüşdür. Dostları başından dağılışmış, qazanc yox, əl tutan yox, pul yox, sabaha ümid yoxdur...

Atanın vəsiyyəti yada düşür. Kəndiri həlqəyə bağlayır, kətilin üstünə çıxır, ilgəyi boğazına keçirir və kətili ayağının altından itələyir. Lakin möcüzə baş verir. Həlqə dirəkdən qopur, başına dirəkdəki boşluqdan qızıl sikkələr tökülür. Və ... atanın tənə və məzəmmətlə yazdığı məktubu düşür... "Oğul, sənə dediklərimin doğru olduğunu özün gec də olsa başa düşdün. Allah da çox israfçılığı sevməz. Nadanlarla yoldaşlıq eləmə. Onlarla oturub-durduqca sən də nadanlaşarsan. Sərvəti olanların saxta dostları da çox olar. Sənə bəxş etdiyim bu sərvəti də havaya sovurma. Pulunu gəlir gətirən sahələrə qoy. Daha doğrusu pul qoy, pul götür. Əgər çətinlik çəksən şəhərdə aqillər məhəlləsində yaşayan köhnə dostum Arif əmi ilə görüş (sən onu tanıyırsan...), vəziyyəti ona danış. Onun qızı Arifə sənin deyiklindir, onunla evlənərsən. Ariflə şərtimiz var, məni onun yanında yalançı eləmə. Qəbrimin üstünü götürməyi unutma..."

Bu, oğluna həyatını yenidən qurmaq üçün kifayət edəsi dərs oldu. Müdrik ata həyatda olmayanda belə tərbiyə verə bilir.

Çoxdandır nənəmin (həm də nənələrin!...) dilindən eşitdiyim rəvayətləri bir müstəvi üzərinə dümək fikrindəyəm. Kaş Allah mənə bu işi görməyə bir qüvvət verəydi...

EPİLOQ

Bədbəxt o adamdır ki, əlindən yaxşılq gəldiyi halda onu etmir.

ABBASQULU AĞA BAKIXANOV.

Hərçənd qadınlar dünyanı idarə edirlər, lakin tarixçilər yalnız kişilərin adını bilirlər.

HENRİX HEYNE.

SON

“SON”DAN SONRA

Nədənsə mənə elə gəlir ki, atalar sözlərini çox zaman nənələr yaradırlar.

* * *

HUMANİZMİN PEDAQOGİKASI VƏ YA XALQ PEDAQOGİKASININ HUMANİZMİ

Əgər insansansa, insanlığı sev...
NİZAMİ GƏNCƏVİ.

İnsanın əsas vəzifəsi əsl
insan olmaq olmalıdır.
NAMƏLUM.

... İnsan zamanın nübarı,
İnsan zamanın vüqarı.
İnsan zamanın memarı,
İnsan zaman heykəlidir...

Qədim yunan filosofu və riyaziyatçısı Pifaqordan soruşurlar: "Övladın tərbiyəsinə nə vaxtdan başlamaq lazımdır?"

Alim cavab verir: " O, normal cəmiyyətdə yaşasa kifayətdir".

Cəmiyyət tam formalaşmadığı dövrdə insanın tərbiyəsi ilə yalnız təbiət məşğul olurdu. Daha doğrusu, insan və insanlıq təbiət qanunları ilə idarə olunurdu. Cəmiyyət yarandı. Onu zaman yaratdı. Cəmiyyət təkamülə başladı. Cəmiyyət formalaşdı. İnsanın üzərinə bioloji varlıq olmaqdan əlavə insan olmaq vəzifəsi də düşdü. "İnsanın əsas vəzifəsi əsl insan olmaq olmalıdır". İnsan daha həm də cəmiyyət qanunları ilə idarə olunmağa başladı. Qanunları insan yaratdı. Qanunlar isə insanı insanlığa aparan ən mühüm vasitəyə çevrildi. Lakin əsl insanlar başqalarının qanun qorxusundan etdiklərini və etmədiklərini onun özü etdi. Deməli, insanda insanlıq – humanizm formalaşmağa başladı. Əsl insanlar əsl insan olmaq uğrunda özü ilə mübarizəyə başladılar. Özünə qalib gəlməyə nail olmayanlar çox şeyə nail ola bilməzlər.

Tərbiyə yarandı. Təlim formalaşdı. Tərbiyə və təlim haqqında elm yarandı. Və bu vacib işlə məşğul olamlar, müəllimlər cəmiyyət həyatına daxil oldu. Müəllim, Allahın və peyğəmbərin vəzifələrini həyata keçirməyə başladı. İnsanlığı (humanizmi) təbliğ etdi. Bu vacib məsələ indi də həyata keçirilməkdədir.

Hər bir ölkənin təhsil sistemi onun xalqına xidmət edir. Xalqın təhsil sistemi onun milli dəyərlərinə, adət-ənənələrinə, dövlətinin apardığı siyasətə və nəhayət, ümumbəşəri mənafelerə, daha doğrusu, humanizm prinsiplərinə əsaslanmalıdır və əsaslanır. Elə buna görə də ayrı-ayrı ölkələrdə müxtəlif tərkibli təhsil konsepsiyaları həyata keçirilsə də onun mərkəzində humanizm dəyərləri dayanır.

Humanizmin insan mənəviyyatına təsir etməsi və hətta mənəviyyat göstəricisi olması hələ qədim zamanlardan tərbiyəçilərə məlum olmuşdur. Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" əsəri bir tərbiyə məktəbi hesab edilə bilər. "Qabusnamə", "Kəlilə və Dimnə", "Min bir gecə" nağılları başdan-başa hikmət xəzinəsi, ağıl mücrüsüdür.

Bəhmənyar fəlsəfəsi, Nizami Gəncəvi hikməti, Nəsimi əqidəsi, Füzuli poeziyası, Vurğun lirikası, Bəxtiyar və Nəbi Xəzri şeriyyətı, Hüseyn Arif və Məmməd Araz təbiətə vurğunluğu, Xəlil Rza Ulutürk cəsarəti birləşdikdə böyük bir humanizm məktəbi yaranır. Bu məktəb Azərbaycanın elm, hikmət, ağıl, humanizm məktəbidir.

Azərbaycan xalq pedaqoqikası zəngin ənənələrə malik təcrübə mənbəyidir. Burada hər şey tarixin sınaqlarından çıxmış, cilalanmış, doğmalaşmış və vətəndaşlıq hüququ qazanmışdır. Bu pedaqogika humanizm prinsipləri əsasında təşəkkül tapmış, həm tərbiyəçi həm də tərbiyə olunanın varlığına hopmuşdur. Asan tətbiq olunur, bütün tələblərə cavab verir, bütün dövrlər üçün aktualdır. Məktəb, sinif, dərs şəraiti olmadan da tətbiq edilə bilir. Bir çox hallarda ustad-şagird münasibətləri səviyyəsində öz həllini tapır.

Xalq pedaqoqikası elmi pedaqoqika ilə qovuşaraq əsl insan tərbiyəsi üçün zəngin nəzəri və təcrübi baza yaradır. Onlardan birgə istifadə etdikdə daha böyük nailiyyətlər qazanmaq mümkündür.

Ulu abidəmiz olan "Kitabi-Dədə Qorqud" humanizm ensiklopediyasıdır.

Bir kəlam: "Torpağı becərmədin qorumağa, qorumadın əkib-becərməyə dəyməz".

Daha bir kəlam: "Ov etməyi oğulmu atadan öyrənər, yoxsa atamı oğuldan?"

Pedaqoji araşdırmalar göstərir ki, uşaq və yeniyetməlik yaşlarından başlayaraq xalq yaradıcılığı incilərini, o cümlədən bayatılarımızı, nağıllarımızı, dastanlarımızı, atalar sözlərimizi sevməyə alışdırılmayanlar həyatlarının sonrakı dövrlərində öz mənəviyyatlarında bir boşluq hiss etdirirlər.

Haşiyə: Öyrədilmiş bir qulu düşmənlər Çənlibelə göndərirlər. Koroğlu deyir: "Ayə, verin mənim sazımı!" Dəmirçioğluya buyurur ki, "qollarını al əlinə, gözlərini də dik gözlərinə. Mən sazı çalıb oxuduqca ona əsər elədi, bil ki, mərd adamdır, halal süd əmib, yox əgər əsər eləmədi bil ki namərd adamdır". Koroğlu sazı bağrına basır, qəhrəmanlıq mahnıları oxuyur:

Söylə görüm, Ərəb oğlu,
Canından küsdüyün varmı?!
Dost yolunda bu dünyada
Başından keçdiyin varmı?..

Lakin qulun halında heç bir dəyişiklik hiss olunmur. Koroğlu deyir: "Oğul, mənim ki nə sazım, nə sözüm, nə səsim sənə əsər eləmədi, səndən Koroğlu dəlisi olmaz. Amma mən namərd deyiləm, ətəyimdən tutan əli kəsmərəm. Qal, ye, iç, dolan, məşq elə!"

Koroğlu səhv etməmişdi. Bu, "Ərəb" atı oğurlamağa cəhd edərkən tutulan İmirzə adlı qul idi.

Bir qulum qaçıbdır Ərəbistana,
Arayın, axtarın, tapın, gətirin.
Əgər girmiş olsa dəlikli daşa,
Aparın Fərhadı, çapın gətirin!

Bir qulum qaçıbdır adı İmirzə,
Vərməzdim əlliyə, altmışa, yüzə.
Varını, yoxunu tökün Təbrizə,
Dəyərə, dəyməzə satın, gətirin!...

Qədim abidələrimizdə göstərildiyi kimi məşhur filosoflar və tərbiyəçilər öz fəaliyyətlərini insanda nəcib hisslər aşılamaq istiqamətində qurmuşlar. Nədənsə zövq almadan yaradıcı olmaq mümkün deyildir. Müəllimin və tərbiyəçinin əsas vəzifəsi isə şagirdə zövq almağı, vəcdə gəlməyi, düşünməyi öyrətməkdir. Bu da həqiqətdir ki, heç kəs anadan şair, rəssam, bəstəkar, qəhrəman doğulmur. Uşağın yaşadığı mühit, onun aldığı tərbiyə mühüm amildir. İstedad həm də müəyyən şəraitin məhsuludur. Dahilər ya fitri istedadın ya da gərgin əməyin və iradənin nəticəsində yaranır. İradə olmadan dahi olmaq mümkün deyildir. "Dahi iradədir". Bu sözlər Belinskiyə məxsusdur.

Haşiyə: Yeniyetməlik dövründə sinif yoldaşlarımızdan biri tənəffüs zamanı yazı lövhəsinə tabaşirlə gözəlliyi əks etdirən bir lövhə çəkmişdi. Heyranlığımızı gizlədə bilmirdik. Lövhəni silməyə heyfimiz gəldi. Lakin bu, uzun sürmədi. Dərs başlandı. Müəllim şəkli kimin çəkdiyini soruşdu. Malik (ad şərtidir) tərəddüd etmədən ayağa qalxdı. Müəllim onu möhkəm danladı, təhqir etdi. Malik isə uzun müddət heç bir şəkil çəkə bilmədi. O, tam ruhdan düşmüşdü. Biz ona xeyli ürək-dirək verdik. Sonralar o, tanınmış rəssam oldu.

Daha bir misal: Ramin adlı şagird çox dəcəllik edirdi, dalaşqan idi, hətta müəllimlərə qarşı kobudluq edirdi. Vaqif isə əksinə, tərbiyəli, lakin zəif oxuyan idi. Müəllimlər onların hansını daha çox sevər? Əlbəttə, Vaqifi... Bu, müəllimliyə başladığım ilk illərdə, səkkizinci sinfə rəhbərlik etdiyim dövrə təsadüf edir.

Həmin şagirdlərlə həyati mövzularda söhbətlərimiz öz bəhrəsini verdi. Onların hər ikisinə etibar və inam hissi ifadə olundu və onlara vaxtaşırı müəyyən tapşırıqlar verildi. Onlarla uşaq kimi deyil, dost kimi ciddi rəftar edildi. Hətta bəzi müəllimlərə onlarla münasibətləri yenidən qurmağı xahiş etdik.

Hər iki şagird məktəbi "əla" qiymətlərlə başa vurdu. Hazırda onlar ictimaiyyət arasında kifayət qədər nufuza malik, öz işlərinin ustası olan ali təhsilli mütəxəssislərdir.

Hələ 2.500 il bundan əvvəl məşhur riyaziyatçı Pifaqor deyirdi: "Yeddi yaşlı uşağa da fəlsəfəni öyrətmək olar. Lakin bu, fəlsəfi anlayışın ona (uşağa) necə çatdırılmasından və uşağın onu necə qavramasından asılıdır".

Yenə də bir problem ortaya çıxır. Müəllim-şagird münasibətləri problemi. Bu isə daha geniş bir söhbətin mövzusu ola bilər.

Yeniyetmələr heç də həmişə özlərinin bütün imkanlarından istifadə etmirlər. Daha doğrusu, istifadə etməyə çalışmırlar. Onlar özlərinin yaş xüsusiyyətlərinə uyğun olaraq müəyyən psixoloji və bioloji çətinliklərlə qarşılaşırlar. Onların maraqları çox şeyə diqqət, romantika, macəraçılıq, axtarıcılığa və şöhrətə meyllik kimi istiqamətlərə haçalanır. Bu maraqları bir məcraya istiqamətləndirmək isə tərbiyəçinin (müəllimin) üzərinə düşən ən vacib vəzifələrdəndir. Yaxşı müəllim hər şeyi şagirdlərə öyrədən deyil, onlara öyrənməyi öyrədəndir. Müvəffəqiyyətin əsasını isə şagirdləri həqiqətə inandırmaq təşkil edir.

Hayatlarının müəyyən dövrlərində şagirdlər özlərinin ayrı-ayrı müəllimlərə bənzətməyə çalışırlar. Hətta onları özlərinə ideal seçirlər. Bu, çox mühüm və əhəmiyyətli məqamdır. Müəllimin (idealın) bu məqamda dayana bilməsi ideal seçənin

(şagirdin) arzularının yaşaması deməkdir. Bunun əksi isə çox şeyin məhv olması, ideal seçənin həyat yollarında büdrəməsi, bir müddət çaşması ilə nəticələnən arzuolunmaz hadisədir.

Bir qədim Şərq atalar sözündə deyilir: "Əgər sənin planın bir illikdirsə taxıl ək, planın on illikdirsə ağac ək, əgər planların əsrlərə hesablanıbsa insan tərbiyə et!"

İnsan tərbiyəsi zamanlar tələb edən, nəticəsi nəsllərə çatan çətin və şərəfli işdir.

Hər bir bədii əsər öz müəllifinə bənzəyir. İnsan zamanın və yaşadığı cəmiyyətin şah əsəridir. O, zamana bənzəyir, yaşadığı cəmiyyətə oxşayır.

...İnsan zamanın özüdür,
İnsan zamanın izidir.
İnsan zamanın közüdür,
Zaman da insan külüdür...

EPİLOQ

Əgər məndən soruşsalar ki, ən şərəfli sənət hansıdır? Mən o zaman iftixarla belə deyərdim: - Müəllimlik!

HƏSƏN BƏY ZƏRDABİ.

SON

"SON" DAN SONRA

...Ən müsbət xüsusiyyətləri məndə şagirdlərim tərbiyə etmişdir.

...Mən şagird qəlbinin güzgüsünə baxıb qüsurlarımı düzəltməkdəyəm.

* * *

USTA ŞİLLƏSİ

Usta görməyən şagirdin gözü əllərdə qalar.

ATALAR SÖZÜ.

"Aşıq Ələsgər məşhur aşıq kimi tanınandan sonra çox yerlərdən onun yanına şəyirdlər axışmışdır. O, Göyçənin Daşkənd kəndindən Nəcəfə, Qızılvəngdən Mustafa və Yusifə, Çaxırlıdan Hüseynalıya, Zoddan Qasım və Ağayara, Hüseyquluağalıdan (Nərimanlıdan) İsa və Mikayıla, Kəsəməndən Nağıya, Böyük Qaraqoyunludan Əsədə, Sarıyaqubdan Məhəmmədəli və Paşaya, Böyük Mərzədən Qiyasa, Zərzibildən Nağı və Sayada, Ağkilsədən Qurban, İman və Nəcəfə aşıqlıq sənətinin sirlərini öyrətmişdi:

Adım Ələsgərdi mərdi mərdana,
On iki şəyirdim işlər hər yana, -

misraları ilə çoxlu aşıq yetişdirdiyini özü də iftixar hissi ilə qeyd etmişdir".

Bu sətirlər ədəbiyyatşünas alim İslam Ələsgərovun "Aşıq Ələsgər" kitabına yazdığı "Ustadın ömründən səhifələr" adlı ön sözündən götürülmüşdür.

Qeyd edildiyi kimi o, şəyirdlərinə qarşı tələbkar olmaqla yanaşı onlara ata məhəbbəti göstərmişdir. Ustad, aşıqlıq sənətinə tam yiyələndikdən sonra öz şəyirdinə aşıq adı verərdi. Yalnız bundan sonra həmin şəyird öz adının əvvəlinə "aşıq" sözü əlavə etməyə ixtiyar qazanardı. Bundan əvvəl o, müəyyən sınaqlardan çıxarılardı. Ustadın bu razılığı isə möhürlü diplomu əvəz edirdi.

O dövrdə sənətkar öz şagirdinə sənətin sirlərini öyrəndikdən sonra müstəqil fəaliyyət göstərməyə icazə verərdi. Hətta ona bir şillə də çəkərdi. Bu, xalq arasında "usta şilləsi" adlanardı. Hər şagirdə "usta şilləsi" dəymədiyi kimi hər ustanın da "usta şilləsi" vurmaq hüququ olmazdı.

Aşıq Ələsgərin özü də beş il qızılvəngli Aşıq Alının şagirdi olmuşdur. O öz ustadından aşıqlıq sənətinin bütün sirlərini öyrənmiş və sonra onun qarşısında imtahan vermişdir.

Ədəbiyyatşünas alim İslam Ələsgərovun yazdıqlarından: "...Təxminən 1845-1846-cı illərdə Göyçənin Qızılbulaq (indiki Çaxırlı) kəndində qızılbulaqlı Böyük Ağa ilə Aşıq Alının təşkil etdikləri "imtahan məclisində" Ələsgər birincilik qazanmış və bu hadisə onu el-oba arasında daha da şöhrətləndirmişdir. Deyilənlərə görə, həmin məclisdə ustadla şagird (şəyird) qarşı-qarşıya dayanaraq onlarca şer oxumuş, nəhayət, Ələsgərin sinədən dediyi "Ay yağa-yağa" dodaqdəyməz təcnisi cavabsız qalmışdır...

Lakin burası da danılmaz həqiqətdir ki:

Bir şəyird ki ustadına kəm baxa,

Əlbəttə, gözünə ağ damar, damar! - deyən Ələsgər öz ustadını hörmətlə yad etmiş, ömrünün axırına qədər Aşıq Alı sənətindən ehtiramla danışmışdır".

Şair Zəlimxan Yaqubun "Son görüş" poeması Aşıq Ələsgər ömrünün son gününü əks etdirir. Şair özünə məxsus bədii boyalarla dəqiq fəlsəfi yozumla insan hisslərini ehtizasa gətirən səhnə yaratmışdır:

"Yüz beş il ömür sürüb dünya görən Ələsgər,
Dövrün hər sitəminə sinə gərən Ələsgər,
Bu gün köç vədəsində, ölüm yatağındadır!
Oğulları, qızları solunda, sağındadır.
Şagirdləri kəsdirib balıncının yanını,
Təbiət alıb daha
Nəğməkarın əlindən yaşamaq imkanını..."

Yastığının yanını şagirdlərinin kəsdirməsi hər sənətkara müyəssər olmayan səadətlərdəndir. Yəqin ki, özü şagird olmuş və özünün də şagirdləri olmuş hər bir ustad mənim bu sözlərimdə qəddarlıq çalarları aramaz və məni qeyri-obyektivlikdə (oxu: qeyri-səmimilikdə) ittiham etməz.

Ümumiyytlə, poemada insan ruhunu məşhərə çəkən neçə-neçə epizodlar bir-birini əvəz edir. Poemanı dünya ədəbi irsinin ilk məhəbbətin, əbədi səadətin tərənnümünə həsr edilmlş şah əsərlərindən hesab etmək olar. Ələsgər can üstədir, könlü Səhnəbanını istəyir. Deyirlər o, çox qocalıb...

"...Ona Ələsgər baxıb,
Min il keçsə qocalmaz!
O, illərdən bac alar,
İllər ondan bac almaz.

...Doxsan il əriməmiş
Zirvədə qarmı qalar?
Doxsan il dərilməmiş
Bağçada barmı qalar?
İndi çürüyüb gedib,
Bu gün Səhnəbanıda
Elə paltarmı qalar?

...Əgər Ələsgər gözü
O paltara baxıbsa,
Bircə ilməsi belə
Min il keçsə çürüməz!...

Mən əsərin təhlilinə acizliytimi qələmin üstünə ataraq Sizi poemanı bir daha oxumağa dəvət edirəm

"...Gedin deyin o gəlinə
Ölürəm yanıma gəlsin.
Gəlsə bəlkə tapam şəfa,
Batmasın qanıma gəlsin..."

Bu misralar isə Aşıq Ələsgərin laçın vaxtlarından son gününə düyüb saxladığı əmanətdir.

Ey incə qəlbli oxucu, söhbətimizin məcrası ustad – şagird məhəbbətindən ilk məhəbbət səmtinə burulduğu üçün məni qınama. İnsan hissləri hərdən mələk cildinə girib insanı asimandan asimana daşıyır. Təkəbbürlü adamlar hisslərin toruna düşdüklərini etiraf etməzlər. Deyərlər ki, kamil insan hisslərini daim ram etməlidir. Lakin elə hisslər vardır ki, o, cilov tanımır, əksinə insan hisslərini cilovlayır (bir anlıq olsa belə!.)

Bəzən özlərni nisbətən təvazökar hesab edən keçmiş şagirdlər heç kimin ustadlığını etiraf etmir və ya etiraf etmək istəməyərək deyirlər: "Mən qazandığım nailiyyətlər üçün yalnız kitablara borcluyam!" Nə qədər yüksək bir iddia... Yəni, "Mən ən böyük bir ustadın şagirdiyəm!"

Müəlliminə hörmətini bildirmək istəyən şagirdlərin dilindən Türk dünyasının fatehlərindən biri Teymurləngin (Əmir Teymurun) bir sözünü tez-tez işlətdiklərinin şahidi olmuşuq: "Məni müəllimimin qəbrinin ayaq tərəfində dəfn edin!.."

Hər bir şagirdin müəlliminin ayağı altında dəfn olunmağa mənəvi haqqı varmı görəsən?! Və ya hər bir müəllim öləndən sonra bu yüksık mıqama yetişə bilirmi?!

Bu da bir həqiqətdir ki, Aristotelin Makedoniyalı İsgəndərin dünyagörüşünə təsirini böyük sərkərdə belə ifadə etmişdir: "Mən Aristoteli atama bərabər tuturam. Əgər atama həyatım üçün borcluyamsa, Aristotelə hər şeydə borcluyam".

Makedoniyalı İsgəndərin ölümündən sonra Aristotel Afina şəhərini tərk edir.

Haşiyə: ... Cavanlığına baxmayaraq (cəmi 33 yaş...) Makedoniyalı İsgəndər böyük sərkərdə olmaqla yanaşı, müdrik siyasətçi və sülhsevər şəxsiyyət olmuşdur. O, hələ eramızdan əvvəl 323-cü ildə İranı məğlub etdikdən sonra qohumluq əlaqələri yaratmaqla xalqları birləşdirmək məqsədi ilə tarixdə ən dəbdəbəli toy etmək qərarı qəbul edir. O, eyni vaxtda on min yunan döyüşçüsü ilə on min fars qızını evləndirmək

qərarına gəlmişdi. Sərkərdənin özü isə İran şahı III Daranın qızı ilə evlənməyə hazırlaşırdı. Lakin həmin toy şənlikləri zamanı böyük sərkərdə qəflətən xəstələnir və vəfat edir.

On il Makedoniyalı İsgəndərə müdriklik dərsi keçmiş Aristotel öz müəllimi Platonla kəskin mübahisələr etsə də ona çox yüksək qiymət vermişdir. Platon "Fedon" əsərini oxuyarkən ona təkcə Aristotel sona qədər qulaq asmışdır.

Haşiyə: ... Deyilənə görə Makedoniyalı İsgəndəri onun müəllimi Aristotel zəhərləmişdir. O, zəhəri hazırlayıb qatırın dırnağında gizlədibmiş. Babilistanda saqi Kassandr zəhəri qatırın dırnağından çıxararaq şəraba qatır. Beləliklə 33 yaşlı sərkərdənin həyatına nöqtə qoyulur.

Onun cəsədini vannaya tökülmüş balın içərisində Misirə gətirirlər. Sərkərdənin meyidi bal içərisində 300 il təzə qalmışdır.

Eramızın I əsrində Oktavian Avqust Makedoniyalı İsgəndərin qəbrini açdıqda heyrətə gəlmiş və onun başına çələng qoymuşdur.

Aristotelin öz müəlliminə və şagirdinə münasibəti onun dünya mütəfəkkiri kimi nüfuzuna heç bir xələl gətirmir. Lakin bu deyilənlər həqiqətsə onda oxucu Aristotel şəxsiyyəti haqqında mənfi fikirlərə düşərsə onu qınamağa dəyərmi?..

Müdriklər müəllimi Aristotel deyərdi: "Platonun əsərləri poeziya və prozanın qarışığıdır".

Platon isə Aristoteli öz məktəbinin "Ağıl dəryası" adlandırmışdır. "Elmin kökləri acı, meyvələri isə şirindir" – bu kəlam da ona məxsusdur.

Bilirsinizmi? Filosof, alim, şair Ömər Xəyyam həm fəlsəfədə həm də poeziyada özünü İbn Sinanın şagirdi hesab etmişdir...

Bu sətirləri yazan zaman təsadüfən əlimə "Millətin səsi" qəzetinin 25-31 mart 2001-ci il tarixli nömrəsi düşdü. Orada Pərvin Sədainin "Cabbar Qaryağdıoğlu – 140" məqaləsi

diqqətimi çəkdi. Ustad-şagird münasibətləri haqda fikirləri genişləndirmək məqsədi ilə məqalədən kiçik bir parçanı təqdim edirik.

"Atamın ilk müəllimi (sənətkarın qızının dilindən – İ.S.) klassik muğamlarımızın mahir bilicisi, "Sağari" təxəllüsü ilə tanınan Zeynalabdin oğlu Mirzəli olub. O, balaca Cabbarın nadir səsi olduğunu görüb ona oxumağı öyrədir. Musiqi təhsilini Xarrat Qulunun məktəbində alır..."

Ustad-şagird münasibətlərində elə incəliklər olur ki, onu təsvir etmək üçün daha geniş ədəbi meydan gərəkdir. Bu münasibətlərdə məhəbbət, rəğbət, səmiyyət, hörmət, sədaqət, itaət ...qayğıkeşlik, səxavət, etibar, etimad... duyğuları qarşılıqlı şəkildə ilmə-ilmə toxunur, ustad və şagird ömrünü naxışlayır.

Şagird ömrü ustad ömrünün davamıdır. Yaxşı şagird ustadının yarımçıq arzu binasının layiqli memarıdır. Ustadlar bəzən övladına, dostuna demədiyi sirlərini özünün şagirdinə deyərlər. Şagird ustada oğul, qardaş, dost, sirdaş olar. Və qarşılıqlı olaraq ustad ata, qardaş, dost, arxa, dayaqdır. Əlbəttə, ustad-şagird münasibətlərində müəyyən ölçü, əndazə, pərdə vardır. Demək olar ki, şagirdin tərbiyəsində ustadın rolu qədər elə ustadın münasibətlərinə də şagirdin təsiri vardır. Yaxşı şagird ustadını böyüklük səviyyəsində saxlayar. Bir çox hallarda ustadlar öz şagirdindən utanaraq öz ustadlıq səviyyəsində dayanar, özünü bir çox dünya nemətlərindən ustadlıq naminə məhrum edərlər.

Ustad-şagird münasibətlərinin fonunda ata-övlad münasibətlərinin qovuşmasına aid saysız-hesabsız rəvayətlər yaranmış və bu rəvayətlər çox zaman Azərbaycan xalq pedaqogikasının müntəxabatlarına düşmək hüququ qazanmışdır. Əsrlərin sınaqlarından çıxmış bir sıra münasibətlər isə xalq pedaqogikası nəzəriyyəsinin əsasını təşkil edir.

Bir çox hallarda xalq pedaqogikasının problemləri bir müdrikin dilindən qələmə alınmış hekayət, rəvayət, deyim və

ya kəlamlar toplusunda öz əksini tapır. Elə bu deyimlərin tətbiqi ilə də həll edilir.

Öyrədən-öyrənən münasibətləri bəzən (çox zaman) usta-şagird münadibətləri səviyyəsində qalır. Bu münasibətlərin ustad-şəyird münasibətləri səviyyəsinə yüksəlməsi isə yuxarıda sadaladığımız ülvi hisslərin necə qovuşmasından asılıdır. Hər öyrənən şəyird, hər öyrədən ustad olmaz.

Bir xatırlama: Uşaq olanda bizə elə gələrdi ki, müəllim çörək yemir, su içmir, yuxuya getmir. Lakin sonralar gördük ki, biz yanılmışıq. Çox zaman müasir şagird haqqında söhbət düşəndə bu sözlər daha çox xatırlanır. Artıq şagirdlər müəllimin çörək yediyini bilirlər. Lakin bir çox şagirdin gözündə bir çox müəllimlər yenə də çörəkyeməz, suiçməz, yuxuyatmaz ilahi bir varlıq səviyyəsində qalır.

Müəllimini özünə ideal seçən şagirdlər indi də vardır. Ustadlar yaşayır. Ustada eşq olsun!!.

Kəlam: "Mən şagirdlərimdən utandığım üçün bu dəfə də ölmədim..."

Sadə adamlar öz müəllimlərini daha çox sevirlər. Şah olsalar da...

Haşiyə: Belə deyirlər ki, bir döyüşə gedərkən məşhur türk sultanı Sultan Süleymanın müəllimi Molla Gürani də sərkərdəni müşayiət edənlər arasında imiş. Yol gedərkən birdən müəlliminin atının ayağının altından çıxan palçıq padşahın əbasına yapışır. Padşah qoşunu saxlayır. Əbanı əynindən çıxarır və əyanlarına belə bir tapşırıq verir: "Palçıq əbanın yapışdığı yerindən düşməsin və muzeydə saxlanılsın. Qoy gələcək nəsllər görsün ki, müəllimimin atının ayağı altından qopan ğalçıq belə mənim üçün qiymətlidir".

Deyilənə görə, həmin əba indi də Türkiyənin Topqapı sarayındakı muzeydə müqəddəs bir eksponat kimi saxlanılmaqdadır.

Türk yazarı F. F. Tülbəndçi isə özünün "Müəllimə hörmət" hekayəsində Fateh Sultan Məhəmmədin öz müəlliminə olan ehtiramını belə qələmə alır:

"...Gözəl bir yaz səhəri idi. Türk padşahı fateh Sultan Məhəmməd at belində ordusu ilə İstanbula daxil olurdu. Sağında və solunda müəllimləri Ağşəmsəddin və Gürani də vardı. Şəhərin əhalisi həyəcanla qəhrəman türk ordusunu qarşılayırdı.

Adamlar əllərindəki çiçək dəstələrini padşaha vermək istəyirdilər. Hamı ağ saqqallı, ağır duruşlu Ağşəmsəddini padşah bilib çiçəkləri ona verməyə çalışırdı. Ağşəmsəddin atını bir qədər geriyə çəkib gözucu padşahı göstərir, "Sultan Məhəmməd odur. Çiçəkləri ona verin!" demək istəyirdi. Bunu hiss edən padşah isə əllərində çiçək ona tərəf gələnlərə Ağşəmsəddini göstərib dedi:

- Çiçəkləri ona verin. Doğrudur, Sultan Məhəmməd mənəm, amma o, mənim müəllimimdir!..

Şagird nankorluğu isə ikrah hissi ilə xatırlanır...

Haşiyə: ...Ustad pəhləvan öz şagirdlərinə güləşin bütün otuz doqquz fəndini öyrətmiş, onların hər bir qayğısına qalmışdır. Günlərin birində şagirdlərindən biri şöhrət iddiasına düşür. Özünü müəllimindən güclü sayır. Onunla güləşmək istədiyini bildirir. Məşqçi çox dilə tutsa da, şagirdini fikrindən döndərə bilmir. Şagird dostlarının məzəmmətləri də heç bir fayda vermir.

...Meydan hazırlanır. Hərə öz yerini tutur. Məşqçi (ustad) şagirdinin qarşısına çıxmağa vadar olur.

Qoca məşqçi (ustad!..) gənc şagirdinin çevik hərəkətlərini özünün ləngərli və dəqiq fəndləri ilə dəf edir. Şagird hücum edir, ustad isə müdafiə olunur. Güc və təcrübə, çeviklik və mətanət, şöhrət və qürur ... şagird və ustad qarşı-qarşıya döyüşür.

Güləş xeyli davam edir. Güc ilə ağıl baş-başa dayanıb. Bütün fəndlər işlənib, gah bu, gah da o üstələyir. Birdən şagird öz müəllimini çətin vəziyyətə salır. Ümidlər sozalır. Digər şagirdlər meydanın kənarında göz yaşı tökürlər...

Məşqçi son anda təmkinini pozmayaraq gözlənilmədən heç kəsin bilmədiyi bir fəndlə vəziyyətdən çıxır, şagirdinin kürəklərini yerə vurur. Və... həmin təmkin ilə də ayağa durur. Məğlub olmuş şagird yerindən qalxıb cığallıq edərək vəziyyətdən çıxmağa çalışır: "Usta, sən sonuncu fəndi bizə öyrətməmisən, bu, hesabdan deyil!.."

Qoca pəhləvan təmkinini pozmadan deyir: "Oğul, mən bu fəndi sənin kimi nankor şagirdlərdən qorunmaq və onları məğlub etmək üçün ehtiyat saxlamışdım!..."

Bir kəlam: Oğuldan şagird olmaz. Daha doğrusu,, "ustad oğlu şagird olmaz". (Zaman isə göstərir ki, şagirddən oğul olar.)

"Usta ilə şagird çəkici bir yerə vurmalıdır" – atalar sözünü çox zaman, çox yerdə, çoxları işlədir.

Ustadlar və şagirdlər olub, var və olacaq!..

EPİLOQ

Ən yaxşı miras ədəb, ən yaxşı yoldaş əxlaqdır.

ŞƏRQ ATALAR SÖZÜ.

SON

"SON"DAN SONRA

...Mən şagirdlərimin müəllimiyəm, lakin tərbiyəmdə müəyyən təsirləri olduğu üçün özümü onların şagirdi hesab edirəm...

...Mən hələ də şagirdlərimin arasında olduğum üçün özümü xoşbəxt hiss edirəm...

* * *

SÖZ
(Və ya söz haqqında bir neçə söz)

Çox danışmaq, çox demək və çox
bilmək eyni şey deyildir.

SOFOKL.

İnsan oxumağı yazmaqdan da qabaq öyrənmişdir. O, müxtəlif heyvanların ləpirini bir-birindən asanlıqla ayırmışdır. Axı ləpir də bir yazıdır.

İnsan təkamülünün zirvəsi sözdür. Səsin söz olması üçün insan əsrlərlə, eralarla çalışmışdır. Lakin sözün söz olması üçün indi də çalışmaqdadır.

Rəvayət: Deyirlər, bir gün Çin, Hind, İran və Rum padşahları bir yerə toplaşıb şərt qoyurlar: onlardan hər biri elə bir söz desin ki, dünya durduqca dursun.

Çin şahı deyir: "Mən demədiyim sözü ağzımda saxlamağa, dediyim sözü ağzıma qaytarmaqdan daha çox qadirəm".

Hind şahı deyir: "Mən o adama təəccüb edirəm ki, dediyi söz xeyrinə olduqda fayda verməsin, zərərinə olduqda onu məhv etsin".

İran şahı deyir: "Sözü nə qədər ki deməmişəm o, mənim qulumdur, elə ki dedim, oldu ağam".

Rum şahı deyir: "Mən demədiyim sözdən heç vaxt peşiman olmamışam, dediyimdən isə çox tez-tez peşimançılıq çəkmişəm".

"KƏLİLƏ VƏ DİMNƏ"dən.

Dahilər sözü insanlığın ən mühüm göstəricisi hesab etmişlər. Sözü zamanında, məkanında, məqamında işlətmək onun və müəllifinin dəyərini qat-qat artırır. Söz bütün dövrlərdə müdriklik göstəricisi, aqillik məhsulu kimi qəbul olunmuşdur. Söz müdriklərin və aqillərin ən kəskin silahı, ən dəyərli sərvəti olmuşdur, olur və olacaqdır.

Söz ağılın vitrinə qoyulmuş ən mətah nüsxəsidir. Əməl isə sözün cücərmiş, büyümüş və məhsul vermiş ağacıdır.

Kəlam: “Söz verdin əməl elə”.

Aqillər və müdriklər sözə insandan da yüksək qiymət vermişlər. Aqilləri sözlərinə görə tanımışlar. Söz bir çoxlarının ulduzlu, aylı, günəşli dünyasıdır. Söz bir çoxlarının ümid yeridir. Söz bir çoxlarının həyatıdır. Söz bir çoxlarının “çörək ağacı”dır.

Haşiyə: Söz dörd cürdür: Birini nə bilərlər, nə deyərlər. Birini həm bilərlər, həm də deyərlər. Birini deyərlər, lakin bilməzlər. Birini bilərlər, lakin deməzlər...

“QABUSNAMƏ”dən.

Söz ustaları sözlərin memarıdır. Söz ustaları bütün ustaların ustasıdır. Hər bir usta hər bir şeyi əvvəl sözlə, sonra isə əməllə öyrənmişdir. Ustalar ustalıq binasını söz bünövrəsinin üstündə quraraq ustalıq məqamınıa yetirmişlər.

Ən dəyərli söz sayı az, sanbalı çox olan sözdür. Sözün ən yaxşısı dinləyəni olandır. Sözün ən pisi düşmənçilik yaradan sözdür. Ən dəyərsiz söz eşidilməyən, “yerə düşən” sözdür.

Ən ucuz söz yalan, ən qiymətli söz atalar sözü, ən şirin söz tərif, ən acı söz həqiqətdir.

Kəlam: “Təkcə həqiqət gözəldir, söyləməyə təkcə o, layiqdir”.

BUALO.

Böhtan isə sözlər şeytanıdır.

Sözün kim tərəfindən, nə zaman, harada, nə məqsədlə deyilməsinin böyük əhəmiyyəti vardır.

Sözü arif məclisində aqil deyə, ariflər dinləyə - bu, səadətdir.

Sözü arif məclisində nadan deyə, ariflər dinləyə - bu, bədbəxtlikdir.

Sözü arif məclisində nadan deyə, nadanlar müzakirə edə - bu, fəlakətdir.

Sözü nadan məclisində aqil deyə, nadanlar dinləyə və ya dinləməyə - bu, cəhalətdir.

Sözü nadan məclisində nadan deyə, nadanlar dinləyə və ya dinləməyə - bu, rəzalətdir.

Yolda piyada olmaq eyib deyil. Ən böyük bədbəxtlik sözdə, dildə və düşüncəndə piyada olmaqdır.

Ən böyük aqil yeri gələndə danışmırsa axmaq, ən axmaq adam isə yeri gələndə danışırsa (və ya danışmırsa!...) ağıllıdır.

Söz insan üzərinə çəklmiş örtükdür. İnsan şəxsiyyətini müəyyənləşdirmək üçün mütləq onun söz örtüynü götürmək lazımdır. Dil isə sözün örpəyidir. Deməli, insan şəxsiyyəti dil adlı örtüyün (örpəyin...) altında gizlənmiş xəzinədir. Həmin xəzinəni aşkar etmək üçün dili hərəkətə gətirmək, söz örtüyünü götirmək lazımdır.

Aqillər demişdir: “Hər kəs öz sözünün altında gizlənmişdir”.

Çox bilib az danışmaq insan gözəlliyi, az bilib çox danışmaq isə insan naqisliyidir. Mən elə ağıllı adam tanıyıram ki, o, nə zamansa bir məclisdə təsadüfən çox danışdığı üçün bir neçə adama axmaq adam təsiri bağışlamışdır.

Elə axmaq tanıyıram ki, o nə zamansa bir məclisdə təsadüfən (təkrar edirəm: təsadüfən!) az danışdığı, demək olar ki, danışmadığı!.. üçün bir neçə adama ağıllı adam təsiri bağışlamışdır.

Dağıstanın milli qəhramanı Hacı Murad deyərmiş: “Göz də güllədir, havayı işlətmə”.

Rəvayət: Bir nadanın ara vermədən danışdığını görən Demokrit belə demişdir: “Bu adam danışmamağı bacarır, amma susa bilmir”.

Sözü dilsiz, dili sözsüz təsəvvür etmək mümkün deyildir. Rus fizioloqu İvan Petroviç Pavlov nitqi ikinci siqnal sistemi adlandırmışdır.

Sözlər dilin nemətidir,
Dil də sözlərin mədəni.

Sözlər dilin balasıdır,
Dil anadır, dil də nənni.

Dildir, dildir sözün qını,
Dil – söz oxu, söz kamanı.
Dildir sözün dəyirmanı,
Söz dil unu, dil söz dəni.

Dil bir nərdir, söz də bir nər,
Dil sözə zər, söz dilə zər.
Söz – süvari, dil bir kəhər,
Dil söz atı, söz yüyəni.

Söz – dil şehi, söz – dil gülü,
Söz – dil közü, söz – dil külü.
Dil – söz xışı, dil – söz vəli,
Söz bir şumdur, söz bir zəmi.

Söz – dil şahı, söz – baş tacı,
Söz – insanın sönməz gücü.
Söz – kainat, dil – söz bürcü,
Söz dəryadır, söz də gəmi.

Fərhadoğlu sözün özü,
Əməlində sözün izi.
Özündən çox sevər sözü,
Ürəyidir söz vətəni...

Sirr sözdən olur, sirri sözlə açarlar. Hər xəzinənin öz açarı olur. Sirrin açarı isə sözdür. Hər gizli sözə sirr deməzlər. Sözün sirr olması üçün o, xüsusi çəkiyə və əhəmiyyətə malik olmalıdır.

"... Hər söylənən el hikməti,
Hər gizli söz sirr olammaz..."

Söz də quş kimidir, uçdumu geri qaytarmaq olmaz. Ağız sözün yuvasıdır. Söz ağızdan çıxar, ağız-ağız gəzər.

Söz buxovdan açılmış atdır. Cilovdan çıxdımı, cilova gəlməz.

Boş-boş danışana baş qoşmaq tövsiyə olunardı: ”Onun sözünün başına ip salan kimdir?!”

Hər bir insan sözlərinin allahı, həm də müti bəndəsidir. Hər bir insan sözlərinin yoldaşı , sirdaşı, qardaşıdır.

Kəlam: ”Sözlərin müsahibi olmaq necə də xoşdur”.

Hər bir insan öz sözləri ilə danışır. Hər bir insan öz sözlərinin mədənidir. O, sözlərinin yanar dağıdır. Sözlər insanın püskürən vulkanı, qaynar və ya soyumuş lavaşıdır.

İnsan söz ağacıdır. Sözləri isə onun meyvəsidir. İnsan söz zəmisidir. Sözləri isə onun dənidir. İnsan söz planetidir. Sözləri isə onun sakinləridir. İnsan söz bulududur. Sözü isə onun qarı, yağışı, dolusu, şimşəyidir. İnsan sözün özüdür!..

Söz canlıdır – cansızdır, ağırdır – yüngülgür, böyükdür – kiçikdir, haraydır – sükutdur, rənglidir – rəngsizdir, ağdır – qaradır, şirindir – acıdır...

Söz gözə görünəndir, söz gözə görünməzdir. Söz səsə çevrilmiş insandır. Hər söz səsdir, lakin hər səs söz ola bilməz. Söz insan bəzəyi, insan çiçəyi, insan neməti, insan zirehi, insan alovu, insan közüdür...

Söz insanın ən mühüm kəşfidir. Söz dünən, söz bu gün, söz sabahdir...

Söz heç nədir, söz çox şeydir, söz hər şeydir. Söz – sözdür!...

Əziz oxucu, hiss etməmiş olmazsınız ki, burada klassiklərin söz haqqında dediyi kəlamlardan məhdud miqdarda istifadə olundu. Axı məqsəd söz ümmanının çox dərin qatlarına baş vurmamaq idi. Çünki söz haqqında söz demək üçün daha qüdrətli qələmə sahib olmaq vacibdir. Çörəyi sözdən çıxan bir

adam kimi (müəllimlik peşəsini nəzərdə tuturam) bu etirafı mənə qüsur hesab etməsəniz özümü bəxtiyar sayardım...

EPİLOQ

Hər kəs dilinin altında gizlənmişdir.
ƏLI ƏMIRƏLMÖMİNİN.

Heç nə deməmək, heç nə deməkdən yaxşıdır.
ANATOLİ FYODOROVİÇ KONİ.

SON

"SON"DAN SONRA

Dil olanda dişlər hələ yox idi.

Sözlərim mənim silahım, zirehim və səngərimdir.

Söz qiymətlidir. Sözdən söz qiymətlidir. Sözdən bəzən sükut qiymətlidir...

* * *

ETİKA

Heç bir millət əxlaq qaydalarına
əməl etmədən yüksələ bilməz.
MUSTAFA KAMAL ATATÜRK.

Etika - əxlaq haqqında elmdir...

Azərbaycan xalq pedaqogikasının ana xəttini humanizm təşkil edir. Ustad şagirdinə yüksək səviyyədə tələbkarlıq və yüksək səviyədə qayğı göstərərdi. Ustad-şagird, ağsaqqal-cavan, ata-oğul, kişi-qadın, böyük-kiçik arasında yüksək səviyyəli etik normalar, milli adət-ənənələr çərçivəsində mövcud olmuşdur. Bu etik normalar zaman keçdikcə cilalanmış, zənginləşmiş, varlıqlara hopmuş, milli qanun şəklini almışdır. Kim bu etik normaları pozsa xalqın qəzəbinə düçar olardı.

Haşiyə: "... Koroğlu Cəfər paşanı xirtdəklədi, yıxdı, sinəsinə çökdü. Misri qılıncı çəkib başını kəsmək istəyəndə Telli xanım özünü atasının üstünə saldı, başından yaylığını açıb Koroğlunun ayağının altına atdı, dedi:

— Ay Koroğlu, igid basdığını kəsməz, bu dəfə atamı mənə bağışla.

Koroğlu Cəfər paşanın sinəsi üstündən qalxdı, dedi:

— Get, səni Telli xanıma bağışlayıram, bir də qabaqlaşsaq əminəm, can qurtara bilməyəcəksən..."

Əgər Koroğlu yaylığı ayaqlayıb keçsə idi, Koroğlu olmazdı. O ya keçəl Həmzə, ya Yalıncıq, ya Bolu bəy, ya da Alp Aruz olardı...

"Koroğlu böyük-kiçik yeri bilən qəhrəmandır". O ən çətin məqamlarda belə öz etik ləngərini pozmur, təmkin mehvərindən kənara çıxmır, əsəblərinin cilovunu əldən buraxmır.

Rəvayət: ... Şah məğlub etdiyi əsirləri saxsı qırıntıları üstündə ayaqyalın rəqs etməyə məcbur eləyir. Əsir qadınlar kişi tayfadaşlarının yanında başı və üzü açıq şəkildə ağlaya-ağlaya onlarla birlikdə rəqs edir. Bu zaman şah meydana yaxınlaşır, onu görən qadınlar yaşmaqlarını üzlərinə çəkirlər. Şah maraqla soruşur:

— Nə üçün yaşındınız?

— Qadınlar kişi yanında üzü açıq gəzməzlər! – deyə onlar cavab verirlər.

— Yanınızdakılar məgər kişi deyilmi?!

Qadınların başçısı deyir:

— Xeyr, onlar artıq kişi deyillər. Burada yalnız bir kişi var. O da sənsən. Biz sənə görə yaşmaqlanırıq!..

Bir göz qırpımında möcüzə baş verir. Əsir kişilər bir anda şahı parça-parça edirlər. Onları təhqir etdikləri üçün geri dönüb qadınları da parçalamaq istərkən onların hamısını yaşmaqlı görüb əl saxlayırlar. (Artıq meydanda bir deyil, xeyli kişi vardı!..)

Yaşmaq-həya pərdəsi, eyiblər və eyibsizliklər örtüyü. Yaşmaq-məhrəmlik hasarı. Yaşmaq-etika çəpəri. Yaşmaq niqabın adaşı, niqab-yaşmaqğın böyük qardaşı və ya bacısı...

Papaq kişilik, çarşab qadınlıq nişanəsi...

“Kitabi-Dədə Qorqud” dastanında dörd nəfər niqablı igid təsvir olunub.

(Deyilənə görə keçmişdə oğuzlarda çox gözəl olan kişilər və igidlər niqablı gəzərmiş. Bu Avropada da dəbdə olmuşdur. Yazıçı Bayron da niqablı gəzənlərdən imiş. Bu, Dədə Qorqud dövründən çox-çox sonralar olmuşdur...)

“Oğuzlarda dörd igid üzörtüyü ilə gəzirdi. Biri Qanturalı, biri Qaraçəkir və oğlu Qırxqınıq, biri də bozayğırlı Beyrək...”

“KITABI-DƏDƏ QORQUD”dan.

"...Banıçiçək dedi: "Ay qızlar, bu necə igiddir?" Qızlar: "Vallah, sultanım, bu igid üzü örtüklü, yaxşı igiddir. Bəy oğlu bəy imiş", dedilər.

Banıçiçək dedi: " Hey, hey dayələr, atam həmişə mənə, səni üzüniqablı Beyrəyə vermişəm, deyərdi. Olmaya, bu ola, çağırın bir xəbərləşim" – dedi.

"... Qanturalı niqabını yana atdı. Qız köşkdən baxırdı. Belbağısı boşaldı, ehtirasdan övsəl olmuş dana kimi ağzının suyu axdı. Yanındakı qızlara dedi: "Kaş Allah taala atamın könlünə rəhm salsın, kəbin kəsdirib məni o igidə versin. Bunun kimi igid heyfdir ki, o heyvanların əlində həlak ola!..

("Kitabi-Dədə Qorqud" dastanı, "Qanlı qoca oğlu Qanturalı" boyu).

Haşiyə: ... Koroğlu xotkar qızı Nigarı İstanbuldan Çənlibelə qaçırır. Yolda dincələn zaman Nigarın qardaşı Burcu Sultan onları haqlayır.

"...Burcu Sultan gəlib çatdı. Nigarı Koroğlunun tərkində görcək dedi:

— Qızı ver, quldur!

Koroğlu dedi:

— Xotkar oğlu, hirslənmə! Bacını aparmaq istəyirsən, gəl apar, day söyüş niyə söyürsən? İndi bir işdi oldu.

Burcu Sultan bu sözü eşidib bir az da cürətləndi. Qəzəblə dedi:

— Necə ki, yəni bir işdi olub? Mən onu sənin başınla birgə aparacağam.

Koroğlu gülə-gülə dedi:

— Çox gözəl! Mən də razıyam, ancaq, xotkar oğlu, deyəsən tələsmisən, yəhərin qayışını yaxşı bərkitməmisən. Onu düzəlt, sonra dava eləyək, birdən yıxılarsan, elərsən, Nigar xanımın ürəyi sıxılar.

Burcu Sultan əyildi ki, yəhərin qayışına baxsın Koroğlu fürsət verməyib, tez onun peysərindən yapışdı. Burcu Sultan nə

qədər əlləşdisə boynunu onun əlindən qopara bilmədi. Koroğlu dedi:

— Xotkar oğlu, istəsəm bu saat səni yerə vurub parça-parça edərəm. Amma bax bir şey eləmirəm, buraxıran ki, çıxıb gedəsən.

Burcu Sultan onun əlindən qurtaran kimi atının başını çevirdi, qəflətən dönüb ona hücum elədi. Koroğlu tez atı sağa sıçratdı. Burcu Sultan dönüb əlindəki nizəni Koroğluya atdı. Koroğlu nizəni göydə tutub onun əlindən aldı, özünü də atın üstündən dik qaldırdı, yerə atdı.

Nigar işi belə görəndə dedi:

— Koroğlu, görürəm hirslənmisən, haqqın da var. Amma gərək onu mənə bağışlayasan, O, mənim bircə qardaşımdı.

Koroğlu Burcu Sultanı yerdən qaldırdı, üzünü Nigara tutub dedi:

Açılıbdı sinən gülü,
Dönübdü xəndana, Nigar!
Şirnən tülkünün nə işi,
Girəydi meydana, Nigar!..

...Koroğluyam, bel bükəndə,
Misri qılıncı çəkəndə.
Başları yerə tökəndə,
Susayaram qana, Nigar!

Sonra o, Burcu Sultanı buraxıb dedi:

— Get, səni Nigara bağışlayıram. Amma bax, deyirəm, bir də qabağıma çıxsan öldürəcəyəm.

Bunu deyib Koroğlu təzədən Qıratı mindi. Nigar da tərkində yola düşdü. Burcu Sultan utandığından nə geri gedə bildi, nə də ki, tək qabağa gedə bildi. Bir yerdə daldalanıb o qədər gözlədi ki, qoşun gəlib çatdı. Təzədən onları da götürüb Koroğlunun dalınca düşdü.

Koroğlu bir də dönüb baxdı ki, arxadan qoşun gəlir. Qıratın başını döndərib dayandı, gözləməyə başladı. Nigar gördü ki, Koroğlu dava eləmək fikrindədi, dedi:

— Koroğlu, gərək məni götürüb qaçmayaydın. İndi ki, aparırsan, dayanma sür, gedək! Atamın qoşunu çoxdu, sən təksən. Onlarla bacarmazsan, dava eləmə!

Koroğlu dedi:

— Mən səni Çənlibelə bu cür apara bilmərəm. Sonra deyərlər ki, Koroğlu gəlib xotkarın qızını oğurlayıb ararıb, mən gərək dava eləyəm.

Bu sözdə qoşun gəlib çatdı...” (Sonra dəlilər də gəlib çıxdı...)

Haşiyəyə haşiyə: ... Kürdoğlu atasını tapmaq ümidi ilə Dərbənddən Çənlibelə gəlib “Yağı qoruğu”nda üç Koroğlu dəlisini yıxıb əl-qolunu bağlayır. Nəhayət, Koroğlu gəlir. Kürdoğlu iki dəfə onu məğlub edir, lakin hər dəfə güzəştə gedir.

Təzədən uçüncü dəfə güləş başlayır. Xəbər Nigar xanıma çatır.

“...Nigar xanım nə qədər elədisə onları ayıra bilmədi. Kürdoğlu cavan, təcrübəsiz! Koroğlu yüz ilin Koroğlusu, Kürdoğlu yoruldu, Koroğlu bir nərə çəkərək Kürdoğlunu götürüb yerə vurdu. Çöküb sinəsinə xəncəri çəkdi ki, başını kəssin. (Əziz oxucum, yəqin ki, sən də Nigar xanımın gəlişinin Koroğlunu ilhama gətirməsi fikri ilə həmrəy olarsan...) Nigar xanım tutub xəncəri onun əlindən aldı. Dedi:

— O, səni iki dəfə yıxıb kəsməyib. Sən onu bir dəfə yıxcaq kəsirsən? Bu namərdlik Koroğlu adına yaraşarmı?”

(Bir dərd bilən yoxdu dərdim çağlayam,
Dost yolunda mən də qolu bağlıyam.
Kürdoğluyam, Koroğlunun oğluyam,
Yerim xəbər alsan dağıstanlıyam.)

Yada “Rüstəm və Söhrab” dastanı düşür. Ancaq burada sonluq daha ürəkaçan şəkildə bitir.

Xalq dastanlarımız ustadnamə ilə başlayır. Hər ustad kəlməsi insan oğlunu tərbiyəyə səsləyən etika carçısıdır.

Özündən kiçiyi buyurma işə,
Sözün yerə düşər, heç miqdar olmaz.
Hər nə ki, kar görsən öz əlinlə gör,
İnsan öz işində cəfakar olmaz...

"VAQİFİN DASTANI"

Və ya:

Bir yerə gedəndə özünü öymə,
Şeytana bac verib, kimsəyə söymə.
Əgər güclü isən fağırı döymə,
Demə var qüvvətim, qolum yaxşıdır...

"YƏHYA BƏY VƏ DOSTU XANIM."

Dialoq:

— Məni ölkədə hamı tanıyır!

— Məni isə öz kəndimizdə hamı tanıyır!..

...Mən hələ saymamışam ki, neçə dostum var, Bəlkə də heç onlar yoxdur. Hər halda o vardır. Daha doğrusu mən adamların (oxu: əsl adamların!) dostuyam.

Kəlam: "Əgər etibarlı dostun yoxdursa, sən özün özünə dost ol".

PİFAQOR SAMOSLU.

Dastanları müdriklər yaratmış, müdriklər tərəfindən müdriklərə çatdırılmışdır. Dastanlar müdriklik məktəbidir. Dastanlar müdriklik qidasıdır. Elə bir dastan yoxdur ki, orada xalq etikasından kənara çıxılsın. Xalq etikası xalqın min illər ərzində cilalanmış, sınaqlardan çıxmış Ana yasasıdır. Hələ yazı və informasiya vasitələri olmadığı dövrlərdə xalq etikası xalq müdriklərinin təbliğində vətəndaşlıq hüququ qazanmışdır. Aşıqlar isə bu müdriklik məktəbinin şagirdləri və müəllimləri idilər. Etikası olanlar daha qüvvətli idilər. Etika keçmişdə də güclülük rəmzi, güclülər yaraşığı idi.

Rəvayət: ... Belə deyirlər ki, Makedoniyalı İsgəndər amazonkaların açıq-saçıq gəzdiklərini gördükdə onların başçılarına (Nüşabəyə) deyir:

— Qızlarınızı belə görən əsgərlərim çox həyəcanlanır. Birdən özlərini saxlaya bilməyərək onlara təcavüz edərlər. Axı, onlar xeyli müddətdir ki, ailələrindən ayrılıblar, çoxdandır qadın üzü görməyiblər...

Amazonkaların başçısı isə cavabında belə söyləyir:

— Ən cəsur, silahlı əsgərini irəli çıxart. Ən zəif bildiyin qızımız əliyalın təkbətək döyüşdə bir anda onu parça-parça edər.

Sərkərdə:

Hər halda onlar bir qədər örtüklü gəzsələr yaxşı olar – deyə cavab verir.

Çıxış yolu tapılır. Bir neçə gündən sonra səhər bulaq başında mərmərdən yonulmuş çadralı bir qadın heykəli peyda olur. Qızlar həmin gündən etibarən çadra örtürlər...

Şahlar və sərkərdələr (oxu: əsl şahlar və əsl sərkərdələr) hətta ən çıxılmaz məqamlarda belə öz etik mizanlarını pozmaz, etika cığırlarından çıxmaz, etikanın və ədəb-ərkanın qıl körpüsündə büdrəməzlər.

Ədəb-ərkan əsl şahlar üçün əsl Ana yasa olmuşdur. Onlar məğlub olacaqlarından, qalib gələcəklərindən asılı olmayaraq xalq etikasını, ədəb-ərkan qaydalarını zərrəcə pozmamışlar.

Haşiyə: ... “Şah İsmayıl sözə başladı:

— Bizim bugünkü halımız hamınıza bəllidir. Sultan Səlim qara div kimi nəhəng bir qüvvə ilə Təbrizin qarşısını kəsib. İstər-istəməz, haqq-nahaq biz də qılıncımızı qından çıxarmalıyq. Bu günə qədər mən vuruşub qardaş qanı tökmək istəmirdim. Ayrı çarəmiz yoxdu. Qaradan artıq boyaq olmaz. Sultan Səlimi inandıra bilmədik. İndi gəlin tədbir tökək. Xan Məhəmməd Ustaclı, sən həmişə sərhəddə yaşamış, səlcuqlarla vuruşmusan. De görək, fikrin nədir?

Xan Məhəmməd Ustaclı əlini bığına çəkdi.

— Şah sağ olsun. Onlar həmişə mənimlə gecə döyüşlərində qalıb gəlmək istəyirdilər. Görünür gecə basqınlarından qorxurlar. Mən təklif eləyirəm ki, onların ordugahına gecə dörd tərəfdən hücum edək. Yeri-yurdu biz yaxşı tanıyırıq. Həm də onların topu çoxdur. Gecə onu ata bilməyəcəklər. Üstünlük bizim olacaq.

Piri bəy Qacar yerində qurcuxdu:

— Yolkəsənik?

Bu söz bəs elədi.

Şah İsmayıl xan Məhəmməd Ustaclı ilə razılaşdığı anda Piri bəyin dediyi söz onu fikrindən döndərdi.

— Bəli, biz yolkəsən deyilik. Öz evimizin içində Sultan Səlimin üstünə gecə basqın eləsək səs salacaqlar ki, bəs biz karvan kəsən quldur dəstəsiyik. Özgə təklifin varmı?" (Fərman Kərimzadənin "Çaldıran döyüşü" romanından.)

Şah İsmayıl Xətayi və onun sərkərdələri hətta qanlı döyüş ərəfəsində də etik normalardan kənara çıxmağı qəbahət hesab edirlər.

Etika şahlara tacdan və taxtdan da çox şöhrət gətirir.

İnsan qəzəbli olanda etik sərhədləri pozur, orbitindən kənara çıxır, özünün iradə cilovunu əldən verir. Bəlkə də insan belə hallarda özünün təbii xüsusiyyətlərini biruzə verir.

Kəlam: "Qəzəb zamanı hər hansı bir hərəkət və danışıq fəlakət törədə bilər".

Daha bir kəlam: "Dostları ehtiyac, müdrikləri qəzəb sınağından keçirt".

Hamıya hörmət etməyi adət etmiş bir nəfərə qonşusu irad tutur: "Sən də çox qəribə adamsan, hörmətə layiq olmayanlara da yüksək etika ilə yanaşırsan". Həmin adam isə cavab verir ki, mən heç kimə deyil, yalnız özümə hörmət edirəm.

Böyük filosof və riyaziyyatçı Samoslu Pifaqordan bir kəlam: "Hər şeydən əvvəl özünə hörmət etməyi unutma".

Özünə hörmət hamıya hörmətdən, hamıya hörmət isə özünə hörmətdən yaranır.

Kəlam: "Nəzakətli adam paxıllıq bilmir, mülayim olur".

ABBASQULU AĞA BAKIXANOV.

Mən elə adamlar tanıyıram ki, onlar cəmiyyət arasında böyük hörmətə və nüfuza malikdirlər. Onlar hamıya qayğı və hörmətlə yanaşırlar. Lakin ailədə qəddar və acı təbiətlidirlər. Evdə ona hörmətlə deyil, qorxu hissi ilə hörmət edirlər.

Bunun əksi olan hal da az təsadüf edilmir. Elə adamlar vardır ki, ona ailədə çox yüksık hörmət göstərirlər. Onlar ideal ailə başçılarıdırlar.

Belə deyirlər ki, Dağıstanın milli qəhrəmanı Şeyx Şamil ümumxalq hörmətini ailədə qazanmışdır. O, evə daxil olduqda əvvəl anası, sonra isə digər ailə üzvləri ayağa qalxarmış. Sonra qonşular, sonra aul, sonra oba, daha sonra bütün Dağıstan ona hörmət göstərmişdir.

Mən idman və siyasət arenalarında məğlub olanların qalibləri təbrik etdiklərini çox kövrəkliklə seyr edirəm. Etika məğlub olanların qələbə libasıdır.

EPİLOQ

... Qorqud ata Oğuz xalqının çətin işlərini həll edirdi. Nə olsa Qorqud ataya danışmayınca iş görməzdilər. O, nə buyursa, qəbul edirdilər, sözün tutub gedərdilər...

"KİTABİ-DƏDƏ QORQUD"DAN.

SON

"SON"DAN SONRA

Özünə hörmət qoymağı bacaranlar ən etikalı adamlardır.

* * *

CƏZA, YOXSA TƏNBEH ...

Əfv edib bağışlayan şahlar bağışlamayanlardan daha yaxşıdırlar, çünki gücü göstərdikdən sonra bağışlamağın başqa hüsnü var.

NƏSİRƏDDİN TUSİ.

Cəza dedikdə, nədənsə, yadıma falaqqa düşür. Halbuki cəzanın növləri xətaların, günahların, cinayətlərin sayından dəfələrlə çoxdur. Cəza – törədilən xətaya, günaha, cinayətə qarşı görülən tədbirdir. Keçmiş zamanlarda günahkarı falaqqaya salıb ayaqlarının altına çubuqla döyərmişlər. Bu üsulla mədrəsə şagirdlərini cəzalandırardılar. Həmişə düşünürdüm ki, nəyə görə şagirdin ayağının altını çubuqlamışlar?!

Sonralar ayaq altının quruluşu ilə tanışlıq orada bir neçə bioloji fəal nöqtənin olması haqqında bilgi verdi. Həkimlər bir sıra əsəb xəstəlikləri zamanı həmin nöqtələrin müxtəlif üsullarla (qumda ayaqyalın gəzmək, ayağa içərisi milli başmaq geymək, iynə batırmaq, dağlamaq və s.) qıcıqlamağı məsləhət görürlər. Belə nöqtələrdən biri "Yun – tsüan" adlanır. Bir sıra xəstəliklərdə həmin nöqtəni massaj etmək məsləhət bilinir.

Rəvayət: ...Bəhram Gur öz vəzirinə çox inanırmış. Şah ölkənin idarə olunmasını ona tapşırıb özü ov, əyləncə, eyş-işrətlə məşğul olurmuş. Vəzir isə ölkəni bildiyi kimi idarə edirdi. Bir gün düşmən ölkənin Bəhram şaha qarşı müharibəyə hazırlaşdığı aşkar oldu. Şah özünü döyüşə hazırlamaq məqsədi ilə xəzinəyə baş çəkdi. Xəzinə boş idi. Məsləhət üçün aqilləri çağırtdırdı. Onlar ya zindana atılmış, ya da ölkədən didərgin salınmışdı.

Sabah Bəhram şah tək, fikirli halda ata minib səhraya üz tutur. Bir də onda ayılır ki, xeyli yol getmiş, istiqaməti itirmişdir. İsti və susuzluqdan əziyyət çəkir. Tüstü görüb ora tərəf getdi. Çadıra çatdıqda qoyun arxacı və orada dara

çəkilmiş bir it gördü. Çoban onu qarşıladı, yemək təşkil etdi, lakin şah olduğunu hiss etmədi.

Bəhram şah dedi: “ Bu sirri mənə açmasan çörək yemərəm. Nə üçün o iti dara çəkmisən?”

Çoban itin onun sadiq dostu olduğunu, sürünü etibarla qoruduğunu söylədi. O dedi: “... Lakin birdən vəziyyət dəyişdi. Qoyunlar günbəgün azaldı. Bir dəfə səhradan odun yığıb qayıdanda bir canavarın cürüyə yaxınlaşdığını görüb gizləndim və gözləməyə başladım. Demə, itim bir dişi canavarla dostluq edirmiş. Canavar itimin məhəbbətinə arxayın olub hər gün sürüdən bir qoyun aparırmış. Bəli, mənə xəyanət etdiyi üçün onu asdım...”

Şah taxta çıxaraq araşdırdı ki, ölkəni bu günə salan onun vəziridir. O, vəzirin evində axtarış apartdırdı. Məlum oldu ki, o, gizlində düşmən ölkənin şahı ilə yazışırmış. Şah öz vəzirini çoban itini dara çəkən kimi dara çəkdirdi”.

Oxucum bu rəvayəti daha müfəssəl şəkildə Nizami Gəncəvinin “Həft peykər” (“Bəhramnamə” və ya “Yeddi gözəl”) və Nizamülmülkün “Siyasətnamə” əsərlərində oxuya bilər. Mən isə sadəcə olaraq hadisəni nənəmin uşaq vaxtı mənə söylədiyi şəkildə şərh etməklə kifayətlənirəm.

Cinayət cəzasız qaldıqca fəlakətə səbəb olar. Cəza ədalətli olduqca tərbiyəvi təsir göstərir, tərbiyə isə insanın və insanlığın bəzəyidir.

Elə xətalar vardır ki, onu bağışlamaqla aradan qaldırmaq olar. Lakin bağışlanılması mümkün olmayan xətalar (günahlar) da vardır. Ən ağır günah insanlığa və vətənə xəyanətdir.

Ümumiyyətlə, padşahlar haqqında yazılmış bütün əsərlər cəza-əfv, xəyanət-sədaqət, rəzalət-səadət çalarları ilə zəngindir. Şahların ən yaxşısı ədalətli olan, şahların ən pisi isə zalım olandır.

Böyüklərin günahı da böyük olur. Şah ölkədə hamıdan böyük olduğu üçün ən böyük günüh da şah günahıdır. Şahın

böyüklüyü həm də öz günühını səmimiyyətlə etiraf etməsindən bilinər. Günahı cəzasız buraxmaq onu peyvənd etməyə bərabərdir. Padşahın müdrik olması onun şöhrətini daha da artırır. Müdriklər padşah olmaya da bilər. Lakin padşahlar müdrik olmalıdır.

Məşhur fateh Çingiz xan ölkəsində özünəməxsus cəza və tənbeh üsulları tətbiq edərmiş. Uşaqdan böyüyə hər bir vətəndaş onun "14 günah üstündə 14 ölüm cəzası" adı altında tərtib etdiyi "Yasağı" əzbər bilirdi. Onun mərhəməti və nifrəti sonsuz idi. Çingiz xan günahsız uşağı incidən adamı edam etdirdiyi halda, quş balasını incidən uşağa ölüncə şallaq vurdurardı.

O, qorxaq və ürkək atları şaqqalatdırardı. Lakin üzünü qibləyə çevirməmiş atı kəsən adamın başını bədənindən ayırtdırardı. Və ya xaqan öz naiblərinə cüzi yaxşı işi müqabilində qiymətli bəxşişlər verdiyi halda sümüyü sümüklə sındırmaq üstündə ən sevimli naibini bədöy atın quyruğuna bağlatdırardı.

O deyirdi: "14 günahdan başqa yerdə qalan günahları bağışlamaq mümkündür. Bu məqsədlə qan tökməmək olar!"

Ümumiyyətlə, Çingiz xan özündən və hamıdan doğruluq və vəfa tələb edərdi.

Kaş hərənin qəlbində bir Çingiz xan yaşayaydı... Onda heç bir cinayət olmazdı, heç cəza tədbirinə də ehtiyac qalmazdı.

Haşiyə: ... Terrorçu qadın Şarlotta Korde fransız xalqının sevimlisi inqilabçı Jan Pol Maratın mənzilinə soxulur. Bu zaman məşhur inqilabçı daim əziyyət çəkdiyi ekzema və dəri yaralarına qarşı vanna qəbul edirmiş. Şarlotta paltarının altında gizlətdiyi bıçaq ilə onu öldürür.

Tezliklə qatili həbs edirlər. O, ölüm cəzasına məhkum olunur. Hökmün icrası Fransada 200 il cəlladlıq təcrübəsinə malik Sansonlar sülaləsinin nümayəndəsi Sansona həvalə olunur.

Cəllad bütün qaydalara əməl edərək terrorçunun başını kötük üzərinə qoyub gilyotinlə onun boynunu vurur. Baş, eşafotun səbətinə düşür.

Marata xüsusi rəğbəti olan cəllad terrorçunun başını səbətdən götürərək onun üzünə bir şillə vurur. Lakin məşhur cəllad bunun müqabilində vəzifəsindən uzaqlaşdırılaraq ağır cəza alır. Çünki qaydalara görə günahkarı cəzalandırmaq olar, lakin onu təhqir etmək yolverilməzdir.

Haşiyəyə haşiyə: ... Maratı öldürmüş Korde edam edilməzdən əvvəl həbsə alınır. Axtarış zamanı onun üstündən yalnız iynə və sap aşkar edilib götürülür. Nəzarətçilər maraq içərisində ondan soruşurlar: "Bunlar sənə nə üçün lazımdır?"

Şarlotta Korde soyuqqanlılıqla cavab verir: "Məm bilirdim ki, Maratı öldürdükdən sonra camaat kütləsi mənə divan tutacaq. Bu zaman mənim paltarlarım cırıq-cırıq olacaqdır. Mən isə cəllad qarşısında, eşafot və gilyotin önünə cırılmış paltarda getmək istəmirdim!.."

Cəza tərbiyəyə səbəb olduğu kimi və tərbiyəyə xidmət etdiyi üçün tərbiyə ilə də cəzalandırmaq olar. Tarixdə bir çox hallarda övlad valideyninin, valideyn də övladın cəzasını könüllü olaraq çəkmək istəmişdir. Lakin bunu sərkərdələr və xaqanlar etdikdə daha ibrətamiz təsir bağışlayır.

Rəvayət: ... "Bir qanlı döyüşdən sonra böyük itki verən Şeyx Şamil yorğun və yaralı halda öz doğma auluna qayıdır. Bir daşın üstündə oturur. Aulda kimsə qəmli bir mahnı oxuyur. Şamil ölkədə mahnı oxumağı qadağan etdiyi üçün soruşur ki, mahnı neçə misradam ibarətdir?

— Yüz iki misradır – deyə cavab verirlər.

Şamil qəzəblə öz müridinə deyir:

— Mahnını oxuyanı tapın və onun kürəyinə yüz qamçı çəkin, ikisini saxlayın, mən vuracağam.

Mürid hazırlaşır. Şamil yenə həmin ahənglə soruşur:

— Mahnını kim qoşub?

Hamı başını aşağı dikib susur.

Şamil:

— Sizdən soruşuram, mahnını kim qoşub? – deyə yenidən xəbər alır.

Bu zaman Şamilin beli bükülmüş anası əlində süpürgə onlara yaxınlaşır. O deyir:

— Oğul, bu ağı-mahnını mən qoşmuşam. Bu gün elimiz matəm içindədir, dözmək olmur. Ver süpürgəni əmri yerinə yetirsinlər.

(Qoyulmuş qaydaya görə mahnı oxuyan qadın olarsa süpürgə ilə, kişi olarsa qamçı ilə belinə misraların sayı qədər zərbə vurulmalı imiş.)

Şamil süpürgəni anasının əlindən alıb divara söykəyərək deyir:

— Ana, sən get evə!

Anası bir söz deməyib gedir. Şamil deyir:

— Ananın cəzasını oğul çəkməlidir. Sonra yarağını, kəmərini, çuxasını bir kənara atır, qurşağa qədər soyunur və taxtın üstünə uzanaraq müridinə deyir:

— Götür qamçını işə başla!

Mürid nə edəcəyini bilmir. Şamil yenidən hirslənəndə o, qamşı ilə onu astaca döyəcləyir. Bunu görən Şamil yerindən qalxaraq müridə taxtın üstünə uzanmağı əmr edir. Sonra qamçı ilə ona güclü zərbə vurur. Yenidən yerinə uzanaraq müridə qışqırır:

— Belə vur, bildinmi?!

Mürid onu qamçılamağa başlayır. Lakin sayı hər dəfə artıq deyir. Şamil yenidən hirslənir.

Nəhayət, cəza qurtarır. Mürid qan-tərə batır. Şamilin isə beli zolaq-zolaq qançır olur. O heç nə olmamış kimi cəld yerindən qalxıb geyinir, qılıncını, kəmərini bərkidir. Üzünü camaata tutaraq deyir:

— Dostlar, biz vuruşmalıyıq. Hələ mahnı oxumaq vaxtı deyil!..”

Bir çox hallarda günahkar cəzalanmağı ilə təsəlli tapır. Cəzasızlıq cinayətin pərvazlanmasına kömək edir.

Cəza – günahların əks yükü, günahkarın isə sonradan verilən zəhmət haqqıdır. Cəza – qüsurun məhək daşı. Cəza – cinayətin ölçü vahidi. Cəza – xətanın keçdiyi iynə ulduzu. Cəza – səhvlər qəlibi. Cəza – vicdan üstünə səpilmiş sərin su. Cəza – mənəviyyatı mehvərinə qaytaran gözəgörünməz əl. Cəza – vicdan tərəzisinin bir gözü...

Məzəmmət – cəzadır. Danlaq – cəzadır. Tənbeh – cəzadır. İrad – cəzadır...

Təhqir – cəzanın təcavüzkar variantıdır. Qisas isə cəza pərsəngidir...

Cəza, mənəvi və fiziki şəkildə verilir. Döymək, həbs etmək, sürgünə göndərmək, məhv eləmək ... insanların kəşf etdiyi cəzaların məhdud siyahısıdır. Ən ağır cəza isə insan vicdanının insana verdiyi cəzadır. İnsan etdiyi günah üçün aldığı bütün cəzaları artıq hesab adə bilər, edir və bəlkə də etməlidir. Lakin vicdan cəzası ən ədalətli cəza olmuş, olur və yəqin ki olacaqdır.

Vicdan – cəzaların məhək daşı, analitik tərəzisidir. Bütün cəzalardan yaxa qurtarmaq olar, lakin vicdan cəzasından yayınmaq olmaz. Bütün cəzaların ədalətsizliyindən gileylənmək olar (olur!), daha doğrusu olmayan şəxs yoxdur. Lakin vicdan cəzasından gileylənən olmayıb və yəqin ki olmayacaq. Çünki vicdan ən ədalətli hakim, vicdan məhkəməsi ən ali məhkəmədir.

Peşimançılıq günahların səmimi etirafıdır.

Günah – günahdır. Onu kimin törətdiyindən asılı olmayaraq. Cəza isə çox zaman onu verənin və günahkarın mövqeyindən asılı olur. Çox vaxt ədalətli cəza ədalətsiz əfvdən üstün tutulur. Ən pis qanun bütün qanunsuzluqlardan yaxşıdır.

Qanun cəza tərəzisi, cəza arşını, cəza meyarı, cəzanın məhək daşıdır. Hakim qanun keşikçisi, qanun memarı, qanun zərgəridir. Daha doğrusu olmalıdır.

Qanunun keşikçisi nə qədər ədalətli olarsa, qanun o qədər çox sevilər, o qədər ümid yerinə dönər.

Qanuna şahların daha çox əməl etmələri vacibdir. Qanunlara daha çox hörmət edən şahlara daha çox hörmət etmişlər.

Rəvayət: ... Sultan II Muradın oğlu Fateh II Mehmet günahına görə bir xristian memarın qolunu biləkdən kəsdirir. Memar bu barədə baş Osmanlı qazısına şikayət edir.

Baş Osmanlı qazısı Sultan Mehmeti məhkəməyə dəvət edir. Qazı şəriət məhkəməsinin şərtləri ilə onları tanış edir. Sonra Sultana deyir:

— Şəriət məhkəməsi qarşısında hamı eyni səlahiyyət və hüquqa malikdir. Ona görə də ayağa qalx və suallarıma cavab ver!..

— Sultan Mehmet ayağa qalxaraq qazının suallarını dinləyir.

Qazı soruşur:

— Bu şəxsi tanıyırsanmı?

— Bəli, deyə Sultan Mehmet cavab verir.

Qazı yenidən sual edir:

— Onun qolunu nə üçün kəsdirdin?

— O, günaha yol verdiyi üçün bu qərarı qəbul etdim.

Qazı dedi:

— Memar xristian olsa da, o, insandır sən isə ədalətsiz olaraq onun qolunu kəsdirmisən. İslam qaydalarına görə memar səni bağışlaya bilər. Əks halda sənin də qolun kəsilməlidir. Bunu deyib qazı üzünü memara tutur:

— Sən bu şəxsi bağışlayırsanmı?

— Yox! – deyə memar qəti şəkildə cavab verir.

Belə olduqda Sultan Mehmet əlacsız qalaraq qolunu masa üzərinə uzadır. Qazı cəlladı səsləyir. Cəllad bir anda hazır olur.

Memar işin ciddi şəkil aldığını görüb deyir:

— Mən bu şəxsi bağışlayıram. Hökmünü və ədalətliliyini görüb mən bu andan islamı qəbul edirəm.

Sultan xristianın bu hərəkti müqabilində ona bir əzəmətli malikanə bağışlayır.

Əziz oxucum, mən bu anda Sultan Mehmet münasibətlərini, xristian memarın günahını və ya günahsızlığını, Osmanlı qazısının verdiyi qərarın adilliyini, həmçinin islam qanunlarının humanistliyini dəyərləndirməyi öz öhdənizə buraxmağı daha düzgün yol hesab edirəm.

Qısa arayış: ... Fateh II Mehmet (Sultan II Muradın oğlu) 1451-ci ildə hakimiyyətə keçir. 1453-cü ilin may ayında Konistantinopolu mühasirəyə alır. Həmin ayın 29-da şəhəri tutur və adını İstanbul qoyur. Həmin andan etibarən ona "Fateh" təxəllüsü verilir. 1481-ci ilə qədər Osmanlı İmperiyasının Sultanı olur.

Sultan Fateh II Mehmetin İstanbulla ilk tanışlıq günündə qarşılaşdığı hadisələri əks etdirən bir rəvayətlə söhbətimizə körpü salırıq.

... Sultan "Qapalı çarşı"da adi libasda öz vəziri ilə gəzərkən görür ki, bazarda bolluqdur. Hamı hər şey satır. Lakin tacirlər alıcılara yalnız bir şey verir. İkinci şey almaq istəyənə qonşu köşkə gedib almağı məsləhət bilir.

Sultan Mehmet bunun sirri ilə maraqlanır. Qoca bir tacir belə deyir:

— Belə görürəm ki, siz bu şəhərə yenu qədəm qoymusunuz. Bizdə belə bir adət var, hər bir tacir öz gündəlik çörəkpulunu qazanmaqla kifayətlənir. Sonra o, öz qonşusuna da dolanmaq şəraiti yaradır.

Sultan üzünü vəzirinə tutub deyir:

— Bu şəhərə bizim rəhbərliyimiz gərək deyil. O, özü özünü idarə edir. Bu, Allahın şəhəridir!..

Elə həmin hadisədən sonra Fateh Sultan Mehmet şəhərə "İstanbul", yəni "Allahın şəhəri" adını verir.

Lakin şəhərin adının yunanca "İstin polis" – "şəhərə gedirəm" mənası verdiyini söyləyənlər də vardır.

Peşmanlıq günahkarlığın səmimi etirafıdır.

Henrix Heyne deyərmiş: "Yalan cinayətlər üçün qida mənbəyidir".

Deməli, ən ağır cəza yalana (yalançıya!) verilməlidir.

Yalan bütün günahların zəmisi, tarlası, ən azı dibçəyidir.

Ağır cəzalardan biri də mənəvi cəzadır. Günahkarı mənəvi cəhətdən cazalandırmaq mənəviyyatca zəngin olan adamların işidir. Mənəvi cəza müdriklərin cəzasıdır.

Haşiyə: ... Bamsı Beyrək əsirlikdən o zaman qayıdır ki, onun sevgilisi Banıçiçək ilə Yalançı oğlu Yalıncığın toyudur. Çünki o, Beyrəyin "öldüyünü sübut edərək" qanlı köynəyini gətirmişdir.

Beyrək ozan libasında məclisə gəlir. Yarışda təzə bəyə qalib gəlir. Qızlar məclisinə daxil olur. Banıçiçəyə tanışlıq verir. Onun Beyrək olduğu aşkar olur. Yalıncıq aradan çıxmaq istəyir.

"Kitabi – Dədə Qorqud"da deyilir:

"... Yalançı oğlu Yalıncıq Beyrəyin qorxusundan qaçdı, özünü "Dana sazı" deyilən qamışlığa saldı. Beyrək onun dalınca düşdü. Qovub qamışlıqda yaxaladı. Dedi: "Ədə, od gətirin!" Gətirdilər, qamışlığa od vurdular.

Yalançı oğlu gördü ki, yanır, qamışlıqdan çıxdı. Beyrəyin ayağına yıxıldı, qılıncının altından keçdi..."

İgidlər bəzən xətanı bağışlamadığı halda, cinayəti bağışlamışlar. Onlar aman diləyənə aman vermişlər. Elə, igidi igid edən də bu əlamətidir. Bağışlamaq üçün böyük ürəkli olmaq gərəkdir. Əfv etmək şah və ya şah ürəkli insan işidir.

Haşiyə: ...Bir dəmirçi Qədim yunan filosofu Pittakın oğlu Tirreyi balta ilə vurub öldürür. Canini tutub onun hüzuruna gətirirlər. Ata əhvalatı dinləyərək dəmirçini azad edir. "Qisas almaqdansa bağışlamağı bacarmaq yaxşıdır! – deyir.

Tarixdə çox cinayətlər olmuşdur. Onların cəzalananı, cəzalanmayanı, bağışlananı, bağışlanmayanı çoxdur.

Nüşabə İsgəndəri tənbeh etdi, Tomiris Kiri cəzalandırdı.

Koroğlu keçəl Həmzəni bağışlamaqla cəzalandırdı, xəlifə Babəki cəzalandırmaqla bağışladı...

Səhvlər, xətalar, günahlar, cinayətlər olmasa iradlar, məzəmmətlər, tənbehlər, cəzalar da olmazdı. Kaş səhvlər, xətalar, günahlar, cinayətlər olmayaydı... heç cəza da olmayaydı...

EPİLOQ

Nifrət də cəzanın bir növüdür...

Qisas – intiqam almaq məqsədi ilə başqasına özbaşına verilən cəzadır.

SON

“SON” DAN SONRA

Mən onu bağışlamaqla cəzalandırdım, o isə məni cəzalandırmaqla “bağışladı”.

İncitməklə cəzalandırmaq eyni şey deyildir.

* * *

HƏKİM XİSLƏTLİ PEDAQOQ, PEDAQOQ XİSLƏTLİ HƏKİM

Bədən sağlam olsa, saf olar söz də...

NİZAMİ GƏNCƏVİ.

Təbabət, ilk növbədə xalq təbabəti insanların ehtiyaclarından yaranmışdır. İbtidai insan təsadüf nəticəsində hər hansı bir qidanın müalicəvi xüsusiyyətlərini aşkar etmişdir. Həyatının sonrakı dövrlərində özünün və yaxınlarının bu və ya digər xəstəliklərini müalicə etməyə çalışmışdır.

Əfsanə: ... Belə deyirlər ki, Qədim Yunanıstanda işıq və müdriklik ilahəsi Apollonun oğlu, şəfa Allahı Asklepi (Eskulap) yaşayırmış. O, bütün xətəlikləri sağaltmağın yollarını bilirmiş. Bir dəfə Asklepi Krit adasına gələn zaman ada hakiminin oğlu vəfat edir. Ada matəm içində imiş. Asklepi əl ağacının (əsanın) üstündə bir ilan görür və onu öldürür. Bir azdan sonra oraya başqa bir ilan yaxınlaşır. O, ağzında gətirdiyi otla ölmüş ilanı dirildir.

Asklepi həmin otla ada hakiminin ölmüş oğlunu sağaldır. O, sonralar bu üsulla bir çox sağalmaz xəstələri müalicə edir.

Asklepinin əsasına sarınmış ilan isə bu günə qədər tibb elminin emblemi (rəmzi) sayılır və Asklepi (Eskulap) ilanı adlanır.

Kəlam: Asklepi deyirdi: "Şərabın gətirdiyi fayda, hətta allahların gücündən də üstündür". Əlbəttə, burada şərabın bir dərman kimi təsiri nəzərdə tutulur.

Sözarası: ... Gigiyena sağlamlıq haqqında elmdir. O, Asklepinin qızı Gigiyanın adı ilə bağlıdır. Onun digər qızı isə Panakeya (Panaseya) idi.

İnsan daim bitki, heyvan və minerallarla təmasda olduğu üçün dərman kimi də onlardan istifadə etmişdir. Erkən

dövrlərdə müalicə kortəbii şəkildə aparılırdı. Yəni müalicə qarşıya heç bir məqsəd qoyulmadan həyata keçirilirdi. Lakin getdikcə toplanmış təcrübə nəsildən-nəslə ötürülərək zənginləşirdi. Bununla belə xalq təbabəti çox ləng inkişaf etmişdir. Təbabətin ilk dəfə Ərəb ölkələrində, Çində, Yunanıstanda, Misirdə inkişaf etdiyi güman olunur. Qədim dünyanın həkimlərindən Hippokratın (Buqrat), Suşrutun, Alkmeonun (Loğman), Aristotelin (Ərəstun), Qalenin xalq təbabətinin inkişafında böyük xidmətləri olmuşdur. Orta əsrlərdə Şərq xalqları özünün təbabəti ilə seçilirdi. Bir elm kimi təbabət Avropaya və digər ərazilərə məhz Şərqdən yayılmışdır.

Şərqin İbn-Sina, Əbu Reyhan Biruni, Zəkəriyyə Razi, İbn Baytar, İbn Təlmiz və başqa təbibləri o dövrün məşhur alimləri hesab olunurdular.

Haşiyə: ... Həmədan əmiri Şəmsüddövlənin qarnında sancılar başlamışdı. Hamı həyəcanlı idi. Bu zaman İbn Sinanı saraya gətirdilər. O dərhal dərman hazırlamağı tapşırdı. Dərman balda həll edilmiş zirədən, cəfəri toxumlarından, kök toxumlarından, acı badamdan və s. ibarət idi.

İbn Sina bu dərmanın saray həkimi tərəfindən hazırlanmasına ciddi nəzarət edirdi. Yarım saatdan sonra əmir, yemişan meyvəsi böyüklükdə kürəciyi udub üstündən isti su içdi. Çox keçmədən o, özünü yaxşı hiss etdi.

Azərbaycanda xalq təbabətinin inkişafına buranın zəngin təbiətinin mühüm təsiri olmuşdur. Əbu Mənsur Müvəffəq, Əbu Kəbir, Həsən ibn Şirvani, Əttar Səlyani, İbrahim ibn Zeynalabdin Naxçıvani və başqaları öz dövrlərinin məşhur Azərbaycan təbiblərindəndir.

Hələ orta əsrlərdə Şərqdə, o cümlədən Azərbaycanda təbabətə dair bir sıra sanballı əsərlər yaradılmışdır:

Əbu Bəkir Razi. “Əl-havi fi ət-tibb”, X əsr.

Əbu Əli ibn Sina. “Əl-Qanun fi ət-tibb”, XI əsr.

Əbu Reyhan Biruni, “Kitab əs-saydana fi ət-tibb”, XI əsr

Mahmud ibn İlyas. “Müxtəsərüt-tibb”, XII əsr.
İbn Baytar. “Camül-ədviyyə”, XIII əsr.
İbn Kabir Xoyi. “Camiyi Bağdadi”, XIV əsr.
Zeynalabdin Əttar. “İxtiyarati bədii”, XIV əsr.
Mansur ibn Yusif. ”Kifayəti Mənsuri”, XV əsr.
Sultan əl-Xorasani. “Dəsturül-əlac”, XVI əsr.
Məhəmməd Mömin. “Töhfətül-Möminin”, XVII əsr.
Məhəmməd Yusif Şirvani. “Tibbnamə”, XVII əsr.
Məhəmməd Yusif Xan Qarabadini-Kəbir. “Məhzənül-Ədviyyə”, XVIII əsr.

Yuxarıda adları qeyd olunan kitablar əhalinin geniş kütləsinin müalicəsi üçün həkimlərin bəhrələndiyi ən mühüm mənbələr hesab olunurdu.

Məşhur şairlərimiz Nizami Gəncəvi “Xəmsə”sində, Məhəmməd Füzuli isə “Söhbətül-əsmar” və “Səhhət və mərəz” əsərlərində təbabətə dair zəngin fikirlər irəli sürmüşlər.

Sağam olmaq, uzun ömür sürmək insanın ən birinci arzusu olmuşdur. Bütün təbiblər insan sağlamlığını əbədi edən dərmanlar axtarışında olarkən təbiət özü xəstələndirir və müalicə edir, sağaldır.

İnsan sağlamlığın dəyərini xəstələndikdə qiymətləndirir. Xəstəlik isə xəbərsiz gələn üzlü qonağa bənzəyir.

Rus şairi Yevgeni Aleksandroviç Yevtuşenko demişdir: “Xəstəlik ilan kimidir, ürək yarağanında, məhəbbət xarabalıqlarında yuvalayır...”

İnsanlar təbiətdən öyrəndiklərini götürür. İnsan təbiəti yamsılayır.

Bir haşiyə: ... Bir çoban qoyun otarır və tütəyini çalırdı. Birdən o, otlar arasında kirpi ilə ilanın döyüşdüyünü gördü. Yaxınlaşıb kənardan bu ölüm-dirim mübarizəsini müşahidə etdi. İlanın quyruğu kirpinin dişləri arasında idi. O çırpınaraq xilas olmağa çalışır, lakin vəziyyəti daha da çətinləşirdi. Artıq kirpi ilanın bir qarışa qədərini yemişdi. O, ilanın qalan hissəsini

yerdə qoyub sürətlə otluğa daxil oldu və axtarıb bir otu tapdı. Ondan bir az qoparıb çeynədi, yenidən ilanın qalan hissəsinə yaxınlaşaraq onu yeməyə başladı. Kirpi bu minval ilə iki-üç dəfə həmin ota yaxınlaşaraq onun yarpağından qoparıb yedi. Sonra yenidən ilanı yeməyə girişdi...

Bu zaman çoban otu qopararaq maraqla hadisələrin sonrakı gedişini müşahidə etməyə başladı. Kirpi isə ilanın qalan hissəsini yerə qoyub yenidən otu qoparmağa tələsdi. Otu yerində görməyib otluqda o tərəf-bu tərəfə vurnuxmağa başladı. Lakin həmin otdan tapa bikmədi. Artıq bir azdan sonra kirpi zəhərlənib ölmüşdü. Çoban isə zəhər əleyhinə çox qiymətli bir dərman kəşf etmişdi...

Zərbi-məsəl: "İtin başı ağrıyanda ot yeyər".

İtin başı ağrıyanda hər otu yeməz, özünə lazım olanı axtarıb tapar.

Təxminən 4.500 il bundan əvvəl Qədim Şumer şahlığı dövründə təbabət təşəkkül tapmağa başlamışdır. O dövrün həkimləri, hətta xəstə üçün müəyyən resept də yazmaq vərdişləri qazanmışdır. Elmə məlum olan ilk resept də məhz 4.500 il bundan əvvəl yaşamış Qədim Şunerlərə məxsusdur.

Resept: "Qurudulmuş və üyüdülmüş suilanı paroşokunu, tikan kolunun kökünün paroşokunu, ağ şam ağacının qatranında (skipidarında) qarışdır və alınmış məlhəmi ağrıyan yerə sürt".

Bu, elmə məlum olan ən qədim reseptdir.

Təbiət insanı öyrədir. O, ən müdrik pedaqoqdur. Təbiət hər yerdə, hər an, hər kəsi öyrətməyə "çalışır", vadar edir. Ətrafa baxıb öyrənənlər ən mahir bilicilərə çevrilirlər.

... Döyüş meydanında qalan cəsədlər çürümüş, öz formasını itirmişdir, lakin bir əsgərin kolun budaqları arasında uzanan qolu isə xarab olmamışdır. Bu, quşarmudu (üvəz) koludur. Quşarmudu latınca *Sorbus aucuparia* adlanır.

Sonralar (elə indi də..) ərzaq məhsullarını xarab olmaqdan qorumaq üçün ona quşarmudundan alınmış sorbin turşusu əlavə edirlər.

Əfsanə: ... Bir əmi oğlu və əmiqızı bir-birini çox sevirdi. Nəhayət, evləndilər, əhdlərinə çatdılar. Lakin onların sevincləri uzun sürmədi. Qızın bədəni birdən-birə yara tökdü. Oğlan yer qalmadı ki, onu aparmasın, ancaq qızın dərdinə dava-dərman tapılmadı.

Həyatından bezmiş oğlan belə qərara gəldi ki, əmim qızıdır, boşasam el qınayar məni. Yaxşısı budur atım bir səhraya, qurd-quş yesin.

Oğlan qızı bir səhraya gətirdi, onu aldadıb aradan çıxdı. Qız səhrada tək qaldı. Ərini çox gözlədi, o gəlib çıxmadı. Qız bilmədi hayana getsin. İns-cins görünmürdü, səs-səmir eşidilmirdi. Əlacı kəsldi, ağlaya-ağlaya biyabanın ümid bağladığı tərəfinə üz tutdu. Bir az getmişdi ki, ayağının biri lilliyə düşdü. Ayağını palçıqdan çıxaranda gözlərinə inanmadı. Qılçındakı yaralar yoxa çıxmışdı. O, ikinci ayağını da mazutlu palçığa saldı, o da sappasağ oldu. Həmin palçıqdan ovuclayıb bədəninə sürtdü. Canında bircə yara da qalmadı, anadangəlmə kimi oldu. O, quşa döndü, yüyürdü, elə bil qaçmırdı, uçurdu, çox gedəndən sonra acdığını bildi. Boylandı, bir yamacda qoyun sürüsü gördü. Sürüyə tərəf getdi. Çoban gördü ki, ona tərəf bir qadın gəlir. Soruşdu:

— Ey qadın, nə ənni-cinnisən ki, bu səhrada tək-tənha gəzirsən?

Qadın dedi:

— Hələ bir parç cüd ver, içim, ağlım başıma gəlsin. Çoban bir qara qoyunu tutub sağdı, südü ona verdi. Qadın qara qoyunun südünü içəndən sonra özünü yaxşı hiss etdi.

Qadın sözə başladı ki, çoban, ərim bu səhrada ov dalınca getdi, məni itirdi.

Çoban dedi:

— Nə olar, qayıdıb gələr, qal yanımda, sən də ol məmim bacım.

Oğlan üç gündən sonra darıxdı, dedi: “Belə etibarsızlıq olmaz. Gedim heç olmasa meyidini tapım, gətirim”.

Oğlan səhrada çox gəzdi, heç nə tapa bilmədi. Qayıdıb gələrkən gözü yamacdakı qoyun sürüsünə sataşdı. Sürüyə çatanda gözlərinə inanmadı. Sevgilisi gəncliyində olduğu kimi gözəl idi, su sonasına oxşayırdı. Oğlan çox sevindi.

Qız başına gələnləri ona danışdı. Oğlan qızın qolundan tutub: “Dur gedək! – dedi.

— Mən buradan heç yana getmərəm,- dedi.

Oğlan öz tayfasını götürüb bu yerə gətirdi, burda məskən saldılar”.

Həmin yerin Naftalan olduğu sevimli folklorşünas alimimiz Sədnik Paşa Pirsultanlı gümanlarında da həqiqətə yön alır.

Əziz oxucu, söhbətimizi qədim dünyanın məşhur təbiblərinin həyatında baş vermiş maraqlı rəvayətlərlə haşiyələndirə bilərdik. Lakin burada biz təbabətin pedaqoji naxışlarını xatırlamaqla kifayətlənirik. Təbiət ən böyük təbib, ən böyük pedaqoqdur.

“Kitabi-Dədə Qorqud”dan bir xatırlama: “... Bu yaradan sənə ölüm yoxdur. Dağ çiçəyi ilə ana südü sənə dərmandır”.

“Kitabi-Dədə Qorqud”dan daha bir xatırlama:

“... Bu zaman bəylər Beyrəyi gətirdilər. Qazan xan dedi: “Baybura bəy, muştuluq! Oğlun gəldi”. Baybura bəy dedi: “Oğlum olduğunu ondan bilərəm ki, çeçələ barmağını qanatsın, qanını dəsmala silsin, gəzümə çəksin; gözüm açılsa, oğlum Beyrəkdir!”

Bayburanın gözü ağlamaqdan görmürdü. Dəsmalla gözünü silən kimi Allahın qüdrəti ilə gözü açıldı...”

Nəinki insan, hətta budağı sınmış ağaclar da ağlayır...

Sağlam olmaq üçün nə etməli? Bu, həmişə, hər yerdə, hər kəsi düşündürən sualdır.

Çox yaşamaq üçün nə etməli?

Bu, həmişə, hər yerdə, hər kəsi ondan da artıq düşündürən sualdır.

Görəsən, doğrudan da, sağlam olmaq və çox yaşamaq üçün nə etmək lazımdır?!

Təbiəti duymaq, təbiəti öyrənmək, hər an təbiətə müraciət etmək sağlamlığın və uzunömürlülüyün açarıdır. Təbiət pedaqoq xislətli həkim, həkim xisətli pedaqoqdur. Lakin rus seleksiyaçısı İvan Vladimiroviç Miçurinin təbirincə desək: "Biz təbiətdən mərhəmət gözləyə bilmərik, məqsədimiz istədiyimizi ondan almaqdır".

Təbiət yaradır, təbiət yaşadır, təbiət böyüdür, təbiət çoxaldır, təbiət öldürür. Daha doğrusu hər bir canlı yaranır, böyüyür, bölünür, çoxalır, yaşayır və ...ölür.

Təbiət rəzil də yaradır, peyğəmbər də. Təbiət aqil də yaradır, nadan da...

Təbiət çox xəstəlikləri müalicə edir. İnsana müalicə etməyi də təbiət özü öyrətmişdir. Ən universal dərman ana südü, ana laylası, ana nəfəsidir...

Kəlam: "... Nə üçün qadından peyğəmbər yoxdur?

— Elə peyğəmbəri dünyaya gətirən qadındır..."

Təbiət sevir, sevdirir, sevilir.

Ey insan, təbiət sənsən, sən isə təbiətsən. Sən təbiətin diribaş şagirdi olmağa çalış. O, müdrik müəllimdir. O, mahir öyrədəndir. Sən də çalışqan öyrənən ol, diribaş şagird ol... Təbiəti sevməyi, təbiətin özündən öyrən...

Təbiətə öz işini görməyə imkan verin. O, nə edəcəyini çox yaxşı bilir. Təbiət də xəstələnir. Onu yüksək mədəniyyət (sivilizasiya) xəstələndirir.

Ey insan, təbiəti - ən mahir loğmanı xəstəliklərə sən mübtəla edirsən. Təbiət - o böyük loğman səni - insanı müalicə etdiyi kimi özünü də müalicə edə bilər. Təbiət özünü müalicə etdikdə ən çox insan əziyyət çəkir. İnsan cəmiyyəti əzablara

(xəstəliklərə) düçar olur. Təbiət bizə verdiyi hər hansı nemət üçün çox baha qiymət (məzənnə) qoyur... Daha doğrusu aqillər demiş: “ Təbiət heç nəyi, heç kimə, heç zaman əvəzsiz vermir”.

EPİLOQ

İnsani müalicə edin, təkcə onu xəstəliklərdən qurtarmayın. Bədəni deyil, bədənlə birgə ürəyi müalicə edin. Xəstəlik həm bədənin, həm də ürəyin zəifləməsinə sübutdur. İnsana qüvvət verin, o, müalicə olunacaqdır. Ən yaxşı təbib elə insanın özüdür.

ÖMƏR XƏYYAM.

SON

SON”DAN SONRA “

Biz hər birimiz təbiətin bir zərrəsiyik. Təbiət də zərrələrdən təşkil olunmuşdur.

İnsan müalicə edir, təbiət isə sağaldır...

* * *

RƏMZLƏRLƏ DANIŞIQ

Qlobus Yer kürəsinin,
heykəl insanın rəmzidir.

İbtidai insan öz fikirlərini bir-birinə müəyyən rəmzlər və işarələrlə çatdırmışdır. Sonrakı dövrlərdə rəmzlər insan həyatına və ünsiyyətinə daha üzvi şəkildə daxil olmuşdur.

Ərzaq məhsulları, kimyəvi maddələr və həyati əhəmiyyət kəsb edən digər əsas məsələlər rəmzi qaydada yadda saxlanılmış, haqqında söz açılmışdır. Qobustan qayaları rəmzlərdən təşkil olunmuş nadir rəsm qalereyasıdır. Bu rəmzlər qədim insanın həyatı haqqında aydın təsəvvür yaradır.

Bir xatırlama: ... Oğlanla qızı, hətta onlar bir-iki günlük olarkən bir-birindən ayırd edirlər. Valideynləri oğlana göy, qıza isə qırmızı yorğança hazırlayırlar.

Elm başdan-başa rəmzlərlə doludur və elm rəmzlərlə mənimsənilir, rəmzlərlə inkişaf etdirilir.

Tərif: Kimyəvi elementlərin xüsusi işarələrlə ifadəsinə kimyəvi formul deyilir. Kimyəvi formul elə kimyəvi rəmzdir. Və ya, kimyəvi reaksiyaların kimyəvi formullarla şərti yazılışına kimyəvi tənliklər deyilir.

Dədə Qorqud Oğuz yurdunun, qopuz Dədə Qorqudun rəmzidir. Daha doğrusu, qopuz Oğuz yurdunun rəmzidir.

Od Zərdüştün, Zərdüşt isə “Odlar Yurdu”nun rəmzidir. Od - “Odlar Yurdu”nun, Azərbaycanımızın rəmzidir.

Nədənsə, rəmzlərlə danışıq və fikirlərin bu yol ilə çatdırılması həmişə hikmət nişanəsi kimi qiymətləndirilmişdir. Bu, ariflər, aqillər, şahlar mükaliməsinin əsas hissəsini təşkil edir.

Rəvayət: ... Səffarilər sülaləsinin banisi Yəqub Leys Xəlifəyə qarşı müharibədə məğlub olduqdan sonra yenidən qoşun toplamağa başladı. Xəlifə bir məktub göndərərək onu

barışığa dəvət edir. Əgər razılığa gələrsə İraq və Xorasanın hakimliyini ona vəd edirdi. Yəqub Leys isə cavabında ona taxta tabaqda tərə, balıq və soğan göndərdi...

O, bunun cavabını belə şərh etmişdir: "Mən misgər oğluyam, atamdan da bu peşəni öyrənmişəm. Mənim yeməyim arpa çörəyi, soğan və balıq olmuşdur. Bu hakimiyyət isə mənə nə atamdan miras qalıb, nə də sən bəxş etməmisən. Sənin xanədanını viran qoymayınca rahat ola bilmərəm. Ya dediyimi edəcəyəm ya da arpa çörəyi, balıq və göyərti yeməyə dönəcəyəm". Lakin bu, ona qismət olmadı...

Söhbətin mövzusu tarixin dərinliklərinə baş alıb getdiyi üçün Səfəvi hökmdarı Şah İsmayıl Xətayinin həyatında baş vermiş bir hadisəni xatırlamalı oluruq.

... Özbək şahı Şeybani xan Şah İsmayıla elçi vasitəsi ilə məktub və hədiyyələr göndərmişdi. Əvvəl elçi məktubu birbaşa şaha təqdim etmək istədi. O zamanın protokol qaydalarına görə bu, yolverilməz hal idi. Məktubu əvvəl vəzir qəbul edər, sonra lazım bilinsə oxunardı. Elçinin hərəkəti məktubun lovğa ruhda yazıldığını göstərirdi. Buna görə də məktubun oxunuşu hamının yanında deyil, sonraya saxlanıldı.

Görkəmli Azərbaycan yazıçısı Fərman Kərimzadə özünün "Çaldıran döyüşü" romanında bu epizodu belə təsvir edir:

"...Elçi desin görək Şeybani xan dilcavabı nə deyib?

Dilmanc onunla danışdıqdan sonra dedi:

— Şeybani xan Şah İsmayıla hədiyyələr göndərib, həmin hədiyyələr onun nə dediyini izah eləyir.

— Gətirin görək hədiyyələri.

Elçi əvvəl dilmancın gətirdiyi əsanı alıb Hüseyn bəy Lələyə uzatdı. Sonra xurcundan bir yüsüç təsbeh və bir də hind qozunun qabığından düzəldilən, dərvişlərin çiyinlərinə saldığı kəşkülü çıxartdı. Verəndən sonra baş əyib yerində dayandı.

Elə bil məclisə su ələndi. Bu, Şah İsmayılı təhqir etmək deməkdi. İndi hamının gözü şahda idi. Yəqinki, özü yerindən

qalxacaq, qılıncını çəkib elçini doğrayacaqdı. Amma Şah İsmayıl tərpənmirdi. Məclisə, əyan-əşrəfə göz gəzdirib dedi:

Şeybani xan mənə dərviş əşyaları göndərib. Demək istəyir ki, dərviş nəslindənəm, hökmdarlıq mənə yaraşmır, odur ki, Səfəvi mülkünü ona təhvil verməliyəm. Belədirmi? O, elçiyə deyin ki, mən hədiyyələri qəbul edirəm. Mən Xorasandakı imam Rzanın qəbrini dərviş kimi ziyarət etmək, yetmiş dəvə yükü nəzirimi vermək üçün gəlirəm, zəhmət çəkib oradan köçünü çəksin, yoxsa pis olacaq...”

Rəmzlər və işarələrlə şahların bir-birinə məlumatlar göndərməsi barədə saysız-hesabsız epizodlar söyləmək mümkündür. Lakin məqsədimizə uyğun olmadığı üçün bu söhbəti davam etdirməyi lazım bilmirik.

Keçmişdə adamların yazı yazmağı bilmədikləri vaxtlarda Şərqdə rəmzlərlə danışıq çox dəbdə olmuşdur.

Ötən əsrin yetmişinci illərinin ortalarında Gəncə Dövlət Universitetinin kimya-biologiya fakültəsində təhsil alarkən sevimli müəllimlərimizdən biri də dosent Zahid Quliyev idi. O, bizə təbiəti mühafizə fənnindən xüsusi kurs kimi mühazirələr söyləyirdi. Bir gün o, biz tələbələrə çiçəklərin dili barədə danışdı. Biz gənclər üçün bu mövzu çox maraq doğurdu. Burada otuz ildən artıq bundan əvvəl söylənmiş həmin mühazirənin bir hissəsini Zahid Quliyevin şəxsiyyətinə və pedaqoji yaradıcılığına dərin hörmət və ehtiram nişanəsi kimi nəzərinizə çatdırmağı lazım bilirik:

“... Güllər, çiçəklər özünün bihuşedici ətri, təravəti, gözəlliyi ilə insanları özünə çoxdan valeh edib. İnsanlar bəzən bu zərif məxluqu öz dilində dindirməyə çalışmışdır. “Güllərin dilini” ilk dəfə Şərqdə öyrəniblər. Sevgililər bu dillə öz ürək sözlərini bir-birinə çatdırmışlar. Yazıçı Bayron bunun səbəbini belə izah etmişdir: “Vaxtı ilə Şərq qadınları təhsil almadıqları üçün yazıb-oxumağı bilmirdilər. Ona görə də öz sözlərini bir-birlərinə müxtəlif əşyalar, o cümlədən çiçəklər və güllər

vasitəsi ilə bildirmişlər. Gülün mənası: "Sənin üçün yanıb külə dönürəm", saç tükü ilə bağlanmış gül dəstəsi: "Məni götürüb qaç" və s. deməkdir.

Müəllim sözünə davam edərək dedi: "Rus şairi D.P.Oznobaşin Qərbi Avropanın müxtəlif ədəbiyyat mənbələrindən istifadə edərək 1930-cu ildə Peterburqda "Selam, yaxud güllərin dili" adlı bir kitab nəşr etdirmişdir. Bu kitabda dörd yüzdən artıq gülün və çiçəyin mənası öz əksini tapmışdır".

Zahid müəllim D.P.Oznobaşinin yuxarıda adı çəkilən kitaqbından xeyli sayda gülün və çiçəyin adının mənasını açıqlayır:

Ağ zəngçiçəyi – mənə günün vaxtını de.
Ağ suzambağı – sən məni aldatma.
Ağ şəbbügülü – mənim sevgim qarşısında acizlik etdin.
Asırqal – qocalanda da xoşbəxt ol.
Astra – sən daimi sevməyi bacarırsanmı?
Ballıca – ürəyimdə arzularım çoxdur.
Boz şəbbügülü – barışaq.
Böyürtkən – hirslənməkdən əl çək.
Cökə çiçəyi – sən məni başa düşürsənmi?!
Çayır – mənə nifrət etmə.
Çöl nərgizi – qarşımda acizlik etdin.
Dağ laləsi – gözəllik keçir.
Dərgil (itburnu) – sənə inanmaq olarmı?
Ərik gülü – xadim ol.
Ətirşah – mənim səninlə gizli söhbət etməyim vacibdir.
Gəndəlaş – sən məni tanımırsan.
Günçiçəyi – mənim qəlbim hər yerdə səni axtarır.
İnciçiçəyi – çoxdandır səni gizli sevirəm.
Kartof çiçəyi – hər şeyin qarşısına kölgə salırsan.
Keçisaqqalı – sevgimə zərrə qədər şübhə etmə.

Qanqal – sevgi qorxu bilmir.
Qaymaqçiçəyi – özüm şənəm, lakin qəlbim kədərlidir.
Qızçiçəyi – sənə hər şeyi xoşbəxt arzulayıram.
Qızılgül budağı – yox!
Qızılgül yarpağı – bəli!
Qoyunqıran – mənim sevgimə inan.
Limon yarpağı - əlvida!
Mavi zəngçiçəyi – axşam görüşünün vaxtı.
Mayaotu – arzularım tezliklə sənə qovuşmağa meyl edir.
Meşə gilası – məni necə də sevindirdin.
Məhəbbət çiçəyi – gözəlliyin yox, insanlığın ürəyimi əsir edib.
Moruq – hörmət rəmzi kimi qəbul et.
Peyğəmbərçiçəyi – çalış onun kimi sadə ol.
Sarımsaq – sən səbirsizsən.
Soğanaqlı çiçək – mən səndən uzaqlaşıram.
Söyüd – sən haqlı deyilsən.
Söyüd budağı – nə üçün mən sənin xoşuna gəlmirəm?
Sünbül çiçəyi – qönçələrin sayına görə görüş günü təyin edilir.
Şabalıd – üzr istəmək.
Tarla qərənfili – sən gözəlsən.
Tülküquyruğu – bizə qulaq asırlar.
Unutma məni – o qız mənim əvəzimə hər şeyi sənə danışar.
Üzüm yarpağı – sev və zövq al...”

Müəllim mühaziraəni bu sözlərlə davam etdirir:
“Müasir dövrdə çiçəklirin mənası Yaponiyada daha çox saxlanmışdır. Yaponlar zoğları ilə bağlanaraq hazırlanmış çiçək dəstəsini (çələngini) ikebana adlandırırlar.
Məşhur yapon yazıçısı Ysunaru Kavabata yazır: “Gözəlliyini daha yaxşı duymaq üçün bir gül yüzündən daha yaxşıdır”.

Onlar gül dəstələrini xüsusi təbii zövq ilə düzəldərək evə təkcə gözəllik üçün qoymurlar. Onlar bundan zövq alır, fikir və istəklərini bir-biri ilə bölüşürlər.

Yaponların yozumuna görə tam açılmış çiçək dəstəsi ötən günləri xatırladır. Yarı açılmış çiçəklər bu günü əks etdirir. Qönçə və tumurcuqlar isə gələcəyə işarədir.”.

Sonra Zahid müəllim Quliyev öz mühazirəsini digər maraqlı faktlarla zənginləşdirərdi...

Hamının uşaqlıq illərindən baxdığı bir film var - “Bir qalanın sirri” filmi. Həkim Eldostu Simnar xanın göstərişi ilə göygöz Kosa tərəfindən oğurlanaraq naməlum istiqamətə aparılır. Həkim son anda öz yerini xüsusi işarələrlə bildirməyə macal tapır. O, əlini yaralayıb qanını daşa sürtür. Həmçinin sim və narı bir yerə qoyur. Bunun mənası belədir: “Mən Qanlı daş qalasında Simnar xanın əsiriyəm”.

Azərbaycan xalq nağıllarında rəmzlərlə danışığın saysız-hesabsız çalarları təsvir olunmuşdur. Onların hər birində dərin hikmət, geniş izahat cəmləşmişdir. Məsələn, “ Ona məcməyidə bir alma, bir dəstə iynə, kağız parçası, qayçı və nar göndərilmişdi. Oğlan iynələri bir-bir almaya sancdı, kağızı isə qayçı ilə doğradı...”

Bunun mənası belədir: “ Sən sirr saxlamağı bacarırsanmı?” O isə deyir: “Əgər oxlarla deşik-deşik edilsəm də, kağız kimi doğransam da bu sirri açmaram”.

Sirr sahibi dara çəkilmək anında ağ at üstündə çaparaq meydana girir və narı yerə çırparaq aradan çıxır. Bu, sirrin açılmasına verilmiş icazə işarəsidir...

Və ya: ...Gənc kişi səfərə çıxır. O, həyat yoldaşına deyir: “Əgər qızımız olsa, eyvandan ələk, oğlumuz olsa, yay-ox asarsan”.

Rəmzlərlə danışıq indiki dövrdə də mühüm əhəmiyyət kəsb edir. Hər hansı bir istehsalçı öz malının üzərinə vurduğu xüsusi işarə ilə bir çox mətləbləri aşkar edir. Həmin işarələrə (bunlar

"Ştrix kod" adlanır) əsasən istehsalçı ölkə, istehsal tarixi, malın maya qiyməti, keyfiyyəti, mənşəyi, istifadə qaydası və s. haqqında məlumatlar əldə etmək mümkündür. Belə rəmzləri yalnız bilgisayarlar (kompyuterlər) oxuya bilir.

Xüsusi geyimlər (hərbi, polis, pilot, idman və s.) fərqlənmə nişanları, poqonlar, göstərici nişanlar və s. rəmzi danışığın müasir üsullarındandır.

Hər bir ölkənin hamı tərəfindən qəbul olunmuş rəmzləri vardır. Bunlar həmin ölkənin bayrağı, gerbi, himni, pulu və s. hesab olunur.

Burada vətənimiz Azərbaycanın Dövlət Bayrağı və Dövlət Gerbinin rəmzi mənalarını açmaqla kifayətlənirik.

Azərbaycan Respublikasının Dövlət rəmzləri (gerb, bayraq, himn) 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Sovetinin (Milli Məclisin) qərarı ilə yenidən xalqımıza qaytarılmışdır. Həmin rəmzlər 1918-1920-ci illərdə Azərbaycan Demokratik Cumhuriyyətinin Dövlət rəmzləri olmuşdur.

Gerbimiz qalxan şəklindədir. Qalxan isə müdafiə rəmzidir. Yəni ölkəmizə hər hansı bir təcavüz olarsa müdafiəyə hazır olmaq zəruridir. Qalxan üzərindəki üçrəngli dairəvi xətlər bayrağımızı andırır. Dairə üzərindəki səkkizguşəli ulduz əbədiyyət rəmzi olan Günəşə, onun üstündəki alov dilləri isə "Odlar Yurdu"na işarədir.

Palıd budaqları milli hərbi qüdrətimizi, palıd yarpaqları uzunömürlülük nişanəsini ufadə edir.

Sünbül – bolluğu, bərəkətliliyi, çörəyə olan müqəddəs münasibəti bildirir.

Günəşin ağ rəngdə verilməsi ölkəmizin sülhsevərliliyini ifadə edir. Ümumiyyətlə, gerbimizin ifadə etdiyi əsas ideya belədir: "Bizimlə birlikdə bütün dünya xalqlarına sülh, bolluq və uzun ömür arzulayırıq. Biz müharibə istəmirik, bizə hücum edənlərdən isə qorunmağa hazırıq".

Dövlət Bayrağımızın eninin uzunluğuna nisbəti 1:2 kimidir. Onun eni 1, uzunluğu 2 metrdir. Bayrağımız üç rənglidir.

Göy (mavi) rəng – millətçiliyimizi, türklüyümüzü, qırmızı rəng – müasirliyi, demokratiyanı və azadlığı, yaşıl rəng – islamlığı, müsəlmançılığı bildirir.

Bayrağımızın orasındakı aypara və ulduz Aya və Günəşə işarədir və əbədiliyi, dünyəviliyi andırır.

Böyük Cəfər Cabbarlı isə "Azərbaycan bayrağına" şerində onun rəmzi mənasını belə açıqlayır:

"Şu ay, ulduz boyaların qurultayı nə demək?
Bizcə belə söyləmək:
Bu göy boya göy Moğoldan qalma bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan inamı,
Ürəklərə dolmalı.
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı.
Səkkiz uclu şu ulduz da səkkiz hərfli Od yurdu,
Əsarətin gecəsindən fürsət bulmuş quş kimi,
Səhralara uçmalı!"

Himnimizin sözləri Əhməd Cavadın, musiqisi Üzeyir Hacıbəylinindir.

Fikir: Nədənsə, mən hər dəfə gerbimizə baxdıqda onun ulduzu üzərindəki alovu "Allah" sözü şəklində görürəm.

Azərbaycan xalq pedaqogikasında rəmzlərdən geniş şəkildə istifadə olunmuşdur. Ustad öz şagirdinə bilik, bacarıq və vərdişlər verərkən müəyyən ibarələrdən, eyhamlardan və sinvollardan çox incəliklə istifadə etmişdir. Ustad şagirdinə (şəyirdinə) rəmzlərlə danışmağı xalq nağılları vasitəsi ilə öyrədərdi. Söhbətin bu yerində yadıma "Padşah və pinəçi" adlı xalq nağılı düşdü. Həmin nağılı olduğu kimi bir daha nəzərinizə təqdim edirik.

“Bir padşah baş vəzirini öz yerinə qoyub o biri vəziri ilə təğyiri-libas olub ölkəni gəzməyə çıxır. İkisi də dərviş paltarı geyinirlər ki, onları tanıyan olmasın. Şah vəziri ilə az gedir, çox gedir, yolda bir kişiyə rast gəlir. Kişi ilə salamlaşıb başlayırlar yol getməyə, şah görür ki, kişi onlarla gedir. Odur ki, deyir:

— Kişi, indi ki bir yerdə gedirik, gəl yola nərdivan qoyaq. Kişi deyir:

— Dərviş baba, bu yekəlikldə yola da nərdivan qoymaq olar?

Şah görür ki, kişi onun sözünü başa düşmədi, daha üstünü vurmur. Bunlar gedib bir şəhərə çatırlar. Kişi deyir:

— Dərviş baba, bura bizim şəhərimizdir. İndi mən gedirəm evimizə.

Şah deyir:

— Qardaş bizi bu gecəliyə Allah qonağı saxlayarsanmı?

Kişi məscidi göstərir ki, Allah qonağı ora gedir.

Kişi onlardan ayrılıb gəlir evinə, yoldakı əhvalatı gızına söyləyir.

Qız deyir:

— Ata, get o dərvişləri qonaq gətir, onlar ağıllı adama oxşayırlar.

Kişi deyir.

— Sən onları görməyibsən, nə bilirsən ki, ağıllı adama oxşayırlar?

Qız deyir:

— O, sənə deyəndə gəl, yola nərdivan qoyaq demək istəyirmiş ki, gəl bu yolu söhbət edə-edə gedək, sən onun sözünü başa düşməyibsən.

Qız nə qədər eləyir atası onları evinə çağırmaq istəmir. Odur ki, qız deyir:

— Ata, qərib adamlardır, heç olmasa bir az xörək hazırlayım apar ver, yesinlər.

Qız birtəhər atasını razı salır; bir boşqab dolma, bir bütöv təndir çörəyi, bir qab da süd verir ki, apar ver qonaqlara. Mənim adımdan deyərsən ki, qızım deyir: ay bütövdür, ulduzlar çoxdur, saya bilmədim, dərya ağzınacan doludur. Sonra onlar nə desələr gəlib mənə deyərsən.

Kişi xörəyi aparanda, dolma ilə çörəyin yarısını yeyir, südü də tamam içir, qab boş qalır. Sonra xörəyin qalanını aparıb dərvişlərə verir. Qızının sözlərini onlara deyir. Dərviş görür ki, boşqabın içində on-on beş dolma var, para çörək, bir də boş qab. Dərvişlər dolma ilə çörəyi yeyirlər, qabları kişiyə qaytaranda, dərviş deyir:

— Get, qızına de ki, ay para idi, ulduzlar çox deyildi, on-on beş olardı, dərya da tamam qurumuşdu.

Kişi gəlib həmin sözləri qızına deyən kimi, qız dedi:

— Ata, ayıb deyilmi, sən niyə qonağa apardığın xörəyi yeyibsən, südü içibsən?

Kişi deyir;

— Qızım dolmanı yolda yediyimi sən haradan bildin?

Qız deyir:

— Bunu dərvişlər sənin dilinlə mənə xəbər verdilər. Mən sənə deyəndə ki, ay bütövdü, ulduzlar çoxdur, dərya doludur, demək istəyirdim ki, çörək bütövdür, dolmalar çoxdur, süd də qabla birdir. Dərvişlər mənə xəbər göndərdilər ki, ay paraydı, ulduzlar çox deyil, dərya da quruyub, yəni çörəyin yarısını, dolmanın çoxunu yeyiblər, südü də tamam içiblər.

Qız atasına yalvardı ki, o dərvişləri heç olmasa bir günlüyə evimizə qonaq gətirsin. Kişi çar-naçar gedib dərvişləri evinə gətirdi.

Dərvişlər bir az oturandan sonra qız onlardan xəbər aldı ki, ürəyiniz nə istəyirsə yeməyə hazırlayım. Şah gördü ki, kişinin həyətində bir at, xeyli toyuqlar var. Odur ki dedi:

— Bir elə şey al ki, içini özümüz yeyək, ortasını toyuqlarınız, qırağını atınız.

Qız o saat gətirib ortalığa bir yemiş qoyub dedi:

— İçini özünüz yeyin, çərdəklərini toyuqlara verin, qabığını da atımız yeyər.

Padşah qızın ağlına təəccüb eləyib "afərin" dedi.

Şahla vəzir qızdan razılıq edib qayıtdılar; yolda qabaqlarına bir pinəçi çıxdı. Şah eşitmişdi ki, bu pinəçi çox ağıllı kişidir. Odur ki, onun yanına çatanda şah əlini başına qoydu, pinəçi cavab olaraq əlini dilinə vurdu. Sonra şah dedi:

— Pinəçi qardaş, doqquzu üçə vura bilibsənmi?

Pinəçi dedi:

— Vurdum, tutmadı, həm də otuz ikilər qoymadı.

Şah dedi:

— Uzaqdasan, yaxında?

Pinəçi dedi:

— Uzağı yaxın eləmişəm.

Şah yenə soruşdu ki, ikidəsən, üçdə?

Pinəçi cavab verdi ki, ikini üç eləmişəm.

Şah axırda dedi:

— Qaz göndərsəm yola bilərsənmi?

Pinəçi dedi:

— Elə yolaram...

Şahla vəzir pinəçidən ayrılıb gəldilər. Şah paltarını dəyişib taxta çıxdıqdan sonra dedi:

— Vəzir, sənin üçün ayıbdır ki, pinəçinin yolda danışdığı sözlərin mənasını bilməyəsən. Odur ki, get öyrən. Amma nəbadə kişini incidəsən...

Vəzir xeyli qızıldan, puldan götürüb, atını minib qayıtdı pinəçinin yanına. Kişini tapıb dedi:

Şahla danışdığın sözlərin mənasını mənə deyərsənmi?

Pinəçi dedi:

— Sözün hərəsinə bir qızıl versən, deyərəm.

Vəzir razılaşdı.

Pinəçi dedi:

— Şah əlini başına qoyanda soruşdu ki, başın salamat olması üçün nə etmək lazımdır? Mən əlimi dilimə vurdum ki, dilini sakit qoysan, başın salamat olar, sonra o dedi:

— Doqquzu üçə vurdunmu, yəni, yazı, yayı, payızı – doqquz ayı işləyib üç ay qışda dolanmaq üçün ruzi toplaya bilibsənmi?

Dedim: — İşlədim bir şey çıxmadı, həm də otüz iki dişimdən artmadı.

Sonra şah dedi:

— Uzaqdasan, yaxında: yəni uzağı görürsən, yaxını. Mən də cavab verdim ki, yaxını görürəm. İkidəsən üçdə, yəni, ayaqların sözünə baxırmı: dedim ki, ikini üç eləmişəm. Yəni, iki ayağımla yeriməyə çətinlik çəkirəm, əlimə ağac da almışam. Axırda şah dedi: Qaz göndərsəm yolarsanmı, dedim ki, yolaram. Qaz da sən idin, pullarını əlindən aldım.

Vəzir pinəçiyə çoxlu qızıllar verdiyinə peşman oldu. Atı sürüb getmək istəyəndə fikirləşdi ki, qoy mən də suallar verim, cavab verə bilməsə dəbbələyib pulları geri alım.

Vəzir dedi:

— A kişi, indi sən de görüm bu saat padşah nə edir?

Pinəçi altdan-yuxarı baxıb dedi:

— Sən bilirsən ki, padşah böyük adamdır. Elə adamlar haqqında danışanda gərək bir az hörmətli olaq. İndi mən oturmuşam quru yerdə, qabağımda da cırıq-cındır ayaqqabılar. Burdan şahın haqqında danışmaq olar? Gəl sən atı ver minim, o zərli əbanı da sal çiynimə qamçını da ver əlimə sonra deyim.

Vəzir razı qaldı, atdan düşdü. O saat pinəçi sıçrayıb mindi ata, vəzirin əbasını çiyninə salıb dedi:

— Vəzir, bil, agah ol, bu saat padşah sənin kimi atlıları eləyir piyada, mənim kimi piyadaları da eləyir atlı, di xudahafiz!..

Pinəçi ata bir qamçı vurub gözdən itdi. Vəzir ha gözlədi pinəçi gəlib çıxmadı. Axırda suyu süzülə-süzülə gəldi padşahın yanına.

Padşah dedi:

— Vəzir, görürsənmi dünyada necə adamlar var?! İndi de görüm, vəzirliyə o layiqdir, yoxsa sən?

Vəzir pinəçinin ağıllı olduğunu boynuna aldı.

Şah pinəçini tapıb onu vəzir təyin elədi".

Azərbaycan folklorunda da rəmzlərdən (simvollardan) geniş şəkildə istifadə olunmuşdur. Tapmacalar elə başdan-başa simvollardan qurulmuş folklor nümunələridir.

Əzizinəm gün doğar,
Aşiq aşiqi qovar.
Anası beşikdəykən,
Qızı bir oğlan doğar.

Açması: ARI.

Və ya:
Altı qoyun, üstü keçi,
Başı şabalıd, quyruğu qayçı.

Açması: QARANQUŞ.

Yaxud:
Əzizinəm biri iki,
Sağı, solu, biri iki.
Bir əlamət görmüşəm,
Dördü üçdü, biri iki.

Açması: ƏLIN BARMAQLARI VƏ BUĞUMLARI.

Atalar, atalar sözünü çox zaman rəmzlərlə bəzəmişlər: "Papaq isti soyuq üçün deyil, namus üçündür".

Və ya: Uzaq yerin arpasından yaxın yerin samanı yaxşıdır.

Yaxud: Gün girməyən otağa həkim girər və s.

Bayatılar öz yığcamlığı və məna dərinliyi ilə ən zəngin folklor nümunələrindən biridir. Burada da simvolik çalarlar, rəmzi mənalar bir-biri ilə üzvi surətdə əlaqələndirilmiş, ilmə-ilmə toxunmuşdur.

Əzizim ağlayasan,
Göy dəsmal bağlayasan,
Dəniz boyda göz gərək,
Araza ağlayasan.

Və ya:
Oturmuşdum səkidə,
Ürəyim səksəkədə.
Üç qızıl alma gəldi,
Bir gümüş nəlbəkidə.

Yaxud:
Kəhər at nalı neylər,
Gözəl qız xalı neylər.
Səni sevən o igid,
Dünyada malı neylər.

Sınamaları da ulular rəmzlərlə bəzəmişlər. Məsələn, səfərə gedənin arxasınca su atarlar. Su aydınlıqdır.

Və ya: Sınıq qabda xörək yeyən şərə düşər.

Yaxud: Yuxusunda at görənin muradı hasil olar və s.

Rəmz (simvol) – məzmunun qısaca mənası, mənanın qısaca məzmunudur.

Və ya: Rəmz - mənalı məzmun, məzmunlu mənadır.

Yaxud: Rəmz - məzmunsuz məna, mənasız məzmundur.

Rəmz – varlığın ünvanı, ünvanın varlığı, hikmətin açarı, açarın hikməti, sirrin yozumu, yozumun sirri, fikrin dili, dilin fikridir.

Rəmz – müəmmasız həqiqət, həqiqətli müəmmadır. Və ya:

Rəmz – müəmmanın həqiqəti, həqiqətin müəmmasıdır.

Rəmz – sözün heykəli, cismin adı, xəyalın ideyası, ideyanın xəyalıdır.

Rəmz – dünyanın mayağı, həyatın bayrağı, fikrin proloqu, dəfinənin qapısı, qılıncın dəstəyi, kitabın sərlövhəsi, mahiyyətin bir işarə ilə şərhidir.

... Avtomobilimiz paytaxtın küçələri ilə şütüyür. Sürücü maşını gah asta, gah sürətlə sürür, gah sağa döndərir, gah sola döndərir, gah da dayandırırdı. Ona bu əmrləri yolun kənarına vurulmuş göstərici nişanlar, rəngli işıq siqnalları və yola çəkilmiş ağ xətlər verirdi.

Maşınımızı sürücü, sürücümüzü isə rəmzlər (simvollar) idarə edirdi. Yol ayrıcında Dövlət Yol Polisinin leytenantı dayanmışdı... Bunu onun poqonlarında olan ulduzlar bizə söyləyirdi...

EPİLOQ

Bayraq bir millətin müstəqillik rəmzidir, o, düşmənin də olsa, ona hörmət etmək lazımdır.

MUSTAFA KAMAL ATATÜRK.

SON

“SON“DAN SONRA

NAŞI MIZRAB

(təmsil)

Bir ahənglə çalmırdı,
Bu gün Qoşanağara.
Başladığı nəğməni,
Vurammırdı axıra.

Məzəmmət etdi onu,
Alətlər bir ağızdan.
(O da giley elədi,
Tardan, Qarmondan, Sazdan...)

Alətlərə bəlliydi,
Ancaq bu işin sirri.
Yamanca boşalmışdı,
Nağaranın kəndiri!..

* * *

İRADƏ

Mən uşaq yaşlarımdan belə əqidədə olmuşam ki, insan gücünün qarşısında heç bir şey davam gətirə bilməz. Sonralar dərk etdim ki, bu, elə iradədir.

QULU XƏLİLLİ

Rəvavət: ... Uğursuz döyüşdən sonra Teymurləng qaçıb bir daşın dalında gizlənir. Ətrafına göz gəzdirir. Görür ki, bir qarışqa buğda dənini üzü yoxuşa tərəf qaldırıb öz yuvasına aparmağa çalışır. Dən daşın başına çatdıqda yenidən aşağıya diyirlənir. Beləliklə, o, dəni altmış doqquz dəfə qaldırır, dən isə yenidən yerə düşür. Nəhayət, yetmişinci dəfə qarışqa dəni apara bilir.

Bu hadisəni müşahidə edən Teymurləng özündən utanır, bir dəfə məğlub olmaqla geri çəkilməyin mənasız olduğunu anlayır. O, gizləndiyi yerdən çıxaraq qüvvələri bir yerə toplayır, yenidən döyüşə girir və qalib gəlir.

Tərif. Məqsədə çatmaq üçün insanın çətinlik və maneələri aradan qaldırması ilə ifadə olunan şüurlu psixi fəaliyyəti, həmçinin müəyyən fəaliyyət məqsədini seçib, onun həyata keçməsi üçün daxili cəhd göstərmək qabiliyyəti iradə adlanır.

Məqsəd aydın olduqda ona çatmaq naminə insan bəzən öz ömrünü belə xərcləməyə təəssüflənmir.

...1730-cu ilin qışında Mixail adlı 19 yaşlı bir oğlan təhsil almaq məqsədi ilə ac, pulsuz bir vəiyyətdə Arxangelski quberniyasının Denisovka kəndindən piyada Moskva şəhərinə gəlmişdir. O, burada Slavyan-yunan-latın ali məktəbinə daxil olmuşdur.

Bu oğlan sonralar dünya elm tarixinə böyük mütəfəkkir kimi daxil olmuş dahi alim Mixail Vasilyeviç Lomonosov idi.

İradə məşqlər nəticəsində cilalanır, möhkəmlənir, əsl insanın əsl yaraşığına çevrilir. İradə həsəd aparılmağa layiq insanı keyfiyyətdir. İnsan iradəsinə sığınaraq çox-çox mümkün olma-

yanı mümkün edir. Öz üfüqlərini aşıb keçir. Özü özündən dəfələrlə böyük görünür.

Bu sətirlər isə kosmonavtlar Yuri Qaqarin və Vladimir Lebedevin "Psixologiya və kosmos" kitabından götürülmüşdür.

"...Aleksey Leonov üzərində aparılan müşahidələr tullanma təcrübəsi nəticəsində əldə edilən emosional vəziyyətin necə dəyişdiyini göstərir.

1-ci gün. Startda paraşütü geyəndən sonra rəngi bir az qaçmışdır. Hərəkəti bir qədər məhdudlaşmışdı. Sifətinin cizgiləri qeyri-iradi idi. Bu da ona xas olan xüsusiyyət deyildi. Tullanışdan sonra bir qədər canlanmışdı, amma hər halda hərəkətlərində məhdudluq var idi.

2-ci gün. Startda xeyli şən görünür. Əgər birinci gün bir az tutqun idisə, indi daha gumrahdır. Gözləri parlaqdır. Xeyli danışır, artıq əl-qol hərəkətləri edirdi. Nitqi və görkəmi gumrah idi. Tullanışdan sonra əhvalı yaxşı idi. Çoxlu zarafat edirdi.

3-cü gün. Tullanışdan qabaq özünü yaxşı hiss edir. Təmkinli, soyuqqanlıdır. Paraşütün açılmasının on saniyə ləngiməsi ilə iki tullanma yerinə yetirmişdir. Təyyarədən ayrılanda az əyilmişdir. Sərbəst enmə zamanı yuxarı və aşağı ətrafların uyğun olmayan hərəkətləri qeyd olunur. Paraşütlə enərkən özünü nizamsız aparmış və bəzi hərəkətləri düzgün yerinə yetirməmişdir. Qübbədən yapışarkən ipləri səhv salmışdır.

6-cı gün. Paraşütün açılmasını on beş saniyə ləngitməklə tullanmışdır. Tullanarkən kifayət qədər əyilməmişdir. Sərbəst enmə zamanı bədənin fəzada vəziyyəti o qədər də sabit deyildi. Əllərini çox, ayaqlarını az aralamışdı. Odur ki, onu baş-ayaq istiqamətində yelləyirdi. Paraşütün açılma vaxtı 13,8 saniyə olmuşdur. Yerə enərkən paraşütün qübbəsini xeyli inamla idarə etmişdir.

8-ci gün. Paraşütün açılması 20 saniyə ləngiməklə iki tullanma yerinə yetirmişdir. Tullanmadan qabaq ciddi, gumrah idi. Təyyarədən ayrılarkən yaxşı əyilmişdi. Sərbəst enmə əvvəlcə o qədər sabit deyildi. 12-ci saniyədən 20-ci saniyəyə

qədər sabit enirdi. Paraşütün açılması 20,2 saniyə olmuşdur. İkinci dəfə tullandıqda bütün elementləri düzgün yerinə yetirdi. Paraşütü inamla idarə edirdi. İki tullanmadan sonra əhvalı bir qədər yüksək idi. Təyyarəçi öz işindən razı idi.

21-ci gün. Paraşütün açılmasını 50 saniyə gecikməklə tullandı. Startdan qabaq diqqətli, səfərbər idi. Sərbəst enmə zamanı bədənini yaxşı idarə edirdi. Paraşütü 50,8 saniyə keçdikdən sonra açdı. Bərk külək əsməsinə baxmayaraq paraşütü düzgün və inamla idarə edirdi.

Bu müşahidələr sonrakı nəticə üçün əsas verirdi.

Birinci tullanma zamanı xeyli emosional gərginlik hiss olunurdu. Lakin artıq ikinci tullanmadan sonra kocmonavt öz iradəsini toplaya bildi və özünü idarə etməyi saxladı. Onda sərbəst enmə zamanı bədənini tezliklə yönünə salmaq və paraşütlə enərkən qübbəni idarə etmək vərdişi yarandı.

Yüksək iradi kyfiyyətlər, vərdişlərin tez inkişafı və bu növ qeyri-adi şəraitdə yaxşı səmt götürmək kimi xüsusiyyətlər onu başqa quplardakı kosmonavtların hamısından ayırırdı. Otuz tullanışdan sonra elə nəticələr qazandı ki, ona "Təlimatçı-paraşütçü" adı verildi..."

Bir kəlam: İradənin bir qanadı zəhmətdirsə, bir qanadı cəsarətdir.

QULU XƏLİLLİ.

Söz Qulu Xəlillidən düşmüşkən; mərhum alimimiz deyərdi: "İradə, zəhmət və cəsarət insanın beşiyi başında keşik çəkən, onun həyat yoluna nur çiləyən üç bacı, üç qardaş, üç xilaskardır".

Qulu Xəlilli iradə notları üstündə köklənmiş bir ömür yolu keçmişdir. Onun "Atam və mən" və "Yaşamaq istəyirəm" povestləri insan iradəsinin tərənnümünə həsr olunmuşdur.

O deyirdi: "Mən bir şeyə məğlub olanda onu gücsüzlüyüm kimi deyil, iradəsizliyim kimi qiymətləndirmişəm".

Böyük fateh Napoleon isə deyirmiş: "Xəstələnmək qorxusuna öz iradəsinin gücü ilə üstün gələn adam xəstələnməz".

Çox təhlükəli olduğunu bilərək və ona mane olsalar da Napoleon bu fikrinin düzgünlüyünü sübut etmək üçün Misirdə taun xəstəliyinə tutulmuş əsgərlərini dəfələrlə yoluxmağa gedirmiş.

İradə şəxsiyyəti bəzəyən ən mühüm insani keyfiyyətdir. İradə həsəd aparılmağa layiq insani keyfiyyətdir. İradə azadlığın, qələbənin, insanlığın təməl daşıdır. İradəyə söykənməyən qələbə təsadüfi hadisə təsiri bağışlayar. İradə azadlığın bitib cücərdiyi sal qayadır. Azadlıq həqiqətə çevrildiyinə görə iradəyə borcludur.

Əziz oxucum, biz burada məşhur Amerika yazıçısı Cek Londonun (əsl adı Con Qriffit; 1876-1916) "Həyat eşqi", rus yazıçısı, Sosialist Əməyi Qəhrəmanı Boris Polevoyun (əsl adı Boris Nikolayeviç Kampov; 1908-1981) "Əsl insan haqqında dastan", rus yazıçısı Vladislav Andreyeviç Titovun (1934-1987) "Ölümün acığına" və başqa əsərlərdən misallar çəkmək fikrindən daşınmaqla Sizi yormamaq məqsədi güdürük.

İradə ilə naxışlanmış ömür sonralar əfsanəyə çevrilir, əsatirləşir, əbədi yaşamaq hüququ qazanır, iradə insana bəxş olunmuş ən qiymətli vergidir.

İradə həqiqətin məhək daşıdır. Həqiqətə çevrilməsinə görə bütün arzular iradəyə borcludur. İradə insan şəxsiyyətinin ölçü vahididir. İradəsi olmayan adam hər cür naqisliyə yol verə bilər. Hamı özünü iradəli hesab edir. Hamı özünün iradəsinə söykənərək özünün təvazökarlığını mümayiş etdirir.

İradə ilə cəsarət doğma və əkiz qardaşlardır. İradə cəsarətin cəsarət də iradənin layiqli yol yoldaşıdır. Onlar ikisi birlikdə adi adamı dahi səviyyəsinə yüksəltməyə qadirdir.

Bütün iradəli, cəsarətli (və vicdanlı...) adamlar dahi olmasa da, bütün dahilər hökmən iradəli, cəsarətli (və vicdanlı...) olurlar.

Kəlam: “Cəsarət, iradəni hərəkətə gətirən mühərrik, vicdan isə onun sükanıdır”.

İradə dahilik, müdriklik, aqillik bünövrəsidir. Dahilik, aqillik, müdriklik iradə dibçəyində becərilmiş əzəmətli ağacdır.

İradə qələbənin və azadlığın zümrüd quşudur. İnsan yalnız iradə qanadında azadlığa və qələbəyə qovuşa bilər. Azadlıq və qələbə insan arzularının şahıdır. Azadlıq və qələbə insanın xəyali və həqiqi cənnətidir. Azadlıq və qələbə insan ömrünün mənasıdır. Azadlıq və qələbə iradənin məhsuludur. İnsan iradəsinə sığınmadan azadlığa və qələbəyə qovuşa bilməz. İnsanlıq iradə adlı qaya üzərində ucalmış dağdır. İradəni əsl insanlar yaradır. İradə isə insanı əsl insan məqamına yetirir...

Dözüm və iradə həmişə eyni məna kəsb etmir...

Bilirsinizmi: Məşhur rus seleksiyaçısı İvan Vladimiroviç Miçurin (1855-1935) çar Rusiyası dövründə 43 il ağır şəraitdə işləyərək şaxtaya davamlı bitki sortları əldə etmişdir. O, bir tikə çörək üçün alimliklə yanaşı dəmir yolunda fəhləlik etmişdir.

EPİLOQ

“Qorxuram” sözü onu deyən adamın öz vicdanı qarşısında biabırcasına etdiyi etirafıdır.

ŞEYX MƏHƏMMƏD XİYABANİ.

SON

“SON“DAN SONRA

Əsl insanlığa yol mütləq iradədən keçir.

* * *

MƏNTİQSİZ MƏNTİQ VƏ YA MƏNTİQİ MƏNTİQSİZLİK

Elə bir fikir yoxdur ki, onu sadə və
aydın dillə ifadə etmək mümkün olmasın.
GERTSEN.

Aydınlıq natıqlik üçün əsas məharətdir.
ARİSTOTEL.

Məntiq – düzgün təfəkkürün forma və qanunlarından bəhs edən elmdir.

Əziz oxucu, biz burada bir neçə məntiqi məsələ verməklə onları şərh etmirik. Məqsədimiz isə fikirlərə müdaxilə etməməklə müxtəlif variantların tətbiqinə imkan vermək olmuşdur. Beləlikə, yolu misallara veririk.

... Qarışqa on metrlik quyunun dibindədir. O, quyudan çıxmağa cəhd edir. Qarışqacıq gündə iki metr yuxarı qalxır, bir metr isə aşağıya enir. Qarışqacığaz neçə gündən sonra quyudan çıxar?...

...Sən Beyləqanda, mən Goranboyda. Tərtər Bərdədir, yoxsa Bərdə Bərdədir (bəridədir)? Və ya:

Sən Bərdədə mən Tərtərdə. Bərdə Bərdədir, yoxsa Tərtər Bərdədir? (Cavablar müxtəlif olacaqdır, çünki suallar da müxtəlif məna kəsb edir!..)

...Dünən hava pis idi, bu gün isə az pis deyil. Hava dünən pis idi, yoxsa bu gün? Və ya:

...Hava dünən yaxşı idi, yoxsa bu gün?..

...Arif yalançı, Vaqif isə doğruçu uşaqdır. Arif kömürə ağ, Vaqif qatığa qara deyir. Bu uşaqlardan hansı doğrudan yalan deyir? və ya :

...Onlardan hansı yalandan doğru söyləyir?.. və ya:

...Onlardan hansı doğruya yalan deyir?.. yaxud:

...Onlardan hansı yalana doğru deyir?..

...Bu gün Bənövşə, Lalə və Nərgiz meşəyə çiçək dərməyə getmişdi. Onlar bir azdan geri qayıtdılar. Bənövşə azacıq lalə, Lalə azca nərgiz, Nərgiz bir az bənövşə toplamışdı. Qızlardan hansı çox çiçək yığmışdı? Və ya:

... Azacıq çoxdur, azca çoxdur, yoxsa az çoxdur?..

...Sinoptiklərin məlumatı: Bu gün havanın hərarəti 39° C, çimərliklərdə dəniz suyunun hərarəti isə 26° C olacaqdır.

Sual: Havanın hərarəti suyunkundan neçə dəfə artıq olacaqdır? Və ya:

...Suyun hərarətinin havanınkından neçə dərəcə aşağı olacağı gözlənilir?

...İkinci sinif şagirdinə qatarda üç sual:

Birinci sual: Budağa beş quş qonmuşdu. Ovçu quşlardan ikisini güllə ilə vurdu. Yerdə neçə quş qldı?

İkinci sual: 2 qoz üstə gəl 3 fındıq. Neçə edər?

Üçüncü sual: - Sənin neçə gözün var?

— İki.

— Neçə qulağın var?

— İki.

— İki gözünün üstünə iki qulağını gəlsək neçə qulağın olar?

— Dörd!

— ?..

— !..

— ??.

— !!.

— ???

— ...

... Dəvə öldü arıqlığından, çünki piyi çox idi. Nə yerdə öldü, nə göydə; səhər tezdən, axşama (oxu: Ağ Şama) yaxın.

Sual: Dəvə nə üçün, harada, nə zaman öldü?

...Ellər gözəlini iki igid sevir. Onların arasındakı rəqabət az qala ədavətə çevriləcəkdi. Ellər gözəli mübahisəni kəsmək üçün belə bir şərt qoydu: Cıdır təşkil olunsun. Kimin atı mənzil başına ikinci çatsa o öz könlünü həmin igidə verəcəkdir.

Bəli, hamı meydana toplaşır. Cıdıra başlamaq işarəsi verilir. Lakin igidlərdən heç biri yerindən tərpənmir; heç kim birinci olmaq istəmir. Vaxt ötür. Vəziyyət isə dəyişmir. Hamının səbri tükənir.

Bu zaman müdrik bir qoca süvarilərə yanaşır. Onlara nə isə deyir. Cavanlar onun sözünə əməl edirlər. Və... atlar bir anda finişə doğru şığıyır. Ellər gözəli isə könlünü mənzil başına ilk çatan igidə verir.

Sual:

1. Ellər gözəli şərti düzgünmü qoymuşdur?
2. Nə üçün igidlər yerindən tərpənmir?
3. Müdrik qoca igidlərə nə deyir?
4. Nəhayət, ellər gözəli düzgünmü hərəkət etdi? O, şərtinə əməl etdimi?

...Şahzadəni üç igid sevir. Şahzadə onların qarşısında belə bir şərt qoyur ki, hər üçü dünya səyahətinə çıxsın və möcüzə axtarsın. Bir ildən sonra igidlərdən hansı onun xoşuna daha çox gələn möcüzəli bir şey gətirsə könlünü ona verəcəkdir.

İgidlər hazırlaşıb yola çıxırlar. Xeyli getdikdən sonra üç yol ayrıcına yetişirlər. Oradakı böyük daşın üstündə oturub dincəlir və bir ildən sonra həmin daşın yanında görüşməyi şərt qoyaraq hərəsi bir yol ilə gedirlər. Onlar ölkələr gəzir, möcüzə axtarırlar.

... Bir ildən sonra şərtləşdikləri kimi yol ayrıcındakı həmin daşın yanında görüşürlər. Onlar daşın üstündə oturub başlarına gələnləri bir-birlərinə söyləyir, deyib-gülürdülər.

Birinci igid tapdığı möcüzəni göstərir. Bu, sehrli güzgüdür. Ona baxdıqda istənilən anda, istənilən yeri, istənilən adamı görmək olur. İkinci igid uçan xalça tapmışdır. Sehr oxuyub

onun üstündə oturanlar bir anda istədikləri yerə çata bilərlər. Üçüncü igid sehrli bir alma əldə etmişdir. Hər hansı xəstə həmin almadan bir dilim yesə, bir anda tamamilə sağlam olar.

İgidlər şahzadəni yada salırlar. Birinci igiddən xahiş edirlər ki, sehr oxuyub güzgüsünü işə salsın. Görək şahzadə indi nə edir. Bir anda güzgüdə lövhə açılır. Məlum olur ki, şahzadə yataqda ağır xəstə yatır. İgidlər narahat olurlar.

Üçüncü igid deyir ki, məni təcili saraya yetirin, mən sehrli almanın köməyi ilə şahzadəni sağaldım. İgidlər ikinci igidin uçan xalçasına əyləşib bir neçə dəqiqəyə sarayın həyətinə enirlər. Sarayda hamı sevinir.

Onları şahzadə olan otağa apardılar. Üçüncü igid almadan bir dilim kəsib şahzadəyə yedirtdi. O, asqıraraq sağlam halda yerində oturdu. İgidlər vəziyyəti ona danışdılar və şərtə əməl etməsini xahiş etdilər. Şahzadə onları dinləyərək dedi.

— Mən hər üçünüzün igidliyini bəyənirəm və yüksək qiymətləndirirəm. Sağalmağım üçün hər üçünüzə həyatımı borcluyam. Əgər güzgü olmasa siz mənim xəstələndiyimi bilməzdiniz. Əgər uçan xalça olmasa vaxtında yetişməzdiniz. Nəhayət, sehrli alma olmasa mənim sağalmağım mümkün olmazdı. Qəlbinizi sındırmamaq üçün könlümü heç birinizə vermirəm. Hədiyyələrinizi isə özünüzə qaytarıram. Hər birinizə ömrüm boyu minnətdar olacağam, üçünüzün də toyunu özüm edəcəyəm. Hərəniz bir el gözəli ilə xoşbəxt olun...

İgidlər çox pərişan oldular. Başlarını aşağı saldılar. Onların hər biri şahzadəni yola gətirmək üçün çox çalışdı. Onun şərtini bir daha yada saldılar, öz xidmətlərini xatırlatdılar. Lakin şahzadə öz sözünü demişdi...

Birdən igidlərdən biri şahzadəni çətin vəziyyətə salan bir söz dedi. Onu dəlil qarşısında çıxılmaz vəziyyərdə qoydu. Nəhayət, şahzadə könlünü həmin igidə verməyə məcbur oldu.

Sual:

1. Həmin igid şahzadəyə nə dedi?

2. Şahzadə könlünü kimə verdi?

Rəvayət: ... Şah xəttata qiymətli bir kitabın üzünün köçürülməsi sifarişini verir. O, kitabın nə zaman hazır olacağını bilmək üçün xəttatdan soruşur:

— Gündə neçə misra yaza bilərsən?

Xəttat ədəblə baş əyərək deyir:

— Şah sağ olsun, gün ərzində beş misra yaza bilərəm.

Şah onu dinləyib belə bir tapşırıq verir:

— Əgər bacarsan iki misra, bacarmasan üç misra yazarsan!..

Xəttat işin məsuliyyətini anladı...

Belə deyirlər: ...Tanınmış alman ictimai xadimi və mütəfəkkiri Fridrix Engels (1820-1895) öz əqidə dostu, Marksizm nəzəriyyəsinin banisi Karl Marksa (1818-1883) yazdığı bir məktubunu bu cümlə ilə tamamlayır: "Əzizim, vaxtım az olduğu üçün məktubu bir qədər uzun yazdım. Lütfən üzrlü hesab edin..."

...Gülüstanda çiçəklər pis, otlar yaxşı, qanqallar əla bitmişdir.

Sual: Pis yaxşıdır, yaxşı yaxşıdır, yoxsa əla yaxşıdır?

...Yarışda üç idmançımız medala alyıq yerlər tutmuşdur. Azər əla güləşərək bürünc müdal, Eldar lap yaxşı döyüşərək gümüş medal, Rza yaxşı qaçaraq qızıl medal azandı.

Sual: Yaxşı yaxşıdır, lap yaxşı yaxşıdır, yaxsa əla yaxşıdır?

Və ya: Yaxşı pisdir, lap yaxşı pisdir, yoxsa əla pisdir?

Haşiyə: Ağır cinayət törətdiyi zənn edilən bir şəxsi güllələmək barədə şah tərəfindən cəllada namə göndərilir. Fərmanda yazılmışdı: "Güllələmək olmaz, buraxmaq!..."

Naməni alan cəllad məhbusu azadlığa buraxır.

Çünki katib səhvən vergülü “güllələmək” sözündən sonra deyil, “olmaz” sözündən sonra qoymuşdu...

Söhbət namədən düşdüyü üçün bir daha haşiyəyə çaxmağı lazım bildik.

Tələbəlik illərindən bir dodaqqaçdı ilə də söhbətimizi davam etdirək.

Haşiyə: ... Ədəbiyyat fakültəsində oxuyan bir oğlan və riyaziyyat fakültəsintə oxuyan bir qız dostluq edirdi. Onlar dərsə birlikdə ğedib-gəlir, sirlərini bir-birləri ilə bölüşürdülər. Bu dostluq getdikcə məhəbbətə çevrilir. Lakin onlar dostluğun pozulacağından qorxaraq bunu dilə gətirməyə ehtiyat edirdilər.

Oğlan dərdini yataqxanada otaq yoldaşına danışır. Otaq yoldaşı ona belə bir şer yazıb verir:

Çətin fənlər sala bilməz bəndə səni,
Sən sevirsən həndəsəni, - mən də səni...

Tapşırır ki, naməni qıza versin. Əgər o, bundan incisə... deyərsən ki, “Mən də səni” yox, “həndəsəni məndəsəni” (həndəsə - məndəsə) yazmışam.

Bu namə onlara xoşbəxtliyə gedən yolda bir körpü oldu.

Mövlanə Cəlaləddin Ruminin kəlamlarından:

...Peyğəmbər deyirdi ki, qadınlar ağıllı kişilərə, əhli-dil olanlara qalib gəlirlər.

Fəqət, cahillər qadına qələbə çalırlar, çünki onlar sərt və qaba rəftarlı olurlar.

Sual: Aqil güclüdür, yoxsa cahil?

Ağıl nə zaman qələbə çalar?

Verilmiş bu sualların cavablarını oxucunun öz ixtiyarına buraxırıq. Necə deyərlər, yazmağı bizdən, yozmağı Sizdən...

EPİLOQ

Söz ruhun ölçüsü, ağil sözün tərəzisidir.

QƏTRAN TƏBRİZİ.

O, sözdən söz ayırır.

ATALAR SÖZÜ.

SON

“SON“DAN SONRA

Həm sözümün Allahıyam, həm sözümün bəndəsiyəm...

* * *

MUSİQİ DƏ İNSANI TƏRBİYƏ EDƏ BİLƏR

Söz qurtaran yerdə musiqi başlanır.

HOFMAN.

Bizim eradan əvvəl 339-cu ildə Makedoniyalı Filip (Makedoniyalı İsgəndərin atası) Skiflərin üzərinə qoşun çəkir. Həlledici döyüş ərəfəsində skiflər bir makedonoyalını əsir tuturlar. O, məşhur yunan fleytaçalanı imiş.

Musiqiçini 90 yaşlı Skif şahı Ateyin yanına gətirirlər və onun musiqisinə qulaq asmağı məsləhət görürlər. Atey deyir: "Mənim üçün döyüş atlarının kişnərtisi hər cür musiqidən üstündür". Ertəsi gün Atey döyüşdə qəhrəmancasına həlak olur.

İstər-istəməz Şah İsmayıl Xətayi yada düşür. Qəribə oxşarlıq, qəribə təzad. İki şah, iki sərkərdə. Qoca-cavan. Birinin musiqiyə münasibəti təsvir olundu.

Şah İamayıl həm də şairdir. O, gözəl saz çalır. Musiqiyə yüksək qiymət verir. Onun sarayında musiqiçilər dəstəsi fəaliyyət göstərirdi.

Xətayinin aşıq Qurbani ilə söhbətindən:

— Qurbani, sən haqq aşığısan. Xudam səni xəlq eləyib, ürəyin istəyənə qulaq as. Bu gündən aşıqlar aşığısan...

Hələ körpə ikən anası və qardaşları ilə İstəxr qalasında dustaq saxlanılan vaxt onlara qulluqçulaq etmiş Səkinə yaxşı saz çalardı...

Zaman keçmiş, dövran dəyişmiş, İsmayıl şah olmuş. Səkinə isə talehin hökmü ilə sərsəri həyat sürməyə məhkum olmuşdur. O, Ərdəbildə İsmayılın anası və qardaşları öldürüləndə dəli olmuşdu...

Nəhayət, o, Bağdadda şahla qarşılaşır. Şah İsmayıl onu sazla müalicə etməyə çalışır...

Şah İsmayılın ağır döyüşlərdən əvvəl aşıqları meydana çağırmağı adət halını almışdı...

O, Çaldıran döyüşündən əvvəl rəssam Sultan Məhəmmədi, rəssam Behzadı, şairlərdən Həbibini, Sürurini, Allahini gözdən uzaq bir mağarada gizlədir. Yanlarına azuqə qoyur və bir-bir onlarla vidalaşır.

Döyüşdən sonra isə mağarada gizlətdiyi sənətkarları çağırmaq üçün adam göndərir. Deyir: "Biz hələ ölməmişik, duz-çörəyimizi isə itirməmişik..."

Buna bənzər epizod şeyx Şamilin də həyatını bəzəyir.

Haşiyə: Şeyx Şamil Məhəmməd Əl-Karaxi adlı mirzəsini qorxulu yerlərə getməyə qoymurmuş. Bundan narazı qalan Məhəmməd Tahir bir gün Şamilə deyir.

— Ya imam, bəlkə mənə inanmırsan? İcazə ver, mən də döyüş meydanına çıxım.

Şamil isə deyir:

— Əgər hamı məhv olsa belə, sən sağ qalmalısan, Əliqılınclı döyüşçünü əvəz edən tapılar, salnamə yazanı isə heç kəs əvəz edə bilməz, sən bizin mübarizə və mücadilə kitabımızı yazmalısan...

Tanınmış alman şairi Henrix Heyne (1797-1856) deyirdi: "Böyük ağıl qarşısında mən baş əyirəm, böyük ürək qarşısında isə diz çökürəm".

İbrahim Topçubaşovun, Paşa Qəlbinurun öz xəstələrini musiqi ilə müalicə etmələri haqqında çox danışılmışdır. Bu sətirləri oxuduqda yəqin ki, Siz də musiqi ilə müalicəyə aid müəyyən epizodları xatırlayacaqsınız.

Dahi İbn Sina nəbzin dəqiq duyulmasını həkimin məharəti sayaraq demişdir: "Nəbzin təbiəti musiqinin təbiətinə oxşayır". O, şairləri söz sərrafı, həkimləri isə sağlamlıq pərisi

adlandırmışdır. Onun "Urdenuza" poeması nadir, orjinal təbabət və poeziya nümunəsidir.

Çox zaman musiqi xəstələrin deyil həkimlərin xəstəliyə qalib gəlməsinə köməklik göstərmişdir. Məşhur cərrahımız İbrahim Topçubaşov cərrahiyəni də özünəməxsus incəsənət növü hesab edər və bəstəkarlıqla cərrahlığın bir-birini tamamladığını söyləyərdi.

Bir dəfə o, ürək üzərində cərrahiyə əməliyyatı apararkən çətin vəziyyət yaranır. Çox sevdiyi bir melodiya ona dayanmaqda olan ürəyə yenidən həyat verməkdə yardımçı olmuşdur.

Buna bənzər bir hadisə rus cərrahı, akademik Sergey Sergeyeviç Yudinin (1891-1954) də qarşısına çıxmışdır. İkinci dünya müharibəsi dövründən bədənində qəlpə qalan bir xəstə ölümlə həyat arasında çarpışırdı. Bəstəkar Sergey Sergeyeviç Prokofyevin (1891-1953) yeddinci simfoniyası təhlükəli qəlpəni çox ehtiyatla çıxarmağa kömək göstərmişdir.

Musuqi nəinki müalicə edir, o həm də insana müəyyən mənada tərbiyələndirir. "Koroğlu" dastanında gənc bir oğlanın Koroğlu dəlisi kimi tərbiyə olunmasına aid çoxlu rəvayətlər vardır.

... Koroğlu minarədə əsir qalıb. Eyvaz Ərəb Reyhandan Koroğlunu istəyir. Ərəb Reyhan deyir:

— Koroğlu mənim əlimdədir. Bircə dəfə işarə eləsəm minarə gedəcək. İndi sən gəlmisən onu qurtarmağa, yaxşısı budur ki, nə sənin qoşunun qırılsın, nə mənim. Gəl bu meydanda ikimiz vuruşaq. Sən məni öldürdün, Koroğlu da sənin, hər şey də sənin. Nə edərsən özün bilərsən. Yox mən səni öldürdüm, genə də nə eləyərəm özüm bilərəm.

Bütün üsullar səmərə vermədikdən sonra onlar güləşirlər. Ərəb Reyhan təcrübəli pəhləvandır. O girələyib Eyvazın çiyin damarlarını saldı cənginə. Eyvazın gözləri başladı qaralmağa. Elə bil ki, dünya-aləm durdu başına hərlənməyə. Koroğlu baxdı

ki, Eyvaz gedir. Ürəyi tablamadı. Elə bir nərə çəkdi ki, dağ-daş titrədi.

Canım Eyvaz, gözüm Eyvaz,
Bir bəri dön, bax bu yana!
Amandı qoç dəlilərin,
Qoyma dönsün qəlbi qana!..

Bu dəfə əksinə oldu. Eyvaz Ərəb Reyhanın çiyin damarlarını keçirdi barmaqlarına. Ərəb Reyhanın ağzı başladı köpüklənməyə...”

Qələbə. Xeyrin şər üzərində qələbəsi.

Qəlbəyatan bir musiqi qələbə gətirir. Qalib gəlmiş döyüşçülərin yaraları daha tez sağalır. Musiqi müalicə edir. Musiqi tərbiyələndirir.

Dövlət himni də musiqidir. O, hər xalqın ruhunu ifadə edir. Hər hansı bir ölkənin dövlət himni həmin dövlətin əsas atributlarından biridir. O, dövlətin və xalqın ürək kardioqramasıdır.

Haşiyə: (Azərbaycan bəstəkarı Cavanşir Quliyev ilə müsahibədən).

Müxbir: - Siz nə zamansa Azərbaycanı dünyada təmsil edən bir əsər yazmaq istərdinizmi?

Quliyev: — Belə bir əsər vardır. Bu, Azərbaycan Respublikasının Dövlət Himnidir!..

Təhlilə ehtiyac hiss etmirik...

Lakin zənnimizcə ən böyük nəğmə isə Əlahəzrət layladır. Layla canımıza hopan ana ruhu, gözəgörünməz ana südüdür. Layla çalmayan qadından ana, layla çalınmayan övladdan vətəndaş olmaz.

“...Bir dəfə Dağıstanın xalq şairi Abutalıbdan soruşurlar:

— Dağıstanın neçə şairi olar?

— Hə də, üç-dörd milyon tapılar.

— Necə yəni? Bizim ki cəmi-cümlətanı bir milyon əhalimiz var!

— Hərəsinin qəlbində üç-dörd nəğməkar yatır. Orası var ki, hamısı həmişə oxumur. Elə çoxunun da bundan xəbəri yoxdur.

— Hər halda ən mahir nəğməkarlar kimlərdir?

— Mahirlər mahiri həmişə tapıla bilər. Mən isə birinin adını çəkə bilərəm.

— Kimdir o?

— Dağıstanın anası. Ümumiyyətlə, dağlıların üçcə nəğməsi var.

— Hansılardır?

— Birini dağlı ana oğluna beşik başında oxuyur.

— İkincini harada bəs?

— İkincini dağlı ana oğlu ölində oxuyur.

— Bəs üçüncü?

— Üçüncü isə yerdə qalan nəğmələrin hamısı..

RƏSUL HƏMZƏTOV. “Mənim Dağıstanım”.

Dünyanın idman arenalarında qalib gəlmiş Azərbaycan idmançılarının şərəfinə Azərbaycan bayrağı qaldırıldıqda və himnimiz səsləndirildikdə qəlbimizə hakim kəslən hissləri təsvir etmək çox çətindir. Musiqi qaliblərin şərəfinə daha əzəmətlə səsənir.

“Cəngi”, “Heyratı”,”Mənsuriyyə” və neçə-neçə musiqi nümunələri başdan-başa əzəmətdən yonulmuş ürəklərdən pərvazlanan möhtəşəm səs heykəlləridir.

XX əsrin 70-ci illərində başqa planetlərdə həyat izlərini axtarmaq və Yer planeti haqqında başqa planetlərdə təsəvvür yaratmaq məqsədi ilə ABŞ-dan “Voyecer” silsiləsindən bir süni peyk buraxılmışdır. Peykdə Yer haqqında məlumatları tamamlayan digər əyani vəsaitlər ilə yanaşı qızıldan hazırlanmış bir val da yerləşdirilmişdi. Həmin valda külək, dəniz, ağac, quş və s. səsləri ilə bərabər dünyanın dörd xalqının musiqisi də yazılmışdır. Onlardan biri xalqımızın “Cəngi” melodiyasıdır...

Musiqi zövqü tərbiyə edir. İnsan şəxsiyyətinin formalaşmasına köməklik göstərir. Buraya həm milli, həm də klassik musiqi daxildir.

Dünyanın məşhur fiziklərindən biri, Avstriya alimi Lüdviq Bolsman (1844-1906) deyirdi: "Mən Şillerə borcluyam, o olmasaydı, mən adam ola bilməzdim..."

Dahi Üzeyir bəy isə belə deyirmiş: "Musiqi insanların şüurundan çox qəlblərinə, duyğularına təsir bağışladığından musiqi lisanında hər şeydən əvvəl, təbiilik və ürək çırpıntıları tələb olunur".

"Musiqini sevmək üçün ən əvvəl onu dinləmək lazımdır". Bu sözlər isə dahi rus bəstəkarı Dimitri Dimitriyeviç Şostakoviçə (1906-1975) məxsusdur.

Xalqımızın ədəbi və əbədi abidəsi "Kitabi- Dədə Qorqud" dastanında musiqi əsas xətt kimi keçir. Dramatik anlarda ozan öz qopuzu ilə qəlblərə hakim kəslir. Qopuz dinəndə silahlar susur, qopuz susanda silahlar dinir.

"Kitabi-Dədə Qorqud"dan: "Dədəm Qorqud gəldi, qopuz çaldı. Qazi ərənlər başına nə gəldigin söylədi:

Qanı ögdigimiz ərənlər,
Dünya mənim deyənlər?
Əcəl aldı, yer gizlədi,
Fani dünya kimə qaldı?
Gəlimli-gedimli dünya!
Son ucu ölümlü dünya!..

Mən bu sətirləri yazarkən Azərbaycan radiosu ilə sevimli şairimiz Bəxtiyar Vahabzadənin "Muğam" poeması səsləndirilirdi. "Zabul segah"ın sədaları altında diktor mətni avazla oxuyrdu:

Daş ürəklərdə yanıb daşları sındırdı muğam,
Haqqa düşmən olanı haqqa tapındırdı muğam.

Nə güman eyləmisən ondakı tilsimləri sən,
Kürü ahıyla qurutdu, salı yandırdı muğam.

Su çilər kinli ürəklərdə qəzəb tonqalına,
Neçə qəsdin önünü kəsdi, dayandırdı muğam.

Onun hər guşəsi bir xatirə, bir canlı kitab,
Keçilən yolları hərdən bizə andırdı muğam.

O – ürək yanğısı, göz yaşları, bir çəngə bulud,
Oyadıb yaddaşı, vicdanı utandırdı muğam.

Dəfn edin məni "Zabul segah"ın mayəsinə,
Deyirəm, bəlkə, məni bir gün oyandırdı muğam.

Çox kitablar oxudum, zənn elədim Bəxtiyaram,
Mənə çox mətləbi ahəstəcə qandırdı muğam.

Əzizlərim, Sizi Bəxtiyar musiqisi (bəli, Bəxtiyar musiqisi!..) ilə baş-başa qoyub kənara çəkilirik...

EPİLOQ

Oxu tar!
Səni kim unudar?..

MİKAYIL MÜŞFİQ

"...Cahargah" – muğamlar cəngavəri...

ƏLİSA NİCAT.

SON

"SON"DAN SONRA

Mən Azərbaycan musiqisini gücün çatan qədər sevirəm...

Ürək döyüntüsü ən əzəmətli musiqi əsəridir. İnsan bu əsərin son akkordlarını dinləyib dünyadan köçür.

Bu musiqiyə qulaq as sənin kim olduğunu deyim ...

* * *

ZİDDİYYƏTLƏRİN TƏZADI
(və ya zaman, məkan imkan, məqam, insan vəhdəti)

İnsan olmağa çalış və ol.
PİROQOV.

İnsan zaman heykəlidir...

Dünya ziddiyyətlərlə doludur. Dünya təzadlar dünyasıdır. Təzadlar ziddiyyətlərin ziddi, ziddiyyətlər təzadların təzadıdır. Ömür də zamandır. Hər zaman isə ömür deyil. İnsan da məkandır, arzuların məkanı, duyğuların məkanı... insanlığın məkanı. Hər məkanda isə insan yoxdur. İnsanın insanlıq etməsi üçün zaman, məkan və imkan gərəkdir. İnsan, zaman, məkan, imkan bir-biri ilə ziddiyyət təşkil edən təzadlardır.

Dahilik insanlığın zirvəsidir. Zaman, məkan, imkan olmasa, dahi yaranmaz. Dahilik fitri istedadın və gərgin əməyin nəticəsidir. Bunu dahilik zirvəsinə yüksəlmiş şəxsiyyətlər də öz əsərlərində dönə-dönə etiraf edirlər.

Düha – on faiz istedad və doxsan faiz zəhmət deməkdir.
ALBERT EYNŞTEYN.

Asif Ata (Asif Əfəndiyev) isə belə deyir:

“Dənizlərə bənzəri var dahilərin: adi çay sularından törəyib, lakin çay deyil, dənizdir. Dağlara bənzəri var dahilərin! Xırda daşlardan yığılıb, lakin torpaq deyil, daş deyil dağdır”.
ASİF ƏFƏNDİYEV. “İnam və Şübhə”.

Zamanda yaxşı da var, pis də. Gecə də var, gündüz də. İnsan da var, məkan da var, imkan da. Məkanda insan var, imkan var. Məkan əlverişli də olur, əlverişsiz də. Məkan özünün məhsulu ilə məkandır. Məkanın ən qiymətli məhsulu insandır. İnsan özü də məkandır-insanlığın məkanı. İmkan məkanda olur. İmkan zamanda olur. İmkan insanda olur. İmkan olmasa insan, zaman

və məkanda insanlıq edə bilməz. İnsan zamandan ömür qurur, (məkanda və özündə) imkan daxilində.

Məkan zamanda məkandır. Məkan insanı olanda ünvandır. Məkan imkan olanda, müəyyən zamanda insanı yaratdı. Məkan insan ilə gözəldir.

İmkan zamanda olur, məkanda olur, insanda olur.

Zaman imkanı olanda məkanı, insanı, imkanı, məqamı yaratdı. Zaman ömürdür, zaman elə zamandır. Zaman insana, məkana, imkana, məqama möhtacdır.

Məkan zamanda insanı, imkanı yaratdı. Məkan zamana, insana, imkana, məqama möhtacdır...

İmkan özü yaranmır. Onu zaman, məkan, insan yaradır. İmkan olmasa, insan dahi ola bilməz... İmkan məqamında yetişir. Məqam imkanın həqiqətə çevrildiyi nöqtədir.

İnsan zamanda, məkanda yaşayır. Ona imkan və məqam verilir. İnsan zamana, məkana, imkana, məqama möhtacdır.

Zaman yaradır insanı,
Zaman məkana möhtacdır.
İnsan arayır zamanı,
İnsan zamana möhtacdır...

...Zamanın zirvəsi – Ömür!..
...Məkanın zirvəsi – Ünvan!..
...İmkanın zirvəsi – Həyat!
...Məqamın zirvəsi – zaman (zamansızlıq)!..
...İnsanlığın zirvəsi – Dahilik (aqillik)!..

Zaman vaxtdır, vədədir. Zaman insanın yaşadığı tarixi dövrdür. Zaman – dövr, era, qərinə, il, ay, həftə, gün, saat, dəqiqə, saniyə, salisə ilə ölçülür.

Zaman xronometr adlanan cihazla ölçülür. Saat adlı cihaz xronometrin kiçik qardaşıdır. Bütün xronometrlər saatdır,

bütün saatlar isə xronometr deyil. Saat zaman arşını, tərəzisi, qayçısıdır...

Zamanın yaxşısı var, pisi var, acısı var, şirini var. Zamanın ən yaxşısı xatirələrdə yaşayır. Ən xoş zaman arzulanır, ümid edilir.

Məkan – yerdir, yurddur, göydür, asimandır.

Məkan – insanın yaşadığı dünyadır.

Məkan – insanın ünvanıdır, məkan insanın özüdür.

Məkan – qalaktika, aləm,Yer kürəsi, qitə, marerik, ölkə, mahal, rayon, şəhər, kənd, küçə, ev və ... insan özü.

İnsan – maddi və bioloji varlıqdır.

İnsan – zamanın meyvəsidir.

İnsan – zamanın sakinidir.

İnsan – qadın-kişi, ər-arvad, oğul-qız, baba-nənə, ata-ana, övlad nəvə, nəticə, kötücə, iticə, yədicə...

İnsan – aqil, insan-kamil, insan-dahi. Və ya ... əksinə.

İnsan – insanlığın məkanıdır.

İmkan – fürsətdir.

İmkan – zamanın verdiyi şansdır.

İmkan – insanın götürə biləcəyi yükdür.

Məqam – zaman zərrəsi.

Məqam – zamanın, insanın, imkanın sınaq anı, sınaq məkanıdır.

Rəvayət: ... Qoca bir kişi ömrünün qırx ilini dəyirmançılıqla keçirmişdi. Hazırda onun altmış yaşı vardı. Bir gün iyirmi yaşlı bir qız üyütmək üçün dəyirmana dən gətirmişdi. Dəni üyütdükdən sonra qoca ona dedi:

— Bu dəyirman mənə mərhum arvadımdan qalıb. İndi bu tərəflərdə ən yaxşı dəyirman hesab olunur. Bu həyət-baca, var-dövlət də mənə məxsusdur.

Sonra qoca dəyirmançı otağındakı sandığı açaraq içindəki qızılları qıza göstərdi və əlavə etdi:

— Mən ömrümün son illərini yaşayıram. Bir kimsəm də yoxdur. Gəl mənim arvadım ol, bütün bu var-dövlət də sənin olsun. Mən öldükdən sonra özünə bab birisi ilə ailə qurarsan və xoşbəxt ömür sürərsən.

Qız onunla razılaşır. Onlar birlikdə xoş günlərin astanasına qədəm qoyurlar. Bu minvalla onlar qırx il birgə yaşayırlar. Dəyirmançı vəfat edəndə artıq yüz yaşı vardı. Onda onun arvadı altmışı yola salmışdı.

Qocanın ili çıxar-çıxmaz dəyirmana gənc bir oğlan gəldi. O, üyütmək üçün dən gətirmişdi. Un hazır olandan sonra qarı gəncə dedi:

— Bu dəyirman, həyət-baca, var-dövlət mənə mərhum ərimdən qalıb. Həyatda bir kimsəm də yoxdur. Görürəm gəşəng oğlansan, lakin kasıbsan. Gəl, məni al, bu var-dövlət də sənin olsun. Mən öləndən sonra özünə bab olan gözəl bir qızla həyatını qurarsan, xoşbəxtliyə qovuşarsan.

Sonra dəyirmançı qarı, otağındakı sandığı açaraq içindəki qızıl pulları oğlana göstərdi. Oğlan onunla razılaşdı. Bu minval ilə onlar qırx il birlikdə ömür sürdülər. Qarı vəfat edəndə onun yüz yaşı vardı. Haqqında danışdığımız oğlan isə altmış yaşının içində idi.

Qadının ili çıxar-çıxmaz dəyirmana gənc bir qız gəldi. O üyütmək üçün dən gətirmişdi. Qoca dəyirmançı onun dənini üyütdü. Sonra ona evlənmək təklifi elədi. Sonra onlar evləndilər, sonra bu qızın altmış yaşı olanda kişi yüz yaşında dünyasını dəyişdi. Sonra dəyirmana gənc bir oğlan gəldi...Sonra... Sonra... Sonra...

Zaman ötür, dəyirman işləyir, gənclər və qocalar bir-birini əvəz edir, sandıqdakı pullar yerindən tərpənmir. Məkan həmin məkan, məqam həmin məqam, imkan həmin imkan... dəyişən isə zaman və insanlardır...

İmkan – zaman, məkan, insan, meydan, fürsətdir. İmkan maddi və mənəvi keyfiyyətlərə söykənir.

Zaman, məkan, insan, məqam, imkan bir-biri ilə ziddiyyətlərdə olan təzadlar, təzadda olan ziddiyyətlərdir. Zaman, məkan, insan, məqam imkan həyatı təşkil və tənzim edir. Hayat ziddiyyətlər və təzadlar dünyasıdır.

Gözəllik insan qəlbini riqqətə gətirən duyğular toplusudur. Gözəllik çirkinliklə ziddiyyət təşkil edir. Gözəllik şərtidir.

Tarixə gözəl dövr kimi daxil olan məşəqqətli dövrlər, məşəqqətli dövr kimi daxil olan əsl tarixlər vardır.

Makedoniyalı İsgəndər, Napoleon... öz xalqı üçün nə zamansa, haradasa, nəsə əldə edib. Lakin minlərlə insanı qırıb, məhv edib, insanlığına nöqtə qoyub.

Müstəmləkə sistemi dağıldı. Yenə qırğın, yenə faciə. Lakin bu qırğın azadlıq uğrunda olub. Azadlıq uğrunda hər cür əziyyət çəkməyə dəyər. Daha doğrusu, hər cür əziyyət yalnız azadlıq uğrunda çəkilməyə layiqdir.

Azadlıq uğrunda ölüm şərəfli və gözəldir. Zamanın ən gözəli azad zamandır. Zamanı gözəl edən onun insanlarıdır.

İnsanı gözəl edən onun insanlığıdır. Çox gözəllər vardır ki, mənəviyyatca kasıbdır. Çox çirkinlər vardır ki, zəngin mənəviyyata malikdir. Mənəviyyatca zəngin olan insan daha gözəldir.

Gözəl məkanlar var ki, insan yaşamır, daha doğrusu, yaşaya bilmir. Mənzərəsi gözəl olan məkan yox, insanları gözəl olan məkan gözəldir.

İmkan insana verilir. İmkan xoş məramlı olduqda gözəldir. Zaman insana atom enerjisindən istifadə etmək imkanı verdi.

İnsan (dahi insan!..) ondan insanlığı məhv etmək üçün istifadə etdi. Kaş, bu imkan verilməyəydi...

İnsana atom enerjisindən elektrik enerjisi almaq imkanı verildi. Bu imkandan istifadə edildi. Kaş, bu imkan tez veriləydi...

Zamanın gözəli – gözəl insanları olan zamandır.

Məkanın gözəli – gözəl insanları olan məkandır.

Məqamın gözəli – ötürülməyən məqamdır.

İmkanın gözəli – insanlara xidmət edən gözəl əməllərin çiçək açdıranıdır.

İnsanların gözəli – zəngin mənəviyyata malik olan, zamanı, məkanı, insanı gözəlləşdirən imkanlardan istifadə edənlərdir. Xoş əməlli, xoş amallı insan gözəldir.

"İnsanın bəzəyi müdriklik, müdrikliyin bəzəyi soyuqqanlılıq, soyuqqanlılığın bəzəyi cəsurluq, cəsurluğun bəzəyi yumşaqlıqdır !.."

QƏDİN HİND FƏLSƏFƏSİNDƏN.

İnsan isə zamanın məkanın, məqamın, imkanın bəzəyidir. Yaşasın zamanı, məkanı, imkanı, məqamı, insanlığı yaşadan gözəl qəlbli, zəngin mənəviyyatlı insanlar!!.

EPİLOQ

Pul qiymətlidir, insan həyatı ondan da qiymətlidir, vaxt isə hər şeydən qiymətlidir.

SUVOROV.

Vaxt həyatın vicdanıdır, itirilmiş vaxt, adamı itirilmiş vicdandan da artıq həyəcanlandırır.

YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ.

SON

"SON"DAN SONRA

Bir qıpımlıq andı ömür,
Gözlə qaşın arasında.
Saman umur zaman məndən,
İki daşın arasında...

* * *

İNSANA AĞLINA GÖRƏ QİYMƏT VERMƏLİ

" Hər şeyi hamı birlikdə bilir bilir,
hamı isə hələ anadan olmamışdır".

"QABUSNAMƏ"dən.

Hərbi xidmət illərində - deyə qardaşım Nuru sözə başladı: "Hərdən bizə şəhərə çıxmağa icazə verilirdi. Biz əsgərlər dəstə-dəstə bu Uzaq Şərq şəhərinin görməli yerlərini gəzərdik. Çox zaman yolumuzu rəqs meydançasından salardıq. Orada hamı bizi səbrsizliklə gözləyərdi, xüsusən də qızlar. Nə gizlədim, hərənin bir rəfiqəsi də vardı. Şəhərə çıxanda səliqəmizə xüsusi diqqət verərdik.

Nə qədər xahiş etsə də Vaqifi özümüzlə aparmazdıq. Həmyerlimiz olsa da, hamımız onu "ÇMO" hesab edirdik. Bir gün o, mənə dedi: "Elli, məni bu sarıqulaqların yanında sındırma, məni də özünüzlə rəqsə aparın..."

Söz mənə təsir etdi. Axşam Vaqifi də özümüzlə "uvalneniyeyə" apardıq.

Rəqs başlandı. Seryoja köhnə bayanda hansısa rus mahnısının "qol-qabırğasını qıra-qıra" çalırdı. Biz də ortada necə deyərlər sürünürdük.

Vaqif kənarda boynubükük dayanmışdı. Birdən o, səhnədə uzun müddət toz-torpaq içində qalan royala yaxınlaşdı, onun qapağını açdı. Hamı istehza ilə gülümsəyirdi. Hətta "maestro" deyərək ona sataşanlar da oldu. Birdən möcüzə baş verdi. Onun barmaqları dillər üzərində gəzdi. Vals çalındı. Royal dindi, bayan susdu. Vaqif çaldı, Seryoja dayandı. Qızlar vəcdə gəldi. "Tanqo", yenə "Vals", "Uzundərə", "Tərəkəmə", "Mirzeyi", "Zemfira", "Kəmalə" ... Bax, Bethoven, Şopen, Qara Qarayev, Fikrət Əmirov ... bir-birini əvəz edirdi. Heyrətdə qalmışdıq.

Həmin axşam hamımız Vaqifdən üzr istəməyə belə xəcalət çəkirdik. Bundan sonra həm şəhərdə, həm də hərbi hissədə hamı onu "maestro" çağırırdı. Demə, o, musiqi müəllimi imiş.... Hazırda o, ölkənin tanınmış musiqiçilərindən biridir".

Bu epizod isə 1832-ci ilə təsadüf edir. Sadə geyimli bir gənc oğlan Milan konservatoriyasının müdiri Pizalinin yanına gəlir və musiqi təhsili almaq arzusunda olduğunu bildirir. Gəncin sadə kəndli paltarı və sadəlövh görkəmi Pizaliyə xoş gəlmir və onun gələcəyinə inanmayaraq konservatoriyaya qəbul olunmasına icazə vermir.

Həmin oğlan sonralar məşhur bəstəkar olmuş Cüzeppe Verdi (tam adı Cüzeppe Fortunato Françesko; 1813-1901) idi. Milan konservatoriyası hazırda onun adını daşıyır.

Məşhur fizik Albert Eynşteyn, fransız yazıçısı Emil Zolya, İsaak Nyuton, həmçinin Kapablanka, Morfi, Alyoxin qeyri-adi istedadının üzə çıxması haqqında məlumatlarla söhbətimizi davam etdirə bilərdik. Lakin həssas oxucu nə demək istədiyimizi yəqin ki, ilk sətirdən anlamışdır.

"Axtardığını zəhmət qapısında taparsan".

AZƏRBAYCAN ATALAR SÖZÜ.

"Doğrudan da bu da bir həqiqətdir ki, adam bir şeyi bilməyə-bilməyə və eşitməyə-eşitməyə o şeydən xəbər verə. Bu özü də bir elmdir, hələ nəinki elmdir, bəlkə də Allah vergisidir".

CƏLİL ƏMMƏDQULUZADƏ.

Əziz həmsöhbətlərim, sətiraltı mənanı yəqin ki dərindən duydunuz.

Haşiyə: Dahi ingilis alimi İsaak Hyuton (1643-1727) anadan yarımçıq doğulmuş və uşaqlıqda çox cılız olmuşdur. Hətta onun yaşayacağı da şübhə altında idi. Kitab və iş onun həyatının mənası olmuşdur. Nəticədə o, təbiətin bir neçə qanununu kəşf etmişdir.

Məşhur ingilis fiziki Maykl Faradey (1791-1867) 13 yaşında ikən kitab cildçisi işləmişdir. Sonra o, orta təhsil almış, fizika və kimya ilə maraqlanmışdır. Bir gün o, məşhur kimyaçı Hemfri Deviyə onun laboratoriyasında işləmək arzusunda olması barədə müraciət edir.

İlk tanışlıqdan sonra Devi Faradeyə laboratoriyada səliqə yaratmaq və kimya qablarını yuyub təmizləmək barədə tapşırıq verir. Faradey isə məmnuniyyətlə razı olur və tapşırığı dəqiq surətdə yerinə yetirir.

Alimin ev işlərinə kömək, hətta xanımının itini gəzdirmək də onun vəzifəsinə daxil idi. Cəmi 10 il keçdikdən sonra isə Faradey alim kimi tanınmışdı.

Devi isə bütün bunları dünya alimlərinin Kembric toplantısında belə təsvir etmişdir: "Mənim ən böyük kəşfim Faradeydir. Mən onunla 1812-ci ildə bir kənddə tanış oldum, gördüm ki, çox bacarıqlı uşaqdır. Mən 13 yaşında onu işə dəvət etdim, 17 yaşında ona müstəqil iş verdim...

Daha bir epizod: 12 yaşlı Saşa kimya laboratoriyasında hərdən xəlvət küncə çəkilib təcrübələr aparırdı. Bir dəfə isə kimyəvi reaksiya partlayışla nəticələnir. Uşaq huşunu itirir. Onu çətinliklə ayıldırlar. Məktəb müdiriyyəti və müəllimlər bərk həyəcanlanır. Onu cəzalandırmaq qərarına gəlirlər. Yoldaşlarının gözü qarşısında onun boynundan "böyük kimyaçı" sözü yazılmış taxta lövhə asırlar. Və şiddətli töhmət elan edirlər.

Həmin yeniyetmə sonralar üzvi maddələrin kimyəvi quruluş nəzəriyyəsini kəşf etmiş dünya şöhrətli alim Aleksandr Mixayloviç Butlerov (1828-1886) idi.

Qohumum, mərhum Mahmud müəllim Məmmədov belə deməyi xoşlayardı: "Bu günkü yumurta sabah göydə uçan quşdur". Lakin böyük İsveçrə pedaqoqu İohan Henrix Pestalotsinin (1746-1827) təbirincə: "Heç bir quş uçduğu yüksəklikdə qalmır, təkrar aşağıya enir".

Uzun illər ərzində mən heç zaman ağlından gileylənən adam görmədim. Axmağa da ağılsız dedikdə o, həyəcanlanar və dava edər.

EPİLOQ

Hər bir müvəffəqiyyətli iş ağıl sayəsində olur.
ABBASQULU AĞA BAKIXANOV (QÜDSİ).

Ağıllı adamdır dünyada o kəs,
Gözü görməyəni heç qəbul etməz.
NİZAMİ GƏNCƏVİ.

SON

“SON“DAN SONRA

Qonağı geyiminə görə qəbul edib, ağlına görə yola salarlar.
AZƏRBAYCAN ATALAR SÖZÜ.

Biz öləndən sonra görəcəklıər ki, üç “tuz” kimin əlindəymiş.
SƏTTAR BƏHLULZADƏ.

* * *

YAŞAMAQ GÖZƏLDİR

An ötüşdü ömür qədər,
Ömür ötdü an içində...

Dövr, era, əsr, qərinə, il, ay, həftə, gün, saat, dəqiqə, saniyə, salisə ... zamanın elmi, qeyri-elmi, standart, qeyri-standart vahidləri. Ömür adlanan zaman kəsiyi də bu vahidlərlə ölçülür.

Öz varlıqları ilə təbiəti bəzəyən canlıların özünəməxsus ömür yolu vardır. Timsah 300 il, tısbağa 300 il, qarğa 100 il, balina 80 il, qorilla, şimpanze, oranqutan 60 il, at 30 il, qaranquş 9 il, sərçə 5 il, arı 1,5 ay, milçək 25 gün, infuzor 1 gün... yaşayır.

İnsan – yer üzünün ən ali sakini. İnsan – dünyanın yaraşığı. İnsan zamanın mənasıdır. Onun ömrü isə əsr ətrafında tərəddüd edir. Uzun müddət ömür problemləri ilə məşğul olmuş məşhur rus alimi İlya İliç Meçnikov (1845-1916) insan üçün orta yaş dövrünü 160 il hesab edir. O, uzun illər ərzində müşahidə və tədqiqatlar apardıqdan sonra bu nəticəyə gəlmişdir. Bu yaşdan tez ölümü o, "əcəlsiz ölüm" adlandırmışdır.

İnsanın ömrü onun sağlamlığı ilə əlaqədardır. Uzun illər ərzində təbiblər və loğmanlar insan ömrünü uzadan "həyat eliksiri" axtarışında olmuşlar. Etiraf edilməlidir ki, bu sahədə bəzi nailiyyətlər əldə olunmuş, bir sıra sağalmaz xəstəliklərə əlac tapılmışdır. Biz burada həmin məsələ haqqında söz açmaq fikrində deyilik.

Həkimlər elə bir xəstəlik müəyyən etməmişlər ki, onun yaranmasına əsəb sistemi təsir etməsin. Necə deyərlər: "Səbəb əsəbdir, əsəb isə səbəbdir". Deməli, əsəb sistemini ilkin olaraq müalicə etməli, lakin təbii dərmanların rolunu da inkar etməmək lazımdır.

Şimali Qafqazın, o cümlədən Pyatiqorskinin qədim skiflərin məskəni olduğu tarixçilərə yaxşı məlumdur. Maşuk dağının mağaralarında skif qəbirləri tapılmış və onlar üzərində geniş

tədqiqat işləri aparılmışdır. Müəyyən edilmişdir ki, skifləri Şimali Qafqaza gətirən ilk növbədə oranın müalicə suları olmuşdur.

Qədim dünyanın nəhəng filosofu Platon (Əflatun) Sokratın şagirdi olmuşdur. Sokrat bir gecə yuxuda görür ki, dizləri arasında qu quşunun balasını tutmuşdur. Lakin qu quşu qəflətən qıy vuraraq uçub gedir. Səhər o, 20 yaşlı Platona rast gəlir. Və deyir: "Yuxum çin oldu, mən yuxuda gördüyümü aşkarda tapdım". Platon isə Sokrat ölənəcən ondan ayrılmayaraq ona şagirdlik etmişdir.

Platonun ən məşhur şagirdlərindən biri Aristotel (Ərəstun) olmuşdur. Aristotel çox zaman qoca müəlliminin fikirləri ilə razılaşmaz, tez-tez onunla mübahisəyə girişərdi. Platon bu münüsibətlə onu "anasını əmərkən kəllələyən dayça" adlandırmışdır. Lakin Aristotel müəlliminin şəxsiyyətinə və yaradıcılığına yüksək hörmətlə yanaşırdı. O deyirdi: "Platon mənim üçün əzizdir, ancaq həqiqət daha əzizdir".

"Dövlət – tərbiyə ocağıdır. Hakimiyyət başında müdrik filosoflar dayanmalıdır". Bu sözlər Platona məxsusdur.

Aristotel isə Makedoniyalı İsgəndərin müəllimi olmuşdur. İsgəndər demişdir: "Mən Aristoteli atama bərabər tuturam, əgər atama həyatım üçün borcluyamsa, Aristotelə hər şeyə görə borcluyam".

Sağlamlığa aid bir haşiyə: Evin xanımı sağalmaz xəstəliyə düçar olmuşdur. Ümidlər kəsilmişdir. "Həkimlər əlimdən gələni etdim" – deyə özlərinin acizliyini dolayı yolla etiraf edirdi.

Uşaqların xahişi ilə ailənin başçısı ata (ər) son borc olaraq daha bir həkim gətirir. Qoca təbib xəstəni müayinə edib alətlərini yığışdırır, lakin heç nə demir. Dərin sükut nərə çəkir. Sükutu xəstə ana pozur:

- Həkim düzünü söylə, mən sağalacağammı?

Həkim gözlərini pəncərəyə zilləyir, payız mənzərəsinə xeyi baxaraq susur və nəhayət, dillənir:

- O ağacı görürsən? Onun sarı yarpaqları yaşıllaşanda, inşallah sağalarsan.

Xəstə bu sözdən azacıq təsəlli tapır və yuxuya gedir.

Ata (ər) gecə ağacın bütün yarpaqlarını yaşıl rəngə boyayır. Səhər açılanda evdə ümid ziyası parlayır. Bu ziya getdikcə gur işığa çevrilir. Ana sağalır...

Oxucunu yormamaq ümidi ilə daha bir haşiyə: ... Dahi rus şairi Aleksandr Sergeyeviç Puşkinin (1799-1837) şəxsi həkimi Spasski dueldə yaralanmış şairi müayinə edib ümidsizliyə qapılır. Şair həkimə deyir: "Düzünü söylə, mən sağalacağammı, çox vacib və təxirəsalınmaz işlərim var?!

Həkim daha iki həmkarı ilə məsləhətləşərək vəziyyəti təhlil edir və doğru söyləməyi həkimlik borcundan üstün tutaraq həqiqəti deyir: "Nə gizlədim, vəziyyət ümidsizdir".

Dahi şair ölümü də təmkinlə qarşılayır...

Həkim oradan birbaşa başqa bir xəstənin üstünə gedir. Xəstə başını azca qaldırıb həkimin əllərindən tutaraq deyir:

- Həkim sağalmağıma ümid varmı?

Həkim:

- Heç bir ümid yoxdur, bir də ki, hamımız öləcəyik. Odur, Puşkin ölür, Puşkin!.. Yəni biz ondan artığıq?..

Xəstə son dəfə inləyib ölür.

Bu, insanı məcazi mənada deyil, həqiqi mənada öldürməkdir. Həkim özünün həkim andını – Hippokrat andını pozmuşdur. O, yaxşı həkim olsa da, yaxşı şagird olmamışdır. (Həkimin birinci xəstəyə, dahi şairə sağlamlıq durumu barədə həqiqəti söyləməsi faktına münasibət də həkimlər və psixoloqlar tərəfindən birmənalı deyildir...)

Hippokrat deyirdi: "... Filosof həkim Allaha bərabərdir!."

Hippokrat bütün məhəbbətlərin əsasında insana məhəbbətin durmalı olduğunu həkimlərə xatırladaraq deyir: “Yalnız təbabətə bələd olan həkim təbabəti tam bilməz”.

Sözlə də müalicə etmək olar. Həm də ən sağalmaz hesab olunan xəstəlikləri belə. Hətta nadanlıq, tənbəllik, ümidsizlik və başqalarını da... Bunun üçün pedaqoq olmaq vacib deyil. Pedaqoq təbiətli insan olmaq kifayətdir.

Kəlam: ... Ürəyi ürəklə müalicə edərlər.

Rəssam İSAAK İLIÇ LEVİTAN.

Söz apteklərdə tapılmayan ən ecazkar dərmandır. O, sağalda və öldürə bilər. Sözü kimin harada və hansı şəkildə işlətməsinin mətləbə çox dəxli vardır...

Doqquz uşaq: 5 oğul, 4 qız böyütmüş anamız Gülnaz xanım Gəncə şəhərində süd vəzinin ağır formalı xəstəliyindən cərrahiyə əməliyyatına hazırlanırdı. Atamız Fərhad Əsgər oğlunun dilindən izahat aldılar ki, əməliyyat uğursuz alınarsa, şikayət olunmayacaq. Bu zaman biz, yəni övladlar hamımız ağlayırdıq. Atamız bizə təsəlli verərək dedi:

- Siz nə üçün ağlayırsınız. Qoyun mən ağlayım. Qalası olsaq, siz yox, mən yetim qalaram...

Bu üç kəlmə sözdə böyük romanlara sığmayan mənalar vardır. Xoşbəxtlikdən əməliyyat uğurlu alındı. İyirmi ildən artıq bir zaman ötməsinə baxmayaraq anamız həmin xəstəlikdən şikayət etmir. Burada daha bir məqam diqqətdən kənarda qalmamalıdır. Həkim şəxsiyyəti. Mən bu epizodu söylədikdə yəqin ki, çoxlarının qəlbində həkimə qarşı soyuq hisslər baş qaldırdı. Elə həmin izahat alınarkən biz də ondan incimişdik.

Sonra bildik ki, bu işin mexanizmi beləymiş. Lakin əməliyyat zamanı və ondan sonrakı dövrdə Zikrət həkimin nə qədər səmimi insan olduğu aydınlaşdı. Bir neçə saatlıq əməliyyatdan sonra tərdən tamam islanmış, üzgün vəziyyətdə

çıxsa da, gözlərinə yorğunluq dumanı çöksə də, o, həkim məğrurluğunu saxlamışdı.

Onun görkəmində öz vəzifə borcunu ləyaqətlə yerinə yetirmiş bir insanın insanlıq çalarları cəmləşmişdi. O, başdan-başa vicdam heykəli idi. Biz ondan anamızın halını soruşmağa cürət etmirdik. Anamız həyata qayıtmasa belə biz ondan inciyə bilməzdik. Çünki onun baxışlarında əlindən gələni etmiş bir insanın əhvali-ruhiyyəsi toplanmışdı.

Həkimə əziyyəti müqabilində heç bir haqq verməyə müvəffəq olmadıq. O, bir daha böyüklüyünü sübut etdi. Həkim əsl insanlıq nümunəsi nümayiş etdirdi. Eşq olsun insanlığa!!.

"Gözəl insan öz əməli ilə hamını valeh edir".

Həmişəmi belə olur? Mən bunun əksi olan epizodu təsvir etməyə çətinlik çəkirəm, daha doğrusu, təsvir etmək istəməzdim. Lütfən məni üzrlü sayın, məzur tutun...

Rəvayət: ... Qoşun Ərzrum səfərindən qələbə ilə Çənlibelə qayıdır. Ağır yaralanmış Dəmirçioğlunun vəziyyəti ümidsizdir. Koroğlu Evazı tez-tez xəstənin yanına göndərir.

"Eyvaz Koroğlunun yanına qayıdıb dedi:

- Dəmirçioğlunun yarası çoxdur, sağalan deyil, munu bu halda Çənlibelə niyə aparırsan? At, burada bir yerdə qalsın.

Eyvazın cavabında aldı Koroğlu, görək nə dedi:

Binadan gözəl olmayan,
Telin qədrini nə bilər?
Çöldə gəzən boz sərçələr
Gülün qədrini nə bilər?

Kəl qoşub kotan əkməyən,
Nanın süfrəyə tökməyən,
Arının qəhrini çəkməyən
Balın qədrini nə bilər?

Utan, Eyvaz xan, utan,
Dağların dumanın tutan,
Namərddiynən başa çatan
Elin qədrini nə bilər?

Koroğlu sazla dediyi kimi sözlə də dedi:

- Eyvaz, mən dəlilərin hərəsini bir yerdə atıb getsəm, onda mənim başımda adam qalmaz, hamısı çıxar gedər, tək qalaram, düşmən üstümə ayaq alar. Dəmirçioğlunu Çənlibelə aparacam, həkim tapacam, yarasına dərman qoyub bağlasın. Sağalsa, yaxşı bir toy eləyib Telli xanımı da ona verəcəm.

Koroğlu dediyi kimi etdi...

Yaşamaq və ömür sürmək eyni fikri ifadə etsə də, mahiyyət etibarı ilə eyni məna kəsb etmir. Daha doğrusu, onlar zaman etibarı ilə insan həyatının müxtəlif dövrünü əhatə edir. Bütün hallarda yaşamaq ömür sürməkdir, lakin omür sürmək heç də həmişə yaşamaq demək deyildir.

Haşiyə: ... Bir səyyah yolüstü bir məzarıstana daxil olur. O, qəbirlər arasında gəzdikdə qəribə bir mənzərənin şahidi olur. Görür ki, baş daşları üzərində belə yazılar var: “Filankəs səksən il ömür sürmüş, otuz il yaşamışdır. Filankəs doxsan il ömür sürmüş, otuz beş il yaşamışdır və s.”

O, bu sirrin cavabını yerli əhalidən soruşur. Ona deyirlər: “Bu adam səksən yaşında vəfat etsə də, həyatının yalnız otuz ilini xoş keçirmişdir...”

Səyyah düşüncələrə qərq olur. Sonra deyir:

- Vəsiyyət edirəm ki, öləndə mənim baş daşıma yazsınlar: “Bu şəxs anadan ölü doğulmuşdur...”

Haşiyə: ...Ölüm mələyi bir kəndliyə suala cavab tapacağı təqdirdə istədiyi qədər yaşamağa imkan verəcəyini vəd edir. Razılaşırlar. Mələk deyir:

- Get, sabah mənim üçün ən yüngül və boş əşyanı gətir.

Ertəsi gün kəndlinin əlindəki şeyi görən ölüm mələyi bir anda gözdən itir.

...Kəndli əlində insan kəlləsi tutmuşdu...

EPİLOQ

Həyat uzunluğuna görə deyil, mənasına görə qiymətlidir.

SENEKA.

SON

“SON”DAN SONRA

Nənəmin qəbir daşında yazı: “Övladlarım, nəvələrim, nəticələrim, kötücələrim arasında yaşadım...”

* * *

TƏSADÜF

Təbiət də zərurətə tabe olmalıdır.
ŞEKSPİR.

Təbiətdə təsadüflər yoxdur.
LESSİNQ.

Böyük kəşflər çox zaman təsadüf nəticəsində aşkar olunmuşdur. Təsadüflə zərurət arasındakı münasibət haqqında danışmaq fikrində deyilik. Deyirlər təsadüfdən zərurət doğar...

Pensillini kəşf etmiş ingilis alimi Aleksander Fleminq (1881-1955) öz kəşfini belə xatırlayır: "Uşaqlıqda tez-rez xəstələndiyim üçün həkim olmaq arzusunda idim. Lakin valideynlərim kasıb olduqları üçün təhsil haqqını ödəmək iqtidarında deyildilər. Sonralar ailəmiz daha da kasıblaşdı. Biz Londona köçməyə məcbur olduq.

Məni yaxşı üzdüyüm üçün universitetə qəbul etdilər. Çoxlu-çoxlu yarışlarda iştirak etdiyimə görə təhsilə vaxt qalmırdı.

Professor Uayt məni öz laboratoriyasına işə dəvət etdi. Bir dəfə təcrübə apararkən külək pəncərəni açdı və sınaq şüşəsinə xeyli kif göbələyi düşdü. Təcrübə alınmadı. Bu, mənim cəzalanmağımla nəticələnə bilərdi. Ümidsiz halda "çağrılmamış qonağı" nəzərdən keçirməyə başladım və ... pensillini kəşf etdim. O, müharibə dövründə özünün müalicəvi təsirini müvəffəqiyyətlə təsdiq etdi.

Mən pensillini 1929-cu ildə kəşf etsəm də, müharibənin sonunda onun müəllifi hamı tərəfindən unudulmuşdu. Nobel mükafatını təqdim etmək üçün məni çox çətinliklə tapdılar.

Haşiyə: ...Belə söyləyirlər ki, padşah məscidin günbəzi üzərinə bir üzük qoyur. Elan edir ki, kim üzüyün içərisindən ox keçirsə ənam alacaqdır. Ölkənin sərrast ox atanları meydana toplaşmışdı. Hamı öz bəxtini sınayırdı. Lakin oxlar boşa çıxırdı. Atılan oxlardan heç biri hədəfdən keçmirdi.

Bu zaman əlində nar ağacı budağından oyuncaq yay-ox olan bir uşaq oradan keçirdi. O, bir ox atdı və... ox üzüyün çevrəsindən keçdi. Padşah onu arayıb yanına çağıranda o artıq yay-oxunu sındırıb atmışdı. Padşah ondan bu işi bir daha təkrar etməyi tələb etdikdə o dedi: "Qibleyi aləm, bu, bir təsadüf idi. Mən məşhur nişançılar sırasında durmağa belə layiq deyiləm". Padşahın bu sözdən xoşu gəldi və onu mükafatlandırdı.

Daha bir haşiyə: ... "Kitabi-Dədə Qorqud" dastanında "Baybərənin oğlu Bamsı Beyrək boyunda" belə bir epizod vardır.

...On altı illik dustaqlıqdan qaçaraq Beyrək oğuz elinə gəlir. Artıq o zamandır ki, onun nişanlısı Banıçiçəyi Yalançı oglu Yalıncığa ərə verirlər. Adətə görə toyda igidlər hədəfə ox atırlar. Beyrək ozan libasında kənardan tamaşa edir. Heç kəs ona məhəl qoymur.

"Budaq ox atanda Beyrək: "Əlin var olsun!"- dedi. Uruz ox atanda "Əlin var olsun!"- dedi. Yeynək ox atanda "Əlin var olsun!"- dedi. Şir Şəmsəddin atdı, "Əlin var olsun!"- dedi. Elə ki kürəkən atdı, "Əlin qurusun, barmaqların çürüsün, hey donuz oğlu donuz, bu bəylərə qurban ol! – dedi.

Yalançı oğlu Yalıncığın acığı tutdu, dedi: "Ədə, əbləh oğlu əbləh, mənə belə sözlər deməyə sənin haqqın varmı? Gəl, əbləh oğlu, mənim yayımı çək, yoxsa indi sənin boynunu vuraram!"

Belə dedikdə Beyrək yayı aldı, çəkdi. Yay dəstəyindən iki para oldu. Götürüb qabağına atdı. "Quru yerdə torağaya atmağa yaxşıdır" – dedi. Yalançı oğlu Yalıncıq yay sındığı üçün bərk qəzəbləndi. Dedi: "Əyə, Beyrəyin yayı vardır, gətirin!" Getdilər, gətirdilər, Beyrək yayı gördükdə yoldaşlarını xatırladı, ağladı. Dedi:

Ovda qovhaqov girdiyim,
Tuladarı, şahinçini qovduğum,
Düşməm yordu qıl kişli yayım,
Ayğır cinsli ayğır verib aldığım

Dəstəyi ağ tozlu, möhkəm yayım.
Buğa verib aldığım boğan kirişim,
Dar yerdə qoyub-gəldim sirdaşımı,-
İki sarvan, otuz doqquz yoldaşımı!

Bundan sonra Beyrək dedi: "Bəylər, sizin eşqinizə bu yayı çəkib, oxu atıram". Bu vaxt kürəkənin üzüyünü nişan alıb atırdılar. Beyrək oxla üzüyü vurdu, paraladı, oğuz bəyləri bunu görəndə əl çaldılar, gülüşdülər..."

Əziz oxucum, bu isə təsadüf deyil. Oxu atan Oğuz yurdunun igid oğlu Beyrəkdir. Beyrəyin (və beyrəklərin!..) oxu heç zaman hədəfdən yayınmaz!..

Hamının fizika dərsində öyrəndiyi bir qanun vardır. Arximed qanunu. Qanun belə ifadə olunur: Mayeyə (qaza) batırılmış cismə aşağıdan yuxarıya itələmə qüvvəsi təsir edir; bu itələmə qüvvəsinin qiyməti cismin sıxışdırıb çıxardığı mayenin (qazın) çəkisinə bərabərdir.

İtələmə qüvvəsinin qiyməti cismin cəkisindən artıq olduqda cisim mayedə üzər, itələmə qüvvəsinin qiyməti cismin çəkisinə bərabər olduqda cisim maye daxilində eyni səviyyədə qalar, itələmə qüvvəsinin qiyməti cismin çəkisindən az olduqda isə cisim mayedə batar. (Eyni fikri qazlar haqqında da söyləmək olar). Arximed bu mühüm qanunu təsadüf nəticəsində kəşf etmişdir.

Haşiyə: ... Keçmişdə bir hökmdar əmr edir ki, ona xalis qızıldan tac düzəltsinlər. Usta tacı düzəldir və onu yorğun halda şaha təqdim edir. Lakin şah tacın xalis qızıldan düzəldilmədiyindən şübhələnir və bunu yoxamağı məşhur fizik Arximedə tapşırır. Arximed işin çox çətin olduğunu başa düşür. O, fikirli halda evə gəlir. Yuyunmaq istəyir. Vannaya girdikdə su daşaraq kənara dağılır. Alim bu hadisə haqqında fikirləşir və fizikanın ən mühüm qanunlarından birini kəşf edir.

“Evrika!”,”Evrika!” (“Tapdım!” , ”Tapdım!”) deyə qışqıraraq küçə ilə qaçır.

O, tacı əvvəl havada, sonra isə suda çəkərək onun xalis qızıldan olmadığını müəyyən edir. Saxtakar usta ifşa olunur.

Qısa tanışlıq: Arximed Samoslu (bizim eradan əvvəl 287-212 illər). Qədim yunan alimi. Nəzəri mexanikanın və hidrostatikanın banisi.

Böyük ingilis alimi İsaak Nyutonun (1643-1727) Ümumdünya cazibə qanununu da təsadüfən kəşf etməsi haqqında çox maraqlı rəvayət yaranmışdır. Rəvayətə görə Nyuton alma ağacının altında istirahət edərkən birdən başına alma düşür. Almanın düşmə səbəbi alimi çox düşündürür və çox mühüm və əhəmiyyətli bir fiziki qanun – ümumdünya cazibə qanunu kəşf edilir.

Qanun belə ifadə olunur: İki maddi nöqtə kütlələrinin hasili ilə düz, aralarındakı məsafənin kvadratı ilə tərs mütənasib olan qüvvə ilə bir-birini cəzb edir.

Bu, həmçinin Nyutonun cazibə qanunu da adlanır. Hətta bəzi modernist fiziklər ona Nyutonun dördüncü qanunu da deyirlər.

Böyük rus alimi Dimitri İvanoviç Mendeleyev (1834-1907) kimyəvi elementlərin xassələri və nisbi atom kütlələri arasındakı asılılıq üzərində işləyirdi. Bu zaman o, boş vaxtlarında oyun kartlarını müxtəlif variantlarda yan-yana düzür və cürbəcür sıralar yaradırdı. Bu, onun üçün bir əyləncəyə çevrilmişdi.

Bir gecə o, kimyəvi elementlərin dövri sistemi cədvəlini yuxuda gördü və oyandıqdan sonra kağız üzərinə köçürdü. Beləliklə, kimyəvi elementlərin dövri sistemi və dövri qanun həyata vəsiqə qazandı.

Bu bir təsadüf nəticəsində aşkar olsa da alim gecə-gündüz müəyyən qanunauyğunluq üzərində düşünürdü. Yuxuda isə insan beyni düşüncələrdən bir qədər azad olur.

Görünür, təsadüf bu dəfə də öz sözünü təbiətin çox mühüm bir qanunu şəklində söyləməli oldu. Həmin qanun belə ifadə olunur: Kimyəvi elementlərin xassələri onların atom çəkilərindən asılı olaraq dövri surətdə dəyişir.

Qədim dünyanın nəhəng alimlərindən biri olan Pifaqor insan cəmiyyətinə özünün bir sıra kəşfləri ilə xidmət göstərmişdir. Pifaqor teoremi hər birimizə hələ erkən yaşlarımızdan tanışdır. Teorem belə ifadə olunur: Düzbucaqlı üçbucaqda hipotenuzun kvadratı katedlərin kvadratları cəminə bərabərdir.

Teorem təsadüf nəticəsində kəşf olunmuşdur. Alim ulağın (eşşəyin) üstündə yol gedir və bu zaman fikirləşir ki, görəsən, onun başı ilə ulağın başına qədər olan məsafə nə qədər olar? Düşüncələr məşhur teoremin kəşfi ilə nəticələnir.

Alim həmçinin ilk simli musiqi alətinin müəllifi də hesab oluna bilər. O, atın quyruğunun qılının bir ucunu dişləri arasında, bir ucunu isə əli ilə tarım şəkildə tutaraq dırnağı ilə rezonansa gətirib müxtəlif səslər çıxdığını müşahidə etmişdir. Sonra o, bunu taxta parçası üzərində daha mükəmməl şəkildə quraraq ilk simli musiqi aləti yaratmışdır.

Bir sıra kimyəvi elementlərin kəşfi də bilavasitə və bilvasitə təsadüflə bağlı olmuşdur.

...Məşhur Napoleon 1811-ci ildə Mərkəzi Avropanı artıq işğal etmişdi. İndi o, Rusiya üzərinə hücuma hazırlaşırdı. Fransa imperiyasının isə barıta çox böyük ehtiyacı vardı. Demək olar ki, bütün fransız kimyaçıları asan yolla barıt almaq üsulları üzərində çalışırdı. Bunların arasında gənc kimyaçı Bernar Kurtua (1777-1838) da vardı. O, dəniz yosunlarını yandırır və külünə müxtəlif maddələrlə təsir edirdi.

Alim bir kolbada dəniz yosununun külünün spirtli məhlulunu, digər kolbada isə dəmir 2-sulfat $FeSO_4$ (və ya sulfat turşusu H_2SO_4) məhlulunu iş masası üzərinə qoyaraq elə orada nahar edirdi. Bu zaman alimin sevimli pişiyi adəti üzrə onun çiynində oturmuşdu. Birdən o, küncdə siçan görərək yerə

atıldı. Maye dolu kolbalara toxundu. Kolbalar sındı və mayelər bir-birinə qarışdı. Döşəmə üzərinə dağılmış köpüklü qarışıqdan göyümtül-bənövşəyi rəngli buxar qalxırdı. Həmin buxar soyuduqda qonur-bənövşəyi rəngli, metal parlaqlığına malik kristallara çevrilirdi. Alim bu kristallara "bənövşəyi" mənasını daşıyan "yodes" adı verdi. Onda 1811-ci il idi...

Sonra Kurtua aldığı maddəni dostu professor Klemana verdi. Kleman bu haqda o dövrün məşhur kimyaçısı Gey-Lüssaka, o da görkəmli ingilis alimi Hemfri Deviyə məlumat verdi. Tezliklə yod elementinin kəşfi barədə məlumat bütün dünyaya yayıldı...

Buna bənzər hadisə 1881-ci ildə rus kimyaçısı Mixail Qriqoriyeviç Kuçerova (1850-1911) da rast gəlmişdir. Bir dəfə alim tələbələr qarşısında asetilen qazı C_2H_2 ilə sulfat turşusunun H_2SO_4 qarşılıqlı təsiri reaksiyasını aparırdı. Nədənsə, o, gözlənilən nəticəni ala bilmir. Bərk dilxor olur. Tənəffüs zamanı kolbanın tıxacına taxılmış termometrin sındığını və civənin Hg kolbaya töküldüyünü müşahidə etdi. Məlum oldu ki, o, artıq asetat (sirkə) aldehidini CH_3CHO almışdır.

Sonralar bu, Kuçerov reaksiyası adı ilə kimya elminə daxil oldu.

Biz bu fikirdə deyilik ki, həmişə elmi kəşflər təsadüf nəticəsində ərsəyə gəlir. Hər hansı bir elmi kəşf təsadüfən zühur etsə də uzun illərin gərgin əməyinin nəticəsidir.

Bəlkə də təsadüflə zərurət arasında bağlılıq axtaranlar yanılmırlar. Hər halda hərdən zərurət təsadüfdən də doğur...

Təsadüf haqqında söhbətimizi bir haşiyə ilə tamamlayırıq.

Haşiyə: ... Məşhur dəniz səyyahı Vasko da Qama (1769-1799) Hindistandan Portuqaliyaya qiymətli əşyalar yüklənmiş gəmiləri ilə qayıdırdı. O, gəminin göyərtəsində var-gəl edir, tez-tez barmağındakı almaz qaşlı üzüyə baxırdı. Bu zaman onun yanından ötən gəmi aşpazı ona toxunur. Vasko da Qama

aşpaza qəzəblənir və onu yumruqla vurur. Və... almaz qaşlı üzük göyərtə boyunca diyirlənərək dənizə düşür. O, alnı şişmiş aşpazı cəzalandırmaq istəyir. Lakin dənizdə güclü küləyin başlanması buna mane olur. Kapitan ekipaja gəmiləri yaxındakı körfəzdə daldalamaq əmri verir.

Səhəri gün tufan yatanda həlim xasiyyətli Vasko da Qamanın da hirsi soyumuşdu. Artıq o, aşpazı bağışlamışdı.

Bu hadisədən dörd il sonra Vasko da Qama Hindistana ikinci dəfə səfərə çıxır. Həmin əraziyə çatdıqda öz almaz qaşlı üzüyü kapitanın yadına düşür. Təsadüfən yenə tufan başlayır. O yenə gəmiləri həmin körfəzdə daldalayır. Bu zaman qəribə bir hadisə baş verir. Gəmi aşpazı tutulmuş balıqlardan birini mətbəxdə yararkən mədəsindən kapitanın dörd il əvvəl itmiş üzüyünü tapır, onu Vasko da Qamaya verir. Vasko da Qama çox sevinir və bunu uğurlu əlamət kimi qəbul edir. Lakin üzüyün qaşı dəniz suyunun təsiri ilə göy rəngə boyanmışdı...

Qısa tanışlıq: Vasko da Qama 1469-cu ildə Portuqaliyada anadan olmuşdur. Avropadan Hindistana dəniz yolunun kəşfi onun adı ilə bağlıdır. 1497-ci ildə onun rəhbərlik etdiyi ekspedisiya Lissabondan çıxaraq Afrika materikinin cənubundan keçərək bir ildən sonra Hindistana yetişir. Ümumiyyətlə, Vasko da Qama Hindistana üç dəfə (1498, 1503 və 1524-cü illərdə) səfər etişdir. O, bu səfərlərin sonuncusunda 1524-cü il dekabr ayının 24-də Hindistanda vəfat etmişdir...

EPİLOQ

Zərurətlə Allahlar da mibahisə etmir.

PİTTAK.

... Quşu üçüncü dəfə buraxdılar. Şahlıq quşu bu dəfə də onun başına (çiyninə) qondu...

"AZƏRBAYCAN XALQ NAĞILLARI"ndan.

SON

"SON"DAN SONRA

Əgər təsadüflər olmasa, "təsadüf" sözü də olmazdı...

* * *

MƏHƏBBƏT

Məhəbbət fili də qoyar piyada,
Ona diz çökənlər mərddir dünyada.
NİZAMİ GƏNCƏVİ.

Haşiyə: ... Bir quş çayın üstündə sallanan sapşəkilli nazik budağın ucunda yuva qurmuşdu. Yuvada onun üç körpə balası vardı. Çaya sel gəlmiş, suyun səviyyəsi qalxmışdı. Budaq tərpəndikcə az qala suya toxunacaqdı. Quş cikkildəyir, qanadları ilə balalarını qorumağa çalışır, onları xilas eləməyə cəhd edirdi. Suyun səviyyəsi isə qalxmaqda davam edirdi.

Birinci bala: "Ana, sən məni xilas elə, mən sənə yeni bir yuva quraram!" – deyə anasına yalvardı.

Ana quş: "Yalançı!" – deyib onu çaya atdı. Yuva bir qədər yüngülləşdi və suyun səthindən azca yuxarı qalxdı.

İkinci bala: "Ana, sən məni xilas elə, mən səni doyunca yedirdərəm!" – dedi.

Ana quş: "Yalan, yalan deyirsən!" – deyə onu da sellərin qoynuna atdı. Yuva bir qədər də yüngülləşdi və sudan azca aralandı.

Üçüncü bala bu zaman kövrək səslə dilləndi: "Ana, sən məni xilas elə, mən də öz balalarımı bəlalardan qoruyaram!"

Ana quş: "Mənim balam!" – deyərək onu qanadına alaraq sahilə çıxardı...

Bala məhəbbəti həqiqətin kölgəsində qalır. Ana məhəbbətini isə ananın məhəbbəti öz kölgəsinə alır. Bütün məhəbbətlərin ən ülvisi vətən məhəbbətidir. Vətəni sevməmək mümkün deyil. Qürbətdə yaşayanlara vətən torpağı apararlar. Bir ovuc vətən torpağı bir dünya qürbəti nura qərq edir. Görəsən, qürbətdə yaşayanların hamısı bu yüksək sovqata layiqdirmi?..

Hər halda vətənini sevməyənlər belə bir sovqat istəməz.

Qürbətdə yaşayan vətəndaşlar, yoxsa vətəndə yaşayan qəriblər vətəni daha çox sevir?

Qürbət varsa, deməli, Vətən var. Vətən varsa, qürbət yoxdur...

Rəvayət: ...Qürbətə düşmüş bir nəfər öz dostuna sifariş göndərir: "Mənə doğma yurdun gül-çiçəyini, sərin suların lətafətini, dərələrin, dağların nemətini, torpağımızın hərarətini, elimizin yenilməz gücünü, anamın əllərinin nişanəsini gətir!.."

Dostu dərələrin, dağlarin gül-çiçəklərindən dəstə bağlayır. Lakin suların lətafətini, elin gücünü, ana əllərinin nişanəsini necə aparacağını bilmir. O, dərdini bir el ağsaqqalına söyləyib ondan məsləhət istəyir.

Ağsaqqal müdrikcəsinə gülümsəyib deyir: "Oğul, sənin dostun vətənini sevən, ağıllı adamdır. Sən ona xəmirini torpağımızda yetişmiş buğda unundan, dağlarımızın ətəyindəki dərələrdən götürülmüş sudan öz doğma anası yoğurmuş çörək apar. Vətən çörəyi, ana çörəyi!.."

"...Vətəni sevməyən insan olmaz,
Olsa da ol şəxsdə vicdan olmaz!.."

ABBAS SƏHHƏT.

Bala məhəbbəti balanın məhəbbətindən həmişə üstün olur.

Nankorluq edən övladlar, nankorluq edən analardan (atalardan) çoxdur. Ana dönük oğluna deyir:

- Sənə döşlərimdən süd vermişəm!..

Oğlu isə anaya bunun əvəzində bir çəllək süd alıb gətirir. Ey ana, nankor olacağını əvvəlcədən bilsəydin ona cüd verərdinmi? Yəqin ki verərdin. Axı sən anasan!..

... Bir ata öz körpə oğlu ilə yol gedir. Onlar şirin-şirin "söhbət" edirlər. Yol kənarında yenicə şumlanmış zəmidə qarğalar dənlənir. Oğul atadan soruşur:

- Ata, qara-qara görünənlər nədir?

- Qarğadır, gözümün nuru! – deyə ata cavab verir.

Bir azdan sonra uşaq yenə soruşur:

- Ata, o şumda qara-qara görünənlər nədir?

Ata:

- Qarğadır, başına dönüm! – deyə cavab verir.

Bir qədər yol getdikdən sonra uşaq deyir:

- Ata, şumda qara-qara görünənlər nədir?

- Qarğadır, dərdin ürəyimə! – deyə ata yenə nəvazişlə cavab verir.

...Zaman ötür, illər bir-birini əvəz edir. Qoca ata ilə cavan oğlu həmin yolla gedirlər. Şumda qara qarğalar dənlənir. Qoca əlini qözünün üstünə qoyub qaraltılara baxaraq soruşur:

- Oğul, qadan alım, o şumda qaralanlar nədir?

Oğlu quruca:

- Qarğadır! – deyə cavab verir.

Xeyli yol getdikdən sonra ata yenə soruşur:

- Oğul, dərdin alım, şumda qaralanlar nədir?

Oğul qəzəblə cavab verir:

Əşi, görmürsən, qarğadır də!..

Ey ata, gör sən kimin atasısan. Atalar dözür. Atalar analardan da müdrik olurlar, bəzən...

Kəlam: Atanın qarğışı keçir, ananın qarğışını isə keçməyə süd qoymur – ana südü.

Əziz oxucum, ata-oğul, ana-bala münasibətləri bir çox hallarda məhəbbət zirvəsinə yüksələ bilmir. İnsan xisləti çox mürəkkəbdir.

Hər uşaq doğandan ana, hər doğulandan övlad olmaz. Zənnimcə, nurlu analar və sadaqətli övladlar dünyada daha çoxdur.

Haşiyə: ... Bir oğlan odun yarırdı. Atası ona dedi:

- Hava soyuqdur, oğul, özünü soyuğa vermə!

Oğlu dedi:

- Ay ata, gəlirəm, sən keç içəri!

Bu minval ilə ata oğlunu bir neçə dəfə evə səslədi. Oğlu isə hər dəfə: “Gəlirəm, keç içəri!” – deyə ona cavab verirdi.

Axırda ata dedi:

- Sən ki evə getmirsən, mən də sənlə bərabər duracağam.

Oğul:

- Özün bilərsən, mən bu axşam odunların hamısını yarmasam evə getməyəcəyəm – deyə cavab verdi.

Bir azdan ata öz körpə nəvəsini qucağına alıb oğlunun yanında gəldi.

Oğul bunu görəndə dedi:

- Ay ata, uşağı niyə çölə çıxarmısan, hava çox soyuqdur axı!..

Atası gülümsəyərək belə söylədi:

- Bu sənin balandır, sən də mənim. Baltanı yerə qoy, keç evə!..

Nənə məhəbbəti, baba məhəbbəti ana məhəbbətindən, ata məhəbbətindən daha ilıqdır. Nənələr və babalar daha təcrübəli ana və atalardırlar. Onlar daha yaxşı sevirlər. Onlar daha çox sevənlərdir. Onlar belə demişlər: "Bala badamdırsa, nəvə badamın içidir!".

Qardaşım Nurunun "Adam nə üçün nəvəni övladdan çox istəyir?" – sualına mərhum Məcid əminin cavabı:

- Adam nəvəni gəlininə xoş gəlsin deyə çox istəyir.

Bu suala Əli əminin – Əli həkimin cavabı:

- A qırışmal, elə bu yaşda bu cür körpə adamın özününkü də olsa onu bu qədər çox istəyər.

Həmin suala Taryel müəllim Aşurovun cavabı:

- Allah övlada məhəbbətlə məhəbbətə nöqtə yox vergül qoyur. Əsas məhəbbət də bu vergüldən sonra başlayır. Məhəbbət varsa deməli həyat davam edir...

Eyni suala mənim cavabım:

- Ay Nuru, bütün canlılarda nəsil qayğısına qalma hissi (instinkti) vardır. Yer üzünün ən ali məxluqu olan insana isə daha ali bir hiss bəxş olunmuşdur. Bu övlad məhəbbəti, daha doğrusu, övlada məhəbbətdir. Nəvə məhəbbəti (nəvəyə

məhəbbət) övlad məhəbbətinin davamı olmaqla həyat eşqinin bir daha təsdiqi olduğu üçün ondan daha üstün olması tamamilə təbiidir.

"Kitabi-Dədə Qrqud"dan bir haşiyə: "... Dirsə xan fitnəkar sözü ilə öz oğlu Buğacı ov zamanı oxla ölümcül yaralayıb çöldə Qazılıq dağında qurd-quş arasında qoyub gəlir. Bunu anadan gizlədirlər. Lakin ana ürəyi dözmür, qırx qızla dağa yollanır. Oğlunu qarğa-quzğun əhatəsində görür. Dağları qarğayır, oğlunu səsləyir.

Oğlan dedi:

- Ana, ağlama. Qorxma, bu yaradan mənə ölüm yoxdur. Boz atlı Xızır yanıma gəldi, üç dəfə yaramı sığadı. "Bu yaradan sənə ölüm yoxdur. Dağ çiçəyi ilə anan südü sənə dərmandır" – dedi.

- Dörd dağ çiçəyi ilə ana südünü qarışdırıb oğlanın yarasına çəkdilər. Oğlanı ata mindirib evə gətirdilər..."

Bu epizod "Kitabi-Dədə Qorqud" dastanının ilk boyundandır. Dastanda ana, ata, oğul və vətən məhəbbətini tərənnüm edən çoxlu-çoxlu ibrətamiz epizodlar vardır.

Evi yağmalanmış, anası, oğul-uşağı, həyat yoldaşı əsir düşmüş Qazan xan Qaraca çobanla düşmən ordugahına gəlir.

"Sultanım, Qaraca çoban çatan kimi sapandını işə saldı. Dünya-aləm kafərin gözündə qaraldı. Qazan dedi: "Qaraca çoban, qoy anamı kafirdən istəyim, at ayağı altında qalmasın".

At ayağı iti, ozan dili çevik olar. Qazan kafiri çağırıb söyləmiş, görək nə söyləmişdir:

Ay Şöklü Məlik!
Qızıl tağlı uca evlərimi gətirib gəlmisən,
sənə köləlik olsun!
Qiymətli xəzinəmi, bol gümüşümü götürmüsən,
sənə xərclik olsun!
Qırx incə belli qızla Burlaxatunu gətirmisən,
sənə əsir olsun!

Qırx igidlə oğlum Uruzu gətirib gəlmisən,
sənin qulun olsun!
Tövlə-tövlə şahanə atlarımı gətirib gəlmisən,
sənin miniyin olsun!
Qatar-qatar dəvələrimi gətirib gəlmisən,
sənin yükünü daşısın!
Qoca anamı gətirmisən, ay kafir,
anamı ver mənə!
Savaşmadan, vuruşmadan qayıdım geri
dönüb gedim!"

Haşiyə: "... Şah mühasirəyə aldığı kəndin əhalisinə belə bir ismarış göndərir: "Bizim qadınlar ilə işimiz yoxdur. Kişilər ilə vuruşacağıq. Ona görə də qadınlar onlar üçün ən qiymətli şeyi və uşaqlarını götürüb kənddən çıxsınlar!"

Sabah səhər qadınlar və uşaqlar kənddən çıxdılar. Qadınların hər birinin çiynində bükülü xalça və ya kilim vardı.

Qadınlar kənddən çıxar-çıxmaz qoşun kəndə daxil oldu. Lakin ... kəndi boş gördülər. Şah bu sirrə mat qaldı. Kişilərdən bir soraq yoxdu.

Qoşun yenidən qadınları əhatə edir. Kişiləri soruşur. Qadınların başçısı deyir:

- Şah sağ olsun, özün dedin ki, ən qiymətli şeyi və uşaqları götürə bilərik. Biz də bizim üçün ən qiymətli olanımızı – kişilərimizi xalçaya büküb özümüzlə götürdük. Onlar həm də kiminsə uşağı olduğu üçün əmriniz pozulmamışdır.

Şah onlara "afərin" deyib geri dönür"

Bala məhəbbəti (balaya məhəbbət) Yer üzərində yaşayan bütün canlılara xasdır. Buna bioloqlar "nəsil qayğısına qalma hissi" deyirlər. Ana məhəbbəti (oxu: anaya məhəbbət!....) isə yalnız insana məxsusdur. Bəlkə elə insanlıq göstəricisi kimi ana məhəbbəti qəbul olunsa, daha düzgün olardı...

Məhəbbət bütün canlılara xas olan hissdir. Ən bəsit quruluşlu ibtidai orqanizmlər də məhəbbətin gücü ilə öz

nəsllərini yaşadırlar. Məhəbbət ibtidailərin və alilərin ali hissidir. Məhəbbət təkcə insanlarda olsa idi, onda dünyanın ləngəri pozulardı. Və ya heç dünya adlı məkan da olmazdı.

Haşiyə: ...Bir nəfər zəvvar uzaq səfərə çıxarkən öz dəvəsini yaxın qonşusuna etibar edir. Dəvəyə vermək üçün xeyli yem də qoyur.

Səfərdən qayıdanda o, dəvəsini zəifləmiş halda görür. ”Qonşu, dəvəmə yaxşı baxmamısan” – deyə narazılığını bildirir.

“Tanrı haqqı sənin dəvənə özümünkündən də yaxşı baxmışam”- deyə qonşu and-aman eləyir. Lakin dəvə sahibi narazılıq etməkdə davam edir.

Bu zaman dəvə dilə gəlir:

- Sahib, qonşu mənə öz dəvəsindən də çox yem verirdi. Məni heç yükləmirdi. Hər nazımı çəkirdi. Lakin gecə üzünü öz dəvəsinə tərəf çevirib yatardı. Məni üzən bax, bu oldu...

Oxucum, insan qəlbinə hakim kəslən ən ülvi hiss haqqında danışmağa cürət etdiyim üçün məni üzürlü hesab elə. Sənin səxavətinə ümid edərək qardaşa, bacıya, dosta... məhəbbət haqqında danışmaq istərdim. Lakin subyektivliyə yuvarlanmaqdan ehtiyat edirəm.

Bir yaxın dostum olsa,
Mən bağrıma basmazdım,
Ürəyimə təpərdim.

Bir yaxın dostum olsa,
Dodağımla öpməzdim,
Ürəymlə öpərdim...

Bu anda istərdim insan ömrünün bəzəyi sayılan başqa bir məhəbbətdən söz açam. Lakin haradansa yadıma sevimli şairimiz Hüseyn Arifin bir misrası düşdü:

“... Hüseyn, hər şeydən ana gözəldir,
Bəs niyə könlündan yar gəlib keçər...”

Ruhun şad olsun, Hüseyn qağa! Məni çox ağır bir yük altına çiyin vermək əzabından qurtardın.

Burada insan ömrünün rəmzi (simvolu) olan məhəbbət haqqında müdriklərin bir neçə kəlamı ilə kifayərlənirəm.

Məhəbətsiş hayat ola bilməz.

BALZAK.

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz, ey dünya, nədir dəyərin.

NİZAMİ GƏNCƏVİ.

Məhəbbət ölümə qalib gəlir, o, ölümdən və ölüm qorxusundan güclüdür. Həyatı hərəkətə gətirən yalnız məhəbbətdir.

TURGENEV.

EPİLOQ

Vurulmaq hələ sevmək deyildir. Nifrət edərkən də vurulmaq olar.

DOSTOYEVSKİ.

Məhəbbət ürəyin içində olan diş ağrısıdır.

HENRİX HEYNE.

SON

SON”DAN SONRA

Mən məhəbbətin tamını bilirəm...

... Məhəbət nəğmələri oxumaq hələ ürəkdən sevmək demək deyil. Lal sükutla ürəkdən sevənlər çox zaman əsl aşiqlik

zirvəsində qərar tuturlar. Əsas məsələ ürəklərin bir kökdə döyünməsidir...

* * *

VƏTƏN HARADAN BAŞLANIR

İnsan anadan olanda ağlayır...

Şagird olanda Vətən haqqında çoxlu inşalar yazmışıq. Çoxlu obrazlı ifadələrlə mövzunu zənginləşdirməyə çalışmışıq. Müəllimlərin xoşuna gəlməyə cəhd etmişik. Gəlin etiraf edək ki, biz heç də həmişə qəlbimizin səsinə qulaq asa bilməmişik. Sözün düzü mən indi də "Haradan başlanır vətən?!" sualına cavab verməyə çətinlik çəkirəm. Bəlkə də ehtiyat edirəm.

Vətən elə müqəddəsdir ki, onun haqqında yalnız müqəddəs söz demək olar və lazımdır. Vətəni sözlə deyil, əməllə sevərlər. "Vətəni sevmək azdır, vətənin olmaq gərək!..

Mən vətənini sevənləri çox görmüşəm, hətta həyatlarını vətənə qurban verən, lakin təsadüf nəticəsində sağ qalanlarla saatlarla söhbətlər etmişəm. Onların dilindən heç zaman "Vətənimi sevirəm" kəlməsini eşitməmişəm. Lakin onlar vətəni sevdiklərini dönə-dönə sübut etmişlər. Babək, Cavanşir, Şah İsmayıl Xətayi, Cavad xan.. və adlarını çəkmədiyimiz yüzlərlə qəhrəman da vətənini sevirdi. Ancaq onlar "Mən vətəni sevirəm!" kəlməsini bir dəfə də olsa işlətməmişlər.

Bir xatırlama: Ata yurdunda ötən əsrin ortalarında hələ körpə ikən yatdığım beşik durur. Məndən sonra həmin beşikdə dörd qardaşım, dörd bacım, dörd əmim uşağı, bacılarımın, qardaşlarımın uşaqları yatıblar. Oğullarımın və nəvələrimin də ilkin yuvası olub bu beşik...

Nədənsə, həmin beşikdə yatanlara qarşı qəlbimdə qəribə bir duyğu hiss edirəm. Hər o beşiyə baxanda əsl vətəndaş oluram. Özümü oğlanlarıma və nəvələrimə qardaş hesab edirəm. Bir beşikdə yatmasaydım mən öz ovladlarıma başqa cür ata olardım, bəlkə də...

Mən onlarla bir beşiyin sakinləri, bir beşiyin vətəndaşlarıyıq. Hər o beşiyi görəndə anam Gülnaz xanımın südünün dadı hiss olunur damaqlarımda...

Seneka deyir: "Vətəni ona görə sevmirlər ki, o, böyükdür, ona görə sevirlər ki o özününküdür".

Kiçicik tanışlıq: Lüsiy Anney Seneka bizim eradan əvvəl və ya bizim eranın 1-ci ilində İspaniyanın Kordova şəhərində anadan olmuş Qədim Roma dövlət xadimi, yazıçısı və filosofudur. Stoisizmin yaradıcısıdır.

Məşhur bəlağət (söz) ustası Senekanın oğludur. Bizim eranın 65-ci ilində Roma şəhərində vəfat etmişdir.

Haşiyə: Bir bülbül şah sarayında qızıl qəfəsdə xeyli müddət idi ki "Vətən, vətən!"- deyə yanıqlı nəğmə oxuyurdu. Şah bir gün əhvalının yaxşı vaxtı onu buraxmağı əmr edir. "Buraxın, izləyin, görək onun vətəni şah sarayından gözəldirmi?!"

Bülbülü buraxırlar. O uçaraq çay kənarında xırda, əyri gül kolu budağına qonur və özünün vətən nəğməsini oxuyur...

Dağıstanın milli qəhrəmanı Şeyx Şamil öz döyüşçülərinə deyərmiş: Baxmayın, düşmən aulu alıb, bütün çöllərimizi tutub. Fəqət bulaq hələ də öz əlimizdədir, biz qalib gələcəyik".

Hərdən başqa planetdə həyat, yad planetlilər və elmi-texniki tərəqqi haqqında bir sıra məlumatlar oxuyuruq.

Şübhəsiz nə zamansa, kimsə, haradasa deyəcək: "Mən Yer planetindən gəlmişəm. Yer kürəsi mənim vətənimdir!" hələlik isə biz belə demirik.

Antropoloqlar (və hamı) deyir ki, Yer üzərində yalnız bir növ insan yaşayır. Bəs qalaktikada və ondan kənarda?.. hələlik bu sual cavabsız qalır...

El arasında belə bir məsəl var. Çayır yeddi il leylək yuvasında qalır. Bir gün yerə düşdükdə isə deyir: "Vətənimə qovuşdum!.."

Nədənsə, vətən adı çəkiləndə mənim yadıma "azadlıq" sözü düşür. Dəfələrlə bu iki sözün mənşəyi və mənası haqqında

saatlarla düşünmüşəm. Öz hisslərimi sizinlə bölüşmək fikrində deyiləm. Vətən-Azadlıq, Azadlıq-Vətən... Onların hər ikisi insan üçündür. İnsan vətənsiz, özünün tam mənasını kəsb etmir. İnsan azad olmadan adi bioloji varlıqdır.

"Dünyada ən böyük möcüzə insandır". (Qədim yunan mütəfəkkiri və faciənəfsi SOFOKL).

İnsan özünün yaratdığı süni mühiti formalaşdırmaqla bioloji varlıqdan cəmiyyət üzvünə çevrildi. Bu süni mühit mədəniyyət adlanır. Məşhur bir alimin dediyi kimi: "Mədəniyyət mənasız şeydir, lakin mədəniyyət olmasa həyat öz mənasını itirərdi".

Həmçinin mədəniyyət sistemli tərbiyənin məhsuludur. Tərbiyə olmasa, azadlıq da olmazdı. Cəmiyyəti insanlar yaratdı. İnsan cəmiyyətdə formalaşır. Cəmiyyətsiz insan yaşaya bilməz. Vətəni insan yaratdı. İnsan vətəni və azadlığı cəmiyyətə gətirdi. "Azadlıq verilmir, qazanılır!"

Deməli, insan azadlığa meyilli ilk bioloji varlıqdır. Azadlıq isə insanı zənginləşdirən ən mühüm amildir.

Hər bir insan eyni cür tərbiyə almır. Ona görə də hamının vətənpərvərlik və azaddlıq tərbiyəsi də eyni deyildir.

İki (bəzən üç və ya dörd) əkiz övladın eyni mühitdə yaşasa belə müxtəlif xasiyyətlərə malik olması mühitinmi və ya gen toplusununmu insan intellektinə daha çox təsirini müəmma altına qoyur. Gəlin bu mövzunu başqa söhbətə saxlayaq...

"...Azadlığı istəmirəm,
zərrə-zərrə, qram-qram.
Qolumdakı zəncirləri
qıram gərək,
qıram, qıram!.."

XƏLİL RZA ULUTÜRK.

Ey azadlıq, sən məni səslə, mən sənə mütləq qovuşaram. Və ya mənə mütləq qovuşarsan, yaxud biz qovuşarıq.

Qədim Roma filosofu Epiktet demişdir: “İnsan azad doğulmalı, azad yaşamalıdır. Azadlıq isə uğursuzluqlara sakitcə sinə gərib mənən təmiz olmaqdadır”. O, insan-azadlıq düsturunu belə verir: “Azadlıq kənarda deyil, insanın daxilində olur”.

Meşələr sultanı aslan qəfəsdə nəsil vermir. O, öz gələcək nəslinin də qəfəsdə yaşamaq istəmədiyi üçün belə edir. Azadlıq təkcə qəfəslə məhdudlaşmır. Elə qəfəslər vardır ki, o, gözə görünmür. Ancaq, nədənsə, azadlıq çərçivəsi kimi zəncir və qəfəs simvolik (rəmzi) məna daşıyır.

Azadlıq ürəkdən başlayır. İnsan ilk dəfə ana bətnindən azad olur. Bu zaman o ağlayır. Yeni bir mühitdə yaşamağa məhkum olur. Mühit mühiti əvəz edir. Qarşıda hələ neçə mühit var, əziz insan!..

İnsan anadan olanda ilk vətəni olan ana bətnini tərk edir. İlk qəriblik o andan başlayır. Bu zaman o ağlayır. İnsanın ilk vətəni ana qəlbidir. İnsanın ruhu daim ana qəlbində-ilk vətənində qalır və ya orada yaşayır. Beşikdən başlanmır vətən, beşikdən başlayır ilk qəriblik hissi.

Anadan olduqda insan ağlayır. O, azadlığa çıxdığı üçün deyil, ilk vətənindən ayrıldığı üçün ağlayır. İnsan azadlığa çıxır, insan dünya adlı yeni bir vətən qazanır.

Azadlıq da gözəldir, vətən də gözəldir. Vətən azad olanda daha gözəldir.

Bülbülü saldılar qəfəsə, dedi:

- Ay Vətən, ay Vətən!

Buraxdılar, qondu tikan koluna, dedi:

- Can Vətən, can Vətən!..

ATALAR SÖZÜ.

Atalar vətən haqqında daha mənalı sözlər söyləmişlər.

Deyirlər: “Bəzilərinin fikrincə, imam Şamil ibadət vaxtı “Allah” deyəndə adamlar “Azadlıq” eşidir, “Azadlıq” sözünü pıçıldayanda “Allah” eşidirmiş...”

RƏSUL HƏMZƏTOV. “Mənim Dağıstanım”

Azadlıq gözəldir. Daha doğrusu, yalnız azadlıq gözəldir. Ən xoş sözlər yalnız azadlıq haqqında deyilməlidir.

“Üç yüz il kölə kimi yaşamaqdansa, bir gün azad yaşamaq yaxşıdır”.

BABƏK.

(Babək də bizim azadlıq simvolumuzdur).

Dahi Əfzələddin Xaqani demişdir: “Azadlıqdan gözəl şey yoxdur, onun qədrini bilin”.

Nəsimi isə mənəvi azadlığı əsl azadlıq hesab edir. O, fikrin, hisslərin, duyğuların azadlıq carçısıdır:

Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövhəri-laməkan mənəm, kövmü məkana sığmazam.
...Gərçi bu gün Nəsimiyəm, haşimiyəm qureyşiyəm,
Məndən uludur ayətim, ayətə şanə sığmazam.

Azadlıq çox zaman ömürlər bahasına əldə edilir. Azadlıq onu qazananlara deyil, gələcək nəsllərə qismət olur.

Haşiyə: (Osman Nuri Toppaşdan) Bir tacir Hindistan ölkəsinə səfərə hazırlaşırdı. O, adəti üzrə ailə üzvlərinin, əyan-əşrəfin, nökər-naibin arzularını dinlədi. Ticarət səfərindən onlar üçün hansı hədiyyə istədiklərini soruşdu. Sonra qızıl qəfəsdə saxladığı sevimli tutuquşusuna yaxınlaşdı, onunla xeyli “söhbət” etdi, tüklərini tumarladı. Vidalaşarkən soruşdu:

- Hind ölkəsindən sənin üçün hansı hədiyyəni alıb gətirim?

Tutuquşu dedi:

- Heç bir hədiyyə istəmirəm. Hind ölkəsinin meşələrində mənim çoxlu həmcinslərim yaşayır. Əgər onları görsən, mənim salamımı yetir. Haqqımda onlara danış. Vəziyyətimin çox əla olduğunu söylə. Öyrən, gör mən nə etsəm daha firəvan və azad yaşayaram?..

Tacir bu sözlərdən çox mütəəssir oldu və kövrək hisslərlə yola düşdü.

Karvan bir neçə ay yol getdikdən sonra Hind ölkəsinə çatdı. Meşənin kənarı ilə gedərkən ağacdan-ağaca uçuşan tutuquşuları görəndə tacirin yadına öz sevimli tutuquşusu düşdü. Karvan əyləndi. Tacir üzünü tutuquşulara tutub tutuquşusunun salamını və dediyi sözləri onlara çatdırdı. Quşlar onun sözlərini dinlədilər və... qəflətən hamısı budaqdan yerə töküldü. Tacir onların öldüyünü görüb çox peşiman oldu.

Səfərini başa vuran tacir, nəhayət, vətəninə qayıtdı. Sarayda böyük şənlik quruldu. Tacir hamının hədiyyəsini özünə çatdırdı. Tutuquşusundan da hal-əhval tutdu. Tutuquşu ondan soruşdu:

- Ey başımın tacı, mənim diləyimi həmcinslərimə yetirdinmi?

Tacir orada gördüyü mənzərəni nağıl elədi. Sarayda hamı təəssüfləndi. Qəfəsdəki tutuquşu söhbəti dinləyərək Hind ölkəsindəki həmcinsləri kimi qəflətən yıxılıb öldü. Sarayda hamı qəmləndi. Matəm məclisi quruldu. Tacir öz sevimli quşunu böyük təntənə ilə dəfn etməyə hazırlıq gördü.

Tutuquşunu təntənə ilə qəbiristanlığa apardılar. Qəbir hazırlanana qədər kəcavə yerə qoyuldu, üstü açıldı. Birdən tutuquşu uçaraq yaxınlıqdakı budağa qondu. Tacir təəccüblə dedi:

- Əzizim, bu nə oyundur?!

Tutuquşu isə belə söylədi:

- Sahib, səndən çox razıyam, mənə layiq olduğumdan qat-qat artıq hörmət eləmisən. Lakin azadlıq hər şeydən üstündür. Ona nail olmaq yolunu bilmirdim. Bunu hindistanlı həmcinslərim sənin vasitənlə mənə başa saldılar, xidmətlərini mənə halal elə. Əlvida!..

Belə deyirlər ki, Yamayka zənciləri ölkələrinin dövlət himnini ağlaya-ağlaya dinləyirlər. Bu, azadlığa verilən ən böyük qiymət kimi dəyərləndirilməlidir.

Qarabağ müharibəsi döyüşçüləri ilə söhbətlərimdən bir fraqment:

- ... Tam mühasirədə olduğumuzu biləndə hərə özünü bir cür apardı. Kimi həyəcandan titrəyir, kimi ağlayır, kimi ora-bura vurnuxur, kimi sakit dayanıb baxırdı. Biz komandirlər də nə edəcəyimizi bıımirdik. Döyüş nəzəriyyəsi indiki halda döyüş taktikasına heç nə diktə edə bilmirdi.

Rabitə köməyin çox gec olacağı barədə məlumat verirdi. Gücümüz zəif idi. Daha doğrusu yox dərəcəsində idi. Silah-sürsat tükənmişdi. Hərbi texnika dağılmış, yanacaq yox idi. Aramızda xeyli yaralı vardı.

Alçaq kolluqlar talasında ümidsiz qalmışdıq.

Bu zaman komandirin sözünü keçmiş tankçı Talıb kəsdi:

- Tuşlayıcı və komandir vəzifəsini bütün gün ərzində yerinə yetirən Vüqar Səklikov uşaqları mühasirədə görüb diqqətli olmaq əmrini verdi. O, mənə dedi: “Biz tankla şərait yaradacağıq ki, uşaqlar mühasirədən çıxsınlar”. Mən onun əmrinə uyğun olaraq manevr elədim. Tank boğuq bir nərə çəkdi. Vüqar düşmənlər tərəfə bir cüt qəlpəli mərmi buraxdı. Və mənə necə manevr etmək əmrini verdi. O, bu dəfə sərrast atəşlə daha bir yandırıcı və bir zirehdələn mərmi ilə düşmənlərin bir piyadaların döyüş maşınını (BMP) və bir zirehli döyüş transpartyorunu (BTR) çiliklədi.

Artıq dəhliz (koridor) yaranmışdı. Vüqar mühasirədə olanlara ratsiya ilə çıxıs yolunu göstərdi və əmr etdi: “Tələsmədən, cəld və sürətlə!..”

Komandir yenidən sözünə davam elədi:

- Uşaqlara əyilə-əyilə kiçik yal boyu qaçmaq əmri verdim. Arabir ratsiyada Vüqarın təmkinli və gümrah səsi gəlirdi: “Komandir, arx boyu, bir qədər sağa!.”, “ Komandir, kiçik meşəyə tərəf !..”, “Komandir, dərə istiqamətinə!..” və s. Onun atdığı mərmilər başımızın üstündən düşmən tərəfə uçurdu... Təxminən üç yüzədək şəxsi heyətlə təhlükəli zonadan uzaqlaşdıq, lakim mühasirədə bir neçə nəfər qalmaışdı...

Talıbın söhbətə müdaxiləsi:

- Qulağıma şlemofondan Vüqarın səsi gəldi: “Talıb, kolluqda bir neçə əsgər qalıb, deyəsən yaralıdırlar. Soldakı BMP-ni görürsənmi, ona yaxınlaş!” O, bunu deyib düşmən tərəfə dalbadal üç atəş açdı. Mən tankı BMP-yə tərəf sürdüm. Bu bizim maşın idi. Ekipaj yaralandığı üçün onu tərk etmişdilər. Sürücü isə maşının yanında idi.

Vüqar yenə bir neçə atəş açdı və mənə tankdan düşmək əmri verdi. Biz tankdan düşüb “BMP”-yə süvar olduq. Sürücü öz yerini tutdu. Vüqar bizə maşını mühasirə zonasına sürmək əmrini verdi. Düzü bu, çox qorxulu idi. Oraya qədər təxminən 2-2,5 km məsafə vardı. Yolda hər bir hadisə baş verə bilərdi. O, tərəddüd etdiyimizi görüb dedi: “Ə, yoxsa qorxursunuz?!”

Biz tam sürətlə yaralı uşaqlara tərəf şığıdıq. Kolluqda dovrə vurub dayandıq. Arxa qapını açar-açmaz uşaqlar içəri doldular. Sürücü maşını tərpətdi. Bu zaman Vüqar uşaqlardan soruşdu ki, hamı çıxa bildimi? Əsgərlərdən biri dedi ki, geridə, iki yüz-üç yüz metrlik məsafədə 3 nəfər yaralı qalıb.

Vüqar sürücüyə maşını geri döndərmək əmrini verdi. O, qəti şəkildə imtina edib sürəti artırdı...

Söhbətə qartal baxışlı 20-25 yaşlı qarabuğdayı bir oğlan qoşuldu:

- Bu zaman qulağımın dibinə soyuq bir şeyin toxunduğunu hiss elədim. Bu, Vüqarın avtomatının lüləsinin ucu idi. Baxışlarımız toqquşdu. O, təmkinlə dedi: “Uşaqlıq eləmə, dön uşaqları götürək”. Mən maşını geri sürət rejiminə keçirdim və ora qədər geri-geri sürdüm. Sağ-salamat mühasirədən çıxdıq. Tanka yetişəndə Vüqarla Talıb düşüb ona mindilər... Düşmənə öldürücü zərbə vurduq...

Mən sual etdim:

- Uşaqlar həmin anda yadınıza nə düşürdü? Vətən haqqında düşünürdünüzmü?

Hamı bir anlıq susdu. Çöhrələrə qəribə bir hiss hakim kəslmişdi. Nəhayət, bayaqkı oğlan qəribə bir təbəssümlə dedi:

- Qulağın dibində soyuq lülə dayananda ayrı şey haqqında düşünmək olarmı?!

Komandir isə belə dedi:

- Bilirsən, biz könüllülər müharibəyə gedəndə heç bir təmənna güdmürdük... Bax, mən müəlliməm, Talıb dülgərdir. Vüqar isə o zaman Neft Akademiyasının üçüncü kurs tələbəsi idi. Dərslərini atıb gəlmişdi. İndi o, neftçi-mühəndisdir...

EPİLOQ

Azadlığı sevməyən adam, qüdrətli ola bilər, lakin heç vaxt böyük insan ola bilməz.

VOLTER.

Azadlığı sevməyən insan yoxdur. Məsələ burasındadır ki, ədalətli şəxs bunu hamı üçün, ədalətsiz isə yalnız özü üçün tələb edir.

BEORNE.

SON

“SON“DAN SONRA

Təəssüf ki, ötən əsrin axırlarında dilimizdə bir termin də vətəndaşlıq hüququ qazandı: “Qürbətdə qalan Vətən!..” termini.

Ey Vətən, bir də vətəndaşın olaydım...

* * *

QƏHRAMANLIQ HAQQINDA ÜÇ ETÜD

Qoçaqlıq ona deyərlər ki, nəfs öz möhkəmliyi
üzərində hakim olsun, qorxu vaxtı səbr və təmkinini
mühafizə etsin, nizam-intizamsız hərəkətə yol verməsin.
NƏSİRƏDDİN TUSİ.

Asif Əfəndiyevin "İnam və Şübhə" adlı kitabını vərəqləyirəm. Kitab insan hisslərini etizaza gətirən üslubda yazılmışdır. Koroğlu haqqında deyilmiş sözləri Asif Əfəndiyev (Asif Ata) ruhuna dərin ehtiram nişanəsi olaraq təkrar edirəm: "Şimşək göydə çaxar, Koroğlu yerdə. Yerin də göy kimi şimşəyə ehtiyacı var. Koroğlu yerin şimşəyidir. O, şimşək qədər əzəmətlidir, qeyrətlidir, mərddir, sərtdir, genişürəklidir, şairanədir..."

ASİF ƏFƏNDİYEV. "İnam və şübhə".

Hisslərimi Asif Əfəndiyev hissləri üzərində kökləyərək Koroğlu şəxsiyyəti haqqında düşünürəm. Gözlərim önündə Koroğlular dayanır.

Koroğlu xalqımızın qəhrəmanlıq simvoludur. Koroğlu, Koroğlu dünyasında yaşayır. Koroğlu, Koroğlu dünyasını yaşadır. Koroğlu digər qəhrəmanlarımızdan özünün Koroğluluğu ilə fərqlənir.

Koroğluda nifrət də var, məhəbbət də... Nifrəti dərin, məhəbbəti sonsuz. Nərə də var, sükut da... nərəsi yerdə çaxan ildırım, sükutu göy lallığı.

Sərtlik də var, zəriflik də... Sərtlik Misri qılınc, zəriflik telli saz...

Adilik də var, sadəlövhlük də... Koroğlu adil insandır. Ədalət onun alın yazısıdır. "Ədalət olmayan yerdə bərəkət olmaz". Sdəlövhdür. Bolu bəyin bir sözü ilə könüllü olaraq qollarını bağlatdırır.

Qəhrəmanlıq da var, qorxaqlıq da... qəhrəmanlığı xalqımızın qəhrəmanlıq rəmzi, qorxaqlığı əyilmək qorxusu. “Qorxu insanlığı qoruyur, ağrı insanı”.

Haşiyə: (tanınmış pedaqoq, professor Əjdər Ağayevlə bir telefon söhbətindən).

Dostu: - Salam!

Əydər Ağayev : - Salam!

- Necəsən?

- Sınmaq təhlükəsi var!.. *(gülərək...)*

- Sınmamaq olarmı?..

- Yox. Onda gərək...

- Polad sınar, əyilməz!!.

- ...

- Eşq olsun polad xislətli insanlara!!!

Koroğluda incəlik də var, kobudluq da... İncəliyi məhəbbət qədər ülvi, sevgi qədər zərif. “Məhəbbət incə qəlbli insanlarda olar”. Koroğlu Çənlibel qayası. Əsl kişi kobudluğu.

Qayğıkeşlik də var, biganəlik də. Qayğıkeşliyi ata qayğısı. Biganəliyi dünya malına, şan-şöhrətə...

Koroğluda mərdlik də var, şairlik də... Mərdliyə mərdliklə cavab verir. Şairliyi sərkərdə səviyyəli...

“...Şair xalqın səsi, əsrin səsidir.
Vətənin ağ saçlı sərkərdəsidir...”

MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYAR.

Dostluq da var, düşmənçilk də... Dostluğu əbədi, düşmənçiliyi mərdanə...

Təvazökardır. “...Koroğlunu çaya basar,
Giziroğlu Mustafa bəy...”

“KOROĞLU” dastanından.

Koroğlu xoşbəxt qəhrəmandır. O, qəhrəmanların ən xoşbəxtidir. Koroğluda Koroğlu xoşbəxtliyi yaşayır. Koroğlu

qəhrəmanlarımıza (həm də qəhrəmanlığımıza...) Koroğlu xoşbəxtliyi gətirdi. Bütün qəhrəmanlarımız özünü Koroğluya bənzətməyə çalışır. Çoxdur bu xalqın Koroğlu xislətli qəhrəmanları!..

Şeyx (imam) Şamil də qıhrəmandır. 25 il yadellilərlə qəhrəmanlıqla vuruşub. Şamil kimi vuruşub. Qəhrəmanlıq zirvəsi fəth edib. Lakin sonda əsir düşüb. Qəhrəman əsir düşdükdə də qəhrəmandır. O, təmkinini itirmir, ləngərini saxlayır. Şamil öz torpağı uğrunda vuruşub. Ədalətlidir.

...Əsir düşmüş Şamili bir aylıq yoldan sonra Peterburqa imperatorun yanına gətirirlər. İmperator soruşur:

- Yollar sənə necə göründü?

- Böyük ölkəniz var – deyə, Şamil cavab verir.

- İmam, söylə görüm, ölkəmizin bu qədər böyük və qüdrətli olduğunu bilsəydin uzun müddət onunla vuruşardın, yoxsa vaxtında ağıllı tərpənib silahı yerə qoyardın?

Ölkəmin kiçik və zəif olduğunu bildiyiniz halda siz də bizimlə uzun müddət vuruşdunuz ki?!

Məğlub olsa da, Şamil ürəklərdə yaşayır. Çünki o, əsl qəhrəmandır.

Babək də xalqımızın qəhrəmanlıq simvollarından biridir. Babək, Babək kimi yaşadı, Babək kimi mübarizə apardı. Onun əsir kimi Samirəyə, xəlifə sarayına aparılması və xəlifə ilə mükaliməsi çox ibrətamizdir. Babək ölüm ayağında da Babəkliyini saxlayır, gözünü bağlamağa qoymur.

Xəlifə deyir: “Cəllad, onun gözləri qoy açıq qalsın. Qoy arzusu ürəyində qalmasın. Qoy odları sönməkdə olan atəşgahlarına, sitayiş etdiyi günəşinə, od-alovuna tamaşa eləyə-eləyə, azadlıq deyə-deyə dünyadan köçsün. Əvvəl qollarını doğra!..”

Cəlladbaşı Məsrur ilhamlandı. O, əvvəlcə Babəkin sağ qolunu vurdu. Babək uf da demədi. Sonra cəllad onun sol qolunu vurdu. Babək yenə də uf demədi və tələsik başını əyib

qolunun qanını üzünə sürtdü, sifətini qızartdı. Xəlifə Mötəsim əlini əlinə vurub acı bir qəhqəhə çəkdi:

- Kafir, ölüm ayağında bu nə oyundur?!

Babək yenilməzliyi ilə yenə də xəlifəni heyrətdə saldı:

- Ey cəlladlar cəlladı, insanın qanı axanda onun üzü saralır. Mən istəmirəm ki, üzümü düşmənim saralmış görsün!..

Sonra xəlifə peşimançılıq çəkir. "Bağışlanmalı şeytan idi, ancaq gecdir. Kaş müəllimim mənə yazıb-oxumaq öyrətməyəydi. Kaş belə cəngavərin ölümünə fərman verməyəydim".

CƏLAL BƏRGUŞAD. "Siyrilmiş qılınc" romanı.

Əziz dostlar, məni digər qəhrəmanlarımızın şəxsi keyfiyyətləri barədə danışmamaqda təqsirləndirməyin. Məqsədimiz qəhrəmanlar haqqında deyil, qəhrəmanlıq haqqında söz açmaq oldu.

Güclü olmaq hələ qəhrəman olmaq demək deyil. Qəhrəman olmaq üçün qəhrəman ürəyi gərəkdir. Fiziki cəhətdən güclü adamlar var ki, zəif əqidəlidirlər. Üzdən çox zəif görünən qəhrəmanlar isə az deyildir.

Milli qəhrəmanlarımız simvolik (rəmzi) şəxsiyyətlərdir. Onların qəhrəmanlığı xalqımızın qəhrəmanlıq ənənələrinə söykənir. Milli qəhrəmanlar haqqında daha geniş mövzuda həmsöhbət olmaq arzusu ilə sağlıqla qalın, əzizlərim!..

EPİLOQ

... Belində toqsan oqın nə ögərsən, mərə kafər?
Ala qollı sapanımca gəlməz mana...

"KİTABİ – DƏDƏ QORQUD"dan.

“Allahın icazəsi ilə çox az qoşunlar, çox-çox qoşunlara qalib gəlmişlər. Allah səbr edənlərindir.

NİZAMÜLMÜLK. “Siyasətnamə”.

SON

“SON”DAN SONRA

Belə demiş aqillər: “Əsl insanlar ömrü boyu uşaq olaraq qalırlar”.

...Qəhrəmanlarımız olub, var, olacaq. Qəhrəmanlarımız yaşamış, yaşayır, yaşayacaq!..

* * *

SƏADƏT AXTARIŞINDA

Hər bir kəs dağın zirvəsində yaşamaq istəyir, lakin heç ağlına gəlmir ki, böyük səadət onu yamacda gözləyir.

QABRİEL QARSİO MARKES.
(Kolumbiya yazıçısı)

"Əzizim Arzu, səni ad günün münasibəti ilə ürəkdən təbrik edirəm. Sənə uzun ömür, cansağlığı və səadət diləyirəm..."

Hörmətlə: SƏADƏT.

Bir təbrik teleqramından götürülmüş bu sətirləri hər bir yubilyara ünvanlamaq mümkündür.

Bəs nədir səadət?

Bir milyarderdən soruşurlar:

- Siz xoşbəxtsinizmi?

Q deyir:

- Mən gəncliyimdə səadəti sərvətdə görürdüm. Səadətin dalınca qaçdım, onu tapdım, lakin gəncliyimi və sağlamlığımı itirdim.

Görkəmli alman şairi Henrix Heyne deyərmiş: " Yeganə gözəllik varsa, o da sağlamlıqdır".

İnsan sağlamlığı onun fiziki və mənəvi cəhətdən sağlamlığının cəmi şəklində özünü göstərir. İnsan həm cismən, həm də mənən sağlam olduqda özünü xoşbəxt hesab edə bilər. Mənəvi sağlamlıq, fiziki sağlamlığın, daha doğrusu sağlamlığın rəhnidir. Ruhən müalicə etmədən insanı tam sağlamlaşdırmaq olmaz. Həm də insan mənəviyyatının müalicəsi onun fiziki cəhətdən müalicəsindən daha çox zəhmət tələb edir.

Kəlam: "Fiziki cəhətdən sağlam nadanlar və mənəviyyatca zəngin fiziki qüsuru olan (əlil demək istəməzdik!..) şəxslər yaşayır. Cəmiyyət üçün onların hansı daha çox lazımlıdır? Özünüz mühakimə edin.

İnsan mənəviyyatı insanlıq amillərindən biri, daha doğrusu birincisidir.

Sərvət isə xoşbəxtlik deyil, olsa-olsa ona çatmaq üçün bir körpü ola bilər. Qədim yunan filosofu Demokrit hələ təxninən 2.400 il bundan əvvəl demişdir: "Xoşbəxt var-dövləti olan deyil, ona ehtiyacı olmayandır".

O, bir daha deyir: "Dövlətlilərin çoxu sərvətlərinin sahibi deyil, qarovulçularıdır".

Azərbaycan alimi Əlfəddin Abdullayev isə deyir: "Borcun yoxsa varlısan, sağlamsansa xoşbəxtsən".

İlk baxışdan xoşbəxt görünən bədbəxtlər çoxdur. Çox zaman insan həqəqətdə olduğu kimi görünmür. Cəmiyyət arasında onun haqqında sanki bir illüziya yaranır. (Qavrayışın təhrif olunmuş formasına illüziya deyilir.)

"Ya göründüyün kimi ol, ya da olduğun kimi görün!"

CƏLALƏDDİN RUMİ.

Haşiyə: Dünyada heç nəyə ehtiyacı olmayan bir şahzadə nədənsə özünü xoşbəxt hiss etmirdi. Ona xoşbəxt olmaq üçün xoşbəxt bir adamın köynəyini geyməyi məsləhət bildilər. O, vəkillə rastlaşdı. Nədənsə ona elə gəldi ki, vəkil xoşbəxt adamdır. Bir qədər söhbətdən sonra şahzadə vəkilə dedi:

- Sən xoşbəxtsənmi?

Vəkil isə: "Əlbəttə, xoşbəxtəm, amma vəzir olsam, daha da xoşbəxt olaram!" – deyə cavab verdi.

Şahzadə vəzirlə görüşdükdə onun müdrikcəsinə gülümsədiyini görüb axtardığını tapdığını zənn etdi. Xeyli danışdıqdan sonra o, vəzirdən soruşdu: "Sən özünü xoşbəxt hiss edirsənmi?"

Vəzir: "Əlbəttə, xoşbəxtəm! Lakin padşah olsam daha da xoşbəxt olaram!" – deyə güclə seziləcək məyusluqla cavab verdi. Şahzadə ondan ayrıldı. Oradan birbaşa atasının hüzuruna gəldi. Padşah taxtında bəxtəvərcəsinə əyləşərək ağıllı fərmanlar

verir, ədalətli qərarlar qəbul edirdi. Çöhrəsinə sanki nur qonmuşdu. Hal-əhval tutduqdan sonra şahzadə atasına dedi:

- Qibleyi aləm, sənin çox xoşbəxt siman var, həqiqətən də xoşbəxtsənmi?..

Atası: "Əlbəttə, oğlum, xoşbəxtəm. (Şahzadə ürəyində sevindi...) Amma qonşu padşahın da torpağını öz ölkəmizə qatsaq, daha da xoşbəxt olaram"- deyə gülümsünərək cavab verdi. Şahzadə axtardığını tapmadığı üçün saraydan çıxdı.

Sonra şahzadə xoşbəxt adam sorağı ilə səyahətə yollandı. Xeyli dolaşdıqdan sonra tarlasını şumlaya-şumlaya nəğmə oxuyan bir kəndlini görüb ona yanaşdı. Kəndli onu mehribanlıqla qarşıladı. Şahzadə onunla xeyli söhbət etdikdən sonra sözarası dedi: "Sən xoşbəxtsənmi?"

Kəndli: "Bu dünyada özümü hamıdan xoşbəxt hiss edirəm. Bu il məhsulum bol olacaq. Ailəm firavan dolanacaq" – deyə cavab verdi.

Şahzadə axtardığını tapmışdı. O, kəndliyə dedi: "Qardaş, öz köynəyini mənə satarsanmı?"

Kəndli çuxasını yana araladı. Kəndlinin əynində köynəyi yox idi...

Səadət möhkəm bünövrə üzərində qurulmalıdaır. Bu bünövrə mənəviyyatdır. Öz xoşbəxtliyini başqasının bədbəxtliyi üzərində quranlar ikiqat bədbəxtdirlər. İnsanın səadəti onun öz əlindədir. İnsan özünə qalib gəlməyi bacararsa, o, səadətini də əldə edə bilər.

(...İnsanın haqdan ağır yükü yox, şələsu yoxdur,
Ağılın nəfs kimi qeyri bir tələsi yoxdur...)

Xoşbəxtlik insanlıq hissi, insanların yaratdığı xəyali cənnətdir. Xoşbəxtlik də bir çox məqamlar kimi nisbi xarakter daşıyır. Bəzi adamlar onu var-dövlətdə, bəzi adamlar isə sağlamlıqda görürlər. İnsanlar xoşbəxtlik adlı mövhumu yaratmış və daim ona çatmaq arzusu ilə yaşamışlar.

"Ən böyük xoşbəxtlik insanlarla ünsiyyətdir". Ekzüperi bu sözləri söyləməklə insanın xoşbəxtlik zirvəsi olduğunu təsvir etmək istəmişdir. Səadəti isə məhəbbətsiz təsəvvür etmək sadəcə olaraq mümkün deyildir. Bu sözlər səadəti var-dövlətdə və firavan yaşayış tərzində görənlər üçün gülünc görünə bilər. Unutmaq lazım deyildir ki, bunlar insan həyatının bir parçası, daha doğrusu o qədər də əhəmiyyət kəsb etməyən bir elementidir. İnsan səadətinin mənbəyi və mayası isə həyat eşqində, yüksək mənəvi zövqdə və deməli həyati məhəbbətdədir.

İnsanlara, yalnız bir insana məhəbbət isə həyata məhəbbətin kiçicik bir zərrəsi ola bilər. Lakin bu zərrə bəzən böyüyüb insanın mənəvi dünyasını nura qərq edən günəşə çevrilə bilər.

Əsl istedad əsl məhbbəti olanlardır. Nədənsə zövq almadan, vəcdə gəlmədən, sevmədən istedadlı olmaq mümkün deyildir. Bu məhəbbətin obyekti isə müxtəlif olsa da ünvanı insan qəlbidir. Məhəbbət insan ruhunun və deməli insanlığın qanadıdır. Nəyəsə məhəbbət olmadan yaşamaq yox, sadəcə olaraq ömür sürmək olar.

Məhəbbət isə özünü hər hansı bir həyati obyektə sevgi şəklində göstərir. Əqli sevgi, ruhi sevgi, cismani sevgi, əsl məhəbbətin və deməli sevgi (məhəbbət) səadətinin, nəhayət, səadətin mənasını təşkil edir. Məhəbbətin əsas səbəbi isə həyat ritmi, həyatın özüdür. Məhəbbət ruhun həyati ehtiyaclarından yaranır. O, ruhun mənəvi ehtiyacıdır. Məhəbbət yalnız insanda deyil, bütün canlılara (bəlkə də cansızlara!..) xas olan hissdir. Cücərti ən sərt suxurları da yarıb Günəşə boylanır. Balıqlar Yer kürəsinin bu başından o başına üzür, quşlar qitədən-qitəyə uçurlar. İnsanlar isə... insani məhəbbəti təsvir etməyə isə sadəcə olaraq hər qələmin gücü çatmaz.

Hər bir hadisənin maddi əsası vardır. Dünyanın maddi əsasını D. İ. Mendeleyevin kinyəvi elementlərin dövri sistemi cədvəlində yerləşən kimyəvi elementlər təşkil edir. İnsan da

dünyanın tərkib hissəsidir. Onun da maddi əsasını kimyəvi elementlər təşkil edir. Məhəbbət ən ülvi insani hissdir. Bəs onun maddi əsasını nə təşkil edir?

Fiziklər və kimyaçılar adi şəraitdə maddələrin üş aqreqat halda olduğunu müəyyən etmişlər: bərk, maye, qaz. Xudu Məmmədov isə deyirdi: "Adi şəraitdə maddənin dörd aqreqat halı vardır: bərk, maye, qaz və ... canlı halı. Biz Xudu müəllimin adının əvvəlində elmi və insani titullarını qeyd etməməklə onun böyüklüyü haqqında təsəvvür yaratmaq istədik. O – hisslər nəhəngi deyərdi: "Quşlar köçəri, insan ölləridir". Bu kəlamla o, insanın ölümdən çox-çox güclü olduğunu göstərirdi. O bir daha deyir: "Demək lazım deyil ki, daşın, çiçəyin, otun... dili yoxdur. Demək lazımdır ki, biz onların dilini bilmirik!..) O, bir daha deyir:

Əlim köməyim olsun,
Elim köməyim olsun.
Kimsəyə möhtac olsam,
Ölüm köməyim olsun..

Biz Xudu dünyasına daxil olmağa cürət etməyərək söhbəti yenə əvvəlki məcrasına yönəltməyə çalışırıq. Əziz oxucu, unutma ki, dünyada bir Xudu dünyası var. Mən Xudu dünyasının adi dünyaya necə sığdığını təsəvvür edə bilmirəm. O, molekulların müəyyən ardıcıllıqla düzülüşünün elmi təhlilini verməklə dünyanın maddi əsasını təsvir edir.

Molekullar müəyyən dəqiq ardıcıllıqla düzülərək irsiyyəti daşıyan genləri, insan beynini, insan varlığını təşkil edirlər. Deməli, insan məhəbbətinin maddi əsasını da molekulların məhəbbətlə düzülüşündən yaranmış kimyəvi maddələr təşkil edir. Kaş alimlər məhəbbətin əsasını təşkil edən belə bir maddəni kəşf edəydilər. Və ya molekulları məhəbbət rabitələri üzrə düzməyin yolunu tapaydılar. Ya da elə bir katalizator

(ferment) yaradaydılar ki, molekulları məhəbbət rabitələri ilə bir-birinə bənd edəydi.

Bu, bəşəriyyət tarixində ən böyük elmi kəşf olardı. Daha doğrusu "Dünyanı məhəbbət xilas edərdi". Umu-küsülər, çəkişmələr, müharibələr, terror... birdəfəlik dəfn olardı.

Günəş kainatı isidir, dünyanı yaşadır. Məhəbbət isə insanın daxili günəşidir. Məhəbbət insanlığın günəşidir. Məhəbbəti iki sevən ürək arasında ülvi hiss səviyyəsi çərçivəsinə salmaq istəməzdik.

Məhəbbət səadətin açarıdır, həm də yeganə açarı. Allah insanları sevəni daha çox sevir. Daha dəqiq desək, Allah yalnız insanlığı sevənləri sevir və onları xoşbəxt edir.

Hər bir insan ovladı yaşamağa məhkumdur. Sevmək çətindir. Sevmək yaşamaqdan da çətindir. Yaşayan şəxs sevməyə məhkumdur. Məhəbbət yaşadır insanı. Məhəbbəti çox olan daha çox yaşayır. Məhəbbəti ömrün mərhələləri çərçivəsinə salmaq məhəbbətin böyüklüyünə və ecazkar gücünə şübhə ilə yanaşmaq olardı. Məşhur Şərq şairi Sədi Şirazi məhəbbət şerlərini 60 yaşdan sonra yazmağa başlamışdır.

Əziz oxucum, mən səadəti (əsl səadəti!..) var-dövlətdə və sərvətdə deyil, mehribanlıq və məhəbbətdə görənlərlə həmrəyəm...

EPİLOQ

"Məncə hyatda hər şeydən gözəl yenə də insan gözəlliyidir, insanın həyatında isə bu, gözəllik, sağlamlıq, gənclik və məhəbbətdir!"

TOFİQ ƏFƏNDİYEV.

SON

“SON“DAN SONRA

Müasir Azərbaycan filosofu Tofiq Əfəndiyevin bu fikri isə əsl gözəllik haqqında deyilmiş sözlərin ən gözəllərindən hesab oluna bilər. Çünki səadət gözəllikdə deyil, gözəllik səadətdədir.

* * *

SINAQ

Yoxlamaq, seçmək, qəbul
etmək hələ sınaq deyil.

Sınaq – yaşamaq məşqi, həyat seçimidir.

Haşiyə: "... Uca-uca dağ başında,
Yel təki əsdiyin varmı?
Heç tək-tənha bu çölləırdə,
Ordular basdığın varmı?..

Dəmirçioğlu dedi:

- Yox, Koroğlu dediyin sifətlərdən heç biri məndə yoxdu. Ancaq Telli xanımı gətirməyə mən gedəcəyəm.

Koroğlu dəlilərdən soruşdu:

- Nə deyirsiz? Gedə bilər, ya yox?

Dəlilər yerbəyerdən dedilər ki:

Güclüdür. Qüvvətlidir. Ancaq hələ təzədir. Dava-dalaş görməyib. Bərkə-boşa düşməyib.

Koroğlu hay vurdu, Qıratı yəhərlədilər, ayağa durub bir alma gətirdi. Saplaq tərəfinə üzük taxdı, Dəmirçioğlunun başına qoydu. Qayıdıb ata mindi. Cövlana gətirib bir o başa sürdü, bir bu başa sürdü. Yay-oxu çilləyə mindirib Dəmirçioğlunun başındakı almaya düz qırx ox atdı. Oxların hamısı bircə-bircə üzüyün halqasından keçdi.

Dəlilər, Nigar xanım, aşıq Cunun – hamısı durub baxırdı. Dəmirçioğlu nə bircə dəfə gözünü qırpdı, nə yerində qımıldandı, nə də rəngi qaçdı. Necə dayanmışdısa, eləcə də axıracan dayandı.

Koroğlu atdan düşdü, Dəmirçioğlunu qucaqlayıb üzündən, gözündən öpdü. Könlü havalandı, ürəyi coşdu:

Dəlilər içində bəlli igidsən,
Gördüm sınayanda mərdanə səni.
Şəst ilə dayandın meydan içində,
Bənzətdim alıcı tərlana səni...

Kef məclisi başlandı. Aşıq Cunun ortaya girdi. Yedilər, içdilər, çaldılar, oynadılar. Keflər duruldu, damaqlar sazlanı. Koroğlu ayağa durub dedi:

- İndi izndir, oğlum, get yaraqlan!..”

Bu Koroğlu sınağıdır. Bu, Dəmirçioğlu sınağıdır. Bu, mərdlik sınağıdır. Sınayan mahir sınaqçıdır. İnsan sərrafıdır. Sınanan Koroğlu dəlisidir. Onun üçün dözüm həyatdan qiymətlidir. O, sınaqda əlavə bir kirpik çalsa yaşamaz. O, sınaqdan çıxmasa ölərdi. Bu sınağı yalnız Koroğlu apara bilər. Bu sınaqdan yalnız Koroğlu dəlisi çıxa bilər. Koroğlu bilsəydi ki, Dəmirçioğlu bu sınaqdan çıxmayacaq heç onu sınamazdı.

O, Dəmirçioğlunu birinci dəfə ilk tanışlıq zamanı Qıratı “oğurlayanda” sınağa çəkmişdi. Dəmirçioğlu sınanmağa layiq igiddir. Bu sınaqdan hər igid çıxa bilməz. Bu sınaqda həm də Koroğlu sınanır. Onun qırx oxundan heç biri hədəfdən yan keçmədi. Dözüm sınağı, atıcılıq sınağı... Koroğlu həm də mahir atıcıdır. Koroğlu ustad (müəllim) təbiətli sınaqçıdır.

Haşiyəyə haşiyə: “...Mahmud paşanın qasidi yolda Eyvazla rastlaşır. Özünü ona Eyvaz kimi təqdim edir. Eyvaz ona deyir ki, mən də Koroğluyam. Qasid ona yalvarır:

- Koroğlu, atam-anam sənə qurban olsun, məni öldürmə. Elə istədim gələm sənə dəli olam.

Eyvaz dedi:

- Nə olar, xoş gəlmisən, səfa gətirmisən, yəqin ki, eşitmiş olarsan, kim mənə dəli olmağa gəlsə, mən əvvəlcə onu sınayıram. De çək qılıncını səni sınayacağam.

Eyvaz bunu deyib misri qılıncı çəkdi, başının üstündə elə hərlədi ki, yazıq elə bildi başı bədənindən ayrıldı. Bayaq ha sərildi yerə. Hannan-hana gözünü açanda baxdı ki, başı yerindədi, başladı ağlayıb yalvarmağa ki:

- Koroğlu, amandı məni öldürmə. Axı deyirlər elçiyə zaval yoxdu. Mən Mahmud paşanın elçisiyəm, sənə namə gətirmişəm. Eyvaz əl atıb onu qaldırdı...”

Bu isə Koroğlu üsulu ilə Eyvaz sınağıdır!..

Şah İsmayıl sınağı, Ərəbzəngi sınağı, hicran sınağı, məhəbbət sınağı. Sınaqlar, sınaqlar, sınaqlar...

Ərəbzəngi əhd etmişdi ki, kim ona qalib gəlsə, ona da ərə getsin. Bu sınaqdan çıxmayanlar həyatla vidalaşdılar, kəllələri minarələrə sancıldı. Şah İsmayıl ona qalib gəldi...

"Şah İsmayıl" dastanı başdan başa sınaqlarla doludur. Lakin burada Ədil şahın oğlu İsmayılı sınaması epizodu ilə kifayətlənirik.

Haşiyə: ... Şah İsmayıl dedi:

- Necə ola bilər ki, atam məni qonaq çağırsın, mən getməyim? Siz mənim atamı pis tanıyırsınız.

- Gedişin yaxşıdır, amma gəlişin pis görünür. Al bu üzüyü barmağına tax, bu tulanı da özünlə apar, tula haradan getsə, sən də oradan get, harada otursa, sən də orada otur. Üzüyü qabağına gətirilən xörəyə sal, nə vaxt yaşıllaşsa yemə. (Şah İsmayıl belə etdi.)

... Tula yoldan çıxdı, şah İsmayıl da onun dalınca gedib atasının hüzuruna çatdı. Xörək gətirdilər, o, üzüyü xörəyə saldı. Xörək yaşıllaşdı. Şah İsmayıl xörəyi yemədi.

Ədil şah oğluna dedi:

- Oğul, çox şükür ki, bu qədər zəhmətdən sonra Gülzarı gətirə bildin. Eşitmişəm yollarda çox pəhləvanlara rast gəlmisən, çoxlarını yıxmısan. Gərək gücünü atanın qabağında da göstərəsən. De görüm sənin nəyə gücün çatmır ki, mən onda səni sınaqdan keçirim.

Şah İsmayıl dedi:

- Mənim yeddi boyun cüt (kotan) qayışına gücüm çatmaz.

Ədil şah əmr elədi, yeddi boyun cüt qayışı gətirdilər. Şah İsmayılın qollarını bağladılar. Şah İsmayıl elə zor verdi ki, qayış parça-parça oldu, yerə töküldü.

Ədil şah dedi:

- Bəs deyirdin gücün çatmaz? Parça-parça elədin ki!.. De görüm doğrudan nəyə gücün çatmaz?

Şah İsmayıl dedi:

- Yeddi qulac sicimə gücüm çatmaz.

Ədil şah əmr elədi. Şah İsmayılın qollarını yeddi qulac sicimlə bağladılar. Şah İsmayıl elə zor verdi ki, sicim qırıq-qırıq oldu. Ədil şah dedi:

Demək sənin gücün çatmayan şey yoxdur.

Şah İsmayıl dedi:

- Xeyr, var, öz yay-oxumun kirişinə gücüm çatmaz.

Ədil şah yay-ox kirişi ilə Şah İsmayılın qollarını bağlatdırdı. Şah İsmayıl zorunu qollarına toplayıb nə qədər çüc verdisə, kirişi qıra bilmədi. Kiriş kəsə-kəsə sümüyə dayandı. Ədil şah cəllad çağırdı...”

“ŞAH İSMAYIL” dastanından.

... Sınaq qəhrəmanlıq məşqi. Sınaq yaşamaq üçün verilən imkan...

Qəhrəmanlıq abidəmiz olan “Kitabi-Dədə Qorqud” dastanı sınaq meydanını xatırladır.

...Təkur Selcan xatun üçün üç vəhşi heyvan (buğa, aslan, dəvə) saxlayır. Kim bu üç heyvanı öldürə bilsə qızını ona verəcəyini vəd edib. Kim döyüşdə həlak olsa başını kəsib bürcdən asır.

Qanlı qoca oğlu Qanturalı ata-anası ilə vidalaşıb qırx igid dostu ilə təkurun üstünə gedir. O, buğaya, aslana və dəvəyə qalib gəlir.

Təkur dedi: “Vallah, bu igidi gözüm gürdü, künlüm sevdi”. O, sarı donlu Selcanı ona verdi.

Sınaq - ağılın imtahanı, sınaq - sədaqətin ölçüyə gətirilməsi, sınaq qabiliyyətlər çərçivəsidir...

Rəvayət: ... Məşhur həkim və filosof alim İbn Sina körpə ikən həssaslığı ilə “tükü qırx hissəyə ayıra bilirdi”. Bir dəfə

şagird dostları onu sınamağı qət etmişdilər. Onlar məktəbə Hüseyndən (İbn Sinadan) tez gəlmiş, onun həmişə əyləşdiyi xalçanın altına bir vərəq kağız qoymuşdular.

Hüseyn, daha sonra müəllim gəldi. Məşğələ başlandı.

Şagirdlər hamısı Hüseynə göz qoymuşdu. Hüseyn özünü qəribə aparırdı. O, başını gah tavana qaldırır, gah da aşağı əyirdi.

Sonra təəccüblə dedi:

- Bilmirəm, ya məktəbimizdə tavan bir qədər aşağı enib, ya da döşəmə azca yuxarı qalxıb, ancaq hər halda, divarların hündürlüyü dəyişib...

Ən dəhşətli sınaq – nüvə sınağı, ən məsuliyyətli sınaq – imtahandır.

Yeni çıxan hər bir texnikanı son gücünə qədər sınağa çəkirlər və onun üçün son həddi müəyyən edirlər.

Ən maraqlı və əhəmiyyətli sınaq sənət sınağıdır. Professor Rafael Hüseynovun efirdə söylədiklərindən:

"... Filarmoniyada konsert gedir. Səhnədə üç dahi sənətkar – Cabbar Qaryağdıoğlu, Xan Şuşinski və Qurban Pirimovdur. "Heyratı" muğamı çalınır. Bir bənd Cabbar əmi, bir bənd isə Xan oxuyur. Cabbar əmi ahıllıq zirvəsində, Xan isə gəncdir.

Cabbar əmi həmişə oxuduğundan daha zil pərdələrə qalxır. Təbbi ki, Xan qaydaya görə ondan da zilə qalxmalıdır. Qurban çalır, Cabbar isə Xanı daha yuxarı mərtəbələrə çəkir. Cabbar səsləyir, Xan onun hayına yetişir. Qurban isə onları müşayət edir.

Konsertdən sonra pərdə arxasında Qurban Pirimov deyir:

- Cabbar, uşağı niyə çətinə salırdın?

Cabbar əmi deyir:

- Qurban, gənc olsa da Xan istedadlıdır, mən onu çox sevirəm. Sadəcə olaraq onu bir balaca sınağa çəkirdim..."

Bu, Cabbar sınağıdır. Sınağa çəkilən isə musiqimizin Xanıdır. Şahidlik edən isə muğam zərgəri Qurban Pirimovdur.

Əlbəttə, Cabbar əmi Xanın bu sınağa tab gətirəcəyini çox gözəl bilirdi. O, belə düşünməsəydi heç bu sınağı qurmazdı. Cabbar əmi müəllim təbiətli sənətkardır.

Professor Qulu Xəlilli demişdir: "Əgər Cabbar Qaruağdıoğlu muğamlarımızın şahı idisə, Bülbül nəğmələrimizin sultanıdır".

Böyük şəxsiyyətlər çox zaman tarixin sınaqlarından çıxmış üsullardan istifadə etmişlər. Daha doğrusu tarixdən ibrət götürmək dahiliyin əsas şərtlərindəndir. Pedaqoq təbiətli dahilər isə sınaqlardan çıxmış həqiqətləri hamıya, hətta şahlara da çatdırmağa çalışmışlar.

Aristotel öz keçmiş şagirdi Makedoniyalı İsgəndərə belə demişdir: "Sənin məmləkətində hökmü rəvan olmuş bir adamı incitsən ona daha böyük vəzifə tapşırma. O, qəlbində düşmənlə əlbir olub səni məhv etmək üçün cəhd etməyə çalışar".

Sonralar İran şahı Daranı məğlub etməzdən əvvəl İsgəndər bu üsuldan istifadə edərək onun vəzirini ələ almışdır.

Taixdə elə insanlar olmuşdur ki, onlar daha təhlükəli sınaqlara girmişlər. Böyük kimyaçı Hemfri Devi yeni aldığı qazlarla nəfəs almağı sevirmiş.

"...1799-cu ilin aprelində Devi azot I-oksidin (azot-monooksid) N_2O tənəffüsə təsirini öz üzərində yoxlamağa başlayır. O, əvvəlcə qazın az dozası ilə tənəffüs edir, heç bir zəhərlənmə müşahidə olunmur. Qazın miqdarı getdikcə artırılır. Məlum olur ki, bu qaz ağrıkəsici və nəşələndirici xassəyə malikdir. Çünki bu hadisə alimin dişinin ağrıdığı vaxta təsadüf etmişdir. Beləliklə, o vaxtdan bəri qaz "nəşələndirici qaz" adını alır.

Lakin bu, işin sonu olmadı. Müxtəlif qazların insan orqanizminə təsiri barədə tədqiqatlar davam edirdi. Növbəti sınaq hidrogenlə aparılır. İlk anlarda Devi tənəffüs əsnasında elə bir şey hiss etmir, lakin yarım saatdan sonra tənəffüsü çətinləşir. Həkimin sınağı dayandırmaq haqda göstərişinə

baxmayaraq Devi təcrübəni davam etdirməyi tələb edir. Qazın təsiri isə öznü daha çox göstərirdi. Devinin yanaqları al-qırmızı rəng almışdı. Ürəyi şiddətlə döyünür, nəbzi getdikcə yavaşıyırdı. Vəziyyətin təhlükəli olduğunu görən doktor Beddo vaxt itirmədən irəli atılıb qaz borusunu onun əlindən dartıb alır. Devinin həyatı bir tükdən asılı idi.

Sonralar azor N_2 ilə az miqdarda karbon qazı (karbon-dioksid) CO_2 qarışığında tənəffüs təcrübələri güclü zəhərlənmə əlaməti göstərdi...”

Təbabətdə yaman şişi özünə peyvənd etmək, şəkərli xəstənin sidiyinin tamını yoxlamaq, bu və ya digər dərmanın təsirini öz üzərində sınaqdan keçirməyə dair çoxlu-çoxlu faktlar məlumdur.

Haşiyə: 1674-cü ildə ilk dəfə Oksford həkimi Tomas Uillis özünün təbabət elminə olan hədsiz məhəbbəti nəticəsində şəkərli diabetə tutulmuş xəstənin sidiyinin dadına baxaraq şirin tamlı olduğunu söyləmişdir.

Haşiyəyə haşiyə: Azərbaycan xalq təbibləri isə bundan çox-çox əvvəllər şəkərli xəstələrin sidiyi hopmuş torpağa qarışqaların toplanması əlamətinə görə bu fikrə gəlmişlər...

Sınaq olmasa yəqin ki, bir sıra elmi, texniki, həyati əhəmiyyətli kəşflər də olmazdı.

Sınaq – bir çox hallarda həyatla ölümün üzbəüz dayandığı məqamdır.

Sınaq – varlıqla yoxluğun sərhəddidir.

Sınaq – gələcəyə uzanan nazik körpüdür.

Sınaq – son ümid, sönməkdə olan ümidin yenidən dirçəlməsi anıdır...

Ən çətin sınaq isə çörəklə, su ilə təbiətin sınağıdır. Allah heç kəsi çörək ilə, su ilə sınağa çəkməsin!..

EPİLOQ

Dostu ehtiyac, müdrikləri qəzəb sınaqdan keçirir.

QOQOL.

SON

“SON“DAN SONRA

Bütün imtahanlar sınaq olmadığı kimi bütün qalibləri də sınaqdan çıxmış hesab etmək olmaz.

Həyat məni sınaqlara çəkibdir.
Çox salıbdır dəyirmana, ələyə...

* * *

HESAB DƏRSİ

Hesabını bilməyənə,
Üç də birdi, beş də birdi ...
ATALAR SÖZÜ.

"... Bütün elmlərin şahı riyaziyyatdırsa, riyaziyyatın tacı hesabdır" – riyaziyyat müəllimimiz bu kəlamı tez-tez işlətməyi xoşlayardı.

İnsanlar saymağı çox qədim zamanlardan öyrənmişlər. Onlar beş ədədinin əvəzinə "əl", on ədədinin əvəzinə "iki əl", iyirmi ədədinin əvəzinə "adam" deyərmiş. Mübahisəli məsələ olanda elə indi də "beş barmağım kimi bilirəm!.." – deyirik.

İlk sayın Qədim Babilistanda yaradıldığı gümün edilir. Onlar indiki kimi onluq say sistemindən deyil, altmışlıq say sistemindən istifadə etmişlər. Saat, dəqiqə, saniyə hesablanarkən biz indi də babillilərin say sistemindən istifadə edirik.

Qədimdə - təxminən 5.000 il bundan əvvəl Nil çayı sahilində Qədim Misir dövləti təşəkkül tapmışdı. Misirlilər tərəfindən hələ 4.000 il bundan əvvəl papiruslar üzərində yazılmış bir sıra məsələlər günümüzə qədər gəlib çatmışdır. Belə məsələlərdən birini Sizə təqdim edirik: "Yeddi çərəyi səkkiz yerə bölməli".

Bu məsələnin qədim həlli belədir: dörd çörəyin hər birini yarıya, iki çörəyin hər birini dörd yerə, bir çörək isə səkkiz yerə bölünür. Sonra isə səkkiz ədəd eyni ölçülü parçalar toplanırdı.

Məsələnin müasir şəkildə həlli isə çox asandır. (Unutmayın ki, söhbət 4.000 il əvvələ aiddir!..)

Qədim Misirlilərin Axmes papirusunda günümüzə qədər mühüfizə olunaraq qalmış daha bir hesab məsələsi belədir:

"Yeddi pişik var, pişiklərin hər biri yeddi siçan, siçanların hər biri yeddi sünbül yeyir. Hər sünbüldən yeddi bitki bitir, hər

bitkidə yeddi dən olur. Bunların hamısı birlikdə neçə edər?” (təkrar edirik birlikdə...) Özünüz hesablayın.

Platonun qapısı üzərində yazı: “Həndəsəni öyrənməyən bu qapıdan içəri girməsin!”

Biz burada həndəsənin məziyyətləri barədə danışmaq fikrində deyilik. Lakin Qədim yunan alimi Arximedə aid bir həndəsə məsələsinin haqqında söz açmağı lazım bilirik: “Silindrin içərisinə qoyulmuş kürənin həcminin silindrin həcminə nisbətini hesablamalı”.

Arximed müəyyən etdi ki, silindrin daxilinə yerləşdirilmiş kürənin həcmi silindrin həcminin üçdə iki hissəsinə bərabərdir. Böyük alim bu münasibətlə onun qəbir daşına silindr daxilində kürə şəkli həkk olunmasını vəsiyyət etmişdir.

İki yüz il keçdikdən sonra Arximedin məzarını məhz həmin işarəyə görə tapmaq mümkün olmuşdur.

Aşağı siniflərdə oxuyanda bizə hesab dərsi də tədris olunurdu. Orada belə bir məsələ də vardı: “Göydə uçan yüz qaz, məni də sıranıza düz, qaz!

- Biz yüz deyilik. Bir biz, bir bizim qədər, bir bizim yarımız, bir bizim yarımızın yarısı, bir də sən gəlsən yüz olarıq. İndi tap görək biz neçəyik?”

Əziz oxucu, diqqətlə hesablayanlar yəqin ki otuz altı ədədini alarlar. Gəlin birlikdə hesablayaq...

Ailə-məişət münasibətlərinə aid bir hesablama məsələsi yadımıza düşdü. “Üç qardaş ailə qurduqdan sonra ayrılmaq qərarına gəlir. Atadan qalma bütün sərvəti bölürlər. Lakin otuz keçini bölməyə çətinlik çəkirlər. Çünki keçilərin onunun bir, onunun iki, onunun üç balası var idi. Beləliklə, doxsan baş keçini ananı baladan ayırmadan üç qardaş arasında bölmək lazım idi...” Elə çətinlik də burada idi.

Məsələnin həlli belədir:

İki balalı on keçi birinci qardaşa, beş baş bir balalı və beş baş üç balalı keçilər ikinci qardaşa, qalanlar isə üçüncü qardaşa

verilir. Beləliklə hər qardaşa on baş keçi, iyirmi baş oğlaq düşür.

Daha bir hesab məsələsi verməklə söhbətimizi davam etdiririk.

Məsələ: 8 ədəd 8 rəqəmindən istifadə etməklə 1000 ədədini ifadə edin. Bu zaman rəqəmlərdən əlavə əməllərdən də istifadə etmək olar.

Həlli: 888 + 88 + 8 + 8 + 8 = 1000

Diqqətli oxucular buna bənzər məsələni və məsələləri digər rəqəmlərlə də qura bilərlər.

Aşağı siniflərin riyaziyyat kitablarında 2-yə, 3-ə, 9-a və s. bölünmə əlamətləri haqqında məlumatlar vardır. Lütfən yadınıza salın.

Məsələ: 7344535 ədədi 11-ə qalıqsız olaraq bölünürmü?

Həlli: Qaydaya görə yazılışında cüt yerdə duran rəqəmlərin cəmi ilə tək yerdə duran rəqəmlərin cəmi arasındakı fərq 11-ə bölünərsə və ya sıfra bərabər olarsa həmin ədəd 11-ə bölünür. Yəni: 7 + 7 + 5 + 5 = 21; 3 + 4 + 3 = 10; 21 – 10 = 11.

11 ədədi 11-ə qalıqsız bölündüyü üçün 734435 ədədi də 11-ə qalıqsız bölünür.

Məsələ: 12345678987654321 (1-dən 9-a və əksinə) ədədinin kvadrat kökü nəyə bərabərdir?

Etiraf olunmalıdır ki, bu məsələnin həlli xeyli zəhmət tələb edər.

Həlli: Təsəvvür edək ki, verilən ədəd 121-dir. Asanlıqla tapırıq: 11 (2 dənə 1 rəqəmi).

Verilən ədəd 12321 olarsa, 111 alarıq (3 dənə 1 rəqəmi).

Bu qayda ilə: 12345678987654321 = 111111111 (9 dənə 1 rəqəmi).

Məsələ: Bir qoyunu şir 2 saata, canavar 3 saata, it 6 saata yeyir, həmin qoyunu onlar birlikdə neçə saata yeyib qurtarar?

Cavab: 1 saata.

Məsələ: Fikrinizdə bir ədəd tutun, bir o qədər də yoldaşınazdan alın, əlavə olaraq 6 da mən verdim. Bu üç ədədi toplayın, aldığınız cavabı 2-yə bölün və yoldaşınızdan aldığınız borcu qaytarın. Yerdə 3 qaldı. Elədirmi?

Həlli: Özüm əlavə etdiyim cüt ədədi 2-yə bölüb cavab olaraq deyirəm: $(x + x + 6) : 2 – x = 3$

Daha bir əyləncəli məsələ ilə söhbətimizi davam etdiririk.

Məsələ: Siz alt-alta iki sırada ikirəqəmli ədədlər yazırsınız, mən isə ona daha bir ikirəqəmli ədəd əlavə edərək dərhal cavabı yazıram. Məsələn,

$$\begin{array}{r} 82 \\ +\ 95 \\ \underline{17} \\ 194 \end{array}$$

Bu misalı üçrəqəmli, dördrəqəmli və s. ədədlər üzərində də aparmaq olar.

Həlli: Mən elə əlavə edirəm ki, onun hər mərtəbə rəqəmi birinci sıra ilə 9-a tamamlansın. Sonra onlara 1 ədədi əlavə edərək sıfırlara çevirirəm və ikinci sıranın təkliklər mərtəbəsindən 1 çıxıb cavabın əvvəlinə yazıram.

82 I sıra
+ -- II sıra
17 III sıra (mən əlavə edən sıra)
99

Cavab: 194 (yəni, 95 – 1 = 94 + 100 = 194).

Məsələ: 10-dan böyük, 20-dən kiçik ədədləri bir-birinə bir anda necə vurmaq olar? (məsələn, 16x15.)

Həlli: I. Təkliklər bir-birinə vurulur: 6x5=30.

II. Ədədlərdən birinə ikincinin təklik hisəsi əlavə edilərək alınan cəm 10-a vurulur: 16+5=21x10=210 (və ya 15+6=21x10=210.)

III. hər iki nəticə toplanılır: 210+30=240.

Qədim zamanlarda şairlərimiz, alimlərimiz əlamətdar hadisələrin tarixlərini göstərmək üçün xüsusi ifadə tərzindən istifadə etmişlər. Bu, əbcəd hesabı və ya maddeyi tarix adlanır. Bu zaman Ərəb əlifbasının hər bir hərfi müəyyən bir ədədi ifadə edir. Məsələn, əlif – 1, bey – 2, qaf – 100 və s.

Şair elə bir ifadə tapıb işlədirdi ki, onun hərflərinin ədədi qiymətini topladıqda nəzərdə tutulan tarix alınsın.

Əbcəd hesabı ilə "İsgəndər" sözünün (öz adımın) ədədi qiyməti 335 -ə bərarərdir:

1 + 60 + 20 + 50 + 4 + 200 = 335. Nəzərə almaq lazımdır ki, "İsgəndər" sözü ərəb əlifbası ilə 6 hərfdən ibarətdir.

Roma rəqəmləri 7 işarə ilə göstərilir: I (bir), V (beş), X (on), L (əlli), C (yüz), D (beş yüz), M (min.)

Bunlardan isə birləşmə yolu ilə müxtəlif ədədlər alınır. Məsələn, XL (40), LX (60), LXX (70), XC (90), CXII (112) və s.

Anadan olduğum 1955-ci il Roma rəqəmləri ilə belə ifadə olunur: MCMLV.

2007-ci ili isə həmin üsulla belə ifadə etmək olar: MMVII və s.

Müasir saylar isə 22 sözlə ifadə olunur: 1 (bir), 2 (iki), 3(üç), 4(dörd), 5 (beş), 6 (altı), 7 (yeddi), 8 (səkkiz), 9 (doqquz), 10 (on), 20 (iyirmi), 30 (otuz), 40 (qırx), 50 (əlli), 60 (altmış), 70 (yetmiş), 80 (səksən), 90 (doxsan), 100 (yüz), 1.000 (min), 1.000.000 (milyon), 1.000.000.000 (milyard) və s.

Bunlardan iyirmisi bizim sözlər, ikisi – milyon və milyard isə başqa dillərdən alınma sözlərdir.

Haşiyə: Şah vəzirdən soruşur:

- Bu hovuz neçə abgərdən su tutar?

Vəzir:

- Qibleyi aləm, əgər abgərdən hovuz boyda olsa bir abgərdən. Əgər abgərdən hovuzun yarısı boyda olsa iki abgərdən. Əgər abgərdən hovuzun dörddə biri boyda olsa dörd abgərdən. Əgər abgərdən hovuzun səkkizdə bir hissəsi boyda olsa səkkiz abgərdən... su tutar.

Cavab şahın xoşuna gəlir və onu mükafatlandırır.

Ev tapşırığı. 1) Bütün on rəqəmdən istifadə etməklə 1-i və 100-ü ifadə edin.

2) Çaydan qayıqla keçilir. Qayıq çox kiçik olduğu üçün əlavə olaraq yalnız bir şey götürə bilir. Bir canavar, bir şələ ot və bir keçini o biri sahilə necə keçirmək olar ki, canavar keçini, keçi isə otu yeməsin.

Köhnə dostum, Azərbaycan Respublikasının "Əməkdar Müəllim"i Rüfət Qurbanovla söhbətimiz bu dəfə də çox maraqlı keçdi. Azərbaycan Atabəylər dövlətindən, Qərmətilər hərəkatından, Səfəvilər dövründən danışdıq. Tarxçi olduğu üçün o, tarixin dərin qatlarında gizlənmiş və mənə qaranlıq olan bir çox mətləblərdən soraq verdi.

Söhbətin bayaqdan onun ixtisası ətrafında cərəyan etdiyini duyan bu müdrik insan söhbətin məcrasını qəflətən mənim sevimli ixtisasım olan kimya-biologiyanın həndəvərinə yönəltdi. Və ... mənə biokatalizatorların, yəni fermentlərin (enzimlərin) kəşfi ilə əlaqədar olaraq yaranmış bir maraqlı faktı xatırlatdı.

Mən bu məqamda "Əməkdar müəllim" Rüfət Qurbanov şəxsiyyətinə dərin hörmət nişanəsi ilə həmin söhbətin bir hissəsini haşiyə kimi nəzərinizə təqdim edirəm.

Haşiyə: ...1941-ci ildə Danimarka kralı X Xristian məşhur biokimyaçı K.U. Lindersterm – Lanqa zülal və fermentlərin tədqiqatındakı uğurlarına görə öz ölkəsinin ali elmi mükafatını – Ersted medalını təqdim etdi. Kral təqdimetmə mərasimində ona və bütün iştirakçılara fermentlərin nə olduğunu aydınlaşdırmasını alimdən xahiş etdi. Alim belə bir rəvayət danışdı.

Rəvayət: ... Qoca ərəb ölürdü. Onun bütün var-dövləti 17 baş yaraşıqlı və gözəl ağ dəvədən ibarət idi. O, oğlanlarını yanına çağırıb sonucu vəsiyyətini elədi:

"Mənim böyük oğlum ailənin dayağı olduğuna görə ölümümdən sonra dəvələrin yarısı ona çatmalıdır. Ortancıl oğluma mən dəvələrin üçdə birini vəsiyyət edirəm. Mənim kiçik, sevimli oğlum özünün payını – dəvələrin doqquzda birini alacaq.

Bunları deyib qoca ərəb dünyadan köçdü. Atalarını dəfn edən üç qardaş dəvələri bölməyə başladılar. Ancaq atalarının iradəsini yerinə yetirə bilmədilər. 17 dəvəni nə yarı, nə üçdə birə, nə də doqquzda birə bölmək mümkün olmadı.

Bu zaman səhradan bir dərviş keçirdi. Bütün alimlər kimi yoxsul olan bu şəxs kitablarla yüklənmiş arıq, qara dəvəsini öz ardınca aparırdı. Qardaşlar kömək üçün ona müraciət etdilər. Dərviş dedi: "Sizin atanızın vəsiyyətini yerinə yetirmək çox asandır. Mən öz dəvəmi sizə verirəm, siz isə çalışın atanızın mirasını bölməsiniz".

Qardaşların 18 dəvəsi oldu və bütün məsələlər həll edildi. Böyük qardaş dəvələrin yarısını, yəni 9 dəvə, ortancıl qardaş üçdə birini, yəni 6 dəvə, kiçik qardaş öz payını, yəni 2 dəvəni götürdü. Ancaq 9 + 6 + 2 = 17 etdiyindən bölgüdən sonra dərvişin qara, arıq dəvəsi artıq qaldı.

Dərviş dedi: "Sizə kömək etdiyimə görə dəvəmi özümə qaytarın, yoxsa kitabları səhrada daşımaq mənə çətin olar..."

Bax bu qara dəvə fermentə misaldır. O elə bir maddədir ki, onun köməyi olmadan zülalların biosintezi baş tutmaz. Prosesin sonunda isə özü dəyişməz qalır”– deyə Lindersterm – Lanq öz hekayəsini qurtardı...

Pərakəndə şəkildə olsa da xalq pedaqogikasının hesab bölməsindən götürülmüş bu məsələlər zənnimizcə o dövrün təlim üsulları haqqında müəyyən təsəvvür yaratmaq baxımından az da olsa əhəmiyyət kəsb edər.

EPİLOQ

Təxəyyül olmadan heç bir mülahizə yürütmək mümkün deyil.

ARİSTOTEL.

Məsələnin düzgün qoyuluşu onu yarısına qədər həll etmək deməkdir.

D. İ. MENDELEYEV.

SON

“SON“DAN SONRA

$2^2 + 3^2 = 13$; $(2 + 3)^2 = 25$

Yüksəlib birləşməkdənsə, birləşib yüksəlmək lazımdır.

B. ABDULLAYEV.

Əvvəllərdə mənə elə gəlirdi ki, 2 + 2 həmişə 4 -ə bərabər olar...

* * *

EV TAPŞIRIĞININ CAVABLARI

$123456789^{0} = 1$

$234567^{9-8-1} = 1$

$$\frac{148}{296}+\frac{35}{70}=\frac{1}{2}+\frac{1}{2}=1$$

$1^0 + 2^0 + 3^0 + 4^0 + 5^0 - 6^0 - 7^0 - 8^0 - 9^0 = 1 + 1 +1 + 1 + 1 – 1 – 1 – 1 – 1 = 1$

$$70 + 24\frac{9}{18}+5\frac{3}{6}=100$$

$$19 + 80\frac{27}{54}+\frac{3}{6}=100.$$

2) Əvvəlcə keçi o taya keçirilir. Sonra geri dönüb canavarı keçirir, keçi geri qaytarılır. Keçi birinci sahildə qalır, ot canavarın yanına aparılır. Daha sonra qayıdıb keçi o biri sahilə keçirilir.

* * *

TƏQVİM - TARİX TƏRƏZİSİ
(T. T. T.)

... Diqqətli ol, təxmini cədvəllərə inanma,
müfəssəl təqvimlərdən istifadə et.
"QABUSNAMƏ"dən.

Təqvim – ərəb sözü olub mənası "tərtib etmə", "nizama salma", "tənzim etmə", "düzəltmə", "qaydaya salma" deməkdir.

Dünya xalqları arasında çoxlu təqvimlər işlədilməkdədir. Bu təqvimlər hər bir xalqın həyatında baş vermiş ən mühüm əlamətdar hadisədən başlanğıc götürür və göy cisimlərinin (Günəş, Ay, ulduzlar) hərəkət mexanizmi ilə hesablanır.

Biz burada dünyada qəbul olunmuş iki təqvim haqqında qısa şərh verməyə çalışmışıq. Bunlar Miladi və Hicri təqvimləridir. Miladi təqvimi İsa peyğmbərin doğulması ilindən başlanır. Hicri təqvim isə Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə köçməsi ilə bağlıdır. Peyğəmbərin bu hicrəti (köçməsi) Miladi təqviminin 622-ci ilinin iyul ayında olmuşdur. Hicri təqvimi iki cür hesablanır: Hicri-qəməri və Hicri-şəmsi.

Birinci halda bir təzə Ay ilə növbəti təzə Ay arasında müddət (29,5 gün) zaman vahidi kimi götürülür. İkinci halda, yəni, Hicri-şəmsi təqvimində isə Miladi təqvimində olduğu kimi Günəş günləri zaman vahidi qəbul olunur.

Miladi təqviminin ayları

Yanvar – 31 gün
Fevral – 28 (29) gün
Mart – 31 ğün
Aprel – 30 gün
May - 31 gün
İyun – 30 gün
İyul – 31 gün

Avqust – 31 gün
Sentyabr – 30 gün
Oktyabr – 31 gün
Noyabr – 30 gün
Dekabr – 31 gün

Hicri – qəməri təqviminin ayları

Məhərrəm (haram edilmiş) – 30 gün
Səfər (sarı ay) – 29 gün
Rəbiüləvvəl (yazın əvvəli) – 30 gün
Rəbiülaxır (yazın axırı) – 29 gün
Cəmadiyuləvvəl (soyuqların əvvəli) – 30 gün
Cəmadiyulaxir (soyuqların sonu) – 29 gün
Rəcəb (müharibədən, hücumdan özünü saxla) – 30 gün
Şəban (axşam, gecə) – 29 gün
Ramazan (orucluq) – 30 gün
Şəvval (qaldır, apar) – 29 gün
Zilqədə (evdə otur) – 30 gün
Zilhiccə (həcc ayı) – 29 (30) gün.

Bu təqvim əsasən müsəlman (Ərəb) ölkələrində (Səudiyyə Ərəbistanı, İraq, Yəmən, Misir, Suriya, Livan, Liviya, Tunis, Əlcəzair, Mərakeş, Sudan, Pakistan, Küveyt, İndoneziya və s.) tətbiq olunur.

Hicri – şəmsi təqviminin ayları

Fərvərdin – 31 gün
Ordibehişt – 31 gün
Xordod – 31 gün
Tir – 31 gün
Mordad – 31 gün
Şəhrivər – 31 gün
Mehr – 30 gün

Aban – 30 gün
Azər – 30 gün
Dey – 30 gün
Bəhmən – 30 gün
Esfənd – 29 (30) gün

Bu təqvim əsasən İran İslam Respublikasında tətbiq edilir. İl miladi təqvimi üzrə mart ayının 21-də başlayır.

Şaraitdən asılı olaraq hicri təqvimini miladi təqvimi ilə və ya miladi təqvimini hicri təqvimi ilə ifadə etmək tələb olunur.

Hicri-qəməri təqvimini miladi təqviminə bu düsturla çevirmək olar:

$$M = H - \frac{H}{33} + 622$$

Məsələn, Hicri-qəməri təqvimi ilə 1421-ci il miladi ilə 2.000-ci ilə uyğun gəlir.

$M = H - \frac{H}{33} + 622 = 1421 - \frac{1.421}{33} + 622 = 1421 - 43 + 622 = 2000.$

Miladi təqvimini isə Hicri-qəməri təqviminə

$H = M - 622 + \frac{M - 622}{32}$ düsturu ilə çevirirlər.

Məsələn, ötən əsrin son ilini (2.000-ci il) Hicri-qəməri təqvimi ilə ifadə edək:

$H = M - 622 + \frac{M - 622}{32} = 2000 - 622 + \frac{2000 - 622}{32} = 1378 + 43 = 1421.$

Miladi təqvimindən Hicri-şəmsi təqviminə keçmək üçün H = M – 622 düsturundan istifadə olunur. Məsələn, 2000-ci il Hicri-şəmsi təqvimi ilə belə ifadə edilir:

H = M – 622 = 2000 – 622 = 1378. Əksinə, Hicri-şəmsi təqvimi Miladi təqviminə M = H + 622 düsturu ilə çevrilir.

Məsələn, Hicri-şəmsi təqvimi ilə 1378-ci il Miladi təqvimi ilə belə ifadə olunur:
M = H + 622 = 1378 + 622 = 2000.

Nəzərə almaq lazımdır ki, bu düsturlarla təqvimləri bir-biri ilə ifadə edərkən bir neçə ay fərq yarana bilər. Tarixləri daha dəqiq şəkildə təyin etmək üçün sinxron cədvəllərdən istifadə olunur.

Haşiyə: ... Tarixçilərin yazdıqlarına görə böyük mütəfəkkir Nəsirəddin Tusi Hülakü şahın vəziri olmuşdur. Hülakü ən ciddi məsələlər yarandıqda onunla məsləhətləşər və razılaşarmış.

Belə söyləyirlər ki, Hülakü Qüstəntəniyyə (İstanbul) üzərinə hücuma hazırlaşırmış. Tusi isə onu bu fikrindən daşındıraraq Bağdad üzərinə hücuma təhrik edir. Münəccimlər isə şaha deyirdilər: “Xilafətə qarşı çıxmaq yaxşı nəticə verməz, bu zamana qədər kim belə etmişsə hamısı məhv olmuşdur. Əgər indi də padşah Bağdada hücum etsə 6 fəlakət baş verəcək, nəhayət, padşah öləcəkdir.

Nəsirəddin Tusi şahı bütün bunların boş sözlər olduğuna inandıra bilmişdir. Nəhayət, Hülakü şah hücuma keçərək Bağdadı alır. Nəsirəddin Tusi bu hadisəni bir şerində belə təsvir edir:

Hicri ilə altı yüz əlli altıda,
Yekşənbə günü səfər ayının dördündə,
Xəlifə, Hülakünün yanına gəldikdə,
Əbbasi dövlətinin də sonu çatdı...

Tusinin söylədiyi kimi, heç bir fəlakət baş vermədi. Bu hadisə Hülakünün yanında onun hörmətini daha da artırır. Buna görə də şah Azərbaycanın Marağa şəhərini Hülakülər dövlətinin paytaxtı etdi.

İndi isə gəlin birlikdə bu hadisənin Miladi tarixi ilə nə zaman baş verdiyini hesablayaq:

$$M = H - \frac{H}{33} + 622 = 656 - \frac{656}{33} + 622 = 656 - 20 + 622 = 1.258.$$

Zənnimizcə tarixlə maraqlananlar bu hadisəni daha geniş şəkildə öyrənməyə çalışacaqlar.

Tarixdə Qriqori təqvimi (yeni üslub), Yuli təqvimi (köhnə üslub) Ömər Xəyyam təqvimi və başqa təqvimlər işlədilmişdir. Qriqori təqvimi ilə Yuli təqvimi arasında (köhnə və yeni stil) 13 gün fərq vardır.

Şərq ölkələrində hər 12 il bir müçə, hər 33 il bir qərinə, hər 100 il bir əsr, 1000 il bir era adlanır. Xalq inancına görə zaman hər 12 (60) ildən bir təzələnir. Burada hər bir ili bir heyvan ilə ifadə edirlər. Yəni il həmin heyvan üstündə təhvil olur. Birinci yerdə siçan durur. Beləliklə, illər növbə ilə siçan, inək (sığır), pələng, dovşan (pişik), əjdaha (balıq), ilan, at, qoyun (keçi), meymun, toyuq (xoruz), it və donuz üstündə təhvil olur.

1996-cı il siçan ili olmuşdur. Ardıcıl olaraq 1997-ci il inək, 1998-ci il pələng ... ili adlanır. Şərq təqvimində rənglər və metallar da növbə ilə illərin adına əlavə edilir. Məsələn, göy dəmir at ili, ağ dəmir at ili və s.

Biz bu sətirləri yazarkən Qədim Çin təqvimi ilə yeni il bayramı qeyd olunurdu. Televiziya ilə bayram şənlikləri göstərilirdi. İl at üstündə təhvil olunurdu. 12 fevral 2002-ci ildir.

Ayrı-ayrı təqvimlərlə maraqlananlara Ramiz Əsgərin 1987-ci ildə Bakıda “İşıq” nəşriyyatında çap olunmuş “İqlimdən İqlimə, təqvimdən təqvimə” kitabını oxumağı məsləhət bilirik.

EPİLOQ

Rəsul əleyhissəlam zamanına yaqın Bayat boyundan Qorqut ata diyərlər bir ər qopdı...

KİTABİ – DƏDƏ QORQUD”DAN.

“- Oğul, buradakı dağların birində bir cüt bulaq var, adına “Qoşa bulaq” deyərlər. Yeddi ildən yeddi ilə cümə axşamı məşriq tərəfdən bir ulduz, məğrib tərəfdən də bir ulduz doğar. Bu ulduzlar gəlib göyün ortasında toqquşarlar...”

“KOROĞLU” dastanından.

SON

“SON“DAN SONRA

Zamanın özü mükəmməl təqvimdir.

2005-ci il mavi xoruz ili, 2006-cı il qırmızı it ili, 2007-ci il narıncı qaban ilidir.

* * *

HƏQİQƏTİN YALANI VƏ YA YALANIN HƏQİQƏTİ

Yalanın ən böyük qüvvəti yayılmasındadır.
NAZİM HİKMƏT.

İstədim həqəqət haqqında fikirləri bir sapa düzüb həqiqət işığında ona doyunca tamaşa etdim. Gördüm ki, yalan dənəcikləri də var. İstədim sözlərimə həqiqətdən bəzək vurum, lakin ağlın gözü ilə baxdıqda onlarda müəyyən yalan çalarları da müşahidə etdim. Doğru ilə yalanı tərəziyə qoymağa çalışdım. Gah bu, gah o ağır gəldi. Doğru arşını ilə yalanı ölçmək istədim. Gah uzun, gah da qısa gəldi. Doğru ilə yalanın sərhədini tapmağa cəhd etdim. Lakin onlar o qədər qaynayıb-qarışmışdı ki, ayırmaq mümkün olmadı. Yalanlar doğruya, doğrular yalana bənzəyirdi.

"Doğruya azacıq bənzəyən yalan,
Yaxşıdır yalana bənzər doğrudan..."
NİZAMİ GƏNCƏVİ.

Yalanlar doğru (həqiqət) güzgüsündə bəzənirdi. Doğru isə yalan libası geymişdi. Lakin bu libas ona çox dar gəlirdi. Yalan qrimlənərək doğruya bənzəməyə çalışsa da bacarmırdı. Doğru (həqiqət) isə yalnız özünə oxşayırdı. Ona qrim gərək deyildi...

Kəlam: "Ən təhlükəli yalan azacıq təhrif olunmuş həqiqətdir".

LİXTENBERQ.

Haşiyə: ...Ana ölüm cəzasına məhkum olunmuş oğlu ilə son görüşə gəlmişdir. Sabah hökm yerinə yetirilməlidir. Ana oğluna deyir:

- Mən padşahdan rica edərəm, o, səni əfv edər. O, çox ədalətli padşahdır.

Oğlu isə deyir:

- Ana, o, məni bağışlasa, mənə xəbər verərsən.

Ana deyir:

- Oğul, sabah edam meydançasında mənə fikir verərsən. Əgər şah səni əfv edərsə, mən başıma ağ şal, əfv etməzsə, qara şal bağlayacağam.

Ana analıq qüruruna sığınaraq şahdan oğluna aman diləmədi. Sabah edam mərasiminə gələn ana başına ağ şal bağlamışdı. O, oğlunun ümidlərinin itməməsi, ölümü mərdlikə qarşılaması və heç kimin qarşısında əyilərək yalvarmaması naminə yalana əl atmışdı. Oğlu son ana qədər əfv olunacağını güman etmişdi ...

"İnamı öldürmək adamı öldürməyə bərabərdir".

AZƏRBAYCAN ATALAR SÖZÜ.

Yalanın müsbət xüsusiyyətləri haqqında danışmaqla biz onu müsbət insani xüsusiyyət kimi təqdim etmək fikrində deyilik. Hər halda mən aldadanların deyil, aldananların tərəfində dayanmağı üstün sayardım. Necə deyərlər, "aldanmaq aldatmaqdan daha insani xüsusiyyətdir".

Haşiyə: "... Əsirlər qiyam qaldırmışdılar. Padşah onları cəzalandırmaq qərarına gəlir. Təbiidir ki, ən ağır cəza onların başçısına verilmlidir. Qiyamçıların başçısına son sözünü demək imkanı verilir. Təşkilatçı çox emosiyanal şəkildə danışır padşahın ünvanına təhqiramiz sözlər söyləyir, onu qaniçən, zalım və murdar adlandırır.

Padşah onun sözlərini başa düşmədiyi üçün üzünü tərcüməçiyə tutur. Tərcüməçi baş əyərək deyir:

- Qibleyi aləm, o, sizin ədalətinizə və səxavətliliyinizə ehtiram etdiyini bildirir. Bağışlanılmaz səhvə yol verdiyini söyləyir, günahlarını səmimi şəkildə etiraf edərək aman diləyir.

Padşah aman diləyənə cəza verməkdənsə, onu bağışlamağı üstün tutur. Lakin bu zaman vəzir baş əyərək deyir:

- Şah sağ olsun, tərcüməçi onun dediklərini düzgün tərcümə eləmir. Qiyamçı aman diləmir, əksinə sizi təhqir edir. O, ən ağır cəzaya layıqdir.

Padşah qəzəblə əlindəki qırmancı taxtına çırparaq qışqırır:

- Sus, mənim hökmüm daha amansız olacaqdır! Sən bu andan etibarən vəzifədən azad olunursan! Dilmancın söylədiyi yalan sənin dediyin həqiqətdən daha dəyərlidir və mənə daha çox xoş gəldi. Çünki o, bu yalanı ilə bir insan həyatının yarımçıq qırılmasının qarşısını almaq istəyir. Sən isə...”

Yalan yüz həqiqətə bənzəsə də yalandır. O hər an ifşa olunmaq təhlükəsi qarşısındadır. Yalan həqiqət donuna büründükdə əsl doğrudan da doğru görünür. İnamı sındırmayan yalan alqışa layiqdir. İnsana inam aşılayan yalan müqəddəs yalandır. Müqəddəs yalanı müqəddəs adamlar uydurarlar. Müqəddəs yalan sahibini müqəddəsləşdirir. Hər müqəddəs adam yalan danışmaz.

Yalanı həqiqətə bənzətmək üçün başqa bir yalan da uydurulmalıdır. Yalan yalandan doğar, daha doğrusu, yalandan yalan doğular.

Yalançı – yalan fabriki, yalan – yalançı məhsuludur.

Yalançı – yalan istehsal edən insandır. Yalan – daha çox qayğıya möhtac olan dil nemətidir.

Ayaq üstdə möhkəm dayanması üçün yalana hər tərəfdən yalandan dayaqlar vurulmalıdır. Yalançı diqqətli olmalıdır. Yalana hər dəfə bir don biçilərsə yalan tez ifşa olunar.

“Yalançının gözəl hafizəsi olmalıdır”.

Yalan hiylənin dillə ifadə olunan hissəsidir. Hiylə - yalanın bəzəkli variantı. Hiylə - yalanlar çələngi. Hiyləgər – yalanlar zərgəri, yalançılar sərkərdəsidir.

Fənd də yalandır. Fənd yalanın modabaz bacısıdır. Fənddə hiylə və yalan çalarları cəmləşmişdir. Fənd hiylədən yonulmuş yalan heykəlidir. Fənd elmi şəkildə qurulmuş yalandır. Fənd yalanlar toplusu, hiylələr məcmuəsidir.

Yalan – hiylələr kodeksi, fəndlər nəzəriyyəsidir. Yalan – həqiqətin daimi düşmənidir. Yalan – yalnız həqiqət alovundan qorxan saman tayasıdır.

Yalan – həqiqət tərəzisi, doğru meyarıdır. O olmasa həqiqətin əsl qiymətini təyin etmək olmazdı.

Yalana nifrət edilməli, danışılmamalıdır.

Poeziya başda-başa yalanlardan toxunmuş söz xalısıdır. Yalanı çox olduqca o daha gözəl görünür. Unutmaq olmaz ki, poeziyanı şairlər yaradır. Ən yaxşı poeziya yalanı çox olan poeziya, ən ustad şair yalanlardan daha çox və yerində istifadə edən şairdir.

Şeir – şair yalanı, şair yalanlar zərgəridir. Şair yalan sözə doğru məna verən söz allahıdır. Şer müqəddəs yalan, şair müqəddəs söz sərrafıdır.

EPİLOQ

Doğruya oxşar yalan, yalana oxşar doğrudan yaxşıdır.

"QABUSNAMƏ"dən.

SON

"SON"DAN SONRA

Mən də hərdən yalan danışıram, lakin özümü onun peşəkarı hesab etmirəm.

Dədə Qorqud hər bir gəncə göstərdiyi igidliyə görə ad verərdi. Ulu ozan ona "Yalançı", oğluna isə "Yalıncıq" adı vermişdi. Onu Yalançı oğlu Yalıncıq kimi tanıyırdılar...

* * *

QORXU, ŞÜBHƏ VƏ ... QISQANCLIQ ÜÇBUCAĞI

Ağrı sağlamlığın keşiyində durmuş köpəkdir.
QƏDİM YUNAN MƏSƏLİ.

Rəvayət: "Taun xəstəliyi səhrada bir səyyaha rast gəlir. Onlar xeyli söhbət edirlər. Səyyah taundan soruşur:

- Səfərin hayanadır?

- Bağdada, bu həftə orada beş min adam öldürməliyəm...- deyə taun cavab verir.

Bir həftədən sonra onlar yenidən görüşürlər. Səyyah tauna gileylənir:

- Bəs deyirdin Bağdadda beş min adam öldürəcəksən?! Sən ki orada əlli min adamın həyatına son qoydun...

Taun etiraz etdi:

- Mən Bağdadda cəmi beş nin adam qırdım, qalan qırx beş min adam isə qorxudan öldü..."

Öorxu qəlbin pası, ömrün mürgənəsidir.

Əziz oxucu, biz bu sözləri şübhənin zirvəsi (həm də ən kövrək zirvəsi!..) qısqanclıq haqqında da deməyə məcbur olacağıq. Bu halda bizi təkrarçılıqda təqsirləndirməyin.

Təkcə zəiflər deyil, güclülər də qorxu hissi keçirirlər. Bəzən güclülərin qorxusu daha güclü olur. Qarışqanın qarışqa, filin də fil qorxusu olar. Siçan aslan cildinə girsə də, pişiyi gördükdə qaçıb yuvasına girər.

Xoruz çalağanı gördükdə qaçıb gizlənir. Çünki çalağan onun gözünü hələ cücə ikən qorxuzmuşdur.

Alimlər müəyyən etmişlər ki, bəzi heyvanlar qəfəsdə təbii şəraitdə olduğundan çox yaşayırlar. Çünki qəfəsdə onları təbii düşmənləri izləmir. Onun qorxu qorxusu olmur.

Məşhur alim İbn Sina belə bir təcrübə aparır. O, canavar olan qəfəsin yanına iki qoyun bağlayır. Lakin onlardan biri hər

zaman canavarı görür, digəri isə görmür, tezliklə birinci qoyun qorxudan ölür.

Başqa bir rəvayət: ... Padşah bir nəfərə saxlamaq üçün qoyun verir və tapşırır ki, elə edərsən qoyunun çəkisi bir zərrə də olsa nə artsın, nə də azalsın. Həmin adam çox düşündükdən sonra müşkülün həlli yolunu tapır. O, qoyunu hər gün doyunca yedirdir, sonra isə ona canavar göstərir. Bu minvalla qoyunun çəkisi nə artmır, nə də azalmır.

Belə deyirlər ki, qoyun canavarı təkcə qırxılan zaman qırxılıq altında olarkən yadından çıxarır.

Ölüm qorxusu təbii varlıqların hamısı üçün bütün qorxuların zirvəsidir. Lakin insan cəmiyyətində ölümdən də üstün "qorxu növləri" vardır. Bunlar yalnız insanlara aid olan qorxulardır. Təhqir olunmaq, alçaldılmaq, əsir düşmək, atılmaq, tənha qalmaq və s. qorxular. Bir çox hallarda insan övladı ölməyə razı olur, lakin əsir düşmür...

Bu da bir faktdır: Həkimlərin dediyinə görə hamiləliyin süni surətdə pozulması (abort) əməliyyatı zamanı dölü götürməyə cəhd etdikdə döl uşaqlığın əks divarına doğru çəkilir...

Ey qorxu, sən insanlığı o, hələ dünyaya gəlməişdən təhdid edirsən!..

Heyvanlar da bəzən ölümə bir sıra təhlükələrə nisbətən daha asan "razı olurlar". Təhlükə hiss etdikdə əqrəb özünü sancıb öldürür. Xatırladırıq ki, əqrəbin zəhərli "dişi" onun quyruğunda yerləşir.

Epikür delə deyərdi: "Ölüm – ölüb gedən üçün deyil, sağ qalan üçün bədbəxtlikdir".

Ölüm vahiməsi bəzən ölümü sürətləndirir. Vahimə qorxular qorxusu. Qorxular şahı, nəhayət, qorxunun zəhərli nəfəsidir.

Haşiyə: ... Arı ilə ilan mübahisə edir. Hərə öz zəhərinin daha təsirli olduğunu sübut etməyə çalışır. Nəhayət, arı belə bir

şərt qoyur: “Gəl, zəhərimizin gücünü hər hansı bir canlı üzərində sınaqdan keçirək”.

Razılaşırlar. Gedirlər. Yol kənarında bir adama rast gəlirlər. Arı ilana deyir: “İşini gör. Çal qaçıb gizlən!”

İlan insanın ayağının açıq yerindən çalır və sürünərək otlar arasında gizlənir. Arı isə dərhal onun ayağı üstünə qonur və uçur. İnsana elə gəlir ki, onu arı sancıb. Ayağa duraraq yoluna davam edir.

Onlar başqa bir adamı zəmi kənarında görüb ona yaxınlaşırlar. Növbə arınındır. O, biçinçinin açıq ayağını sancır. Gözə görünmədən aradan çıxır. İlana deyir: “Get gör vəziyyət necədir?!”

İlan insana yaxınlaşır. İlanı görən insana elə gəlir ki, onu ilan sancmışdır. Vahiməsindən ölür.

Arı ilana deyir: “İndi gördünmü, kimin zəhəri daha güclüdür?!” İlan sürünərək otlar arasında gözdən itir ...

Cənab vahimə, sən adından da dəhşətlisən!..

İnam ümidir, ümid isə insanı yaşadan əsas amillərdəndir.

“İnamı öldürmək adamı öldürməyə bərabərdir”.

AZƏRBAYCAN ATALAR SÖZÜ.

Şübhə - həqiqətin neqativ təsviridir. O, ürəyin pası, qəlbin çirkidir ...

Ürəyin bir çirki də var. Bu, tamahdır. Tamah da müalicəsi asan başa gəlməyən qəlb mərəzidir.

Haşiyə: ... Bir nəfər vəfat etmiş xəzinədarın yerinə həmin vəzifəyə keçmək istəyir. Padşah ona deyir: “İnsanlarda ən pis xasiyyət nədir?..”

Həmin adam pis hesab etdiyi xasiyyətləri sadalayır: “Rüşvət, yalan, riyakarlıq, fırıldaq, ikiüzlülük...”

Şah razı qalmır və ona qırx gün möhlət verir.

Məmur xeyli dolaşır. Sonuncu gün bir müdrikin yanına gəlir. Dərdini ona söyləyir. Müdrik müdrikcəsinə gülümsəyərək deyir:

- Nə verərsən, insan üçün ən qəbahət hesab olunan xasiyyəti sənə deyim?!

Məmur:

- Sən Allah, bir bunun tamahına bax! Mən ölürəm, bu, məndən rüşvət istəyir ...

Müdrik qəhqəhə ilə gülərək deyir:

- Zarafat edirəm, kişi, get şahına de ki, dünyada ən pis şey tamahdır. Əgər tamahın olmasa, xəzinədar olmaq üçün bir sözə görə qırx gün diyar-diyar gəzməzdin ...

İnsanın insana inamı itdikdə şübhə cüvərir, özünə inamı itdikdə isə şübhə fidanı pöhrə verir. Şübhənin inama çevrilməsi üçün o, həqiqət adlı məhək daşından keçirilməlidir. Şübhə "bəlkə" adlı dayağa söykənir.

Şübhə şeytanın insan vücuduna saldığı bakteriya, insan vücudunda artıb-çoxalan virus cildli şeytandır. Hiylə olmasa şübhə olmazdı. Yalan olmasa şübhə yaşamazdı. Heç olmasa bircə dəfə kimi isə aldatmayan adam şübhə nə olduğunu bilməzdi.

Kimsə həqiqətdən şübhələnirsə, deməli o, nə zamansa aldadılmışdır. Kimsə yalandan şübhələnirsə, deməli, o, nə zamansa kimi isə aldatmışdır. Kimi isə, nə zamansa, haradasa aldatmayan şəxs nə üçün kimdənsə şübhələnsin?!.

Kimsə həqiqətdən şübhələnirsə, deməli o, həqiqətən, şübhələnir və ya kim həqiqətən şübhələnirsə, deməli, o, həqəqətdən də şübhələnir.

Ey insan övladı, ömründə heç kəsi aldatmamısansa niyə sənə elə gəlir ki, hamı səni aldadır?!

Şübhə - inama edilən paxıllıq, onu qəsdən kiçildən çökük linzadır.

Şübhə - iynə ulduzundan keçən inam adlı dəvə karvanıdır.

Şübhənin bir adaşı da vardır. Bu, qısqanclıqdır. Qısqanclıq – şübhənin əkiz qardaşı (və ya bacısı!..) onun məhəbbət cildinə girmiş özüdür. Qısqanclıq – məhəbbətin təbii düşmənidir.

Qısqanclıq – məhəbbətin qorxulu, lakin müalicə oluna bilən mərəzidir. Qısqanclıq – sevgi dünyasının şeytanı, məhəbbət aləminin zülmətidir.

Qısqanclıq – sevən ürəklərin paxırı, saf qəlbin üzərini örtən qalın pasdır.

Qısqanclıq – məhəbbət zəmisində bitən alaqdır.

Məhəbbət olmayan məkanda, zamanda, insanda qısqanclıq da olmaz. O, məhəbbətin təbii peykidir.

Qısqanclığın, yoxsa məhəbbətin daha qədim tarixə malik olduğunu təyin etmək bir qədər çətindir. Lakin bu zaman cənab məntiq köməyə yetişir. Əgər məhəbbət olmasaydı insan nəyə qısqanardı. Əgər insan qısqanırsa, deməli bundan qabaq ortada ikinci məhəbbət, daha doğrusu, üçüncü şəxs (və ya birinci və ikinci şəxs!..) varmış...

Yoxsa qısqanclıq məhəbbətdən doğub, bəlkə qısqanclıq məhəbbətin asi düşmüş balasıdır?!

Rəvayət: ... Belə deyirlər ki, bir zaman dünyanın Adəm və Həvva adlı yalnız iki vətəndaşı varmış. Bir gün Adəm deyir: "Əzizim, mən bir qədər gəzişib qayıdıram" Və o, (Adəm) bir azdan geri qayıdır. Həvva təşvişlə ona deyir:

- Nə üçün gec gəldin, kiminlə rastlaşdın?

Adəm gülümsəyərək cavab verir:

- Əzizim, dünyada bizdən başqa heç kim yoxdur, mən də heç kəslə rastlaşmamışam. Allah məni torpaqdan xəlq edib, səni isə mənin qabırğamdan düzəltmişdir.

Həvva bir qədər sakitləşsə də hər ehtimala qarşı yuxuya getdikdən sonra Adəmin qabırğalarını saymışdır..."

Adəm və Havva məhəbbəti dünyanın ən birinci "ilk məhəbbəti", Həvva qısqanclığı isə ilk qısqanclığı hesab oluna bilər. Daha doğrusu iki ilk məhəbbətdən bir ilk qısqanclıq törəmişdir. İlk məhəbbətin ünvanı kişi və qadın (Adəm və Həvva) qəlbi, ilk qısqanclığın ünvanı (oxu: vətəni) isə qadın (Həvva) qəlbidir.

Qısqanclığa qalib gələn ürək məhəbbət dünyasının məğrur vətəndaşıdır. Qısqanclıq da qorxudur, O, sevilməmək qorxusudur.

Qısqanclıq məhəbbət gülüstanında bitən tikanlı qanqal, məhəbbət isə qısqanclıq xarabalıqlarında boy atan zərif güldür.

Məhəbbəti qısqanclıqla edam etmək, qısqanclığı isə məhəbbətlə sağaltmaq, diriltmək və dəfn etmək olar.

Haşiyə: ... Rus çarı I Pyotr öz sevimlisi Mariya Hamiltonun yavər İvan Orlova olan gizli məhəbbətini aşkar edir.

Sorğu zamanı Mariya yavərə olan sonsiz məhəbbətini səmimiyyətlə etiraf edir. O, bu eşqindən nə işgəncələr zamanı, nə də ölüm kürsüsü olan eşafot önündə imtina etmir.

... Mariya bal məclisində Pyotrla ilk tanışlıq zamanı olduğu kimi ağ ipək paltar geymişdir. O, təmkinlə edam meydançasına qalxır. Pyotrun onu ilk dəfə rəqsə dəvət etdiyi anda olduğu kimi imperatora yüngülcə təzim edir. İmperator hər şeyi unudaraq ani hərəkətlə onu özünə tərəf çəkmək istəyir. Mariya nifrət dolu baxışlarla onu süzərək eşafota yaxınlaşır və başını kötük üzərinə qoyur. Cəllad öz işini icra edir. Gilyotin enir, baş bədəndən ayrılaraq səbətə düşür.

I Pyotrun qəlbində yenidən məhəbbət hissi baş qaldırır. O, Mariyanın vurulmuş başını meydana toplaşmış mərasim iştirakçılarının gözü qarşısında səbətdən götürüb onun dodaqlarından öpür. Və... başın həmişəlik olaraq xüsusi şüşə kamerada (kunskamerada) saxlanılması barədə çar sərəncamı verir...

Əziz oxucum, Bu, məhəbbətin hətta imperator fərmanından da yüksəkdə dayana bilməsi haqda kiçik bir xatırlamadır. Dünyanın ən nəhəng imperatorlarından biri olan I Pyotr da zorla, sərəncamla zərif qadın ürəyini fəth edə bilmir.

Sərəncamla fəth etmək, zəbt etmək, məhv etmək olar, lakin sevilmək olmaz. Bir çox hallarda sadə, adi, amma saf bir

məhəbbət güclü, nəhəng, lakin təmənnalı məhəbbətdən çox yüksək məqamda dayanır.

Əlahəzrət (Ülyahəzrət) məhəbbət, Əlahəzrət (Ülyahəzrət) şahdan da hökmlü olduğunu dəfələrlə sübut etmişdir.

Məhəbbət öz odlu nəfəsi ilə çox qısqanclıqları əridə bilsə də bəzən bir miskin qısqanclıq önündə çatlayır, ovulur, əriyir, məhv olur. Əlbəttə, bunu saf məhəbbət haqqında söyləmək ən azı ədalətsizlik olardı. Əsl məhəbbət Allah tərəfindən bəxş olunmuş ali bir hissdir. Bu hiss ibtidai canlılardan tutmuş ən ali məxluq olan insana qədər bəxş olunmuş ən qiymətli Allah vergisidir. Bu, həyatın həyat bağıdır. Həyatın mükəmməlliyi bu bağın möhkəmliyindən asılıdır...

Sözgəlişi: Qardaşım Nurunun anam Gülnaz xanımla mükaliməsindən:

- Ana, qağamın dirilməyinə razısanmı?
- Əlbəttə, raziyam!.
- Bəs onun dirilib, başqa qadınla evlənməsinə necə?...
- Yox, onda dirilməsin!...

Qorxu – şübhədir! Qorxu – qısqanclıqdır! Şübhə - qorxudur! Şübhə - qısqanclıqdır! Qısqanclıq – qorxudur! Qısqanclıq – şübhədir!

Qorxu, şübhə və qısqanclıq insanlığın təbii düşmənidir. Onalara qalib gələn insan insanlıq zirvəsinin fatehləridir.

Qorxu şübhənin ögey anası, doğma bacısıdır. Şübhə olmasa qorxu, qorxu olmasa şübhə olmaz.

Şübhə - mənəvi cəhətdən məhv olmaq qorxusu.

Qorxu – mənəviyyatın şübhə zülməti.

Qorxu və şübhə (həm də qısqanclıq...) insanın və insanlığın qorxulu və şübhəli mərəzidir. Qorxu və şübhə (həm də qısqanclıq...) insan acizliyinin avtoportretidir. Qorxu və şübhə və qısqanclıq böyüklüyün çürük postamentidir...

EPİLOQ

Ürəyə şübhə və inamsızlıq toxumu düşdümü, o, mitləq cücərib qol-budaq atacaqdır.

NİZAMÜLMÜLK.

SON

“SON“DAN SONRA

Şübhə toxumu yalnız ürəkdə cücərir, onun suyu və qidası qorxudur, qorxu şübhənin südü, qanı, əti və sümüyü, deməli özüdür.

* * *

YUXUNUZ ÇİN OLSUN

Oğuz bəyləri yeddi gün yatardı, ona
görə də yuxuya "kiçik ölüm" deyərdilər.
"KİTABİ – DƏDƏ QORQUD"dan.

İnsan yatır, yuxu görür. İnsan həmişə yatanda yuxu görmür. Bütün yuxular çin olmur. Yuxu adamların etiqad etdiyi psixoloji – fizioloji proseslərin bəlkə də ən birincisidir. Azərbaycan xalq dastanlarında yuxu çox zaman böyük hadisələrin başlanmasına təkan verir. Gənc bir oğlana və qıza yuxuda buta verilir. Onlar oyananda gərgin psixoloji hal keçirir, saz götürür, qismətlərinin ardınca uzaq səfərə yola düşürlər, başı çox bəlalar çəkir. Sonda arzularına çatırlar...

...Qurbani əmisinin verdiyi öküzləri götürüb zəmiyə gəlir. Öküzlər hərəsi bir tərəfə üz tutur. O, nə qədər çalışsa da öküzləri ram edə bilmir. Axırda onları açıb buraxır. Öküzlərin birini canavar yeyir, biri isə palçığa batıb ölür.

"Qurbani" dastanında deyilir:

"... Öküzləri açıb buraxdı. Özü də yıxılıb bir zağada yatdı. Qurbaninin göz evi örtülü, könül evi açıq idi. Onun yuxusuna Gəncə şəhərində Ziyad xanın qızı Pəri xanım girdi. Pəri xanımın əlini Qurbaninin əlinə verib onları bir-birinə buta elədilər. Bu iki aşiq-məşuq yuxuda görüşdülər, alışdılar, verişdilər..."

" İpək qarı gəldi Qurbaninin biləyini əlinə aldı, dedi:

- Hə, vəzni yerindədi, sevda vəznidir. Mirzalı xan, bunun sağ əli mənim əzizlərimin başına. İki gün daha yatar layməst, üçüncü gün qalxar, ya badəsindən söylər ya sevgisindən. Üçüncü gün olanda bunun başına qız-gəlin yığ. Qalxanda dərdini söyləyəcək.

Bəli, vaxt gəlib keçdi. Qurbani üçüncü gün ayılıb gördü ki, başına çoxlu qız-gəlin yığılıb, dedi:

- Ay dədə, xalxınkı buradadı. Bəs mənimki haradadı?

Mirzalı xan dedi:

- Oğul, ölmüsən, o dünyadan danış, sağsan, bu dünyadan, sənin**ki**, mənimki nədi?

Qurbani dedi:

- Dədə, bir başı limçə, bir başı çömçə olsa dərdimi sənə söyləyə bilərəm.

Mirzalı xan dedi:

- Oğul, bir başı limçə, bir başı çömçə nə deməkdir?

Qurbani dedi:

- Dədə, ona həm dəm, həm də qəm çömçəsi deyərlər. O, gahdan dəmə çalar, gahdan qəmə.

Bəli, gətirdilər, Qurbaniyə bir dənə saz verdilər. Qurbani sazı aldı əlinə, öpüb gözünün üstünə qoydu. Zilini zil, bəmini bəm eylədi, sinəsinə basıb aldı görək nə dedi:

Yatmışdım üstümə gəldi ərənlər,
Səfil, nə yatmısan, oyan, dedilər.
Oyandım qəflətən, açdım gözümü,
Al, abi-kövsərin iç, qan dedilər...”

Elm isə belə deyir: Beyinin, insan və ali heyvan orqanizminin xarici qıcıqlardan təcrid olunması və hərəkətlərin son dərəcə məhdudlaşması ilə xarakterizə olunan dövri fizioloji halına yuxu deyilir.

Haşiyə: ... İki çoban öz sürülərini qonşu yamaclara yaymışdı. Qoyunlar otlayır, çobanlar isə şirin-şirin söhbət edirdilər. Onlar ayrı-ayrı obaların çobanları olsalar da neçə illər idi ki, sürülərini yanaşı otarırdılar. Uzun illərdi ki, günorta yeməklərini də birlikdə yeyirdilər. Bu gün də süddən, körəməzdən yeyib söhbətləşmiş, tütək çalmışdılar. İndi də yapıncı üstündə uzanıb dincəlirdilər. Tütək isə südlə dolu kasanın üstünə qoyulmuşdu.

Güney obanın çobanı papağını üzünə qoyub mürgüləyirdi. Dostu isə qoyunları qaytarırdı. O, qayıtdıqda yatan çoban artıq oyanmışdı. Dostunun gəldiyini görüb dedi:

- İndicə bir qəribə yuxu görürdüm. Gördüm ki, bir ağ dərya üstündə qoyulmuş nazik körpüdən keçirəm. Tarazlığımı çətinliklə saxlayıram, dəryanın dibində qızıl xəzinəsi görünür. Elə istəyirdim ki, dəryaya baş vurum yuxudan ayıldım...

O, yuxusunu danışıb qoyunlarını qaytarmağa getdi. Güney obanın çobanı yerini rahatlayıb oturmaq istəyəndə süd dolu kasa və onun üstündə kürpü kimi qoyulmuş tütək gözünə sataşdı. Öz-özünə dedi: "Ey dili-qafil, bu ki ağ dərya və üstündəki körpüdür!.."

O kasanı kənara qoyub torpağı qazmağa başladı. Dostu geri qayıtdıqda artıq o, torpaqdan çıxardığı qızıl dolu sandığın qapağını açırdı.

Dostlar sərvəti qardaş malı kimi aralarında böldülər...

Biz burada yuxunun fizioloji əsası haqqında danışmamaqla oxucunu yormamaq məqsədi güdmüşük. Əslində yuxu barədə müxtəlif alimlərin çox müxtəlif fikirləri vardır. Daha doqrusu yuxunun fizioloji əsası və psixoloji mənşəyi haqqında fikirlər haçalanır, bir çox hallarda bir-birinə zidd xarakter alır.

"Kitabi- Dədə Qorqud"dan (müasir mətn) bir epizodla yuxu haqqında söhbətə nərdivan qoyuruq. Özü ovda olarkən kafirlər Qazan xanın yurduna basqın edirlər, talayıb geri qayıdırlar.

"... Sən demə, xanım, o gecə Qalın Oğuzun dayağı, Bayandır xanın kürəkəni, Ulaş oğlu Salur Qazan yuxuda qarmaqarışıq əhvalat gördü, hövlnak ayağa durdu. Dedi: "Qardaşım Qaragünə, bilirsənmi yuxumda nə göründü? Qara qayğılı əhvalatlar gördüm. Gördüm ki, yumruğumda bir şahin çırpınıb quşumu əlimdən alır. Hündür evimin üzərinə göydən ildırım çaxdığını gördüm. Qatı, qara dumanın düşərgəmin üstünü bürüdüyünü gördüm. Quduz qurdların evimi dəldiyini gördüm. Qara dəvənin ənsəmdən qapdığını gördüm. Gördüm ki, qara saçım qarğı kimi uzanır, uzandıqca gözümü örtür. Əllərimdə on barmağımı qan içində gördüm. Bu yuxumu

görəndən bəri ağlımı-huşumu yığa bilmirəm. Xan qardaşım, mənim yuxumu yoz mənimçin!..”

Qaragünə dedi: “Qara bulud sənin taleyindir. Qar ilə yağmur dediyin sənin qoşunundur. Saç qayğıdır, dərdi-sərdir. Qan-qanqaralıqdır. Qalanını yoza bilmirəm, Allah yozsun”.

Bu, Salur Qazan yuxusudur. Qazanın yuxusu çin olmaya bilməz.

Kəlam: “Qğuzlara nə gəlsə yuxuda gələr”.

Rəvayət: ... Şah dəniz gəzintisinə çıxmaq ərəfəsindədir. Hər şey dəqiqliklə yerinə yetirilmişdir. Hamı səfərə hazır vəziyyətdədir. Gəmi səhər tezdən dənizə çıxacaqdır. Liman bayramsayağı bəzədilmişdir.

Səfərin başlanmasına bir saat qalmış saray gözətçilərindən biri şahla görüşmək istədiyini bildirdi. Şah ayaqüstü onu qəbul etdi. Gözətçi dedi:

- Şah sağ olsun, bu səfəri təxirə salsanız yaxşı olar...

Şah maraq dolu baxışlarla onu süzərək soruşdu:

- Nə üçün, xeyir ola?!

- Şah sağ olsun, bu gecə yuxuda gördüm ki, gəminiz dəryada qəzaya uğrayaraq batmış, səndən başqa hamı həlak olmuşdur.

Şah səfəri təxirə salmır. Gəmi çal-çağırla yola düşür. Şah xəstələndiyini söyləyərək sarayda qalır. Axşamüstü dənizdə fırtına qopur. Başqa gəmilər kimi şahın gəmisi də sulara qərq olur...

Şah taxta çıxaraq ölkədə matəm elan edir. Təcili olaraq gözətçini çağırtdırır. Onun verdiyi məlumatla ətrafdakıları tanış edir. Hamı gözətçiyə qiymətli ənam veriləcəyini düşünür. Bu, belə də olur. Şah ona qiymətli hədiyyələr bağışlayır. Lakin sonra gözətçiyə ağır cəza verilməsi haqqında fərnan verir.

Hamı, hətta cəllad da təəccüb qalır. Bu necə olur? Yuxu çin olub. Əgər xəbərdarlıq olmasa şah həlak olardı. Yaxşılığın əvəzi budurmu?!

Sual: Şah nə üçün gözətçini cəzalandırdı?

Cavab: Gözətçinin yuxusu çin olsa da, o, öz vəzifə borcunu unudaraq keşikdə yatmışdır. Əgər o yatmasa, yuxu da görməzdi...

Məşhur rus alimi Mixail Vasilyeviç Lomonosov xaricdə təhsil alarkən atasının balıqçı gəmisində digər balıqçılarla birlikdə qəzaya uğrayaraq Ağ dənizdə uzaq bir adaya düşdüyünü görür.

Vətənə qayıtdıqdan sonra ona atasının hələ altı ay bundan əvvəl dənizdə həlak olması xəbərini verirlər. Lomonosov həmyerlilərinin əhatəsində gəmi ilə yuxuda gördüyü adaya gedir və orada qəzaya uğramış balıqçıların cəsədlərini tapır.

Daha bir rus alimi Dimitri İvanoviç Mendeleyevin kimyəvi elementlərin dövri sistemi cədvəlini və dövri qanunu yuxuda kəşf etməsi barədə hətta elmi kitablarda da məlumat verilir.

Deyirlər ki, Aleksandr Sergeyeviç Qriboyedov "Ağıldan bəla" əsərinin süjetini yuxuda görmüşdür. Aleksandr Sergeyeviç Puşkin isə bir sıra şerlərini yuxuda yazarmış.

Kəlam: "Yuxuların ən dəhşətlisi qəflət yuxusudur".

Haşiyə: ... Makedoniyalı İsgəndərin İran şahı Daranı məğlub etməsinin əsas səbəbi o idi ki, onun vəziri gizlində İsgəndərlə əlbir idi. Dara öldürüldükdən sonra İsgəndər demişdir: "Əmirin qəfləti, vəzirin xəyanəti şahlığı məhv edər".

Alimlər yuxunun fizioloji mexanizmini, onun bioloji mahiyyətini, maddi əsasını öyrənməklə məşğul olduğu zaman da insanlar, həmçinin digər canlılar yatır və hətta yuxu da görürlər.

Qatarla uçan durnalar növbə ilə yatırlar. Bu zaman onlar sanki yuxuda uçurlar. Bioloqlar deyirlər: "Delfinlər heç zaman yatmır". Əsl həqiqətdə isə delfinlər yatır. Belə ki, onların beyninin bir hissəsi yatdıqda, digər hissəsi oyaq qalır. Daha doğrusu, delfinlərdə beyinin sağ və sol yarımkürələrinin növbə

ilə yatdığı güman olunur. Bu hadisə növbə ilə təkrarlanır. Buna görə də delfinlərin bir gözü həmişə yumulu olur.

Bir çox heyvanlar, o cümlədən kirpilər, ayılar, ilanlar və başqaları uzunmüddətli qış yuxusuna gedirlər. Bəzi səhra heyvanları isə hətta yay yuxusuna gedir və beləliklə günəşin yandırıcı şüalarından qorunurlar.

İnsanın yuxusu isə daha sehrli bir aləmdir. Daha doğrusu, elə əsl yuxu insana məxsusdur. İnsan çox zaman oyaq olduqda nail ola bilmədiyinə yuxuda nail olur.

Rəvayət: ... Məşhur yunan alimi Sokrat bir gecə yuxuda görür ki, dizləri arasında bir qu quşunun balasını tutubdur. Lakin quş birdən-birə qıy vurub qanad çalaraq uçub gedir. Ertəsi gün o, Platona rast gəlir. Deyir ki, hə, yuxuda gördüyüm qu quşunu aşkarda gördüm.

Platon iyirmi yaşından Sokratın şagirdi olur və heç zaman ondan ayrılmır...

Yuxu haqqında fikirlərimizi elə yuxu haqqında fikirlərlə tamamlamağı lazım bilirik. Amma yuxu haqqında fikirlər deyəsən yenə də yarımçıq qalır...

Yuxu – ruhun cismi yuxuya verib asimanda qanad açması anıdır...

Yuxu – cismin boş yuvaya, ruhun quşa çevrildiyi məqamdır...

Yuxu – ruhun öz qalaktikasının hüdudlarını aşması anıdır...

Yuxu – ölümdən sonrakı həyat, həyətarası ölümdür...

Yuxu – ölümün xırda heykəli, cənnətin (və ya cəhənnəmin) karikaturasıdır...

Yuxu – insanın mələyə çevrilmək fürsəti, mələklərin insan cildinə girmək imkanıdır...

Yuxu – insansız ruh, ruhsuz insandır...

Yuxu – sərhədsiz aləm, aləmsiz sərhəddir...

Yuxu – həqiqət ilə xəyalın eyni məna kəsb etdiyi mühitdir...

Yuxu – arzunun zühur edən xəyalı, arzu donuna bürünmüş xəyaldır...

Yuxu – qaranlıq dünyanın ağ qoçu, insan ruhunu cənnətdə gəzdirən zümrüd quşu, insanın öz orbitində və orbitindən kənarda dövrəsi, ölçüsüz fəza, fəzasız ölçü, kütləsiz çəki, çəkisiz kütlə, şüursuz materiya, materiyasız şüurdur...

Yuxu – hissiz duyğu, duyğusuz hissdir...

Yuxu – duyğu ilə hissin eyni məna kəsb etməsi anıdır...

Yuxu – zamansız məkan, məkansız zaman, məkanın zamana, zamanın məkana döndüyü məqamdır...

Yuxu – məqamın, zamanın, məkanın, insanın, imkanın eyni məna ifadə etdiyi bir aləmdir... Bu aləmin özü və sakini insan ruhu, insan cismi, insan özüdür...

Haşiyə: ...Qardaşım Nuru bir bilik müsabiqəsindən mənə telefonla sual verdi: "Yuxu hansı rəngdə olur? Ağ-qara, yoxsa rəngli?"

Mənim cavabım: "Hər adam rəngli yuxu görə bilməz..."

Bu kitabın redaktəsinə yaxından yardımçı olmuş həmkarım Xalidə xanım Aşurova isə bu sətirləri oxuduqdan sonra belə söylədi: "Mən həmişə yuxu haqqında söhbət gedəndə düşünürəm: "Allah xeyirli yuxuları çin eləsin!" Çünki yuxularım, əsasən, çindir..."

EPİLOQ

Yuxu prosesində insanlara bilik aşılanması hipnopediya adlanır...

SON

"SON"DAN SONRA

Laylay – yuxu himni, yuxu laylay pöhrəsi...

* * *

KƏPƏNƏK VƏ YANILTMAC, YAXUD AYAQ VƏ DİL

Uşağın ayağını kəpənək, dilini isə yanıltmac açar.
AZƏRBAYCAN ATALAR SÖZÜ.

Kəpənəklər buğumayaqlılar tipinin həşərat sinfinin pulcuqqanadlılar dəstəsinin nümayəndələridir. Kəpənək həşəratın yetkin fərdidir. O, yumurta qoyur, yumurta qurdabənzər sürfəyə (tırtıla), sürfə pupa (baramaya), pup isə kəpənəyə çevrilir.

Kəpənəklər Yer üzərində ən yüksək iybilmə qabiliyyətinə malik olan canlılardan biridir. Onlar bir-birini görmədən qoxusuna görə bir neçə kilometr məsafədən belə tapa bilirlər. Əsl həqiqətdə isə onların burnu yoxdur. Bu işi kəpənəklər bığları vasitəsilə həyata keçirirlər. Bığ özü isə saysız-hesabsız mikroskopik ölçülü tükcüklərdən təşkil olunmuşdur.

Kəpənəyin dili də olmur. Onun "dili" yəni dadbilmə orqanı ayağında yerləşir. Daha doğrusu, ya orta, ya da arxa ayaq qidanın dadını təyin edir. Onların dadbilmə orqanı ("dili") insan dilindən 200 dəfə həssasdır.

Kəpənəklərin bir çox özünəməxsus möcüzələri haqqında söhbəti burada müvəqqəti olaraq yarımçıq qoyub uşaqlıq çağlarımıza kiçicik bir ekskurs (sıyahət) edək.

Dəcəl bir uşaq çətinliklə kəpənək ardınca saatlarla qaçar, qaçar, təsadüfi hallarda onu tutardı. Lakin ovcunda əzik-üzük bir kütlə, bir az da toz qalardı. Kəpənəyi olduğu kimi tutmaq üsullarını öyrəndikdə isə artıq onu tutmağa meyl azalardı.

Tapmaca: Qanadı var quş deyil, buynuzu var qoç deyil.

Açması: Kəpənək.

Kəpənək uçar, uşaqlar onu qovardılar. O gah itər, gah tapılar, gah da ələ keçərdi. Sanki uşaq kəpənəyi deyil, kəpənək uşağı qovardı. Elm sübüt edir ki, kəpənəklər çox sürətli heyvanlardır.

Onların bəzi növləri gün ərzində 1.200 kilometr məsafə qət edə bilirlər. Bu onların ölçülərindən minlərlə dəfə çoxdur. (İti gedən təyyarə ilə müqayisə edin...)

Uşaqların onu tutmağa nə qədər qoçaqlıq göstərdiyini özünüz təsəvvür edin. Ozan dili yüyrək olar. Uşaq kəpənək tuta-tuta yüyrək olar. Ey kəpənək, sən necə də xeyirxahsan...

Hər yerin özünəməxsus kəpənəkləri vardır. Onlar bir-birindən qanadlarının üstündəki rənglərə görə fərqlənirlər. Bu rənglər həmin yerin təbii şəraitinə uyğun olaraq dəyişir. Lakin köçəri quşlar kimi köçəri kəpənəklər də vardır.

"Avara kəpənək" dünyanın bu başından o başına miqrasiya edir. Bunun sirri alimlərə də bəlli deyil. Onlar təcrübə məqsədi ilə kəpənəklərin qanadına xüsusi rəng vurur və ya nazik kağız yapışdırırlar.(Alimlər bu məqsədlə quşların ayaqlarına həlqə keçirirlər...) yaxud kəpənəyin qanadını kağızdeşənlə deşir və həmin deşiyə onun ölçüsündə parıltılı lövhə keçirirlər. Sonra müşahidələr başlayır...

Bəzi kəpənəklər tək-tək, bəziləri isə bulud kimi kütləvi şəkildə miqrasiya edirlər. Hind okeanında kəpənək dəstəsinin bir gəmini sulara qərq etdiyi söylənilir.

Kəpənəklər öz ölçülərinə görə də bir-birindən fərqlənirlər. Avstraliyada və Yeni Zelandiyada yaşayan *Titanolabis kollosus* kəpənəyinin qanadlarının uzunluğu 25 sm-ə qədər olur. Yerli əhali onu ox yaxud qırma və qum doldurulmuş güllə ilə ovlayır.

Bilirsinizmi: ... Dünyada səksən min növdən çox kəpənək yaşayır. Güvə (sus) da kəpənəkdir. O, gün ərzində 400 dəfədən çox böyüyür.

Ümumiyyətlə, kəpənəklər çox qarınqulu həşəratdır. Bir kəpənəyin yay ərzində verdiyi nəslin kütləsi 250 kiliqram olur. Belə ailə bir ildə 2-3 inək qədər ot yeyir.

Bütün hallarda onlar yediyi qidanın dadını ayağında yerləşən "dili" vasitəsilə duyurlar.

Dil təkcə dadbilmə orqanı deyil. İnsan dili vasitəsilə ünsiyyət yaradır. “Uşağın dilini yanıltmac açar”.

“Ağ balqabaq, boz balqabaq, boz balqabaq, ağ balqabaq”.

Yanıltmac elə söz oyunudur ki, dil bu oyunda büdrəməyə bilmir. Yanıltmac meydanında büdrəməyən dil heç zaman büdrəməz.

Yanıltmac – dilin qıl körpüsü, nitqin dolanbac cığırı...

Yanıltmac – dilin sınaq çərçivəsi, söz bataqlığıdır...

Yanıltmac – dilin ayaqyalın gəzdiyi odlu söz sacı, dilə yapışmış söz közüdür...

Bir dəstə uşaq bir kəpənəyin ardınca yüyürür. Onlar gah yıxılır, gah durur, gah da qaçırlar. Onlar oxuya-oxuya qaçır, qaça-qaça oxuyurlar: “Kəklik, kəpənək, gəlin gedək, kol dibinə gəlin gəlibdir”.

Uşaqların arasında bir körpə uşaq da vardır. Uşaqlardan dala qalsa da o yüyürməyə çalışır. Nə isə deyir. Ayaqları və dili hələ möhkəmlənməyib. Lakin yüyürür, yüyürür kəpənək ardınca. O danışır, danışır özünün dilində... yüyürdükcə ayaqları möhkəmlənir, danışdıqca dili...

Tərif: Sözdə bir samitin bir neçə dəfə təkrarı alliterasiya adlanır.

Topa
Tutdu
Təpik
Topy.
Topa
Tutdu
Təpik
Topu.
Təpiklədi
Topu
Top.
Təpik

Yaman
Təntitmişdi,-
Tanımadı
Topu
Top.
Təpiklənib
Tor qururdu,
Top
Topa.
Təpiklənib
Toplar ilə
Topalaşdı,-
Topa düşdü
Top
Tora!..

Ayaqlar yüyrək, dillər sözlü olsun!..

EPİLOQ

Dil nə qədər açıq, sadə olsa bir o qədər gözəl, göyçək və məqbul olar.

FİRUDİN BƏY KÖÇƏRLİ.

SON

"SON"DAN SONRA

Boz atın boz torbasını boş as başından, apar islat, gətir, yaş as başından.

* * *

PROQNOZ
(və ya sabah, sabah bu gün olacaq ...)

Biz gələcəyi ona görə görə bilirik ki,
nəhənglərin çiyinləri üzərinə çıxmışıq.
İSAAK NYUTON.

İnsanlar daim gələcəkdə nələr baş verəcəyini bilmək arzusunda olmuşlar. Gələcək nə vaxt gələcək, gələcək nə ilə gələcək? – bu, insan oğlunu ən çox düşündürən suallardır.

Rəvayət: ... Bir uşaq dəmirçixanaya gəlib dəmirçiyə dedi:

- Dayı, anam deyir ki, bir-iki köz versin, ocaq qalayacağam.

Dəmirçi uşağı diqqətlə süzüb dedi:

- Bala, niyə əliboş gəlibsən? Get, manqaldan, xəkəndazdan, maşadan bir şey gətir, gəl apar.

Uşaq əyilərək yerdən bir ovuc torpaq götürüb əlini dəmirçiyə tərəf uzatdı və dedi:

- Dayı közü bura qoy, nə xəkəndaza nə də manqala ehtiyac yoxdur...

Dəmirçi közü maşa ilə götürüb uşağın ovcundakı torpağın üstünə qoydu. Uşaq evə tərəf qaçdı. Usta onun bacarığına və fərasətinə heyrətini gizlətməyərək ətrafdakılara dedi:

- Bu uşağın gələcəyi parlaq olacaq!..

Əziz oxucu, həmin uşaq məşhur Azərbaycan filosofu Bəhmənyar imiş...

Bəhmənyar böyük Şərq alimi İbn Sinanın diqqətini cəlb etmiş və İbn Sina onu özünə şagird götürmüşdür.

Qısa tanışlıq: Bəhmənyar ibn Mərzban Əbülhəsən ? – 1066-cı illərdə yaşamış məşhur Azərbaycan filosofudur. O, fəlsəfə tariximizə Şərq peripatetizminin nümayəndəsi kimi daxil olmuşdur. “Təhsil kitabı”, “Məntiqə dair zinət kitabı”, “Gözəllik və səadət kitabı”, “Metafizika elminin mövzusuna

dair traktat", "Mövcudatın mərtəbələri" və s. elmi əsərlərin müəllifidir.

Proqnoz – keçmişin sirli gələcəyi, gələcəyin aşkarlanmış keçmişi...

Proqnoz – həqiqətin ehtimalı, ehtimalın həqiqəti...

Proqnoz – fikir quşunun gələcək xırmanında dənlənmə məqamı, həqiqət dəninin ağıl zəmisindəki cücərtiləridir...

Proqnoz – aqil dilinin ölçülü-biçili söz donu, nadan dilinin ağır çəkili söz zirehidir...

Proqnoz – ariflər, müdriklər, aqillər, alimlər, kamillər bəzəyi, onların uzaqgörənlik meyarı...

Proqnoz – gələcəyə tutulmuş güzgü...

Adamlar gələcəyi görmək üçün cürbəcür üsullar axtarışında olmuşlar. Onlar tarixin gərdişini izləmiş, bir sıra hadisələrin baş vermə qanunauyğunluqlarını öyrənməklə yeni hadisələrin baş vermə anını qabaqcadan söyləmişlər. İnsan oğlunun qabaqcadan bilməyə can atdığı hadisələrdən biri, bəlkə də birincisi hava haqqında məlumatdır. Gələn il, gələn ay, gələn həftə, sabah dünyada və bizim həyatımızda nələr baş verəcəkdir?

Sual sadə, cavab isə çox müəmmalıdır...

Azərbaycan xalq meteorologiyasından bir neçə nümunə:

... Siçovullar yayda çoxlu yem tədarük edirlərsə, qış sərt keçəcək. Ümumiyyətlə, gəmiricilər havanın dəyişiləcəyini 3-4 ay əvvəldən bilirlər.

... Hörümçək öz torunun ortasında tərpənməz dayandıqda havanın yağışlı olacağına, tor toxumağa başladıqda isə xoş və aydın olacağına işarədir.

... Yağışdan qabaq qarışqalar öz yuvasının ağzını işgüzarlıqla bağlayırlar.

... Qaranquşların alçaqdan uçması havanın rütubətli, yəni yağışlı, hündürdən uçması isə aydın olacağına işarədir.

... Arılar pətək içərisindən çıxmayıb orada vızıldayırlarsa yağış yağacağı gözlənir.

... Uzunqulaqların (eşşəklərin) tez-tez anqırması tezliklə güclü külək əsəcəyini göstərir. Atların kişnəməsi isə tutqun hava olacağına işarədir.

... Gecələr cırcıramalar oxuyursa sabah hava aydın və isti olacaqdır.

... Küləyin əsməsindən bir qədər əvvəl xırdabuynuzlu heyvanlar (qoyunlar, keçilər) kəllələşirlər.

... Havanın necə olacağını təkcə pişik saxlamaqla da bilmək olar. Belə ki, pişiyin ayağını yalaması aydın, bərk yatması isti, üzünü gizlətməsi və soba yaxınlığında, onun altında yatması soyuq hava olacağını bildirir. Küləkdən əvvəl isə pişik döşəməni cırmaqlayır...

Tarixdə ilk dəfə hava haqqında məlumatı əvvəlcədən xəbər verən Qədim Yunan filosofu Aristotel olmuşdur. O, geniş sahəli müşahidələrinə, zəngin həyat təcrübələrinə, dərin biliyinə və kəskin intuisiyasına əsaslanaraq havanın dəyişəcəyini öncədən söyləyə bilmişdir. Alimin müşahidə üsulları bir yerə toplanılaraq xalq sinoptikasının əsasını təşkil etmişdir.

Aristotelin, xalq sinoptiklərinin və öz müşahidələrinin məhsulu kimi bizim eranın on doqquzuncu əsrində alman alimi Vilhelm Dayv özünün hava haqqında proqnoz nəzəriyyəsini irəli sürmüşdür. Onun nəzəriyyəsinin əsasını Yer kürəsinin müxtəlif regionlarından qarşı-qarşıya hərəkət edən hava və ya su cərəyanlarının bir-birinə qarşılıqlı təsiri mexanizmi təşkil edirdi.

Elə həmin əsrdə ingilis admiralı Fits-Roy proqnozun ilk elmi nəzəriyyəsini irəli sürmüşdür. O öz nəzəriyyəsinə və müşahidələrinə əsaslanaraq havanın dəyişəcəyini öncədən söyləyə bilirdi. Lakin onun proqnozu bəzən düz alınmırdı. Ona görə də Böyük Britaniyada onu dələduzluqda ittiham edirdilər.

Bu ittihamlardan bezən vitse-admiral 1865-ci ildə özünü öldürmüşdür. Ölümündən sonra ayrılmış xüsusi dövlət komissiyası onun nəzəriyyəsinin doğruluğunu təsdiq etdi və fəaliyyətinə yüksək qiymət verdi...

Xırda tanışlıq: Robert Fits-Roy 1805-ci ildə Böyük Britaniyanın Soffolk qraflığında anadan olmuş, hidroqraf və meteoroloq alim və vitse-admiraldır. O, 1831-1836-cı illərdə "Biql" tədqiqat gəmisində Çarlz Darvinin təbiət ekspedisiyasına başçılıq etmişdir. Bu səyahət zamanı o, Cənubi Amerika akvatoriyasının, o cümlədən Pataqoniya, Odlu Torpaq, Magellan boğazı regionlarının xəritəsini çəkmişdir...

Məşhur fransız təbiətçisi Jan Anri-Fabr uzun illər həşəratın həyat və davranışlarını müşahidə edərək çox maraqlı faktlar toplamışdır. Bir dəfə o, yerli camaatdan eşidir ki, sabah hava yaxşı olacaq. Lakin sinoptiklər yağış "vəd" etmişdilər. Sabah doğrudan da hava çox gözəl oldu...

Proqnoz – yunanca "proqnosis" sözündən götürülmüşdür. Qabaqgörənlik və ya əvvəlcədən xəbər vermə mənasını ifadə edir. Bu söz sırf elmi məna kəsb etsə də bir çox hallarda adi hadisələrin öncədən gümanı zamanı da işlədilir.

Proqnoz – alın yazısının oxunmasına edilmiş cəhd... (alın yazısı-taleh şifrəsi.)

Proqnoz – taleh zərinin xallarının əvvəlcədən hesablanması...

Proqnoz – ömür yolunun təxmini cızılmış marşrutu...

Haşiyə: ...Bizim eradan əvvəl 70-ci illərdə Midiyada at tövləsində peyin təmizləyən, hamının təhqirlərinə dözməyə məcbur olan fars mənşəli bir nökər yaşayırdı. Yeddi il idi ki, onun işi belindəki səbətlə peyin daşımaqdan ibarət idi. O hətta at qaşovlayana da həsəd aparırdı.

Bir gün iş yoldaşları adətləri üzrə ona lağ edən zaman yol ilə keçən bir nurani kişi onlara dedi:

- Tezliklə o, Midiya çarı olacaqdır!..

Əziz oxucum, söhbət Midiya şahı Kirdən gedir. Bu söhbətdən təxminən yeddi il sonra Kir (Keyxosrov) Astiaqa qarşı qiyam qaldırdı. Astiaqın ən inanılmış sərkərdəsi Qarpaq da Kirin tərəfinə keçdi. Və ... Kir Midiya şahının qızıl tacını özünün başına qoydu.

Bu, o Kirdir ki, Tomiris onun kəsilmiş başını qan ilə dolu tuluğa qoyub Araz çayına ataraq demişdir: "Gözün sağ ikən qandan doymadı, indi doyunca iç!.."

Nurani qoca qədim Şərqin dastan, nağıl, rəvayət, əfsanə və əsatirləri üçün xarakterik obrazdır. Nurani proqnozu həmişə doğru çıxmışdır. Nurani qocalar Allahın yerdəki oxşarlarıdır. Allah nurani qoca cildində insanlar arsında vaxtaşırı zühur edir.

Azərbaycan xalq nağıllarında darda qalan qəhrəmana ilahi tərəfindən göndərilmiş bir qoca köməyə gəlir. Bu qoca az söz deyən, mənalı danışan nurabənzər bir simaya malik olur.

Dədə Qorqud xalq ağsaqqalı, müdriki, aqili, arifidir. Dədə Qorqud Azərbaycanın simvoludur. Dədə Qorqud keçmişin bu günü, bu günün gələcəyi, gələcəyin keçmişidir. Dədə Qorqud həmişə gələcəkdədir. Dədə Qorqud nəsihəti həyat yolunun ustalıqla çəkilmiş xəritəsidir.

Gələcəyi görmək üçün keçmişə yaxşı-yaxşı baxmaq onu görmək və duymaq lazımdır. Gələcəyi görmək üçün keçmişin zirvəsinə, bu günün yamacına çıxıb diqqətlə seyr etmək kifayətdir. Ətrafımız dünənin məhsulu, bu günün meyvəsi, sabahın cücərtiləri ilə doludur. Bu cücərtilərin taleyi keçmişin məhsulundan və bu günün meyvəsindən asılıdır. Daha doğrusu, elə onlardan asılıdır.

İnsanların taledən gələn xəbərləri bilmək üçün kəşf etdikləri elmlərdən biri də "Xiromantiya" adlanır. Xiromantiya – əllərin içində olan xətlərə əsasən talehin əvvəlcədən təyin olunması haqda elmdir. Bu elmin tədqiqat obyekti insanın əlləri, dırnaqları, əllərin dərisidir.

Xiromant insan taleyini əllərin quruluşuna, ölçüsünə, dırnaqlara, əlin dərisinə, onun rənginə, onların üzərindəki xətlərə görə müəyyən etməyə çalışır.

İnsan, gələcəyi görən adamlar – görücülər vasitəsi ilə gələcəkdə baş verə biləcək hadisələri bu gün görmək arzusunda olmuşdur. Bu isə yalnız peyğəmbərlərə xas olan xüsusiyyətdir.

Bizim eranın XVI əsrində dünyaya gəlmiş bir uşaq sonralar məşhur həkim, filosof, şair məqamına yetişmişdir. Bu peyğəmbərlik zirvəsinə yüksəlmiş Mişel Nostradamusdur.

O, 1529-cu ildən 3797-ci ilədək – onun dediyi kimi, dünyanın sonunadək dünyada baş verəcək ən mühüm əlamətdar hadisələr barədə dəqiqliklə məlumatlar vermişdir. Onun proqnozlarından xeyli hissəsi bu günədək özünü doğrultmuşdur.

Belə deyirlər ki, Nostradamus gənclik illərində fars və Misir müdriklərinin kitablarını, həmçinin Bibliyanı yaxşı-yaxşı mənimsəmişdir. O, Misir kahinlərinin kitablarını oxmuş, əzbərləmiş, sonra da yandırmışdır. Nostradamus özünün uzaqgörənliklərini 1555-ci ildə *"Centuries"* ("Yüzilliklər") və ya "Peyğəmbərliklər" adlı kitabında çap etdirmişdir. O, Napoleon işğallarını, onun məğlubiyyətini, Avstriya, İtaliya, Fransa inqilablarını, birinci, ikinci, hətta... üçüncü!.. dünya müharibələrinin başlanma tarixlərini, Yer kürəsində baş verəcək bir sıra fəlakətləri, Günəşin və Ayın tutulmalarını əvvəlcədən xəbər vermişdir.

Kiçik tanışlıq: Mişel Nostradamus XVI əsrdə, daha doğrusu, 14 dekabr 1503-cü ildə İtaliyanın San-Remi şəhərində polyak mənşəli yəhudi ailəsində anadan olmuşdur. O, 1566-cı ildə 63 yaşında vəfat etmişdir.

Nostradamus davamçıları çox olmasa da olmuşdur. Vanqa, Pençeva, Tofiq Dadaşov... və başqaları. Onlar görücü, baxıcı, ekstrasens və s. adlarla tanınmışlar.

Nostradamus – astroloqlar lideri, münəccimlər sərkərdəsi, proqnoz zərgəri, ən uzaqgörən görücüdür...

Münəccim – ulduzlar tərcüməçisi...

Münəccim – proqnoz xiridarı, nücum fəhləsi...

Astronomiya – göy cisimləri haqqında elm.

Astrologiya – planetlərin fəzadakı vəziyyətinə əsasən insanların taleyi haqqında qabaqcadan xəbər verən elmdir.

Qədim Şərqdə astrologiya bir elm kimi yüksək dəyərləndirilmişdir. Astroloq (münəccim) ulduzların gərdişinə əsasən cəmiyyətdə baş vermişləri, verənləri öyrənib baş vercəklər haqqında fikir söyləyən müdriklərdir. Onların uzaqgörənlikləri ulduzların hərəkətinə əsaslanmışdır.

Astroloq – şahlar müsahibi, padşahlar dayəsi... Münəccim – alimlər alimi, aqillər aqili, ariflər arifi, kamillər kamili ... hesab olunardı... O, kəhkəşanı oxuya bilən oxucudur. O, ulduz dilinin tərcüməçisidir...

Bir Şərq kəlamı: "Şahların ən ağıllısı müdriklərlə oturub-düran, müdriklərin ən axmağı isə şahlarla oturub-durandır".

Lakin bir danılmaz həqiqətdir ki, müdrikin müdrik olması və yaşaması üçün zamanda, məkanda, məqamdan əlavə imkan da lazımdır. Müdriklər imkan adlanan dolanışıq vasitəsini çox zaman şahın, (şahların) kölgəsində tapmışlar. Bir çox şahların, bir çox alimlərin müdriklik məqamını maddi şəkildə təmin etdikləri danılmaz həqiqətdir.

Əziz oxucum, söhbətin bu yerində Şərq müdriklərinin söylədikləri bir hikməti yada salırıq: "Beş şey insan üçün sirrdir: qiyamət nə vaxt olar, yağış nə vaxt yağar, hamilə qadının oğlan və ya qız doğacağı, sabah nə kəsb edəcəyi, nə vaxt öləcəyi".

Artıq bunlar sirlik ömrünü başa vurmuş sirlərdir (hikmətlərdir). İndi insan övladı qiyamət gününün, yağışın yağma vaxtını, övladın hansı cinsdən olacağını müxtəlif cihazların köməyi ilə çox dəqiq müəyyən edə bilir.

"Əql və elm ilə insan bütün dünyanı təsrif edə bilər".

HƏSƏN BƏY ZƏRDABİ.

Təsrif - ərəb sözü olub "istədiyi kimi dəyişmək" mənasını ifadə edir.

Klassik alman fəlsəfəsinin banisi İmmanuil Kantın təbirincə isə "Təbiət qanunlarının öyrənilməsi elm adlanır"

Mənəviyyat abidəmiz olan Qurani Kərimdən bir ayənin (81.1-14) tərcüməsini verməklə Məhəmməd peyğəmbərin hələ VII əsrdə ruhla maddi varlıq, zamanla məkan, insanla Allah münasibətləri fonunda gələcək haqqında verdiyi xəbərdarlıq xatırlanır:

"Günəş sıxılıb yığılanda, ulduzlar səpələnib töküləndə, dağlar hərəkətə gələndə, boğaz dəvələr başlı-başına qalanda, heyvanlar toplanıb cəm olanda, dənizlər aşıb-daşanda, ruhlar birləşəndə, diri-diri basdırılmış qız uşağının nə qünah üzündən öldürüldüyü soruşulanda, kitabələr açılanda, göylər aralananda, cənnət isə yaxın olanda, ruh biləcəkdir ki, o, nə işlərin sahibi olmuşdur". (Tərcümə Aida İmanquliyevaya məxsusdur.)

Dünyanın yaradılışı və qiyamət gününün təsviri haqqında dini kitablarda kifayət qədər xəbərdarlıq təsvir edilmişdir.

İnsan daim təbiətin bəxş ediyi faciələrin baş verməsi anını əvvəlcədən bilməyə cəhd etmiş və etməkdədir.

Müasir elektron cihaclarının köməkliyi ilə bir çox hadisələrin baş vermə zamanını, məkanını, məqamını təyin etmək mümkündür. Lakin unutmaq olmaz ki, baş verəcək hadisələr haqqında təbiət özü bizi xəbərdar edir. Bunun üçün təbiəti müşahidə etmək və müşahidələrdən düzgün nəticə çıxrmağı bacarmaq lazımdır.

Belə deyirlər ki, zəlzələni quşlar, balıqlar, sürünənlər, həşərat və digər canlılar bir bir neçə saat, hətta bir neçə gün əvvəl duyurlar. Dəniz səyahətləri zamanı havanın dəyişiləcəyi barədə məlumatların çox mühüm əhəmiyyəti vardır. Klassik

dənizçilər belə hallarda cihazlardan (məsələn, şturmqlass və s.) çox akvariumda saxladıqları balıqlara inanmışlar.

Elə əlamətdar hadisələr vardır ki, onların baş verməsi haqqında dini kitablarda xəbər verilir. Peyğəmbərimizin zühur edəcəyi isə yəhudilərin dini kitabı "Tövrat"da və xristianların müqəddəs kitabı "İncil"də bir neçə yüz il əvvəldən bildirilmişdir. "Quran" isə öz mükəmmlliyi ilə daha əhəmiyyətlidir.

Haşiyə: "... Məhəmmədin on iki yaşı olanda o öz əmisinə qoşulub karvanla Dəməşqə səyahətə yollandı. Karvan Bəsrə adlı yerdə yolüstü dayandı, əbu Talib öz adamları ilə nəsrani kafinlərinə məxsus kilsəyə getdi.

Kahinlərdən Boheyra adlı birisi diqqət edib gördü ki, göydəki bulud parçası Məhəmmədin başı üstündə fırlanıb onu günəşin yandırıcı şüalarından qoruyur. Bu qeyri-adi hadisə Boheyranı maraqlandırdı. Ağlına gələn fikri yoxlamaq üçün ağacın altında oturmuş Məhəmmədə yaxınlaşanda Boheyra daha da heyrətləndi. Ağac ehtiramını bildirirmiş kimi aşağı əyilmişdi! Kahin lap yaxın gəlib diqqətlə uşağın üzünün cizglərinə baxdı.

Məhəmmədi əməlli-başlı müayinədən keçirən Boheyra onun iki kürəyi arasında göyərçin yumurtası boyda bir xal aşkar elədi. "Bu, Ərəbistanda gözlənilən peyğəmbərdi"- öz-özünə dedi. Sonra üzünü Əbu Talibə çevirib soruşdu: "Bu uşaq kimdir?" "Mənim oğlumdur" – Əbu Talib cavab verdi. "Ola bilməz", - Boheyra başını buladı.

"Bu mənim qardaşım oğludur. Onun atası vəfat eləyib"- Əbu Talib əhvalatı Boheyraya danışdı.

"Özüdür ki var" – kahin söylədi: - Bu, İsanın dediyi peyğəmbərdir. Bir bax, bu xal peyğəmbərlik əlamətidir. Uşaqdan muğayat olun, onu xata-baladan qoruyun..."""

(BİLGİZ ƏLƏDDİN. "Məhəmməd peyğəmbərin hekayəti")

Təbiət gizlənməyi sevir, təbiət göstərməyi sevir, təbiət aşkarlamağı və aşkarlanmağı sevir. Lakin təbiətin göstərdiyi səmtə baxmaq, təbiətin göstərdiklərini görə bilmək lazımdır.

"Bu dünya bir ağaca bənzər, biz bu ağacın yarı kal, yarı yetişmiş meyvələri kimiyik".

CƏLALƏDDİN RUMİ.

İnsan dünyasız mövcud ola bilmədiyi kimi, dünya da insansız boş və mənasız cisim olardı. Dünyada bioloji varlıq kimi yalnız bir növ insan yaşayır. Bu, Dərrakəli insan *(Homo sapiens)* adlanır. Bir sıra alimlər isə gələcəyin insanını *"Homo futurus"* adlandırmaqla özlərindən asılı olmayaraq sabah haqqında, gələcək haqqında, insanlıq haqqında proqnoz verirlər...

Tərif: Proqnoz verilməsi, hazırlanması, onun nəticələrinin təhlili nəzəriyyələri haqqında elm proqnostika adlanır.

Sözgəlişi: 29 mart 2006-cı il tarixdə Yer kürəsinin bir sıra regionlarında XXI əsrdə ilk dəfə Günəşin tam tutulması müşahidə olundu. Bu, hadisənin olacağını astronomlar xeyli əvvəl xəbər vermişdi...

EPİLOQ

Bu gün dünən dünən, sabah isə sabahdır. Dünən isə bu gün sabah idi...

SON

"SON"DAN SONRA

Biz dünənin sabahında, sabahın dünənində yaşayırıq...

* * *

SƏNƏT VƏ ELM VƏ YA SƏNƏTKAR VƏ ALİM

Elm yüksək səviyyəyə çatanda sənətə,
sənət yüksək səviyyəyə çatanda elmə çevrilir.
XUDU MƏMMƏDOV.

Əziz oxucum, sənəti elm, elmi sənət səviyyəsinə yüksəldən çox sənətkarlar və alimlər olmuşdur. Lakin sənət bütün sənətkarları alim, elm də bütün alimləri sənətkar edə bilmir. Sənətkar da olmaq asandır, alim də olmaq asandır. Lakin alim-sənətkar və sənətkar-alim olmaq üçün elmi və sənəti (və ya sənəti və elmi) yüksək səviyyədə tətbiq etməyi bacarmaq lazımdır. Daha doğrusu həmin məqama yetişmək üçün elmi sənət, sənəti isə elm şəklində təqdim edə bilmək imkanına malik olmaq vacibdir.

"Alim olmaq asandır, adam olmaq çətin" – kəlamını atalar sənətkarlar haqqında gözünə bir qədər yumor qataraq "Sənətkar yalançı olar" – kəlamı kimi işlətmişlər.

Haşiyə: "Sənətkarın ayağı yalın olar".

"Sənətkar günortaya qədər ac qalar".

ATALAR SÖZÜ.

Qədim dünyanın yeddi möcüzəsinin hər biri elmin sənət, sənətin elm zirvəsinin məhsuludur. Kim deyə bilər ki, Misir piramidaları təkcə elm və ya təkcə sənət əsəridir? Piramidalar sənətkar və alim əməyindən və əməlindən yoğrulmuş hələ də sirrə bükülü qalan yüksək səviyyəli elm və sənət əsəridir. İnsan əməli sadəlik içində alilik, zərrə içində ümman yaratmağa qadirdir.

Misir piramidalarının (oxu: Misirin piramidalarının...) sirrini çox alimlər və çox sənətkarlar açmağa cəhd etmiş, lakin güman səddindən o yana keçə bilməmişlər. Çünki piramidalar alim-sənətkar və sənətkar-alim beyninin maddi təzahür məhsuludur.

Piramidalarda bütün elmlərin və bütün sənətlərin sirləri gizlənmişdir. Bu sirrləri açmaq üçün isə zaman bütün elmləri alim, bütün sənətləri sənətkar səviyyəsində mənimsəmiş alim-sənətkar və sənətkar-alim yetişdirməlidir.

Rəvayət: ... Makedoniyalı İsgəndər Babil şəhərini zəbt etdikdən sonra ona heyran olmuş və şəhəri öz dövlətinin paytaxtına çevirmək qərarına gəlmişdir. Bizin eradan əvvəl 323-cü ildə böyük sərkərdə Babilə dönərək buradan yeni yürüşə başlamaq fikrində imiş. Lakin bu zaman ağır xəstələnir. İsgəndər xəstə yatağını "Semiramidanın asma bağları"na köçürməyi əmr edir. Və ... o, burada vəfat eləyir.

Qeyd: Qədim dünyanın yeddi möcüzəsindən biri olan "Babil şəhərinin asma bağları" tarixin yaddaşında "Semiramidanın asma bağları" adı ilə düşmüş sənət əsəridir. Bağlar bizim eradan əvvəl altıncı əsrdə Assuriya şahı Sanheribin oğlu Assarhaddon tərəfindən salınmışdır.

Bilirsinizmi? Dahi Nizami Gəncəvi öz dövründə öz dövrünün tanınmış həkimlərindən biri olmuşdur. Bunu Azərbaycan yazışısı Oktay Salamzadə özünün "Əsrlərin sirri" trilogiyasında əsl sənətkarlıqla qələmə almışdır. Əsəri oxumaqla Nizami əsrinə səfər edər, Nizami dünyasının bir sıra qaranlıq məqamlarına işıq tutarsan. "Əsrlərin sirri" sənə əsrlərin sirrini açar.

Nizami şairdir, filosofdur, mütəfəkkirdir, həkimdir, şeyxdir. Lakin Nizami tarixin yaddaşında şair Nizami Gəncəvi kimi qalmışdır. Bununla belə şair Nizami özünün yaradıcılığında alim, həkim, filosof, mütəfəkkir möhürləri vurmuşdur. Belə bir "Xəmsə"ni yalnız Nizami kimi alim təbiətli sənətkar, sənətkar təbiətli alim yarada bilərdi. Nizami alim təbiətli sənətkar, sənətkar təbiətli alimdir.

Bu arada sevimli şairimiz Süleyman Rüstəmin sevimli şairimiz Bəxtiyar Vahabzadə haqqında dediyi beyt yaddaşa qonur:

"... Qatlayıb dizinin altına alar,
Alim Bəxtiyarı şair Bəxtiyar..."

Əzizlərim, burada söhbət akedemik, şair Bəxtiyar Vahabzadədən gedir. Nədənsə, həmişə Bəxtiyar Vahabzadənin adı çəkiləndə yadıma Xudu Məmmədov və həkim Nurəddin Rzayev düşür. Bəlkə də bu, onların artıq əfsanəyə çevrilmiş dostluğu ilə əlaqədardır...

Xudu Məmmədov da elmi sənət, sənəti də elm zirvələrinə daşıyan alimdir. O, kristalloqrafiyanı elə səviyyədə təqdim edir ki, onun elm və ya sənət olduğunu təyin etmək xeyli çətinləşir.

Bəzən adama elə gəlir ki, Nurəddin Rzayev həkim deyil sənətşünasdır.

Haşiyə: ... Xudu Məmməıdovun dəfnində Nurəddin Rzayevlə Bəxtiyar Vahabzadə qucaqlaşıb ağlaşırlar. Bu zaman Nurəddin həkim deyir: "Vay axıra qalanın halına..."

Sənəti kimin təqdim etməyinin əhəmiyyəti yoxdur. Təki o, sənətkar olsun. Elm isə alim tərəfindən təqdim olunsa, daha inandırıcı olar.

Rəvayət: ... Bir nəfər şahın yanına gəlib həyəcanlı halda deyir:

- Şah sağ olsun, sənətkarlar məhəlləsində bir dülgər balta ilə az qala məni öldürəcəkdi. Azca kənara çəkilməsəydim...

O bunu deyib üzünü şaha göstərdi. Onun bir üzündə saqqal tamam qırxılmışdı.

Şah dedi:

- Bu necə baş verdi?

Zərərçəkən:

- Əlindəki baltanı başıma endirdi. Mən kənara çəkilməyə də macal tapmadım. Balta üzümə sürtünüb keçdi – deyə kövrəldi.

Şahı maraq bürüdü. O, əmr etdi:

- Təcili olaraq dülgəri yanıma gətirin!

Bir azdan dülgər əlində balta şahın hüzurunda idi. Şah onu diqqətlə süzüb dedi:

- Bu kişini öldürmək istəmisən. O, ölümdən möcüzə nəticəsində yaxa qurtarıb. Səni cəza gözləyir.

Dülgər təzim edərək dedi:

- Şah sağ olsun, təşvişə düşməyə əsas yoxdur. Mən sadəcə olaraq onun saqqalını qırxmaq istəyirdim və bunu da etdim.

Şah maraqla soruşdu:

- Bu necə oldu?

Dülgər bir daha təzim edərək sözə başladı:

- Şah sağ olsun, bu şəxs işlədiyim yerə gəldi, mənimlə şit zarafatlar elədi. Mən çox vacib bir sifarişi yerinə yetirirdim. Balta ilə taxtanı yonurdum. Xahiş elədim ki, mane olmasın. O isə başa düşmək istəmədi. Yenə şitlik elədi. Mən balta ilə onun üzünü qırxdım və ...

Şah onun sözünü kəsdi:

- İnandırıcı deyil. Sən bunu təkrar edə bilərsənmi?

- Bəli! – deyə dülgər cavab verdi. Və... qəflətən baltanı şikayətçinin başına endirdi. O, heç qımıldanmağa da macal tapmadı. Artıq onun o biri üzü də qırxılmışdı.

Şah dülgərin bu hərəkətinə heyran qaldı və onu mükafatlandırdı...

Bu sənətkar əməli idi. Bu, sənətkar idi. Lakin sənəti sənət səviyyəsindən yüksəyə qaldıra bilən sənətkar deyildi.

Yenə bir rəvayət: ... Bir alim xəstələnmişdi. Həkim ona dərman olaraq sarı qarpız buyurmuşdu. Alim bazara gəlir və topadakı qarpızları bir-bir kəsib istədiyini axtarır. Bu zaman qarpızsatan onun qolundan tutaraq qəzəblə kənara çəkir və deyir:

- Sən nə cürətlə mənim qarpızlarımı zay edirsən?! Tez ol haqqını ödə!

Alim təmkinlə cavab verir:

- Mənə dərman üçün sarı qarpız lazımdır. Haqqını da ödəyəcəyəm, narahat olma...

Qarpızsatan təəccüblə:

- Bunun üçün məgər bütün qarpızları kəsmək lazımdır? – deyə sual etdi.

Alim də öz növbəsində suala sualla cavab verdi:

- Kəsməmiş nə bilmək olar ki, qarpız qırmızıdır, yoxsa sarı?..

Satıcı əlini atıb tığdan bir qarpız götürdü və alıcıya verdi. O, qarpızı kəsdi. Gözlərinə inanmadı. Bu ki sarı qarpızdır. Bir dilim kəsib yedi. Sonra maraqla:

- Birini də verə bilərsənmi? – deyə satıcıya üz tutdu.

Satıcı bir qarpız da verdi. Kəsdilər. Sarı idi. Birini də kəsdilər. Möcüzə, bu da sarı idi.

Nəhayət, alim bütün sarı qarpızları seçməyi tapşırdı. Satıcı da buna əməl elədi. Alim dedi:

- Sən kimsən, nə sənətin sahibisən? Səndən yaxşı alim olar...

- Mən bostançı babayam! – deyə satıcı cavab verdi.

Alim təəssüflə dedi:

- Yaxşı başın var, heyf ki, qarpıza sərf etmisən...

Bu isə səriştəsiz alıcı və səriştəli satıcı dialoqu fonunda naşı alim və sənətkar bostançı təqdimatı idi. Başın başlar cərgəsində durması üçün məkan, zaman, imkan lazımdır. Bu zəncirin bir həlqəsi çatmayanda insan layiq olduğu məqama yetişə bilməz.

Qədim yunan filosofu Diogen ən dəyərli fikirlərini dünyaya çəllək içərisindən püskürmüşdür. Qz dövründə o, adi səfil kimi tanınırdı. Dünya onu dahi kimi qəbul edəndə isə artıq o, həyatda yox idi. O, zaman və məkan çərçivəsindən çıxdıqdan sonra alimlik məqamına yetişdi.

Abderli Demokrit ömrünün sonlarında günəş şüasını güzgü ilə gözünə salaraq özünü kor edir və ... deyir: ”Şərəfsiz adamların varlanaraq necə şan-şöhrətə çatdığını görməmək üçün özümü kor edirəm”.

Qədim dünyanın, ümumiyyətlə, dünyanın bir çox dahiləri, o cümlədən Platon (Aristokl), Aristotel, Fales, Konfutsi, Nəsirəddin Tusi, İbn Sina, Bəhmənyar, Əcəmi, Nəsimi və

başqaları elmi sənət, sənəti elm məqamına yetirən alimlər, sənətkarlar (alim-sənətkarlar) idilər.

Qonşuları böyük rus alimi Dimitri İvanoviç Mendeleyevi kimyaçı kimi deyil çamadan düzəldən usta kimi tanıyırmışlar. Bir dəfə alim dostları onu öz ünvanında axtaranda qonşular demişlər:

- Dimitri İvanoviç adlı alim tanımırıq. Burada bir Dimka dayı yaşayır, o da çamadan düzəldən ustadır...

Əzizlərim, yəqin ki, heç bir alim belə sadə yaşamaq istəməsə də bu sadəliyə həsəd aparar.

Səməd Vurğun sadəliyi artıq rəvayətə çevrilib. Səməd Vurğun da sənəti elm, elmi sənət zirvəsinə qaldıran şəxsiyyətlərdən biridir.

Haşiyə: ... Xaricdən Azərbaycana məşhur bir alim gəlir. Qonağı qarşılamağı Xudu Məmmədova həvalə edirlər. Xudu Məmmədov qonağı yüksək qonaqpərvərlikə qarşılayır, onun çamadanını götürür, qayğı göstərir, bələdçilik edərək onu mehmanxanada yerləşdirir. Dincəlmək üçün hər cür şərait yaradır. Sonda sabah kiminlə görüşəcəyini soruşur. Qonaq deyir:

- Mən ölkənizə dünya şöhrətli professor, akademiyanın müxbir üzvü Xudu Məmədovla görüşmək üçün gəlmişəm.

Xudu müəllim özünə məxsus təbəssümlə özünü təqdim edir:

- Xudu mənəm!..

Qonağın nə hal keçirdiyini professor Nurəddin Rzayev efirdə kövrəklik və yüksək fəxarət hissi ilə təsvir edir...

Rəvayət: ... Tibb elminin atası Hippokratla Demokrit ilk dəfə tanış olurlar. Demokrit Hippokratın gətirdiyi südə baxaraq qara inəyin südü olduğunu söyləmişdir...

“Dövlətlilərin çoxu sərvətlərinin sahibi deyil, qarovulçularıdır...” – bu sözlər də Abderli Demokritə məxsusdur.

Haşiyə: ...Orta əsr müəlliflərinin yazdıqlarına görə məşhur Azərbaycan musiqişünüsı Səfiəddin Urməvi həm də mahir udçalan olmuşdur. Bir dəfə qırx gün susuz qalmış dəvəni bulağa buraxmışlar. Bu zaman Səfiəddin bulaq başında ud çalırmış. Dodağını suya toxundurmaq istəyən dəvə udun səsini eşidib başını qaldırır və musiqiyə qulaq asır. Urməvi musiqini dayandırır. Dəvə yenidən su içməyə əyilir. Musiqi yenidən səslənir. Dəvə yenə başını qaldırıb dinləyir. Ustad yenə ifanı dayandırır. Dəvə suya əyilərkən o, yenidən çalmağa başlayır.

Dəvə üçüncü dəfə başını sudan qaldırır. Bu zaman onun gözlərindən aramsız olaraq yaş azmağa başlayır...

Qısa tnışlıq: Səfiəddin Əbdülmömin ibn Yusif ibn Faxir Əl-Urməvi 1230-cu ildə Azərbaycanın Urmiyə şəhərində dünyaya gəlmişdir. O, məşhur Azərbaycan musiqişünası, musiqi ifaçısı, bəstəkarı və xəttatı olmuşdur.

Urmiyə və Bağdad (Müstənsiriyyə) mədrəsələrini bitirmişdir. Abbasi xəlifəsi Əl-Müstəsimin kitabxanasında işləmiş, onun nədimi (həmsöhbəti) olmuşdur. “Musiqi dövrləri haqqında kitab”, “Musiqi nəzəriyyəsinə dair kitab”, “Risaleyi Şərəfiyyə”, “Əruz, qafiyələr və üslubiyyat” əsərlərinin müəllifidir.

Bütün Şərq və şifahi ənənələrə malik Azərbaycan professional musiqisinin əsasını təşkil edən səs komplekslərinin sistemləşdirilməsi sahəsində xidmətləri olmuşdur.

1294-cü ildə müamiləçilərin şikayəti ilə həbs edilmiş və 64 yaşında Bağdad həbsxanasında vəfat etmişdir.

Son haşiyə: ... Alim səfər zamanı bir çobanla rastlaşır. Çobam ona sual edir:

- Elmin başı nədir? (qohumum, müdrik insan Tağı müəllim bu sualı verməyi xoşlayardı...)

Alim bu suala cavab verə bilmir. Çoban ona yeddi il qoyun otartdıqdan sonra sualın cavabının səbir olduğunu deyir.

Alim səfərdən geri dönür. Gecə imiş. O öz evinə daxil olur. Evdə arvadı ilə bir otaqda yatan gənci görüb qəzəblənir. Qəlbini qısqanclıq hissi bürüyür. Onları öldürmək istəyir. Birdən çobanın verdiyi dərs yadına düşür. Səbr edir. Sonra məlum olur ki, bu, onun yeddi il bundan əvvəlki yeddi yaşlı oğludur...

Bu isə alimə çoban dərsidir...

EPİLOQ

Kəndimizin axundu mərhum molla Cabbar deyərdi: "Səbir ağacı acı olsa da, meyvələri şirindir".

Üzeyir Hacıbəyov musiqinin elm və sənət zirvəsini fəth etmişdir...

SON

"SON"DAN SONRA

Xudu Məmmədov "Naxışların yaddaşı"nı yazmaqla naxışların yaddaşında əbədi yaşamaq məqamına yetişdi.

Mən, Xudu Məmmədovun vaxtilə yaşadığı evə vurulmuş xatirə lövhəsinə baxmaqdan doymuram...

* * *

AĞIL, BACARIQ, TALE...

1. Hər bir müvəffəqiyyətli iş ağıl sayəsində olur.
ABBASQULU AĞA BAKIXANOV.

2. Bacariq hər şeyi həll etməsə də çox şeyə qadirdir.

3. Tale, insanın getməli olduğu həyat yoludur.

4. Din – mənalı yaşamaq üçün Allah məsləhəti...

Tarixi həqiqət: ... Səlcuq sultanı Mahmudun vəziri Əbu Hamid əs-Sümeyrəmi bazardan qul alırdı. O vaxtkı qaydalara görə otuz doqquz qul alana bir qul hədiyyə verilirdi. Bu sonuncu qul çox zəif görünürdü. Sümeyrəmi ilə qulsatan arasında mübahisə düşdü. Sümeyrəmi daha sağlam qul tələb edirdi. Qulsatan isə qulun sağlam olduğuna onu inandırmağa cəhd edirdi: "O, yolda yatıb qalsa da iki gündən sonra piyada gəlib karvana yetişdi" – deyə and içirdi. (Əslində qul çöldə otlayan bir qaçağan dəvənin quyruğundan tutaraq karvana çatmışdı.)

Sümeyrəmi həmin qulu aldı. Bir neçə ildən sonra 1122-ci ildə vəzir Həmədan şəhərində süi-qəsdçilər tərəfindən öldürüldü. Onun bütün var-dövləti, o cümlədən qul və qaravaşları Sultan Mahmudun tabeliyinə verildi. Qırxıncı qul da qullar arasında idi. O, bacarığı, ağlı və qabiliyyəti ilə bütün qullardan fərqlənirdi. Bir azdan sonra o, sultan mətbəxinin başçısı təyin olundu və burada da öz bacarığı ilə hətta Sultanın da diqqətini cəlb elədi.

1132-ci ildə Sultan Mahmud vəfat etdi. Yeni dövlət başçısı Sultan II Toğrul bacarığını nəzərə alaraq həmin qulu özünün məmlükləri sırasına keçirdi və bütün məmlüklər kimi ona da torpaq sahəsi ayırdı, vəzifə verdi.

O daha yüksək vəzifələrə seçilməkdə davam edirdi. Tezliklə Sultanın və onun həyat yoldaşı, həmçinin yaxın məsləhətçisi Möminə xatunun rəğbət və hörmətini qazandı. Əmir rütbəsi aldı və Sultanın oğlu Arslanın atabəyi (tərbiyəçisi) təyin edildi.

1135-ci ildə Sultan II Toğrul da vəfat elədi. Hakimiyyətə Sultan Məsud gəldi. O, keçmiş qulu, II Toğrulun dul qadını Möminə xatunla evləndirdi. Və Arran adlanan Şimali Azərbaycanı ona bəxş elədi.

Bu qul Azərbaycan Atabəylər Dövlətinin banisi Şəmsəddin Eldəgəz idi. Dövlətə çox zaman Eldəgəzlər Dövləti də deyirlər

Əziz oxucum, Atabəy Şəmsəddin Eldəgəzin həyatının özəllikləri, onun dövlət xadimi kimi faliyyəti ilə Azərbaycan tarixinin şərəfli səhifələri yazılmışdır. Mən bu sətirləri yazarkən Azərbaycan Atabəylər Dövləti haqqında olan biliklərimi bir daha çözələməyə çalışdım.

Görkəmli yazıçımız Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanında bədii boyalarla, tanınmış şərqşünas, tarixçi alimimiz akademik Ziya Bünyadovun "Azərbaycan Atabəylət Dövləti" monoqrafiyasında elmi dildə banisinin Şəmsəddin Eldəgəz olan dövlətin yaranmasına və fəaliyyətinə güzgü tutulur.

Sabirəddin müəllim İsmayılovdan aldığım bilgi: "... Şəmsəddin Eldəgəz Dərbənd bazarından alınmış Hun mənşəli qul olmuşdur..."

Tale – hökmən həyata keçməli olan alın yazısı, alın yazısı isə tale şifrəsidir.

Xatırlama: Azərbaycan Atabəylər Dövləti əlahəzrət tarixin səhifələrinə Eldəgəzlər Dövləti kimi düşmüşdür...

Bacarıq – qabiliyyətlərin tətbiqi anı...

Bacarıq – insanın öz qabiliyyətlərini öz məkanında, öz məqamında nümayiş etdirmək imkanı, sübut etmək xüsusiyyətidir...

Bacarıq – insanın öz kölgəsinə çoxlarını toplaya bilməsi qabiliyyəti...

Bacarıq – insanı insandan fərqləndirən ilahi vergi...

Atabəy Şəmsəddin Eldəgəz taleyi hələ eramızdan altı əsr əvvəl bir yunan balasına da bəxş olunmuşdur. Bu gənc də qul bazarında satılırmış. Bir dövlətli şəxs öz xanımı ilə qul seçmək üçün bazara təşrif buyurmuşdu. Dəllallar onlara həmin qulu almağı təklif etdilər. Qulun görkəmi onları tərəddüd etməyə məcbur eləyir. Xanımı: “ İlahi bu necə eybəcərdir, gəl buradan gedək” – deyə ərinin qolundan dartaraq aparmağa çalışır, bunu görən qul çox təmkinlə deyir:

- Xanım, alın məni. Nəyəsə gərək olaram. Heç nəyə yaramasam da məni göstərərək dəcəl uşaqlarınızı qorxudarsınız...

Bu sözlər və qulun ağıllı baxışları onlarda kövrək hisslər yaradır və ... onlar qulu alırlar. (Şəmsəddin Eldəgəzdən fərqli olaraq həmin qula başqalarına nisbətən daha baha qiymət qoyulmuşdu. Səbəb kimi onun çıxılmaz vəziyyətlərdə bir yol tapmaq bacarığı göstərilirdi.)

Qul evə gətirilir. O, ilk gündən bacarığı ilə hamının rəğbətini qazanır. Get-gedə ailə üzvünə çevrilir.

... Bir dəfə qonaqlıq zamanı ondan məclisə ən şirin şey gətirməyi tələb edirlər. O, bir azdan süfrəyə bişirilmiş dil gətirir. Ondan ən acı şey tələb etdikdə o yenə də süfrəyə dildən hazırlanmış xörək gətirmişdir...

Diqqətli oxucular yəqin ki, söhbətin Qədim Dünyanın nəhəng simalarından biri, Qədim Yunan filosofu Ezopdan getdiyini elə ilk cümlədən hiss etdilər.

Xırda tanışlıq: Ezop – bizim eradan əvvəl altıncı əsrdə Qədim Yunanıstanda yaşamış xalq müdrikidir. O, dünyada təmsilin banisidir. Bir çox təmsil yazanlar öz yaradıcılığında Ezopdan iqtibaslar gətirmişlər.

Ədəbiyyatşünaslar lakonik, satiralı, yumorlu, kinayəli, sarkazmlı danışıq üslubunu Ezop dili adlandırırlar.

Ezop - sarkazm zərgəri, sarkazm Ezop nemətidir...

Sarkazm – tündlüyü artırılmış yumor, yumor aşağı dozalı sarkazm zərrəsi...

Sarkazmın da banisi Ezopdur. Sarkazm – ən yüksək dərəcəli istehzalı və kinayəli gülüş növüdür. Sarkazm – yunan sözü olub "ətini didirəm" mənasını ifadə edir.

Haşiyə: ... Qədim Dünyanın yeddi müdrikindən biri olan Xilon Ezopdan soruşur:

- Zevs nə ilə məşğuldur?

Ezop:

- Yüksək adamları alçaldır, alçaqları yüksəldir – deyə cavab verir.

Ezop həyatından bir rəvayət: " ... Bir içki məclisində badə dostları Ezopun ağasına az şərab içdiyini irad tuturlar. O isə deyir:

- Mən istəsəm lap dənizi də içərəm!

Dostları kefli vəziyyətdə söylədiyi bu sözlərə görə ona tənələr vururlar. O vaxtın qaydalarına görə zadəgan dediyi sözün ağası olmalı idi. Səhər açılır. Zadəgan ayıldıqda axşam dediyi sözlərin peşimançılığını çəkməyə başlayır. Bir azdan dostları onu ələ salacaqdılar. Zadəgan bərk dilxor olur. Nə edəcəyini bilmir. Bu rüsvayçılıqdan çıxmaq üçün yollar arayır. Ümidini itirir. Lakin...

Bu məqamda Ezop köməyə çatır. Ağası onun məsləhəti ilə badə dostlarına deyir:

- Mən sözümün üstündə dururam. Gedək dənizin qırağına, mən sizin gözünüzün qabağında dənizi büsbütün içəcəyəm.

Dostları daha maraqlı bir tamaşanın şahidi olmaq ümidi ilə dəniz sahilinə yığışırlar. Bir azdan zadəgan da Ezopun müşayiəti ilə gəlir və deyir:

- Mən sizə dənizi içəcəyimə söz vermişəm. Oraya isə aramsız olaraq çaylar tökülür. Mən çayları içməyə söz verməmişəm. Ona görə də Siz həmin çayların yolunu kəsin ki, mən öz işimi görə bilim...”

Bu, ağılın, bacarığın, qabiliyyətin və məntiqin qələbəsi idi. Əlahəzrət ağıl ən çətin anlarda öz sözünü deyə bilir. Bu, Ezop təfəkkürünün məhsuludur. Bu, Ezop ağlının başqa dibçəklərdəki cücərtiləridir...

Ağılın hansı başda olmasının əhəmiyyəti azdır. Ağıllı baş bütün başlardan uca dayanmağa layiqdir və ucadır.

Ağıl – başlar bəzəyi, insanlar yaraşığıdır...

Taleh – ağıl zəmisi, bacarıq ağıl məhuludur...

Bir məclisdə ruhani bir qocanın söhbəti diqqətimi çəkdi. O, bir ibrətamiz rəvayət söylədi. Mən həmin rəvayəti ondan eşitdiyim şəkildə Sizə danışıram.

Rəvayət: “... Allah insanlara dörd nemət bağışlamaq qərarına gəlir. Bacarıq, Din, Ağıl və Taleh. O, bu nemətləri yanına çağırıb tapşırıqlar verir: “Siz özünüzü insana təqdim edərsiniz. Hansınızı istəsə yalnız o qalsın, qalanınız geri qayıdın”.

Sonra Allah onlara ayrılıqda nə isə deyib yola salır.

Bu dörd nemət insanın hüzuruna enir. Özlərini təqdim edib deyirlər: “Allah bizi sənə ərmağan edir. Lakin bizim yalnız birimizi götürə bilərsən...”

İnsan deyir:

- Mən sizin nə demək olduğunuzu bilmirəm. Odur ki, seçim etməyə çətinlik çəkirəm.

Din deyir:

- Mən sənə ruhani hisslər bəxş edərəm, səni paklığa yetirərəm. Sənlə digər insanlar və Allah arasında ülvi əlaqələr yaranmasına köməklik edərəm...

İnsan:

- Çox gözəl! – deyə razılıq edir.

Taleh deyir:

- Mən Allah tərəfindən sənə bəxş olunan bir nemətəm. Açıq yol, toxunulmazlıq nişanəsiyəm. Mən səni özünün istədiklərinə yetirərəm. Arzularına yetmək yolunda yaranan əngəlləri aradan qaldıraram...

İnsan yenə:

- Çox pakizə! – deyə cavab verir.

Ağıl sözə başlayır:

- Mən sənə bəxş olunmuş həyat yolunun özün tərəfindən müəyyənləşdirilməsini təmin edərəm. Mən sənə hər bir çətinliyi öz gücünə aradan qaldırmaq yolları göstərərəm. Mənim vasitəmlə sən dünya sirlərindən baş çıxara bilərsən. Mən Allahın sənə bəxş etməli olduqlarını öz düşüncən hesabına əldə olunmasını təmin edərəm...

İnsan:

- Əla! – deyə cavab verdi.

Sonda Bacarıq sözə başlayır:

- Mən də Allahın sənə bəxş etdiyi nemətəm. Mən sənin qazandığın biliklərin və qabiliyyətlərin həyata tətbiqini təmin edərəm. Mən Allahın sənə bəxş edəcəklərini sənin öz çalışqanlığın hesabına əldə etməyə yardımçı olaram...

İnsan bu dörd neməti dinləyib Ağılı istədiyini söylədi. Ağıl üç nemətlə xudahafisləşmək istədi. Lakin onlar da insanla qalacaqlarını bildirdilər. Ağıl dedi:

- Axı, Allah yalnız birimizin qalmağımızı tapşırdı...

Din dedi:

- Allah mənə təklikdə tapşırdı ki, Bacarıq və ya Taleh seçilsə, qayıt geri, Ağıl seçilsə, sən də qal. Ağil harada, sən də orada!...

Bacarıq dedi:

- Allah mənə ikilikdə tapşırdı ki, Din və ya Taleh seçilsə, qayıt gəl. Ağıl seçilsə, sən də qal. Ağıl harada, sən də orada!..

Taleh dedi:

- Allah mənə tapşırdı ki, Ağıl harada, sən də orada!.. Onlardan hər hansı biri seçilsə qayıt yanıma...

Beləliklə, Allah insana Ağlına (Ağılı seçdiyinə) görə Din, Bacarıq və Taleh bəxş edib – deyə ruhani söhbətinə yekun vuraraq başqa mövzuya keçdi...

Bu söhbəti isə atam mərhum Fərhad Əsgər oğlundan bir neçə dəfə eşitmişəm. Övlad zirəkliyindən söz düşəndə atam bu rəvayəti hər dəfə məqsədinə müvafiq şəkildə müxtəlif çalarlarla danışardı. Hər halda tərbiyəvi təsiri hiss olunardı...

Haşiyə: ... Bir kişinin iki oğlu vardı. Kişi kiçik oğlunu daha çox sevirdi. Ana isə övladlar arasında ayrıseçkilik saldığı üçün həmişə ona narazılığını bildirirdi.

Bir gün yol ilə bir karvan gedirdi, ata böyük oğlunu yanına çağırıb deyir.

- Oğul, get, o karvandan bizə bir xəbər gətir.

Oğlan bir anda atlanıb yolu kəsir:

- Əşi, bu nə karvandır, hardan gəlib, hara gedir? – deyə amiranə səslə xəbər alır.

Karvanbaşı laqeydliklə cavab verir:

- Bu, ticarət karvanıdır! Sən kimsən, nə borcuna qalıb, haradan gəlib, haraya gedirik?!

Oğlan geri qayıdır. Növbə kiçik oğulundur. O, karvana yetişir, karvanbaşını soruşur. İsnad verirlər. Oğlan əvvəlcə karvanbaşıya təzim edir, onları qonaq kimi salamlayır. Ədəblə deyir:

- Uğurunuza xeyir, görünür uzaqdan gəlirsiniz, qonağımız olun.

Karvanbaşı səmimiliyə səmimiyyətlə cavab verir:

- Bəli, Şərqdən gəlib Qərbə gedirik, yükümüz ədviyyat, parça, zinət şeyləri, ərzaqdır...

Kiçik oğlan onlara xoş arzularını bildirdi və geri qayıdıb gördüklərini ehtiramla atasına söylədi.

Ata dedi:

- Arvad, indi bildinmi, nə üçün onu daha çox istəyirəm?!

... Karvan düşərgə saldı. Dərrakəsinə heyran qaldığı üçün karvanbaşı oğlanın ünvanına yollandı. Onu qulluğa dəvət elədi. Atasının razılığını almağa müvəffəq oldu. Onu düşərgəyə gətirdi. Gecə yorğun karvan əhli yatdı. Oğlan keşikdə durdu. Quldurlar karvanı yarmaq üçün yaxınlaşanda keşikçi oğlanı gördülər. Quldurbaşı dedi:

- Karvan kimindir?

- Allahın! – deyə oğlan cavab verdi.

- Onu kim qoruyur?

- Allah !!

Allah adı eşidən quldurqaşı geri qayıtmaq əmri verir.

Səhər açılanda quldurbaşı, karvanbaşıdan oğlanı məsləhət üçün istədi. Bir azdan sonra oğlan quldurlar arasında idi. Quldurbaşı sual etdi:

Taladığımız mal-dövlətin sayı-hesabı yoxdur. Lakin əldə bir şey qalmır. Bizə bir yol göstər!.

Oğlan təmkinlə dedi:

- İnsaf olmayan yerdə bərəkət olmaz. Siz apardığınızın yerində heç nə qoymursunuz. Bu da Allaha acıq gəlir.

Quldurbaşı dalğın halda:

- Bəs nə edək? – dedi.

Oğlan dedi:

- Növbəti əməliyyat harayadır?

- Şah xəzinəsinə! – deyə başçı cavab verdi.

Oğlan şah sarayında yaşayanların sayını soruşdu. Bir top parça istədi. İki gün ərzində xeyli kiçik torba tikərək quldurlara verdi. Dedi:

- Xəzinədə olan qızılları saray əhli arasında bərabər şəkildə bölüb hər payı ayrıca torbaya qoyun. Nə qədər qalsa onu götürüb gəlin...

Quldurlar xəzinəyə daxil oldular. Sərvət yüz iyirmi iki kisəyə qablandı. Yerdə dörd kisəlik qızıl qaldı. Hesaba görə isə yüz iyirmi üç saray əhli olmalı idi. Yenə oğlan köməyə çatdı. Demə, xəzinədar yaddan çıxıbmış. Bir kisə də onun üçün ayırdılar. Yerdə quldurlara çatası üç kisə qaldı. Elə bu zaman quldurlar mühasirəyə alındı.

... Şah məhkəmə qurur. Quldurbaşı məsələni aydınlaşdırır. Oğlan və onun məsləhətləri barədə də məlumat verir. Şah oğlanı tələb edir. Onunla söhbət edir. Ağlına heyran qalır. Quldurların başını qatdığına görə ona ənam vermək istəyir.

Oğlan deyir:

- Xəzinə sənin deyil ki, ondan istədiyin kimi istifadə edəsən. O, xalqa məxsusdur.

Şah onu vəzirliyə qəbul edir. Bir gün ata oğlunun dalınca saraya gəlir. Şah onu yüksək təmtəraqla qəbul edir. Ona hədiyyələr vermək istəyir. Oğlan razı olmur. Yalnız öz əmək haqqından atasına pay verir.

Nəhayət, şah dünyadan köçmək ərəfəsində taxt-tacı vəzirinə-gənc oğlana vəsiyyət edir...

Kəlam: O qədər istedadlı adamlar var ki, tənbəllikdən saxsı satan olublar. Qabiliyyətsizlər isə təlim sayəsində yeddi iqlimə sahib olublar.

NİZAMİ GƏNCƏVİ.

Xatırlama: Qarışqa Süleyman peyğəmbərə hədiyyə olaraq çibin qanadı gətirir.

Sona yaxın tale haqqında fikirlərimi bir haşiyə ilə nəzərinizə izhar edirəm.

Haşiyə: ... Gözəl, yaraşıqlı və pəhləvan cüssəli bir oğlan bir qızla nişanlanır. Qız çox çirkin idi. Oğlanın məhəbbəti qarşısında o, özünü borclu və günühkar hesab edirdi. Nəhayət, o, qərara gəlir ki, axtarıb nişanlısına gözəl bir qız tapıb alsın. Lakin çox axtarsa da, oğlana layiq bir qız tapa bilmir. Əlini

üzüb intihar etmək fikri ilə dəniz kənarına gəlir. Özünü suya atmaq istəyir.

Elə bu zaman sudan gözəl bir qız çıxır. O, qıza deyir:

- Sən kimsən, burada nə edirsən?!

Qız deyir:

- Bəs sən kimsən? Necə də gözəlsən... Mənim də çox gözəl bir nişanlım var. Mən ona layiq deyiləm. Ona sənin kimi gözəl qız layiqdir. Gəl səni ona alım.

Su pərisi deyir:

- Mən sənin taleyinəm. Nişanlın hər sənə baxanda səni mənim şəklimdə görür. Get, onunla xoşbəxt yaşa!!.

Qız onu bir daha görə bilmədi. Su pərisi artıq suların qoynunda idi...

Kəlam: Taleyini axtarma, o, mütləq səni tapacaq...

Ağıl – Allahın insan içərisində cücərtdiyi Allahı...

Ağıllı insan Allahın insanlar arasındakı adaşı...

Məm mövzunu "Kitabi-Dədə Qorqud"dan ağıl, "Koroğlu"dan bacarıq, "Azərbaycan dastanları"ndan taleh, "Qurani-Kərim"dən dinə aid ibrətamiz nümunələrlə bəzəmək istədim, lakin oxucu heysiyyətinə toxunacağımdan ehtiyat etdiyim üçün bu fikirdən yan keçdim.

Bir xatırlama: ... Qədim Roma filosofu Epiktet imperator Neronun mühafizəçilərindən birinin qulu kimi Romaya gəlib. Bir müddət Neronun katibi olub. Azad edilib və sonra bir neçə filosofla birgə Romadan qovulub. Epir şəhərində (indiki Nekopol) öz məktəbini açıb. O deyərmiş: "Qətiyyətsiz adam ömrü boyu öz bədbəxtliyindən şikayət edər..."

Deyirlər: "Qədim Dünyanın ən nəhəng filosoflarından biri olan Platon (Əflatun) da bir dəfə qul kimi satılıb..."

EPİLOQ

İnsana arxadır onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı...
NİZAMİ GƏNCƏVİ.

SON

“SON”DAN SONRA

İnsanın taleyi təkcə ulduzlardan asılı deyil. Onun bir açarı da insanın öz əlindədir...

Din insanı paklığa səsləyir...

Bacarıq, tale zəmisində cücərən insan əməlidir...

* * *

İMTAHAN

"İmtahan – qabiliyyətlər arşını...
Sınaq – imtahan balasıdır".

Heç bilmirəm, bu imtahan mövzusu haradan yadıma düşdü. İmtahan özü boyda intahana dönüb qarşımı kısdi. Tarix boyu hər birimiz müxtəlif dövrlərdə, müxtlif yerlərdə, müxtəlif adamlar qarşısında müxtəlif çeşidli imtahanlar vermişik. Elə yaşamaq özü də ciddi bir imtahandır. Bu günə qədər yaşamışıqsa, deməli bu günə qədər olan imtahanlardan müvəffəqiyyətlə çıxmışıq.

İnsanlar müxtəlif imtahanlar icad etmişlər. İnsanlar bir-birini müxtəlif üsullrla imtahana çəkmişlər.

İmtahan həqiqətin şübhəyə, şübhənin həqiqətə çevrilmə meydanı, məqamı...

Kəlam: Ən ədalətli imtahan insanın öz vicdanı qarşısında verdiyi imtahandır.

Vicdan insanlığın insan içərisindəki məhək daşı, vicdan insanın daxilindəki insanlıq arşını.

İnsan özü qarşısında imtahan verən şagird, insan özündən imtahan götürən ustaddır. Vicdan isə bu imtahanın verildiyi və götürüldüyü məkandır. Vicdan imtahanı, vicdan məhkəməsini xatırladır. Vicdan ən adil hakim, dəqiq münsif, düzgün qiymət verən müəllimdir. İnsan özü-özünü aldada bilmədiyi kimi, özünə saxta qiymət də verə bilməz. Ən böyük hörmət (qiymət) insanın özü-özünə etdiyi hörmət, verdiyi qiymətdir.

Hər kim özünü olduğundan yüksək səviyyədə təqdim edirsə o, özünün kiçikliyini qeyri-səmimi şəkildə etiraf edir.

Kaş bütün imtahanlar vicdan imtahanı qədər obyektiv olaydı... Vicdanı ilə həmrəy olanlar böük adamlardır...

İmtahan - insanın öz insan həmkarlarının (bayaq deyildiyi kimi həm də özünün) qabiliyyətlərini müəyyən etmək üçün quraşdırdığı səhnəcik.

İmtahan – mətahın xiridar məclisində nümayişi, xiridarın mətah bazarında ağayana gəzişmə məqamı...

İmtahan – bacarığın tərəzi gözündə arvasız, pərsəngsiz özünə bərabər, qiymət adlı çəki daşı gözləməsi anı...

İmtahan – qabiliyyətlər tərəzisi, bacarığın məhək daşıdır...

İmtahan – şagirdin ustad (ustadlar) önündə sərrast yeriş yeriməyə cəhd etməsi məkanı, məqamı, imkanı...

İmtahan – insanın müəyyən çərçivə daxilində özünü dərki...

Xatırlama: "... Sınıqçı öz oğluna sənətinin bütün sirlərini öyrətdikdən sonra onu imtahan etmək qərarına gəlir. Otağın ortasına qoyulmuş ağzı bağlı çuvalı oğluna (şagirdinə) göstərib deyir:

- Bu çuvalın içində çəkiclə sındırılmış bir küp var, küpü çuvalın ağzını açmadan onun içində bütöv şəklə sal...

Oğlan dərhal işə başlayır. Çox çalışsa da bir şey edə bilmir. Yenidən işə girişir. Yenə də uğursuzluq... O, üçüncü dəfə yenidən işə başlamaq istədikdə atası (ustadı) mane olur.

"Get, bir az açıq havada gəz, fikrini cəmləşdirib qayıt" – deyə oğlunun qolundan tutub ayağa qaldırır.

Oğlan tutqun halda könülsüz-könülsüz başını aşağı salıb bayıra çıxır. O, evdən çıxan kimi atası sınmış küpün əvvəldən götürdüyü əl boyda bir parçasını çuvala atıb ağzını yenidən bağladı. Oğlan bir azdan geri qayıtdı. Atasından izin istəyib yenidən işə başladı. Ata xalça üstündə mütəkkəyə dirsəklənib onun hərəkətləinə göz qoyurdu.

Qəflətən oğlanın üzündə təbəssüm yarandı. O, ayağa qalxıb atasına baş əyərək dedi:

- Ata, küp hazırdır. O, on doqquz yerə parçalanıbmış. Bayaq nədənsə bir hissəsinin yeri boş qalırdı...

Ata (ustad) oğlunun (şagirdinin) boynunu qucaqlayıb qürurla dedi:

Afərin, mənim balam, mən bunu qəsdən etmişdim. Sən əsl sınıqçısan!..”

Bu, ustadın öz şagirdinə olan inamının etiraf anıdır. Bu, atanın övladı ilə deyil, ustadın şagirdi ilə fəxr etməsi məqamı, məkanı, imkanıdır...

Sınaq – xəbərdarlıq edilmədən aparılan imtahan, imtahan isə məkanı və məqamı əvvəlcadən xəbərdar edilən sınaqdır.

Bütün imtahanlar sınaq, bütün sınaqlar isə hələ imtahan deyildir.

Deyirlər: ... Böyük sərkərdə Napoleonu qəflətən yuxudan oyadıb (o, çox az yatarmış...) söyləyirlər ki, düşmən üstümüzə hücuma keçib!

Sərkərdə isə deyib: “Məni elə həyəcanla çağırdınız ki, elə bildim imtahana aparırsınız”.

İmtahan – qabiliyyətlərin qıl körpüsü, seçimin seçim anıdır...

İmtahan – bacarıq piştaxtası...

İmtahan – nüfuzun giriş qapısı...

Qədimdə imtahan verən şəxsə heç bir cənəd verilməzdi. İmtahan verən özü elə canlı sənəd idi.

Belə deyirlər: “ ... Keçmişdə padşah özünə hakim seçəndə iddiaçıları özünəməxsus üsulla imtahan edərmiş. O, həmin şəxslərə dörd cür nemət (ərzaq) verərək deyir:

- Bu dörd cür ərzaqdan bir xörək hazırla onunla qonaq qəbul edə bilək. Bu dörd cür ərzaqdan elə bir yemək hazırla ki, qoşun əhli yeyib döyüşə girə bilsin. Bu dörd cür ərzaqdan elə bir dərman hazırla ki, onunla hər hansı bir xəstəliyi müalicə etmək mümkün olsun. Nəhayət, bu dörd cür ərzaqdan elə bir zəhər hazırla ki, hər hansı bir canlıya verdikdə onu dərhal öldürsün...”

Padşahın bu tələbini yerinə yetirə bilən adam şah qarşısında həkimlik məqamına yetişərdi, həkimlik adı daşımağa layiq olardı.

Uşaq vaxtı atam, mərhum Fərhad Əsgər oğlundan eşitdiyim daha bir rəvayət yadıma düşür.

Rəvayət: "... Beyninə gənə girmiş bir qadını loğmanın yanına gətirirlər. loğman xəstənin kəllə qapağını açır, maqqaş ilə beyin qabığına yapışmış gənəni götürmək istəyir. Bu zaman qapının açar deşiyindən həkimi (ustadını) izləyən şagird uca səslə çığırır: "Qızdır ba-a-as!!!"

Həkim bir anlıq dayanır, sanki yuxudan ayılır. İndi başa düşür ki, əgər gənəni maqqaşla götürsə o, özü ilə beyin qabığını da qoparacaq. Həkim ətrafa boylanır, maqqaşı şam alovunda qızdırıb gənəyə yaxınlaşdırır. Gənə sormaclarını beyindən ayırır, loğman onu kənarlaşdırır, işi müvəffəqiyyətlə başa çatdırır.

Lakin bundan sonra o, öz şagirdindən ehtiyat etməyə balayır. Nəhayət, o, şagirdini imtahan etmək qərarına gəlir. Onlar şərt kəsirlər. Ustad şagirdinə zəhər verməli olur. Görək o, vəziyyətdən çıxa biləcəkmi... (Bu, o dövr üçün həkimlər arasında xarakterik imtahan üsulu imiş...)

Nəhayət, imtahan günü təyin edilir. Şagird (belə deyilər ki, bu, Sokrat olmuşdur...) iki min qoyunu olan çoban yeznəsinə deyir:

- Sənin qoyunlarının neçəsi sağılandır?

- Təxminən min-min iki yüzü – deyə çoban cavab verir.

Şagird deyir:

- Yeznə, bilirsən ki, mən sabah yox, birisi gün imtahana gedirəm. Ustad mənə zəhər verməlidir. Bu, ölüm-dirim məsələsidir. Gərək özümü müdafiə edəm.

Yeznə: "Mən nə etməliyəm?" – deyə soruşur.

Sokrat deyir:

- Qoyunların səhər və axşam südünü mənim qazdığım üç çalaya tökərsən. Ustad mənə zəhər verəcək. Mən özümü çalaya atacağam. Süd çürüyən kimi məni ikinci çalaya atarsınız. Bu çalanın da südü çürüyəndə məni üçüncü çalaya atarsınız. Burada süd tam çürüməyəcək, hər halda çürüyəcək. Bu zaman məni qara yapıncıya bükərək qara dama qoyub qapını bağlayarsınız. Yalnız üç gündən sonra mənimlə maraqlanarsınız.

Sokrat öz həyətlərində bir birindən aralı üç çala qazır.

Nəhayət, intahan anı yetişir. Meydan izdihamla dolur. Ustad öz şagirdinə bir fincan maye verir. Şagird hamının gözü önündə fincanı başına çəkir. Və... paltarlarını soyuna-soyuna evə tərəf qaçmağa başlayır. O, birinci çalaya çatar-çatmaz yerə yıxılır. Yeznəsi və anası onu süd çalasına (hovuzuna) atır. Çaladakı süd dərhal çürüyür. Onu çıxarıb ikinci çalaya atırlar. Burada da süd bir anda çürüyür. Onu buradan çıxarıb üçüncü çalaya salırlar bir azdan bu çalada olan süd də çürüməyə başlayır. Lakin tam çürümür. Anası və yeznəsi təlaş içərisində onu huşsuz vəziyyətdə qara yapıncıya büküb qazma dama tərəf aparırlar. Onlar onu qazmaya qoyub qapısını bərk-bərk örtürlər...

Bir neçə gündən sonra ustad və şagird bazar meydanında qarşılaşır. Bu zaman yalnız baxışlar danışır:

- ???
- !!!
- ?!
- !!
- ?..
- ...

Şagird imtahandan müvəffəqiyyətlə çıxmışdır. İndi növbə ustadındır. Bir həftədən sonra şagird ustadına zəhər verməlidir. Təyin olunan gün yetişir. İzdiham toplaşır. Şagirdlə ustad üz-üzə dayanır. Şagird utancaqlıqla deyir:

- Ustad, mənim məlhəmim hələ hazır deyil. Mənə bir həftə möhlət verin...

Mərasim təxirə salınır. Ustad məmnunluqla gülümsünür. Həftə ərzində şagird həvəngdə müxtəlif otları döyür. Bu zaman ustad bacaya yaxınlaşıb hazırlanan zəhərin tərkibini həvəng-dəstədən çıxan səslərə əsasən təyin etməyə çalışır.

Mərasim yenə baş tutmur. Şagird bu dəfə də maddənin hələ hazır olmadığını söyləyib bir həftə də vaxt istəyir. O, həftə ərzində yenə də həvəngdə əlinə nə gəldi döyməyə başlayır. Ustad yenə bacadan xəlvətcə səsə qulaq asmaqda davam edir. Şagird isə bunu duyur...

Bu minval ilə mərasim dərmanın hələ hazır olmaması ucbatından təxirə düşür. Nəhayət, bir aydan sonra camaat son dəfə meydana toplaşır. Ustad meydanın ortasında özünün keçmiş şagirdini gözləyirdi. O, çox üzgün görünsə də, baxışlarında mərasimin yenə də təxirə düşəcəyinə bir ümid işartıları sezilirdi. Əgər şagird bu dəfə də hazır olmasa uduzurdu.

Elə bu anda şagird əlində fincan şən halda meydana çıxdı. Ustadına yaxınlaşdı. Nəzakətlə ona baş əydi. Fincanı ona uzatdı. Ustad fincanı ondan aldı, dadaqlarına yaxınlaşdırmaq istədi. Özünü pis hiss etdi. Əlləri əsməyə başladı. Şagirdi onu tutaraq yıxılmağa qoymadı. Fincanı onun əlindən alaraq özü başına çəkərək son damlasına qədər içdi.

Artıq ustad yerə uzanmışdı. Onu xilas etmək mümkün olmadı. Həyəcandan onun ürəyi partlamışdı. Çünki şagirdin ona hansı zəhəri verdiyini təyin edə bilməmişdi. Həqiqətdə isə şagirdi ona şərbət vermişdi...

... Sonrakı dövrlərdə çoban öz qaynını təbib hesab etmirdi. Həmişə onu ələ salaraq deyirdi: ” Onu mənim qoyunlarımın südü həkim elədi. Nadanın biridir”. Bu sözlər Sokrata çox pis təsir edirdi. Bir gün o yeznəsindən qisas almaq fikrinə düşdü. Onun ürəyində ədavət cücərtiləri baş qaldırdı”.

(Əziz oxucum bu haqda "Qisas" mövzusunda söhbət açmağa çalışacağıq...)

Buna bənzər bir epizodu dahi Azərbaycan şairi Nizami Gəncəvi "İki rəqib alimin hekayəti" adlı dastanında çox ibrətamiz şəkildə təsvir etmişdir. Dastanı peyğəmbər timsallı şairimizin ruhuna dərin hörmət və ehtiram əlaməti olaraq Oqtay Salamzadə qələminin dili ilə təqdim edirik.

"İki alim bir-biri ilə yola getmir, "mən", "mən" deyir, daim höcətləşir. Bir dəfə də sözləri çəp gəlir. Onlardan biri şərbətə zəhər qatıb rəqibinə verir, rəqibi özünü bilməməzliyə vurub zəhərli şərbəti başına çəkir, lakin qaynatdığı nuşgiyanın suyunda çimib tezliklə sağalır. Öz növbəsində o, çəmənlikdən bir gül dərib rəqibinə uzadır. Gülün zəhərli olduğunu düşünən rəqibin qorxudan ürəyi partlayır.

Dərdə əlac tapan kəs gülən oldu həyatda,
Bircə güldən qorxan kəs ölən oldu həyatda...

Bir imtahan da var. Bu, Dədə Qorqud imtahanıdır. Həmin imtahanı verənlər ad alırlar. Adı Dədə Qorqud cavanlara göstərdikləri igidliklərə görə verərdi. O, imtahandan sonra Bəybörə xanın oğluna Bamsı Beyrək, Aruz qocanın oğluna Basat, Ulaş oqluna Salur Qazan, Dirsə xanın oğluna Buğac, Qanlı qoca oğluna Qanturalı ... adı verilmişdi.

"... Hey Dirsə xan! Oğluna bəylik ver,
Taxt ver, - güclüdür, ərdəmlidir!..
... Çiynu quşlu cübbə-don ver sən bu oğlana,
Qoy geyinsin, hünərlidir!

Bu oğlan Bayandır xanın uca meydanında vuruşmuşdur. Sənin oğlun bir buğa öldürmüşdür, qoy adı "Buğac" olsun. Adını mən verdim, yaşını Allah versin ..."

Elm inkişaf etdikcə imtahan üsulları da təkmilləşməyə başladı.

Şagirdin ustad önündə imtahanı...

Ustadın ustad önündə imtahanı...
Ustadın el-oba, xalq önündə imtahanı...
Ustadın şahlar önündə imtahanı...
Şagirdin ustad adı almaq üçün imtahanı...

Bir sıra imtahanlar son zamanlarda kompüterlə (bilgisayarla) aparılır. İnsanın texnika önündə imtahanı... Ali məktəblərə qəbul, işə qəbul, vəzifəyə qəbul və s. bu üsulla həyata keçirilir.

İmtahan kamilliyə gedən cığır, aqilliyə atılmış qıl körpü...
İmtahan soyuqqanlılıq tələb edən döyüş meydanı...
İmtahan püxtələşmə mərasimi, həyəcanın süqut anı...

Qədim Çin filosofu Lao Tszıdan Əlisa Nicat dili ilə bir kəlam – "Güclülüyün rəmzi".

" ... Bir nəfər hömkdar üçün döyüşkən xoruz hazırlayır. On gündən sonra hökmdar soruşur:

- Xoruz döyüşə hazırdırmı?

- Hələlik yox, hələ çox lovğalanır, boş-boşuna xoruzlanır.

On gündən sonra hökmdar yenə eyni sualı verir.

- Hələ yox. Yenə hər kölgəyə hücum edir, hər səsə hay verir.

On gündən sonra hökmdar yenə soruşur.

- Hələ yox. Baxışları nifrətlə doludur. Kini-küdurəti aşıb-daşır.

Daha on gündən sonra hökmdar eyni sualı verəndə belə cavab alır:

- Demək olar ki, hazırdır. Yad xoruz görəndə həyəcanlanmır. Baxırsan elə bil ağacdan yonulub. Daha bütün xüsusiyyətləri kamildir. İndi heç bir xoruz onun qabağında dayana bilməz..."

İnsan yaşayır, ömür sürür və ömür sürərək yaşayır. Hər iki halda insan özündən asılı olmayaraq müxtəlif sınaqlardan, imtahanlardan çıxır. Müdrik və müdriklər tərbiyəsi görmüş şəxslər bu imtahanlardan çıxmağa çətinlik çəkmir.

Haşiyə: ... Bir gün yeniyetmə çağlarında Şah İcmayıl ustadına deyir:

- Ustad, mən bu gün bir oxla iki quşu vurdum.

Ustadı onu mənalı şəkildə süzərək deyir:

- Əziz balam, bir ox ilə iki quşu vura bilmək, əlbəttə, qoçaqlıqdır. Lakin əsl qoçaqlıq o olardı ki, sən bir ox ilə üç quş vura idin...

Kəlam: Belə deyirlər ki, dostları arxasınca, müəllimləri üzbəüz tərifləyərlər. Lakin övladları və şagirdləri heç zaman tərifləməzlər.

EPİLOQ

Mən imtahana gedəndə nənəm mənə xeyir-dua verər, arxamca su atardı.

Mən sevimli müəllimim, kimyaçı alim Süleyman Məmmədovdan dərs aldığım üçün məşhur alim, akademiyanın müxbir üzvü, professor Xudu Məmmədova verdiyim imtahandan zövq aldım.

SON

“SON”DAN SONRA

Koroğlu dəlilərini Koroğlu üsulu ilə imtahan edib seçərdi...

Koroğlu dəlisi olmaq üçün Koroğlu imtahanı verilməli idi. Sonra sınaqlar gələrdi...

* * *

QİSAS

Qisas – intiqam almaq üçün başqasına verilən cəzadır.
NƏSİRƏDDİN TUSİ. “Əxlaqi Nasiri” əsəri.

Qisas heç bir dərdə dərman ola bilməz.

... Gənclik dostum şair Əjdər Ol özünün “Könül vuruşu” adlı şerlər kitabını da mənə bağışladı: “Köhnə dostum İsgəndər üçün.

Uğurlar arzulayıram!

Əjdər Ol”.
02.06.01

Sevimli şairimizin kitabına sevimli professorumuz Rafael Hüseynov “Əjdər Olmaq” başlıqlı çox orjinal ön söz yazmışdır. Ön söz fantast yazıçı Namiq Abdullayev adının anılması ilə başlayır:

“...Telestudiyanın həyətində rastlaşdım.

Bir az pərişan, bir az hirslə ötən gecə başına gələni nağıl elədi: “ Gecə dəniz vağzalının yanında skamyada yatmışdım. Milis gəlib oyatdı ki, dur get burdan, dedim axı orda it yatıb ona heç nə demirsən, niyə məni qovursan? Qayıtdı ki, onun sənə dəxli yoxdur, o itdir”.

Və ürəyində kin-küdurət, intiqam hissinin yoxluğuna inandığım Namiq müəllim ona xas olmayan və məni təəccübləndirən sözlər dedi:

“Mən bunun hayfını mütləq alacağam!”

Və qisasını aldı Namiq müəllim.

O gecə dəniz vağzalındakı skamyada yatmağa qoymayıb qovan milisdən yox. İtdən!

Bir hekayə yazdı. İti döndərib adam elədi, adama çevrilmiş itin başına heyvanlardan qat-qat qəddar adamlar arasında nələr

gəldiyini təsvir elədi. İtə adam olub adamlar arasında yaşamağın nə müsibət olduğunun əzabını "başa saldı"".

Qisaslar müxtəlifdir.

Qisas – intiqamın adaşı, qisas – cəzanın doğma qardaşı (bacısı...)

Söyüş – dil ilə verilən qəddar cəza.

Söyüş – günahkara dil dil ilə vurulan şapalaq...

Qarğış – qisas almaq arzusu, alqış – qisasın əfv edilməsi üçün taledən dilənən xahiş...

Nifrət – qisas layihəsi...

Kəlam: O, yaxşı adam olmaqla pislərdən (pislikdən) intiqam aldı. O isə aqil olmaqla nadanlardan (nadanlıqdan) intiqam almaq arzusunda idi.

Qisas – intiqam adlı zəhərin asan tapılan əvəzləyicisi...

İntiqam – dəqiq ünvanı olan qisas, qisas – ünvansız intiqam koması...

Bu kitabın "İmtahan" bölümündə həkim qayının çoban yeznədən aldığı intiqam və çoban yeznənin həkim qayına ölümündən sonra verdiyi cəza haqqında danışmağa söz vermişdik...

Haşiyə: "... Çoban yeznəsi Sokratın təbibliyinə şübhə ilə yanaşır, onu nadan adlandırırdı. Sokrat ondan qisas almaq fikrinə düşür, o, öz bacısına deyir: " O alçaq günorta yeməyini nə zaman yeyir?"

Bacısı nə baş verdiyinin fərqinə varmadan deyir:

- O, hər gün Günəş düz günorta məqamına yetişəndə qoyunları çinar dibində arxaclayır və nahar edir.

Sokrat bacısından xahiş edir ki, onun yeməyini bir on dəqiqə gecikdirsin.

Yeznə qoyunları çinar dibinə ötürüb çardaq altına gəldi. Xanımı sacayaq üstündəki sacın qızmasını gözləyirdi. Ocaq yenicə qalanmışdı.

Çoban:

- Yüz dəfə demişəm, yeməyimi vaxtında hazırla! – deyə əsəbiləşdi.

Xanımı oxlovla kündəni tələsik yayıb sacın üstünə atdı. Çoban alaçiy fətiri götürüb süd ilə yedi.

Axşam o sancılandı. Səhəri gün qoyunları örüşə apara bilmədi. Xanımına dedi:

- O nadanı çağırın gəlsin, adını həkim qoyub, görək əlindən nə gəlir?!

Qayını gələndə onun vəziyyəti gərgin idi. Sokrat çox təşvişə dişdü. Təbabətə aid kitabları çox vərəqlədi. Onun əlindən heç nə gəlmədi. Axşama yaxın çoban dünyadan köçdü. Həkim çox mütəəssir oldu. Peşmançılıq onu üzürdü. O, xəstəliyin səbəbini öyrənmək məqsədi ilə meyidi yardı. Bağırsağın içərisindəki bərkimiş xəmir kütləsini çıxartdı.

... Sonralar o, həmin xəmir kütləsindən öz bıçağına dəstək düzəltdi. Həmişə bu bıçağı görəndə öz həkimlik peşəsinə xəyanət etdiyini xatırlayırdı.

... Üstündən xeyli zaman keçmişdi. Günlərin bir günündə Sokrat bazardan bir qarpız alıb gətirdi. O, qarpızın yarısını yedi. Bıçağı qarpızın qalan yarısına sancıb yuxuya getdi.

O, yuxudan ayılanda qarpıza sancılmış bıçağı dəstəksiz gördü. Gözlərinə inanmadı. Qarpız daşlaşmış xəmir kütləsini həll etmişdi. Həkim təəssüfləndi. ”Kaş ona qarpız suyu içirdəydim!...”

Sokrat rəfdən Hippokratın kitabını götürdü, yenə vərəqlədi. (O, bu kitabı dönə-dönə oxumuşdu.) Bu dəfə də yeznəsinin xəstəliyi barədə heç nə tapa bilmədi. Birdən... kitabın üz qabığının içəri tərəfində gözünə kobud xətlə yazılmış bir cümlə sataşdı. Oxudu ... çobanın xətti idi... O yazmışdı: “Ay nadan, sən elə bildin ki, mən öz dərmanımı bilmirəm? ... Sadəcə olaraq mən may ayında yetişmiş sarı qarpız tapa bilməzdim ...”

Təbib Hippokrat andına xəyanət etdiyi üçün bir daha peşimançılıq çəkdi.

...Çoban ölümündən sonra həkimdən qisas aldı...

Qisas – heç bir qayda-qanun tanımayan cəza. Qisasçı – heç bir qanun məcəlləsi ilə işləməyən hakimdir...

Qisas – qulağı burulanın, qulaqburana verdiyi qulaqburması...

Qisas – iynə batırana batırılan biz...

Qisasçı – dəymə mənə, dəyməyim sənə fəlsəfəsi filisofu...

Qisas – mübahisə, mübarizə, müharibə, mücadilə şəklində təzahür edir.

... 1514-cü ildə iki türk dövləti Çaldıran düzündə qarşı-qarşıya dayandı. Şah İsmayıl Xətayi və Sultan Səlim orduları üz-üzə durmuşdu. Bu onu, o da bunu ittiham edirdi.

Bir xatırlama: Mən uşaq olanda bir gün atamla rayon mərkəzinə getmişdik, atamın bir müəllim dostu mənə müxtəlif suallar verdi. Mən də bacardığım cavabları verirdim. Hiss elədim ki, o, cavablarımdan razı qalır. Atamın (o, sürücü idi...) qürur duyduğunu hiss edirdim. Məlik müəllimin növbəti sualı:

- Çaldıran döyüşü nə zaman olub?

Mənim cavabım:

- 1514-cü ildə. Çaldıran düzündə, Osmanlı Sultan Səlimin və Səfəvi Şah İsmayılın qoşunları arasında ...

Sual: - Döyüşdə kim qalib gəlib?

Cavab: - Osmanlı ordusu...

Sual: - Səbəb?

Cavab: - Türk ordusu güclü idi. Onlar odlu silahdan istifadə etdilər. Səfəvilər gecə hücumundan imtina etdilər və s.

Sonra mən tarix dərsliklərində yazılmış başqa səbəbləri sadalamağa başladım.

Məlik müəllim Sultan Səlim və Şah İsmayıl haqqında mənim üçün çox maraqlı olan bir rəvayət söylədi. Mən sonralar bu rəvayətə heç yerdə rast gəlmədim.

Kiçicik tanışlıq: ... Bir il sonra Məlik müəllim Quliyev bizim sinfə tarix dərsi deməyə başladı. Demə, o, bizim kənddən

imiş, lakin rayon mərkəzində, icra hakimiyyətində işləyirmiş. Eyni zamanda tarix dərsi də deyirmiş. Sonralar mən onunla dostlaşdım. Hətta onun rəhbərlik etdiyi məktəbdə müəllim də işlədim. Hamı kimi mən də onun şəxsiyyətinə yüksək hörmətlə yanaşıram.

Rəvayət: "... Çaldıran döyüşü ərəfəsində Sultan Səlim dərviş paltarı geyib qoltuğuna da şahmat alaraq Səfəvilərin ərazisinə gəlir. O, çayxanalarda və adamların çox toplaşdıqları yerlərdə şahmat oynayır. Və hamını udurdu. Onun sorağı şah sarayına da yetişir. Nəhayət, Şah İsmayıl "dərvişi" sarayda təşkil olunmuş şahmat yarışına dəvət edir. "Dərviş" hamıya qalib gəlir. Sonra maraq xatirinə Şah İsmayıl da saymazyana onunla oynayır. Dərviş bir dəfə udur, bir dəfə də "uduzur". Şah "dərvişə" ənam verib yola salır...

Beləliklə, sultan Səlim dərviş libasında həm Səfəvilərin ərazisini, həm də şahmat vasitəsi ilə Şah İsmayılın döyüş taktikasını öyrənir.

Məlik müəllim sözünə davam edir:

"... Çaldıran döyüşündə belə bir səhnə yaranır ki, hər iki şah qarşılaşır, həmin anda Şah İsmayıl Sultan Səlimi gözlərindən tanıyır. Artıq Şah İsmayıl şahmatda olduğu kimi döyüş meydanında da ona məğlub olmuşdu..."

Sultan, şahdan son zamanlarda gücləndiyi üçün qisas aldı. (Başqa bəhanələr də vardı...) Bir ildən sonra onlar arasında sülh müqaviləsi imzalandı.

Şah İsmyıl 1514-cü ildən 1524-cü ilədək (ömrünün sonunadək) heç bir hərbi əməliyyat aparmamaqla müharibədən qisas aldı. Xətayi Şah İsmayıldan, şair sərkərdədən qisas aldı...

Belə deyirlər: "Çaldıran döyüşündə Şah İsmayıl qılıncı ilə Osmanlı toplarının zəncirlərini doğrayarkən, hətta bir topun lüləsini də kəsibmiş. Sultan Səlim ismarışçı göndərib həmin qılıncı Xətayidən istəyir. Xətayi qılıncı göndərir. Sultan Səlim

hamının gözü qarşısında qılıncı topa vurur. Qılınc lülədə heç bir iz də salmır.

Sultan şaha giley yollayır. Yəqin Çaldıranda məğlub olduğu üçün həmin qılıncı göndərməyib. Az keçmiş Şah İsmayıldan belə bir cavab alır: "Qılınc həmin qılıncdır, qol isə o qol deyil".

Şah İsmayıl Xətayi müharibədən əl çəkməklə müharibədən qisas aldı. Lakin Xocalı, Ağdaban, Bağanis Ayrım ... ümumiyyətlə, Qarabağ uğrunda müharibədə aldığımız yaraların qısasını barışıq ilə, razılaşma ilə, sülh ilə almaq olmaz. Heç bu yaraların qisası susmaq ilə də alına bilməz...

Verilmiş əziyyətlərə görə qisas ən yaxşı cavab tədbiri olsa da, bəzən yamanlığa yaxşılıq böyüklük əlaməti hesab olunur.

"Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir".

ATALAR SÖZÜ.

Haşiyə: Bir dəmirçi Kim şəhərində Qədim yunan filosofu (o, yeddi müdrikdən biridir) Pittakın oğlu Tirreyi balta ilə vurub öldürür. Canini tutub filosofun hüzuruna gətirirlər. O, əhvalatın təfsilatını öyrənib dəmirçini azad etdirir. Və... deyir: "Qisas almaqdansa, bağışlamağı bacarmaq yaxşıdır". (Əziz oxucum, əvvəlki bölmələrdə bu epizoda rast gəlmiş olsanız və bunu yaddaşsızlığım kimi qəbul etməsəniz sizə minnətdar olaram...)

Mən müdrikin qisas barədə dediyi bu sözləri təkrar etməklə qisasdan qisas alıram...

EPİLOQ

Kim ki nə tərifə, nə tənqidə məhəl qoyur, nə zərbəyə zərbəylə cavab verir, nə də pislik eləyənə pislik arzulayır – beləsinə allahlar da qibtə eləyir.

QƏDİM HİND MÜDRİKLƏRİNDƏN.

... Bağışlamaqla qisas almaq müdriklər əməlidir.

SON

“SON”DAN SONRA

Atalar sözü: “Qisas qiyamətə qalmaz”.

Fikir: Ən qəddar cəza təbiətə verilən cəza, ən amansız qisas təbiət qisasıdır...

* * *

SİRR

Dünya sirlərlə dolu bir dəryaya bənzəyir, mən
isə onun kənarında balıqqulağı yığan uşağa oxşayıram.
İSAAK NYUTON.

Sirri heç yerə yazma, yazsan sel suları üstünə yaz.
NAMƏLUM.

Sirr haqqında danışmaq sirri açmaq demək deyildir. Sirr hamının bilməyə can atdığı həqiqətdir. Və ... mən sirr haqqında sir açmıram.

Sirr – ürəkdə gizlənmiş dəfinədir, onun açarı isə dildir. Sirr ürəyə qulaqla, göz ilə, söz ilə dolur. Sirr ürəkdən dil ilə çıxır. Sirr hər ürəyin çuvalında gizlənməyən nizə, sirr hər qəlbin qınına sığmayan qılıncdır.

Sirr – dostu olmayan dosta etibar edilməyəsi mətah. Sirr – dostu olan dosta etibar olunmayası əmanətdir.

Sirr – birdən artıq sahibi olmayan söz əmlakı. Lakin görkəmli Amerika siyasi xadimi Bencamin Franklin demişkən: “Lap üç nəfər də sirr saxlaya bilər. Bu şərtlə ki, onların ikisi ölmüş olsun”.

Bir çox hallarda kəşfiyyatçılar sirrin açılmaması üçün şifrəli məktubu məhv etməyə macal tapmayanda onu çeynəyib udmuşlar. Çox böhran həddində isə onlar özlərini üzük qaşında, pencək yaxalığında, metal diş qapağında gizlətdikləri zəhərlə məhv etmişlər. Bu yolla dövlət sirri qorunar...

Kəlam: Kəşfiyyatçı – sirr daşıyıcısı sirr cəbbəxanası, sirr xəzinəsi, canlı sirr qəbri.

Kəşfiyyatçılar dövlət sirrini ürəklərinin ən qaranlıq guşəsində son ümid işartısı kimi qoruyub saxlayan, lazım gəldikdə isə alova çevirən sehrkarlardır.

Belə deyirlər: ”Keçmiş kəşfiyyatçı olmur” (Özünüz mülahizə edin...)

Sirr – diriləndə ölən, ölləndə dirilən söz quşu. Sirr – sirdaş dilinə qonmaq arzusu ilə yaşayan könül pərvanəsidir.

Sirri açmırlar, sirr özü açılır. Sirr – parol kölgəsində gizlədilmiş xəzinə. Parol – sirrin açılması üçün izin nişanəsi.

Haşiyə: "... Onu dar ağacının altına gətirdilər. Kəndirin ilgəyini boğazına saldılar, bu zaman meydana çaparaq ağ libaslı, ağ atlı bir gənc daxil oldu. O, yerə bir nar çırpdı, nar parçalandı, dənələri ətrafa dağıldı. Bu zaman müttəhim sirri açacağını bildirdi..." ("Ağ atlı oğlan" nağılı.)

Sirrin pıçıltı ilə, him-cimlə və ya car çəkməklə açılmasının heç bir fərqi yoxdur. Ən ucuz sirr boşboğaz saxlancı, ən qiymətli sirr təbiət sirridir.

Kəlam: "Özgə sirri ilə özününkü kimi rəftar etməzlər".

Daha bir kəlam: "Öz sirrimi açaram, mənə axmaq deyərlər, özgə sirrini açmaram, məni satqın hesab edərlər". (Eh... kaş mən heç özgə sirrini bilməyə idim ...)

Haşiyə: ... Ovçu Pirim qabaqda, arvadı da dalınca gedirdi. Birdən Pirimin atı daldakı ata dedi: "Ay madyan, niyə geridə qalırsan, gəlib çata bilmirsən?"

Madyan cavab verdi ki:

- Görmürsənmi, bir bala mənim qarnımda, gözüm də qalıb qulunda, üstümdə də bir uşaqnan bir arvad, qarnında da bir bala, bu boyda yüknən sənə necə çatım?

Ovçu Pirim atların bu danışığını eşidib bərkdən güldü. (O, bütün canlıların dilini bilirdi...) Arvad ərinin güldüyünü görüb dirəndi ki:

- De görüm, nə olub ki, öz-özünə gülürsən?

Pirim istədi sirri açıb desin, bir də gördü ki, atı dayandı, irəli baxıb gördü ki, bir ilan dimdik qalxıb dedi:

- Ay ovçu Pirim, sən onu bil ki, bu sirri açsan öləcəksən, nə badə deyəsən!

Pirim bu sözdən sonra arvadna heç nə demədi... ("Ovçu Pirim" nağılı.)

Sirdaşı sirr açmaq üçün axtarırlar.

Sirr – aqillər saxlancı, müdrik ürəklərin əbədi, nadan ürəklərin isə müvəqqəti vətəndaşıdır. Müdrik ürək sirr qalası, nadan ürək isə söz karvansarayıdır.

Elə sirr var ki, onun açılmaması fəlakət, açılması isə həyatın davam etməsi deməkdir. Sirri açan elə "satqınlıq" var ki, o, müqəddəs yalan qədər qiymətlidir.

Acı həqiqət – müqəddəs yalan və mənfur sirr - müqəddəs xəbərçilik, əksliklərin və ziddiyyətlərin vəhdəti və ən həmrəy mübarizəsidir. Müqəddəs yalan müqəddəs xəbərçiliklə mehriban düşmən və ya rəqib dostlardır...

Haşiyə: "... Bala, sənin atan yoxdu. Kürdoğlu gördü ki, yox deyən anası düz demir. O dedi:

- Ana, düzünü de görüm, mənim atam kimdi? Deməsən, bu saat səni də öldürəcəyəm, özümü də. Mənə küçədə-bazarda atasından bixəbər deyirlər.

Mömünə xanımın əlacı kəsldi. Dedi:

- Oğul, mən sənə demək istəmirdim. İndi ki belə oldu, bil və agah ol! Sənin atan var, özü də xanlara, paşalara qan udduran çənlibelli qoç Koroğludu.

Kürdoğlu dedi:

- Bəs indiyə kimi niyə bunu məndən gizlədibsən?

Mömünə xanım dedi:

- Oğul, axı sən hələ uşaqsan. Qorxurdum ki, deyəm, gedəsən, düşmən əlinə düşəsən... ("Koroğlu" dastanından)

Ana sirrini qorxusundan açmır, O, bu sirri açmağa fürsət gəzirdi. Anaların sirri də ana məhəbbəti kimi əzizdir.

Haşiyənin davamı: "... Kürdoğlu Çənlibelə gəldi. "Yağı qoruğu"nda üç Koroğlu dəlisini təslim edib əl-qolunu bağladı. Koroğlunun özünü də iki dəfə yıxdı. Üçüncü dəfə Koroğlu onu yıxdı. Başını kəsmək istəyəndə Nigar xanım tutub xəncəri onun əlindən aldı.

Dedi:

- O , səni iki dəfə yıxıb kəsməyib. Sən onu bir dəfə yıxcaq kəsirsən? Heç bu namərdlik Koroğlu adına yaraşarmı? (və... Koroğlunun bir mikrosirri açıldı!! Onu Nigar xanım açdı...)

Kürdoğlu bildi ki, bu, Koroğludu. Özünü saxlaya bilmədi, dedi:

- ... Kürdoğluyam, Koroğlunun oğluyam,
Yerim xəbər alsan dağıstanlıyam.

Koroğlu dedi:

- Mənim oğlum yoxdu. Sən yalan deyirsən.

Kürdoğlu dedi:

- Var. Mən Ərəb paşanın qızı Mömünə xanımın oğluyam. Bu da sənin bazubəndin.

Bunu deyib Kürdoğlu qolundakı bazubəndi Koroğluya göstərdi. (Daha bir sirr açıldı!...)

Kəlam: Bazubənd Koroğlu (və... Koroğlular) nişanəsi, igidlər parolu...

(Parol sözünün dilimizdəki qarşılığı "keçərsöz"dür...)

Dəli Koroğlunun dəli könlü coşdu. Oğlunu qucaqlayıb dedi:

Başına mən dönüm, gülüzlü oğul,
Koroğlu deyilən igid mənəm, mən!...
... Koroğluyam, oğul dönüm başına,
Koroğlu deyilən igid mənəm, mən!..

(Əziz oxucum, həssaslığına ehtiram edirəm. Düz duydun, bu epizoddan "Etika" bölümündə istifadə edilmişdir. Lakin ... başqa çalarda. Hər halda məni təkrarçılıqda ittiham edənlərdən üzür istəməyi vacib sanıram...)

Sirrin hansı yolla açılmasının nə fərqi, təki o, xoş niyyətlə açılsın.

Hər kəs öz sirini ürəkdə saxlamaq istəyər, lakin sirr özü ürəkdən çıxmağa yol tapar.

Kəlam: Öz sirini saxlamaq müdriklik, bu sirri başqasının da saxlaya biləcəyinə ümid etmək axmaqlıqdır.

“Kitabi-Dədə Qorqud”dan bir yarpaq: Evini yağmaladıqdan sonra yağılar Qazan xanın ailəsini əsir aparmışdılar.

“... Boyu uzun Burla xatın oğlunun yanına gəldi. Çağırıb oğluna söylər, görək, xanım nə söylər:

Oğul, oğul, ay oğul!
Bilirsənmi, nələr oldu?
Sözləşdilər xısın-xısın,
Duydum işini kafirin.
Qızıl tağlı uca evimin dirəyi oğul!
Qaza bənzər qız-gəlinimin dirəyi oğul!
Oğul, oğul, ay oğul!
Doqquz ay dar qarnımda gəzdirdiyim oğul!
On ay deyəndə dünyaya dətirdiyim oğul!
Bələyini beşikdə bələdiyim oğul!

Kafirlər fikirlərini dəyişdilər; dedilər ki, Qazan oğlu Uruzu həbsdən çıxarıb örkənlə boğazından asın. İki kürəyindən çəngələ sancın, qıyma-qıyma ağ ətindən çəkin. Qara qovurma edib qırx bəy qızına aparın. Hər kim yedi, o deyil. Hər kim yemədi o, qazanın xatunudur, çəkin-gətirin, döşəyimizə salaq, şərab paylatdıraq! “Sənin ətindən, ay oğul, yeyimmi? Yoxsa iyrənc dinli kafirin döşəyinə girimmi? Ağan Qazanın namusunu tapdayımmı? Neyləyim, ay oğul?! – dedi.

Uruz dedi:

- Ağzın qurusun, ana! Dilin çürüsün, ana! “Ana haqqı – tanrı haqqı” deyilməsəydi, qalxıb yerimdən durardım, yaxandan-boğazından tutardım. Qaba dizimin altına salardım. Ağ üzünü qara yerə çırpardım. Ağzından, üzündən qan şoruldayardı. Can şirinliyini sənə göstərərdim. Bu nə sözdür? Saqın, xanım ana! Mənim üzərimə gəlməyəsən! Mənim üçün ağlamayasan! Qoy ətimdən çəksinlər, qara qovurma edib qırx bəy qızının önünə aparsınlar. Onlar bir yeyəndə, sən iki dəfə ye! Kafirlər

duymasınlar, səni tanımasınlar. Təki murdar dinli kafirin döşəyinə düşməyəsən. Onlara şərab paylayıb atam Qazanın namusunu sındırmayasan. Saqın!”

Bu, Dədə Qorqud tərbiyəsidir. Bu, Dədə Qorqud sirridir. Açılardısa Qazan xan olmazdı, Burla xatın olmazdı, Uruz olmazdı, Dədə Qorqud da olmazdı. Heç Oğuz eli də olmazdı...

Sirr ömrü boyu sirrə bükülməlidir. Sirr ömrü boyu sirrə bükülü qalmalıdır. Sirrin olduğu bilinərsə, o, heç sirr deyil və ya sirrin varlığı məlumdursa, deməli o, yoxdur...

... Mən sirr haqqında danışmaqla sirr haqqında sirr açmaq fikrində deyiləm. Öz aramızdı, mənim sizdən gizli sirrim, sizdən qeyri sirdaşım da yoxdur...

Sirdaşı sirr vermək üçün gəzərlər. Sirdaş sirr yükünə çiyin verən qulaq həyanı, sirri parçalayan ilk həmləçi. Hər söz dinləyəndən sirdaş olmaz. Heç hər sirdaşa da sirr verilməz...

Bu sirdaşdısa, deməli, sən ona sirr vermisən, əgər sirr verməmisənsə ona niyə sirdaş deyirsən?! Və ya... bu sirdaşdırsa, sirri hanı, sirri yoxdursa ona niyə sirdaş deyirlər?!

Sirr söyləmə sirbilməzə,
Sirr sığışmaz sinəsinə.
Səni satar sırdaşına,
Sirdaşını satar sənə.

Sarı simdə söylə sözü,
Saza sığmaz sazın səsi.
Sən sinədə saxla sazı,
Saz saxlayar sazı sinə.

Sinəsində sözün safı,
Söz söyləyər söz sərrafı.
Səhlikbəyli söz səyyahı,-
Söz sözləyər sinə-sinə,
Söz soraqlar sinə-sinə...

Bu söz yığımının sirri də onun sirli olmamasındadır.

Qədim Roma filosofu Epiktetin fikirlərindən:

- Sən bu sirri mənə açmasan, səni qandallayıb sürgünə göndərərəm.

- Nə danışırsan? Sən məni qandallaya bilməzsən. Ayaqlarımı, əllərimi qandallamaq olar. Ruhumu, iradəmi, ağlımı isə yox. Çünki məndən başqa heç kim onlara hakimlik edə bilməz...

EPILOQ

Bir çox sirlər hələ də sirrə bükülü qalır.

SON

“SON”DAN SONRA

... Hər söylənən el hikməti,
Hər gizli söz sirr olammaz...

* * *

HALALLIQ

Kimin bir çörəklik buğdası vardır,
Başını çəkməyə yuvası vardır.
Nə ağadır, nə də kiməsə nökər,
Şad olsun, zənn etsin dünyası vardır.
ÖMƏR XƏYYAM.

Halaılıq haqqında olan təəssüratlarımı bir ip üstünə yığmaq istədim. Şələm o qədər ağır oldu ki, onu götürməyə gücüm çatmadı. Halallıqdan söz açmaq istədim söz ehtiyatımın azlıq etdiyini görüb fikrimdən daşındım. Halallığı təsvir etmək üçün halal söz gərəkdir. Halallıq haqqında kimdə isə təsəvvür yaratmaqdan ağır bir iş təsəvürümə gəlmədi.

Ey halal söz sərrafları, ey halal əməl sahibləri, ey halallıq aşiqləri, halal söz haqqında danışmaq haqqını halal edin mənə... Halallıq haqqında ailəmizin həyatında tarixə çevrilmiş bir epizodik hekayətlə kifayətləndiyimə görə məni üzrlü saymanızı rica edirəm... (Mən bu hekayəni bir neçə il əvvəl yazmışam. Hekayə "Halal daş" adlanır...)

"...Qağam qəzətə bükdüyü papirosunu qarğı müştüyə taxıb dərin bir qullab vurdu. Alışqan kimi istifadə etdiyi qədimi çaxmaq-qovunu cibinə qoyub sözə başladı.

- Baban müharibədən çox sonra qayıtdı. Onda mən əsgərlikdən gəlmişdim. Yeznəmiz Tağı müəllim bizi kəndin yuxarısından – "Qarağanlı təpə" deyilən şenlikdən öz yaxınlığına köçürtdü. Onda baban hələ qayıtmamışdı. Bir tikilimiz olmadığı üçün birbaşa kolxozun pambıq çardağına yığışdıq. Bunun üçün Tağı müəllim kolxozun sədrindən xüsusi qanuni icazə almışdı. Sonralar mən kolxoz sədrinin xidməti "Pobeda" markalı naşınını sürdüm. Baban gələndən sonra öz köhnə işi ilə məşğul olmağa başladı. O, dülgərlik, dəmirçilik edir, kəndin xeyir-şər məclislərində aşpazlıq edirdi.

Köməkləşib çiy ağ kərpicdən iki gözlü "kəlləbaş" bir ev tikdirdik. Üstünü basdırdıq. Qabağı açıq seyvan idi. Seyvanın kürsüsündəki "Ağbulaq daşı"nı kolxoxun "QAZ-51" markalı maşını ilə gətirmişəm. O vaxtlar mən kolxozun yük maşınını sürürdüm.

... Axşamüstü Ağbulağa çatdım. Gördüm, çay boyu on beş-iyirmi topa daş yığılıb. Hamısı da seçmə. Maşını tək yüklədim. O vaxt çox cavan idim. Bu işə cəmi bir saat vaxt sərf etdim. Gecə ay işığında daşı boşaldanda qağam (Qağam da atasına "qağa" deyirdi...) özünü yetirdi. Kömək elədi. Yuyunub evə keçdik. Süfrə başında məndən soruşdu:

- Daşı neçəyə aldın?

Sözü əvvəl başa düşmədim. Bir də təkrar etdi. Dedim:

- Əşşi, Allahın daşıdı də... kimsə Ağbulaqda toplamışdı, mən də yığıb gətirdim.

Hiss elədim ki, sözümdən narazı qaldı. O çox təmiz adam idi. Haram işlə arası olmazdı. Məni bir qədər məzəmmət elədi.

... Sabah axşam məlum oldu ki, baban bu gün Ağbulağa gedibmiş. Özü bu səfəri belə təsvir elədi:

- Yol maşını ilə Ağcaqalaya, ordan da piyada Ağbulağa getdim. Gördüm bir nəfər deyinə-deyinə daş toplayır. Yaxınlaşıb salam verdim. Soruşdum ki, nə olub? Dedi:

- Bu axşam bir köpək oğlu gəlib neçə topa daşımı aparıb. Kaş əlimə düşəydi. (Sonra baban onun nənənə və özünə ünvanlanmış söyüşlərini özünün əlavələri ilə gülə-gülə təkrarladı.)

Sonra sözünə davam elədi:

- Yaxınlaşıb daşın üstündə oturdum. O da oturdu. Dedim:

- Daşın nə qədər idi, neşəyə gedərdi?

Yanıqlı-yanıqlı dedi:

- Əşşi, neynirsən e...? Atamı yandırıb o əclaf...

Baban yenə dillənir:

- Əşşi, malının qiymətini de görək, bu qədər hefsilənməyə dəyərmi?

Daş yiyəsi deyir:

- Neynirsən, mənə pul verəcəksən? Əlliyə verməzdim heç...

Baban əlini cibinə salıb pulqabını çıxardır və kişiyə altmış manat uzadaraq deyir:

- Əlli manat daşın pulu, on manat da sənin zəhmət haqqın. Daşı məmim oğlum aparıb...

Kişi qıpqırmızı qızarır. Pulu almır. Bayaq dediyi sözlərə görə üzr istəyir. Deyir:

- Əşşi, mən sənin kimi halal adam görməmişəm. Sən ki bu qədər yolu tanımaza-bilməzə gəlib məni tapmısan, daşı sənə halal edirəm.

Baban etiraz edir:

- Yox, mən bina qururam, onda gərək zərrəcə haramlıq olmasın. Pulunu götür!..

Kişi nə qədər imtina etsə də, babanız pulu zorla ona verib – deyə qağam qürurla söhbətinə yekun vurdu...”

EPİILOQ

Dünya malına həris olanlar heç kəslə dost ola bilməz.

ABBASQULU AĞA BAKIXANOV.

SON

“SON”DAN SONRA

Haram çörək axtarma ki, başa müsibət gətirər.

ƏFZƏLƏDDIN XAQANİ.

Mən həmişə haram iş görənlərə “haram olsun”, halal iş görənlərə isə “halal olsun” deyirəm...

* * *

SON SÖZ ƏVƏZİ
BEŞ-ON SÖZ

Dediklərimi deməklə demədiklərimi də deməyə çalışdım. Və ya ... dediklərimi dedim ki, demədiklərimi də deyim...

* * *

MÜƏLLİFDƏN

İstifadə etdilmiş məlumatların müəlliflərinin şəxsiyyət və yaradıcılığına yüksək hörmətlə yanaşır və onlara öz dərin təşəkkürümü bildirirəm.

Həmçinin kitab haqqında öz dəyərli məsləhətlərini və iradlarını bildirən hər bir şəxsə əvvəlcədən minnətdarlıq edirəm.

Goranboy rayonu, Səfikürd kəndi.
saklikov@mail.ru
ferhadoglu@yahoo.com

* * *

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Allahverdi Eminov. Şərq ailəsinin sirləri. Bakı, 1992.
2. Asif Əfəndiyev. İnam və şübhə. Bakı, 1988.
3. Atalar sözü. Bakı, 1981.
4. Azərbaycan ədəbiyyatı inciləri. Dastanlar. Bakı, "Yazıçı", 1987.
5. Azərbaycan xalq dastanları. Bakı, "Yazıçı", 1980.
6. Azərbaycan xalq dastanları. Bakı, "Gənclik", 1988.
7. El çələngi. Bakı, "Gənclik", 1983.
8. Ə.S. Bayramov, Ə.Ə. Əlizadə, Psixologiya. Bakı, "Maarif", 1989.
9. Əli Polad. 3.000 ilin hikməti. Bakı, 2004.
10. Ə.Ş. Həşimov, F.B. Sadıqov. Azərbaycan xalq pedaqogikası. Bakı, 1993.
11. Əjdər Ağayev. Həyatın astanasında. Bakı, "Maarif", 1985.
12. Əjdər Ağayev. Məktəblilərdə vətəndaşlıq borcunun tərbiyə edilməsi. Bakı, "Maarif", 1975.
13. Əlisa Nicat. Qəbilə başçısı. Bakı, "Yazıçı", 1987.
14. Əlisa Nicat. Tarixin sübh çağı. Bakı, "Gənclik", 1989.
15. F. Qasımzadə. İdman, gözəllik və estetika. Bakı, "Gənclik", 1970.
16. Fərman Eyvazlı. Qaçaq Kərəm. Bakı, "Yazıçı", 1987.
17. Fərman Kərimzadə. "Çaldıran döyüşü". Bakı, "Yazıçı", 1987.
18. Xacə Nəsirəddin Tusi. Əxlaqi – Nasiri. Bakı, "Elm", 1989.
19. İsgəndər Fərhadoğlu. İnsan zaman heykəlidir. Bakı, 2010.
20. İsgəndər Fərhadoğlu. Arı kəşfi. Bakı, "Gənclik", 1993.
21. İ.M. Zemskaya. Qızlar üçün kitab. Bakı, "Gənclik", 1990.
22. İsgəndər Səklikov. Xalq təbabətindən bir damla. Bakı, 2008.

23. Kəlilə və Dimnə. Bakı, 1982.
24. Kitabi-Dədə Qorqud. Bakı, “Yazıçı”, 1988.
25. Koroğlu. Bakı, “Gənclik” 1975.
26. Qabusnamə. Bakı, 1963.
27. Qarabağnamələr. Bakı,”Yazıçı”, 1989.
28. L.F. Ostrovskaya. Uşağı cəzalandırmaq olarmı? Bakı, “Maarif”, 1972.
29. M.M. İsrafilov. Məntiq. Bakı, “Maarif”,1987.
30. M. Muradxanov. 50 sual – 50 cavab. Bakı, “Gənclik”, 1981.
31. Möhbəddin Səməd. Dialoqlar. Bakı, 1983.
32. Müdrik sözlər aləmində. Bakı, 1984.
33. Nələr olmur bu dünyada. Bakı, “İşıq”, 1990.
34. Nizamülmülk. Siyasətnamə. Bakı, “Elm”, 1989.
35. Rəsul Həmzətov. Mənim Dağıstanım. Bakı, “Gənclik”, 1977.
36. Ş. Sultanov, K. Sultanov. Ömər Xəyyam. Bakı,”Gənclik”, 1991.
37. V.B. Prozorovski. Dərmanlar haqqında söhbətlər. Bakı, 1989.
38. Valeri Voskoboynikov. Böyük loğman. Bakı, “Gənclik”, 1984.
39. Y.A. Ovçinnikov, A.N. Şamin. Строение и функции белков. Москва, 1983.

KİTABIN İÇİNDƏKİLƏR

Ön söz 1
Giriş 2
Nənə dilində ata dili dərsi 3
Humanizmin pedaqogikası və ya
xalq pedaqogikasının humanizmi..... 4
Usta şilləsi 5
Söz 6
Etika 7
Cəza, yoxsa tənbeh 8
Həkim xislətli pedaqoq, pedaqoq xislətli həkim 9
Rəmzlərlə danışıq 10
İradə 11
Məntiqsiz məntiq və ya məntiqi məntiqsizlik 12
Musiqi də insanı tərbiyə edə bilər 13
Zidiyyətlərin təzadı 14
İnsana ağlına görə qiymət verməli 15
Yaşamaq gözəldir 16
Təsadüf 17
Məhəbbət 18
Vətən haradan başlanır 19

Qəhrəmanlıq haqqında üç etüd 20
Səadət axtarışında 21
Sınaq 22
Hesab dərsi 23
Təqvim – tarix tərəzisi 24
Həqiqətin yalanı və ya yalanın həqiqəti 25
Qorxu, şübhə və qısqanclıq üçbucağı 26
Yuxunuz çin olsun 27
Kəpənək və yanıltmac, yaxud ayaq və dil 28
Proqnoz 29
Sənət və elm və ya sənətkar və alim 30
Ağıl, bacarıq, tale 31
İmtahan 32
Qisas 33
Sirr 34
Halallıq 35
Son söz əvəzi beş-on söz 36
İstifadə olunmuş ədəbiyyat 37
Kitabın içindəkilər 38

İSGƏNDƏR FƏRHAD OĞLU SƏKLİKOV
(İSGƏNDƏR FƏRHADOĞLU)

XALQ PEDAQOGİKASINDAN BİR DAMLA

(Azərbaycan dilində)

Texniki redaktor: ***Rafael Failoğlu***
Redaktor: ***Məftun Ələsgərov***
Kompüter operatoru: ***Fəridə Məmmədova***
Korrektoru: ***Gülnar Novruzova***
Çapa məsul: ***Əsəd İsmayılov***

Yığılmağa verilmişdir: 11.012010
Çapa imzalanmışdır: 10.02.2010
Kağız formatı: 1|16
Həcmi: 16 çap vərəqi
Tiraj: 500

"İSMAYL" NPM-nin mətbəəsində çap olunub.
Tel.: (+994 12) 497 34 73

Səklikov İsgəndər Fərhad oğlu (İsgəndər Fərhadoğlu) 1955-ci ildə Goranboy rayonunun Səfikürd kəndində anadan olmuşdur. 1978-ci ildə indiki Gəncə Dövlət Universitetinin kimya-biologiya fakültəsini bitirmişdir. Hazırda Səfikürd kənd orta məktəbində kimya-biologiya müəllimi və direktor müavini işləyir.

«Arı kəşfi», «İnsan zaman heykəlidir», «Xalq təbabətindən bir damla» kitablarının müəllifi, «Şagird üçün qısa izahlı kimya lüğəti» kitabının Almaz Zeynalova ilə birlikdə müəlliflərindən biridir.

Azərbaycan Respublikasının «Əməkdar Müəllimi»dir.